__________Milli Kitabxana__________

ALEKSANDR SERGEYEVİÇ PUŞKİN

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

İKİ CİLDDƏ

II CİLD

"AVRASİYA PRESS"
BAKI-2006

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

__________Milli Kitabxana__________

*Bu kitab "A.S.Puşkin. Əsərləri. 6 cilddə. II və III cildlər"*
*(Bakı, Azərnəşr, 1951) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Telman Cəfərov**

**891.713-dc22**
**AZE**
**A.S.Puşkin. Seçilmiş əsərləri.** İki cilddə. II cild. Bakı, "Avrasiya press", 2006, 320 səh.

A.S.Puşkinin "Seçilmiş əsərləri"nin ikinci cildinə onun dörd poeması və dörd dram əsəri daxil edilmişdir. Bu əsərlər məşhur şairlər Rəsul Rza, Mikayıl Rzaquluzadə, Nigar Rəfibəyli, Osman Sarıvəlli, Məmməd Rahim və Böyükağa Qasımzadə tərəfindən dilimizə çevrilmişdir.

**ISBN10 9952-421-39-5**
**ISBN13 978-9952-421-39-2**

© "AVRASİYA PRESS", 2006

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Poemalar

Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

# RUSLAN VƏ LÜDMİLA

## *İTHAF*

*Siz, ey həyatımın şux sultanları!*
*Gözəllər, qəlbimin mehribanları!*
*Sizə həsr edirəm sədaqətlə mən*
*Qızıltək qiymətli xoş zamanımı:*
*Sizinçün yazıram, tərif güdmədən,*
*Keçmişdən aldığım bu dastanımı.*
*Şirin arzulara daim dalaraq,*
*Bəxtiyar sayaram özümü ancaq*
*Bu naqis nəğməmi bəlkə də yalqız*
*Qəlbi eşqə düşən ismətli bir qız*
*Ya səhər, ya gecə, düşəndə fürsət,*
*Unudub hər şeyi, oxusa xəlvət.*

## BİRİNCİ NƏĞMƏ

Dəniz kənarında göy bir palıd var,
Ucalıb göylərə, şaxlı-budaqlı;
Bilici bir pişik gəzib dolanar
Dövrəsində, – qızıl zəncirlə bağlı.
Sağı mahnısilə heyran eləyər,
Sola çox maraqlı bir nağıl deyər.

O möcüz yurdunda qulyabanı var,
Oturub şaxlarda su pəriləri,
Naməlum yollarda məchul heyvanlar
Buraxmış hər yerdə ayaq izləri.
Toyuq qıçlarının üstündə duran
Qapı-pəncərəsiz bir daxmacıq var.
Sahilə axışır dalğalar hər an;
Sirlər yuvasıdır meşələr, dağlar.
Orda sudan olur sahilə rəvan
Otuz yaraşıqlı gözəl pəhləvan;
Çıxır əmiləri şəffaf dənizdən.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Orda bir şahzadə keçəndə düzdən,
Arxayın gəzəndə o, düzəngahı,
Birdən əsir edir qəzəbli şahı.
O yerdə cadugər yarıb səmanı,
Aparır qoynunda bir qəhrəmanı.
Bir şahzadə qız da olalı dustaq,
Ona xidmət edir boz bir yalquzaq.
Həvəngin içində həmən diyarı
Gəzir küpəgirən ifritə qarı.
Çar Kaşey zər üstə orda dincəlir;
Oradan büsbütün rus ruhu gəlir!
Orda bal şərabı içdim mən; bir an
Yaşıl palıdın da keçdim yanından
Həmən pişiyin də duydum ağlını;
O, mənə söylədi neçə nağılını.
Biri yadımdadır. İndi nəhayət,
Edim o nağılı sizə hekayət...

Bizdə xeyli uzaq keçmiş əsirdə,
Belə nəql eləyir qədim rəvayət:

Knyaz Vladimir gözəl qəsrdə
Dostlar-oğullarla edirdi işrət.
Kef ilə coşurdu gəlib tüğyana,
Qızını verirdi igid Ruslana.
Ürəkdən şad olub haman vüsala,
İçirdi dalbadal gülgün piyala.
Bizim babalar da elə bu sayaq,
Əsla tələsmədən kefə dalaraq,
Doyunca, ləzzətlə yeyib içdilər,
Sonra da dünyadan sakit köçdülər.
Saqilər daşıyıb mey otaqlara,
Təzim edirdilər hey qonaqlara.

Artır saray boyu getdikcə söhbət,
Qonaqlar nəşəli, qızışır işrət.
Birdən quslisini Bayan çalır şən,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alır ağuşuna sükut hər yanı.
Deyir Lüdmilanın gözəlliyindən,
O, tərif eləyir igid Ruslanı.
Vəsf edir Lel hörən gözəl çələngi,
Ucalır nəğmənin şirin ahəngi.

Coşqun bir eşq ilə vurğundur Ruslan,
Yeməyir-içməyir, yorğundur Ruslan,
O, nəzər yetirir öz cananına,
Gəmirir bığını axşamdan bəri.
Ah çəkir, alovlar düşür canına,
Sayır həyəcanla dəqiqələri.
Bu toy məclisində üç nəfər qoçaq
Dərindən-dərinə getmiş xəyala.
Oturmuş, qaşını qəmli çataraq,
Boşdur önlərində zərli piyala.
Badə nuş eləmək vermişdir ara.
Yeməklər dad vermir əsla onlara.
Bayanın səsindən zövq almayırlar,
Qəmdən xilas olub ucalmayırlar.
Ruslana rəqibdir haman üç nəfər,
Qəlblərində sevgi, ədavət, kədər.
Cəngavər Roqdaydır bunların biri,
Kiyev ətrafının barlı yerləri
Onun qılıncilə edilmiş əldə;
Xeyli hünərlidir cəngü-cədəldə,
O biri lovğadır, – Farlafdır adı;
Kefdə kimsə ona əsla batmadı,
Döyüş meydanında hünəri kəmdir.
Üçüncü hərifin munisi qəmdir,
Ratmirdir dediyim bu Xəzər xanı,
Üçünün də yaman qaradır qanı.

Budur, başa çatdı, qurtardı işrət.
Səsli-küylü bütün qonaqlar fəqət
Gedərkən baxırlar sevgililərə.
Utanıb gözünü dikir qız yerə;



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çeynəyir qəlbini elə bir kədər.
Oğlansa qərq olub dərin sevincə.
Bir azdan üfüqə qaranlıq çökər,
Ətrafı çulğayar qaranlıq gecə.
Məxmur boyarlarsa iki-bir, tək-tək
Gedir evlərinə səndələyərək.
Ruslanın təğyir var indi halında,
Oxşayır gözəli öz xəyalında.
Lakin qız atası – o böyük knyaz
Qəmli nəvazişlə, dilində niyaz,
Ürək sözlərini durmadan deyir,
Qız ilə oğlanı təqdis eləyir.

Budur, aparırlar gəlini birbaş
Zifaf yatağına və yavaş-yavaş
İşıq söndürülür; eşq tanrısı Lel
Yandırır göylərdə ilahi məşəl.
Ən əziz ümidlər olur həqiqət.
Verəcək barını indi məhəbbət.
O qısqanc geyimlər, bax, birdən-birə
Xalının üstünə tökülür yerə…
Budur, eşidilir pıçıltı səsi,
İki sevgilinin xoş öpüşməsi,
Həyəcan, qorxular, budur, nəhayət
Həzin bir yalvarış, bir son şikayət…
Bunları duymuşdu ər əvvəlcədən,
O da gəldi başa… Bu zaman birdən
Şimşəklə sarsıldı yerlə asiman,
Bürüdü hər yanı qatı bir duman.
Bir qırpım içində çıraq da söndü,
Hər tərəf qatı bir zülmətə döndü.
Qaranlıq çulğayıb sardı hər yanı,
Bürüdü vahimə, heyrət Ruslanı…
Sakitlik olanda hakim hər yerə,
İki yol qəribə bir səs ucaldı.
Dumanda, tüstüdə çarpıb nəzərə
Kimsə birdən-birə itib yoxaldı…



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Sükut hökm elədi bomboş otağa,
Giyəv qorxu ilə qalxdı ayağa;
Üzündən süzüldü tər gilə-gilə,
Yoxladı havanı titrək əlilə...
Əziz sevgilisi onun bəs hanı?
Bu qatı zülmətdə, ah, Lüdmilanı
Sirli məchul bir əl oğurlamışdı...

Eşqin cəfakeşi əzab çəksə də,
Ehtiras qəlbini yarıb söksə də,
Onunçün olsa da ağır yaşamaq,
Mümkündür ömr etmək yenə bir sayaq.
Ancaq illər boyu həsrət çəkərək,
Yetib vüsalına, yarı qucarkən,
Onu birdən-birə tamam itirmək,
Əlbəttə acıdır, pisdir ölümdən,
Ah, belə bir dərdə dözüncə könlüm,
Əlbəttə, min dəfə yaxşıdır ölüm!

Sağdır lakin hələ zavallı Ruslan.
Knyazın ildırım çökdü canına;
Hirslənib Ruslana, qopardı tufan,
Etdi əyanları dəvət yanına:
"Hanı əziz qızım? Lüdmilam hanı?" –
Deyib, nəzərləri gəzdi dörd yanı.
Ruslan eşitməyir... "A dostlar, əlbət,
Mənə etmişsiniz namusla xidmət.
İndi rəhm eləyin, əsl zamandır,
Kim tapar qızımı, kim qəhrəmandır?
Rəşadət göstərib hər kim çapsa at,
Əməyi boş getməz, alar mükafat.
Sənsə yan; korladın igid adını,
Qoruya bilmədin öz arvadını.
Kim tapsa qızımı, onundur yəqin
Həm qızım, yarısı həm də ölkəmin.
Kim gedər, söyləyin, dostlar, durmadan?.."
"Mən!" – deyə, səsləndi kədərli Ruslan.
"Mən! Mən! – deyə, dindi o an yer-yerdən



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Roqday, Farlaf, Ratmir – üçü də birdən:
– İndi yəhərləyib atlarımızı,
Gəzərik dünyanı tapmaqçın qızı.
Qoymarıq ayrılıq əzsin ruhunu,
Qorxma, tez axtarıb taparıq onu".
Qocanın süzüldü ılıq göz yaşı,
Sözsüz təşəkkürlə əyildi başı.

Dördü də bir anda yönəlib gedər,
Dərdü-qəm öldürür igid Ruslanı.
Onu Lüdmilanın fikri məhv edir,
Dayanır ürəyi, quruyur qanı.
Dneprin boyunca dörd igid atlı
Çapır çöllər boyu, atlar qanadlı.
Tozanaq içində boğulur hər yan;
Onlar uzaqlarda olurlar nəhan…
Yolların üstündə duman qalınca,
Baxır igidlərin knyaz dalınca;
Kimsəsiz çöllərə baxdıqca baxır,
Uçur dallarınca xəyalı, axır.

Ruslan yol uzunu gedir lal kimi,
Əzabın əlində itmişdir ağlı.
Farlaf düşüncəli bir xəyal kimi
Gedir ağır-ağır və qaşqabaqlı.
Baxıb təşəxxüslə o lovğa, düzə
Söyləyir: "Dostlarım, açıq deyim mən,
Güclə azadlığa çıxmışam, görən
Tezmi gələcəyəm divlə üz-üzə?
Axacaq əlimdə sel kimi al qan;
Qısqanc sevgisinə olacaq qurban,
Sevin, sədaqətli qılıncım mənim!
Sevin, ey qeyrətli, oynaq köhlənim!"

Fikrən qucaqlayıb o Xəzər xanı
Gözəl Lüdmilanı, gedir xəyala.
Onun yol uzunu qaynayır qanı,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oynayır üstündə atın az qala.
Gözündə ümidin çırağı yanır;
Çapır ağ yel kimi var qüvvətilə;
Bəzən də cırnadır, at acıqlanır,
Birdən şaha qalxır o hiddət ilə.
Atın bu halından o gəlir cuşa.
Yönəldir başını dik bir yoxuşa.

Roqday fikirdədir, çatıb qaşını,
Məchul tale onu salıb dəhşətə;
Boş yerə qısqanclıq salıb başını
Olmazın əzaba, ağır zillətə.
O, baxır knyaza dəhşət içində,
İztirab içində, hiddət içində.

Rəqiblər bu sayaq davam etdilər,
Birinci gün hamı birgə getdilər.
Dneprin üstünü aldı toranlıq,
Gəldi qoşun çəkib şərqdən qaranlıq.
Suların qoynuna çökdü buludlar,
Zamandır bir qədər dincəlsin atlar.
Geniş bir yol gedir, görünməz ucu,
Bu yoldu müxtəlif yollar ayrıcı.
"Ayrılıq dəmidir, – dedi igidlər, –
Gəlin tabe olaq məchul iqbala".
Məhmizsiz – qamçısız atlar getdilər
Özləri baş alıb hərə bir yola.

Kimsəsiz diyarda, zavallı Ruslan,
Söylə, neyləyirsən belə tənha, tək?
O qorxunc toy günü, əziz Lüdmilan
Canlanır gözündə? Söylə bir görək!
Qaşının üstündə o mis dəbilqən;
Cilovdan tutmayır qadir əllərin;
Uzanan çöllərdə yeridikcə sən,
Məhv olur ümidin və əməllərin.
Sönür inamın da qalmayır daha.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ruslanın önünə çıxır bir kaha,
Onu mağaradan işıq cəzb edir;
Təbiət yaşıdı göylər altında
Yollanıb oraya o bir baş gedir,
Gedir mağaraya, kəhər altında,
Gedir dayanmadan, qəmli-məlallı.
Orada bir qoca, aydın camallı
Oturur dinmədən, saqqalı ağdır.
Qarşısında yanan nurlu çıraqdır;
Qoca, bir kitaba dalmış hörmətlə,
Oxuyur olduqca onu diqqətlə.
Görüncə Ruslanı o gülümsədi;
"Xoş gəlmisən, oğlum, xoş gördük, – dedi, –
Burda yaşayıram iyirmi ildir.
Əriyib mum kimi hər gün soluram,
İstəkdən ürəyim xali deyildir,
Nəhayət arzuma nail oluram:
Tale görüşdürmüş məni səninlə;
Gəl otur yanımda, bir yaxşı dinlə.
Yarından düşmüsən yaman ayrı sən,
Odur, zəifləşir möhkəm iradən.
Keçəcək sürətlə zamanı şərin,
Ömrü çox deyildir fəlakətlərin.
Yaşa ümid ilə, etiqad ilə,
Hər şeyin üstünə get inad ilə.
Parlat qılıncını, ətrafa nur saç,
Özünə zülmətdə cürətlə yol aç!

Səni təhqir edən, bil bunu barı,
Çernomor adında bir sehirkardır;
Çoxdan oğurlayır gözəl qızları,
Şimal dağlarında məskəni vardır.
Yaranandan bəri bu yer, bu cahan
Ayaq basmamışdır ora bir insan.
Şərə son qoyarsan öz əməlinlə;
Məğlub eyləyərsən ancaq sən onu.
Öləcək o məlun sənin əlinlə,
Qoca sehrikarın çatmışdır sonu.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oğlum, nə söyləyim, nə deyim sənə:
Taleyin bağlıdır öz iradənə".

Onun ayağına düşdü pəhləvan,
Öpdü əllərini min sevinc ilə.
Güldü gözlərində işıqlı cahan,
Qəlbində qalmadı qüssə bir gilə…
Təzədən ruhlanıb o cana gəldi,
Kədər buludları çulğadı birdən
Üzünü… İxtiyar bəyana gəldi,
Dedi: "Qüssəlisən, anlayıram mən,
Çətin deyil dərdi dağıtmaq əlbət.
Dəhşət oyatmasın səndə sehrikar,
Nahaqdır ondakı sevgi, məhəbbət.
Sanma Lüdmilanı eşqi sarsıdar;
Göydən ulduzları o salar yerə,
Hilalı titrədər çəkərsə nərə.
Zaman qanununun önündə fəqət
Gücsüzdür onun da biliyi əlbət.
Qəsrinin əsrarlı qapısında tək
Titrək keşik çəkən cadugər qoca
Gözəl əsirənin önündə ürkək
Gəzir acizanə günlər boyunca.
Qızın ətrafında gəzir nigaran,
O qara bəxtilə hər dəm, hər saat.
Söhbət uzandı çox, əziz pəhləvan!
Yorulmusan axı, dur bir qədər yat!"

Sönən od önündə yosun üstünə
Ruslan ağır-ağır gəlib uzanır.
"Yatım, dərdi-qəmi unudum" – deyə,
Yumur gözlərini, ah çəkir, yanır…
Nahaq, qoymur yata onu dərdü-qəm.
"Atacan, nədənsə yata bilmirəm,
Neyləyim, ürəyim ağrıyır müdam,
Yata bilməz axı dərdli bir adam.
İzn ver, müqəddəs söhbətlərindən



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təzələnsin bir az bu qəmgin ürək.
Bağışla, bir sual verəcəyəm mən:
Ey xeyirxah bəndə, mənə aç görək,
Taleyin sirdaşı, sən kimsən, söylə,
Səni kim didərgin saldı bu çölə?"

Qoca qəmli-qəmli gülüb çəkdi ah: –
"Bilmək istəyirsən, – söylədi, – hərgah,
Öz ana yurdumu unutmuşam mən,
Vətən həsrətkeşli bir finəm əslən.
Bəli, o yerdə ki, məlumdur bizə,
Gənclik əyyamında mən bir zamanlar
Çobanlıq eylərdim, çıxardım düzə.
Məskənim kahaydı, qalın ormanlar;
Dinlərdim suların həzin səsini,
Duyub yoxsulluğun əyləncəsini,
Fəqət üz verdi çox dərdi-sər mənə,
Gözəl gün az oldu müyəssər mənə.

O vaxt kəndimizin yaxınlığında
Naina adında bir qız yaşardı,
Gözəllik təcəssüm edərdi onda,
Ellərin içində söhbəti vardı.
Səhər açılanda bir gün, bir dəfə
Yaymışdım sürümü çəmən tərəfə.
Çalıb tütəyimi inlətdikcə mən,
Çağlayıb axırdı çay da önümdən.
Gördüm ki, oturub sahildə bir qız
Çələng toxuyurdu arxayın, yalqız.
Çəkib gətirmişdi məni iqbalım...
Bu qız Nainaydı, əziz pəhləvan!
Yönəldim yanına, dəyişdi halım;
Mənhus alovuyla taleyin haman,
Alışdı gözlərim, gizlicə yandım,
Duydum məhəbbətin nə olduğunu,
Sevginin səmavi zövqünü qandım,
Bildim işgəncəylə yoğrulduğunu.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Həmin bu görüşdən keçdi yarım il,
Eşqimi titrəyib, mən açdım ona,
Dedim ki: "Sevirəm səni, Naina!"
Ürkək həsrətimi, açmadan o dil,
Qürurla bir zaman baxdı, dinlədi.
Sonra öz hüsnünə güvənib dedi:
"Səni sevməyirəm mən əsla, çoban!"

Söndü gözlərimdə hər şey, qaraldı;
Gün-gündən artırdı ürəyimdə qəm
Çoban oyunları bir yana qaldı,
Çoxaldı həsrətim, çoxaldı qüssəm.
Ürəyim solurdu məlal içində,
Dedim, uzaqlaşım fin çöllərindən;
Düşüncə içində, xəyal içində,
Yaxın dostlarımla qərarlaşıb mən
Coşqun dənizlərdə cəsarət ilə
Çarpışıb-vuruşub şan-şöhrət ilə
Onun rəğbətini qazanım, dedim.
Bir dəstə balıqçı dəvət eylədim,
Söylədim: "Axtaraq qızıl, təhlükə".
Bizə babalardan qalan dinc ölkə
Duydu qılıncların cingiltisini,
Hərbi qayıqların o gur səsini,
On il bu minvalla çapdım hər yana,
Bürüdü şöhrətim uzaq elləri.
Qorxmaz dostlarımla boyadım qana
Suları, qarları o gündən bəri,
Baş əydi önümdə yadelli şahlar,
Yeriyib şir kimi vuruşduqca mən,
Məğrur qoşunları olub tar-mar,
Şimal qılıncımın qaçdı önündən.
Vuruşub mərdanə daim gülürdük;
Qənimət bölürdük, xərac bölürdük,
Kim ki, baş əyirdi qüdrətimizə,
Ziyafət məclisi qururdu bizə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Xəyalən qayıdıb hər zaman geri,
Könlüm Nainanı yalnız anırdı.
Məni cəzb edirdi fin sahilləri,
Ürəyim həsrətlə parçalanırdı,
Dedim ki: "Zamandır, a dostlar, yetər,
Doğma yurdumuza qayıdaq yenə,
Döyüş iftixarı dəmir geyimlər
Asılsın evlərin sakit yerinə".
Qorxunun əlindən qurtulmuş kimi,
Küləklər səsləndi, yola düzəldik.
Doğma sahillərə uçduq quş kimi,
Qürurla, sevinclə vətənə gəldik.

Mən öz istəyimə çatandan bəri
Oyandı könlümün coşqun muradı!
Şirin bir görüşün dəqiqələri
Şəfəqlər saçaraq aydın parladı.
Sərdim ayağına o məğrur qızın
Qanlı qılıncımı, mirvariləri,
Zəri, mərcanları… o amansızın…
Ehtiras hissilə mən ona sarı
Baxırdım; dönmüşdüm mən bir əsirə.
Durdum Nainanın önündə yalnız,
Paxıl rəfiqələr vurdular dövrə.
Yenə laqeydanə söylədi o qız:
"Mən səni sevmirəm, bil, ey qəhrəman!"
Oldu gözlərimin önündən nəhan.

Artıq nə söyləyim, üzülür ürək,
Yoxdur danışmağa tabü-təvanım.
Bir ayağım gorda, indi belə tək
Yuxuya getdikcə quruyur qanım.
Salıram dərdimi yadıma bəzən
Gəncliyim gözümdə canlanan zaman.
Saqqalım uzunu onda üzümdən
Ağır göz yaşları axır durmadan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin dinlə məni: bizim ellərdə
Balıqçılar içrə sehirbazlar var.
Uzaq inzivada, haman o yerdə
Cadugər, bilici qocalar yaşar.
Onlar diqqət edir dərin hikmətə,
Heç bir şey yayınmaz qulaqlarından.
Yaxşı bələddirlər bu təbiətə,
Onlara məlumdur olan-olmayan.
Müdhiş qüvvəsinə onların əlbət
Tabedir həm ölüm, həm də məhəbbət.

Eşqin axtarıcı hərisi – mən də
Qəmlərə qərq olub yeri gələndə,
Dedim Nainanı gətirim ələ,
Soyuq ürəyində o məğrur qızın
Eşqi oyandırım bəlkə sehr ilə.
Azadlıq qoynuna cumub ansızın,
Qalın meşələrə üz çevirdim mən
İllərlə dərs aldım cadugərlərdən.
Yetişdi həsrətlə gözlədiyim dəm;
Mənə öz sirrini açdı bu aləm,
Öyrəndim gücünü qüdrətli sehrin.
"Mənimsən, Naina! – dedim bir səhər, –
Ey sevda çələngi, mənimsən yəqin!
Bizimdir, – söylədim, – bu gündən zəfər.
Fəqət bu işlərdə məni sövq edən
Qəza üstün imiş, bilməmişəm mən!

Qızğın arzularla vəcdə gələrək,
Cavan ümidimin xəyalilə mən
Əfsunlar yaradıb durmaq bilmədən,
Çağırdım cinləri qaranlıqda tək,
Oxum qıjıltıyla uçub tələsdi,
Uğuldayıb durdu sehrli rüzgar,
Ayağım altında birdən yer əsdi…
Gördüm qabağımda oldu nümayan
Saçları qar kimi, donqar bir qarı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu, Naina idi, ah, ey pəhləvan!
Süzdüm heyran-heyran mən o donqarı.
Sarsıldı varlığım dəhşət içində,
Baxdım o kabusa vəhşət içində.
İnana bilmirdim buna mən hələ,
Ağlayıb, qışqırıb səsləndim belə: –
Bu olan iş deyil! Söylə bir görək,
Mümkünmü, Naina nə tez qocalmış!
Söylə, doğrudanmı amansız fələk
Səni bu dəhşətli surətə salmış!
Ayrılıb ruhumdan, öz sevgilimdən,
Çoxdan atmışammı bu dünyanı mən?
Çoxdanmı? De görüm! – Düz qırx il əvvəl, –
Deyə, cavab verdi o keçmiş gözəl: –
Bu gün yetmiş yaşım qurtarır... – dedi –
Neyləyək, – deyə, o davam eylədi,–
İllər axın-axın sürətlə getdi,
Keçdi baharımız havayı ötdü.
Lakin o vəfasız gəncliyi bir az
İtirmək, a dostum, fəlakət olmaz,
Ağarıb saçlarım indi qar kimi,
Dururam önündə bir donqar kimi.
İndi əvvəlkitək göyçək deyiləm,
Diribaş deyiləm, qəşəng deyiləm...
Ancaq, qoy bu sirri deyim, anla sən,
Böyük bir sehrikar-cadugərəm mən!"

Doğrudan beləydi, mən indi ancaq
Onun qabağında bir lal kimiydim.
Zəkam, hikmətimlə, axmaqdan-axmaq
Dayanıb dururdum, bihal kimiydim.

Lakin neyləyəsən, budur bəla-qəm,
Cadusu baş tutdu, bədbəxtliyimdən,
İndi bu ağ saçlı donqar ilahəm
Dinir ehtirasla, dinləyirəm mən.
Açıb çəp ağzını, o gəlib dilə,
Eşq izhar eyləyir məzar səsiylə.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Mənim əzabımı sən təsəvvür et!
Titrəyib dururam başım aşağı.
Boğur öskürəklər onu bir müddət,
Yenə ehtirasla dinir dodağı:
"Duymuşam qəlbimi indi mən, demək,
A dostum, görürəm, döyünən ürək
Yaranmış incə bir ehtiras üçün.
Hisslərim oyanıb, indi yanıram,
Eşqin əzabilə qıvrılıb bu gün
Sevgi həsrətilə parçalanıram.
Elə istəyimə, əzizim, əməl,
Ölürəm, sevgilim! Ağuşuma gəl!.."

Ruslan, bu aralıq, dediyim qarı
Süzgün gözlərini qırpıb dalbadal,
Arıq əllərilə özünə sarı
Çəkdi paltarımdan məni biməcal.
Dəhşətdən ölürdüm, yoxdu gümanım,
Yumdum gözlərimi, ağzımı açdım,
Tükəndi, qalmadı tabu-təvanım,
Ucadan bağırıb çöllərə qaçdım.
Çağırdı ardımca: "Ey bihəya, sən
Sakit həyatımı sarsıtdın nədən!
Məsum qız könlünə vəlvələ saldın,
Özün Nainanın eşqini çaldın…
Bəs bu nifrət nədir? Ah, ey kişilər,
Nəfəs alırsınız xəyanətlə siz!
Taqsır özümdədir. Nə üçün hədər
Mən ona aldandım, niyə ürəksiz,
Möhtəris sevdaya uydum; nədən bəs
Rüsvay etdin məni! Gəzib çölləri
Ey könül oğrusu, sarsıl, titrə, əs!"

Beləcə ayrıldıq, o gündən bəri
Tənha yaşayıram mən bu səhrada.
Asayiş, təbiət, hikmət dünyada
Qocalardan ötrü bir təsəllidir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səsləyir gor məni, indi bəllidir,
Köhnə hisslərini cadugər qarı
Yadından çıxarıb atmamış hələ.
Çevirib qəzəbə indi qubarı,
Sönən atəşilə sevdanın belə
Yaşayır, əmr edir dolanır, əlbət
Bəsləyər, bilirəm, örtdükcə aləm
Öz qara qəlbində sənə də nifrət.
Ancaq çox ömr etməz bu dünyada qəm".

Qocanın sözünə bizim pəhləvan
Unudub aləmi, asırdı qulaq.
Yüngül bir.yuxuya getməyib ancaq
Xəyal dəryasına qərq olduğundan,
Gecəni duymadı qanad çalanda.
Gündüz mağaraya işıq salanda,
Ötürüb köksünü, hissi-hörmətlə
Qucur ixtiyarı o məhəbbətlə.
Sonra da ürəyi ümidlə dolu,
Çıxıb çəmənzara seyr edir yolu.
Sıçrayır yəhərə o birdən-birə,
Kişnəyir köhləni, baxır çöllərə.
Ruslan: "Ata, məni unutma!" deyə
Şığıyır quş kimi göy çəmənliyə.
Ağ saçlı o qoca baxaraq cavan
Dostunun dalınca deyir: "pəhləvan,
Yaxşı yol! Əlvida, sev afətini,
Unutma qocanın məsləhətini!"

## İKİNCİ NƏĞMƏ

Rəqiblər, sizdəki döyüş sənəti
Barışmaq bilməsin, bu siz – bu meydan.
Təqib eyləyiniz qorxunc şöhrəti,
Ədavət hissilə çağlayın hər an!
Dünya heyran olsun təntənənizə,
Donub qarşınızda almasın nəfəs.
Kimsə rəhmə gəlib acımaz sizə,
Sizə mane olmaz bu yolda heç kəs.
Ey Parnas dağının pəhləvanları,
Siz tamam başqa cür rəqiblərsiniz!
Gəlin, güldürməyin bu insanları,
Bir yersiz hay-küylə çəkişməyin siz,
Olun rəqabətdə siz ehtiyatkar.
Lakin, ey sevgidə rəqib olanlar,
Mümkünsə, yaşayın sizlər mehriban.
Dostlarım, inanın mənə doğrudan:
Tale eyləyərsə hər kimə qismət
Göyün acığına, o qızı, ancaq
O əziz sayılar, dalaşan əlbət,
Günahkar tanınar, bir də ki, axmaq.

Möhnətin əlində o məğrur Roqday
Bir şey bilməyəndə əzabdan savay,
Atlı dostlarını o tərk edəndə,
Üz qoyub çapanda səhralara tək,
Meşənin içilə varıb gedəndə,
Dərin fikirlərə dalır, dalırdı.
Kinli ruh qəlbini onun didərək,
Ağır təşvişlərə çəkib salırdı.
Birdən pıçıldadı dalğın pəhləvan:
Öldürrəm!.. Yıxaram hər əngəli mən…
Tanıyarsan məni əməlli, Ruslan!..
Qız da ağlar qalar qəmdən-qüssədən…"
Birdən o qoymadı köhlən yeriyə,
Döndərib yel kimi çapdı geriyə.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Rəşadətli Farlaf elə bu zaman
Səhərdən yatırdı şirin bütün gün;
Gizlənib günəşin şüalarından,
Ruhi qüdrətini sazlamaq üçün.
Bir çay kənarında sonra tənha, tək
Arxayın-arxayın yeyirdi yemək.
Birdən o nə gördü baxıb dərindən,
Çöldə fırtınatək kimsə çapır at.
Döyüş paltarından, əlcəklərindən
Əl çəkib qalxaraq Farlaf o saat
Sıçrayıb yəhərə, çapdı durmadan,
Onun dalısınca yığışıb müdam,
Ucadan bağırdı naməlum adam:
“Dur”, ey alçaq hərif! Şərəfsiz insan!
Gəl nahaq artırma bu təlaşını,
Bədəndən üzərəm indi başını!”
Roqdayın tanıdı Farlaf səsini,
Duyub ölümünün o gəlməsini,
Qorumaqdan ötrü öz həyatını,
Daha da sürətlə çapdı atını.
Qorxusundan qısıb qulaqlarını
Çapdı zirək qaçan bir dovşan kimi,
Meşə, tarla, çəmən otlaqlarını
Sıçradı tazıdan tez qaçan kimi.
O qaçdı, bu qovdu, çapdı, yeridi.
Bir yerdə günəşdən ərimişdi qar,
Geniş bir cığırla axırdı sular,
Bu xəndək üstünə gəldi cəsur at,
Köhlən şaha qalxdı, dalğalandı yal.
Gəmirib yüyəni haman o saat
Sıçradı sürətlə atıldı dərhal
Palçıqlı xəndəyə kəlləmayallaq
Yuvarlanıb düşdü o qorxaq atlı.
Büründü zülmətə səma və torpaq,
Sanki uçub gəldi ölüm qanadlı,
Roqday haman saat quştək uçaraq,
Amansız qılıncı qaldırdı birdən:
“Di məhv ol! Həlak ol! – səsləndi, – qorxaq!”



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tanıyıb Farlafı durduğu yerdən,
Sustaldı qolları, çatdı qaşını;
Qaynadı təəssüf, nifrət içində;
O dərhal aşağı saldı başını,
Qıcıb dişlərini heyrət içində
Xəndəkdən uzaşıb düzəldi yola.
Yamanca hirsləndi, lakin az qala
Gülməyə başladı öz-özlüyündə.

Bu dəm dağ döşündə bir qarı,
Taqəti, qüvvəti olunmuş tarac;
Ağarmış qar kimi onun saçları;
Yeriyib gedirdi, əlində ağac.
Qarı: "Düz şimala çaparsan, – dedi, –
Onu oralarda taparsan", – dedi.
Roqday qaynayaraq sevinclə coşdu,
Ölümün üstünə quş kimi uçdu.

Bizim Farlaf necə? Nəfəs dərmədən,
Xəndəyin içində yıxıldı, qaldı.
Düşündü: "Görəsən hələ sağam mən?
Qəzəbli düşmənim bəs harda qaldı?"
Başının üstündə ucaldı bu dəm
Qarının qəbirdən gələntək səsi:
"Qoçaq, dur ayağa sakitdir aləm,
Görməzsən çöllərdə daha bir kəsi,
Sənə yetirmişəm qaçan atını,
Qulaq as, təlx etmə öz ovqatını".

Utanıb olsa da xəcil pəhləvan,
Sürünüb dırmandı xəndəkdən çölə;
Baxdı ətrafına xeyli nigaran,
Dedi: "Şükr Allaha, mən sağam hələ!"

Qarı sözlərinə davam eylədi:
"Lüdmilanı tapmaq əmri-mahaldır,
Bil ki, o qaçmışdır uzağa, – dedi, –
Onu gəzməyiniz bir xam xəyaldır.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyanı dolanmaq çox qorxuludur,
Dözməzsən özün də əsla bu hala.
Qulaq as sözümə, məsləhət budur:
Atını sür evə, dön, qayıt dala.
Kiyev diyarına yönəl bir başa,
Çəkil dinc guşəyə, baba kəndinə.
Orada ömrünü qayğısız yaşa,
Bir gün o dilbəri görərik yenə".

Deyərək tərk etdi qarı səhranı.
Bizim fərasətli, igid qəhrəman
Unudub şərəfi, gənc knyajnanı,
Qayıtdı geriyə dərhal durmadan.
Meşədə səslənən xırda budaqlar,
Pırıldayan bir quş, axan bulaqlar
Qızdırıb canını saldı lərzəyə.

Ruslan uzaqlara gedərək bu dəm,
Qalın meşələrdə, əngin çöllərdə
Yeridikcə keçdi gözündən aləm
Çapdı yar dalınca uzaq ellərdə.
Dedi: "Tapacağam görən dildarı?
Hardasan, qəlbimin vəfalı yarı!
Yenə vüsalına irəcəyəmmi?
Şəhla gözlərini görəcəyəmmi?
Yoxsa həmişəlik cahan içində
Cadugərə əsir olacaqmısan?
Dərdli bir qız kimi zindan içində
Qarıyıb, qocalıb solacaqmısan?
Yoxsa nəsibmisən zalım əğyara?
Yox, yox, əziz dostum, eylərəm çara!
Məndədir qılıncım – sadiq yoldaşım,
Hələ ayrılmayıb bədəndən başım".

Günlərin birində bizim qəhrəman
Daşların üstüylə bir axşam çağı
Sıldırım sahilli bir çay qırağı



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gedirdi; səs-səmir yoxdu. Bu zaman
Gəldi qıjıltıyla uçan ox səsi,
Polad cingiltisi, at kişnəməsi.
Tappıltı əks etdi hücrə səhrada:
"Dur!" deyə, gurladı məğrur bir səda.
Bu geniş çöllərdə o baxdı gördü
Qaldırıb nizəni bir atlı gəlir:
Uçan bir ox kimi səbatlı gəlir.
Ruslan ona tərəf atını sürdü,
"Aha, yaxalandın! İndi dur, dayan! --
Deyərək bağırdı atlı pəhləvan, –
Ölüm döyüşünə, dostum, hazır ol!
Burada başını indi ver bada,
Axtar nişanlını get o dünyada".
Qəzəbdən odlandı Ruslanın canı
Tanıdı səsindən bu savaşqanı...

A dostlar, bir deyin, bizim qız hanı?
Qoyaq burda qalsın pəhləvanları,
Yenə gətirərik yada onları.
Qorxunc Çernomoru, gənc knyajnanı
Salaydım yadıma mən çoxdan gərək,
İndi də bir qədər onlardan deyək.

Qəribə arzumun sirdaşı bəzən
Təvazö bilməyir; nağl etdim ki, mən
Qaranlıq gecədə bir an içində
Zərif Lüdmilanın gözəllikləri
Ruslanın gözündə duman içində
Oğurlanıb aşdı qarlı dikləri.
Ah, o zalım səni, ey zavallı qız,
Güclü əllərilə apardı onda;
Qasırğalar kimi qalxıb amansız
Zifaf yatağından qopardı onda.
Zülmətin içində uçub yönəldi,
Sehirli dağların qoynuna gəldi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İtirib özünü huşundan oldun,
Söyləyə bilmədin ürək sözünü.
O gün titrəyərək solduqca soldun,
Cadugər qəsrində açdın gözünü.

Komanın önündə yayda bir kərə
Gördüm astanadan belə mənzərə:
Bizim toyuqların ulu sultanı –
Lovğa xoruzumuz süzüb dörd yanı,
Bəzən qanad çalıb zildən banlayır.
Ehtiras içində bəzən yanlayır
O öz zövcəsini qucur bir anda.
Bu dəm cücələrdə tutar qoymayan,
Oğrular oğrusu bir çalağan da
Göylərin üzündə hərlənir yaman.
Sonra öldürücü tədbir tökərək,
Şığıyır aşağı bir ildırımtək;
Toyuğu dəhşətli caynaqla çalır;
Göylərin üzünə yenə ucalır,
Aparır dağlara bir an içində,
Qaranlıq içində, duman içində.
Qorxudan tutulub dərdə-kədərə,
Bizim xoruz bu dəm çox əbəs yerə
Çağırır toyuğu, süzür göyləri,
Görür asimanda yalnız tükləri.

Gözəl knyajnamız gecə sübhədək
Sanki bir dəhşətli yuxu görərək,
Sarsılıb qalmışdı nisyan içində.
Nəhayət alovlu həyəcan içində
Oyanır dəhşətlə baxır ətrafa;
Meh kimi süzülüb axır ətrafa.
Zövq üçün boylanıb canan axtarır,
Gözləri kimisə yaman axtarır;
Pıçıldayır: "Ərim, əzizim hanı?"
Donuq nəzərlərlə süzür dörd yanı.
Lüdmila, hardadır otağın sənin?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O zifaf gecəsi, yatağın sənin?
Zavallı qız; pərqu balış, tər-tazə
Yatağın üstündə gözəl yelpazə,
Saçaqlı pərdələr, zərrin ipəklər,
Butalı, rəngbərəng ipək döşəklər,
Hər tərəf al-əlvan qumaş içində,
Yaqutlar içində, qaş-daş içində;
Bəzəyir ətrafı qızıl buxurdan,
Ətrə qərq olmuşdur hər tərəf, hər yan…
Yetər, vəsf edildi sehirli məkan,
Artıq dediklərim məncə bəs eylər.
Şəhrizad məndən də əvvəl, bir zaman
Bunları vəsf edib kifayət qədər.
İnsana xoş gəlməz ən gözəl otaq,
İçində olmasa əgər dost-qonaq.

Siz ki, bilirsiniz, onda bizim qız
Şəraitə görə eynən o gecə
Həvvaya bənzərdi geyimdə yalnız,
O da bəzənmişdi elə sadəcə.
Bu məsum paltarı geyinər əlbət,
Sevgi ilahəsi, bir də təbiət.
Hayıf ki, düşmüşdür indi o dəbdən!
Baxanda ətrafa knyajna birdən
Tüllərin içində göründü yalnız
Gəlib narın-narın füsunkar üç qız,
Onlar yanaşdılar çox yavaş-yavaş,
İkiqat əyilib endirdilər baş.
Səssiz addımlarla qızlardan biri
Qızın saçlarını ələ götürdü,
Böyük məharətlə ipək telləri
Bizim qızlar kimi çiçəklə hördü.
Bəzənsin, deyərək, solğun qabağı,
Düzdü mirvaridən alnına halə.
Məsum gözlərini tikib aşağı,
İkinci yan aldı o gülcamalə;
Şimşad əndamına geydirdi gözəl



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mavi bir sarafan, baxdı maraqla;
Döşünü, çiynini örtdü əlbəəl
Şəffaf duman kimi incə duvaqla.
Onun o səmavi hüsnünü örpək
Öpdü ehtirasla şövqə gələrək.
Bir də ayağını öpdü bu zaman
Naxışlı, çox zərif, incə başmağı.
Axırıncı qız da bu dəm nagəhan
Verdi mirvarili gözəl belbağı.
Gözə görünməyən bir qız nəğməkar
Şirin, xoş nəğmələr oxudu ona.
Ancaq nə zər-ziba, nə gözəl paltar
Bir nəşə vermədi onun ruhuna.
Bu yaltaq nəğmələr coşduqca yenə
Ancaq kədər çökdü onun qəlbinə.
Güzgü əndamını çox nahaq yerə
Qızın əks eləyir calal içində.
Tikib gözlərini Lüdmilam yerə,
Susaraq dayanıb məlal içində.

Kim ki, həqiqətə bəslər məhəbbət,
Ürəyin sirrinə vaqifsə, yəqin
Özü yaxşı bilər, bu halı əlbət:
Qüssəli bir qadın mühakimənin,
Adətin ziddinə gedərək, hərgah,
Göz yaşı içində gizli bir təhər
Güzgüyə baxmağı unudursa, ah!
Demək tükənməzdir könlündə kədər.

Budur, Lüdmila tək, gözləri nəmli,
Bilməyir neyləsin, düşüb dustağa.
Pəncərə önünə gəlir ələmli,
Həsrətlə göz tikib baxır uzağa.
Hər tərəf ölgündür. Seyr eləyir qız,
Təbiət düzlərə xalılar salmış.
Yeknəsəq ağlığın içində yalnız
Dağların zirvəsi kədərlə dalmış.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəzərə çarpmayır tüstülü damlar,
Qarlı düzəngahda yoxdur adamlar.
Gəlməyir dağlardan ovçuların şən,
Gözəl şeypur səsi. Ətrafı sarır,
Kimsəsiz səhrada at çapır hərdən
Külək qəmli-qəmli tufan qoparır.
Bir də ağ səmanın üfüqündə çılpaq
Qaralır sıx meşə yırğalanaraq.

Ümidsiz göz yaşı tökür Lüdmila;
Dəhşətdən üzünü örtmüş; nədir bu!
Başına gələcək nə iş, nə bəla...
Yüyürür o gümüş qapıya doğru,
Qapı musiqilə açılır həmən,
Qız görür özünü bir bağda birdən.
Bir bağ ki, sehirli gözəl bir gülşən;
Məşhur Armidanın bağından da şən,
Nə Krım knyazı, nə şah Suleyman,
Belə bağ görməyib ömründə, inan.
Palıd ağacları nə qədər gözəl,
Xurma xiyabanı, dəfnə meşəsi,
Ətirli mərsinin seyrinə bir gəl!
Körpə budaqların ucalır səsi,
Sidrənin qürurla yüksəlir başı,
Qızılı portağal qalxır yanaşı,
Suyun güzgüsündə nə xoş görünür;
Təpələr, meşələr, yaşıl dərələr
Bahar şəfəqilə nura bürünür.
Gözəl çəmənlərdən əsir bu anda
Ruhları oxşayan sərin may yeli.
Titrək budaqların qaranlığında
Çinin cəh-cəh vurur şeyda bülbülü.
Almas fəvvarələr göylərə qalxır,
Bir sevinc doğurur ahəngdar səsi,
Heykəllər diritək seyr edib baxır.
Palladanın, Febin öz yetirməsi
Fidi seyr etsəydi bu yeri hərgah,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Min bir təəssüflə qəlbdən çəkib ah,
Əlindən tiyəni salardı yerə.
Çapıb şəlalələr mərmər bəndlərə
Qövslər yaradır rəngi incitək,
Tökülür torpağa səpələnərək.
Meşənin qoynundan axan bulaqlar
Məxmur ləpələrlə qıvrılar, çağlar.
Bura rahatlığın sərin yurdudur.
Yaşıllıqlar içrə görünür, budur,
Rəngarəng köşklər zövq verir gözə.
Cığırlar boyunca güllər tər-təzə,
Bütün hər tərəfi ətrə qərq edir.
Lakin dayanmadan Lüdmila gedir,
Onu cəzb etməyir bu dəbdəbələr;
Verir varlığına bu aləm kədər,
Qüssələr içində avara gəzir,
Sehirli bağçanı dübarə gəzir,
Axıdır həsrətlə o göz yaşları.
Qəmli nəzərlərlə o birdən-birə
Baxır o amansız səmaya sarı.
Açılır önündə bu dəm mənzərə,
Barmağı ağzında, baxıb dayanır;
Qəlbində dəhşətli bir hiss oyanır…
Açılmış önündə bir yol; dərindən,
Yarğan arasından, sel üzərindən
Bir uca körpü var, bir dərin dərə.
Lüdmila qərq olur sonsuz qəmlərə;
Yanaşır körpüyə, göz yaşı axır,
Çağlayan suların qoynuna baxır,
Hıçqıra-hıçqıra vurur döşünə,
Sularda boğulmaq fikrinə gəlir;
Lakin atılmayıb yarğandan yenə
Ölümdən vaz keçib yola düzəlir.

Gözəl Lüdmilamız səhərdən bəri
Günəşin altında qaçaraq gedir;
Quruyub incilər səpən gözləri:
"Qoy bir az dincəlim" – deyə fikr edir;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oturub üstünə yaşıl otların.
Başının üstündə qurulur çadır;
Bu dəm əsir, gəlir meh narın-narın,
Görür qabağında bir süfrə hazır.
Qablar xeyli zərif, parlaq büllurdan;
Sakit budaqların içində bu dəm
Bir rübab çalınır elə bu zaman.
Knyajna fikr edir, ürəyində qəm,
Xəyalən düşünür: "Mən indi dustaq,
Əzizimdən uzaq, yarımdan uzaq,
Niyə ömr edirəm gəzib çəməni?!
Ey mənə zülm edən, möhtəris dəni!
Məni qoxutmayır heç bir əziyyət,
Ölməyi bacarar Lüdmila əlbət!
Yetər qəm havası, ziyafət yetər,
Yemərəm, içmərəm, dinləmərəm mən.
Ölərəm bağçanda!" – deyib, bir qədər
Düşünür, götürür dadlı yeməkdən…

Knyajna qalxınca yerdən ayağa,
büllur qab-qacaq da yox oldu dərhal.
Susdu rübab səsi, göy bağça-bağa
Sükut hökm eylədi, ətraf oldu lal.
Lüdmila tək-tənha bağlar içində
Dolanırdı kollar, şaxlar içində.
Ay da, asimanın gecə sultanı
Mavi dərinlikdə qalxıb üzürdü,
Qaranlıq ağzına alıb hər yanı,
Dağların qoynunda süzür-süzürdü,
Bu dəm knyajnaya bir yuxu gəldi;
Bahar küləyindən yüngül, görünməz
Bir əl alıb onu göyə yüksəldi,
Keçib asimanı məharətlə tez
Gətirdi qəsrdə öz otağına.
Axşam gül qoxanda yarpaq içində
Endirdi göz yaşı, qəm yatağına.
Birdən üç gözəl qız girdi otağa,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zərif paltarını soyundurmağa
Başlayıb, o qıza xidmət etdilər.
Lakin hər birinin üzündə kədər,
Gözündə iztirab kölgəsi vardı,
Onların da böyük bir yasi vardı.
Nəsə çəkirdilər gizlin əziyyət,
Edərək taledən səssiz şikayət.
Lakin ləngiməyək. Qalxıb durdular,
Yuxulu qızcığı soyundurdular.
Pəjmürdə hüsniylə bizim knyajna,
Əynində qar kimi gecə köynəyi,
Uzanır əlbəəl öz yatağına.
Qızların ağrıyır ona ürəyi;
Çıxırlar bayıra tez endirib baş,
Örtürlər qapını yavaşdan-yavaş.
Neyləyir qalınca o dustaq kimi?!
Əsir yatağında bir yarpaq kimi:
Gətirir gözləri qatı qaranlıq.
Çəkilir yuxusu, yatmır bir anlıq.
O yatmır, artırır öz diqqətini,
Baxır qaranlığa qımıldanmadan,
İzləyir ətrafın sükunətini…
Döyünür ürəyi; elə bu zaman
Duyur yaxınlaşan ayaq səsləri,
Gəlirlər, gəlirlər, gəlirlər bəri.
İtir balışların arasında qız.
Birdən… Aman Allah, dəhşət!.. Qərarsız
Bir gurultu qopdu, qatı qaranlıq
Nurlara qərq oldu haman bir anlıq.
Qapılar açıldı, gəldi irəli
Dinmədən bir dəstə zənci aramla.
Qılınclar andırdı parlaq məşəli,
Gəldi cərgə-cərgə onlar nizamla.
Gətirdilər balış üstə əlbəəl
Bir uzun ağ saqqal hər şeydən əvvəl.
Onun dalısınca təmkinlə duran,
Vüqarla boynunu uca qaldıran



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir cırtdan göründü, qəribə bir hal!
Qırxılmış başında uca bir qalpaq.
Əvvəl gətirilən o uzun saqqal
Haman bu cırtdana mənsubmuş ancaq…
Artıq yaxınlaşdı; elə bu zaman
Knyajna sıçradı öz yatağından.
Lüdmila ağsaçlı cırtdanın dərhal
Aldı qalpağını; qolaylanaraq
Ucadan çığırdı verməyib macal;
Elə çığırdı ki, tutuldu qulaq.
Cırtdanın qorxusu ödünü yardı;
Əsdi yarpaq kimi rəngi ağardı.
Qısıb qulağını o birdən-birə
Qaçarkən ilişdi uzun saqqala;
Tez əl-ayaq çaldı, yıxılıb yerə
Bir neçə yol durdu, baxmadan dala.
Zəncilər də saldı işə ayağı,
Gah qaçıb toqquşur, gah düşürdülər,
Vahimə içində yüyürüşdülər.
Buraxıb yanında qızın qalpağı,
Aparıb cırtdanı gözdən itdilər,
Saqqalı açmağa qaçıb getdilər.

Bizim əzizimiz pəhləvan hanı?
Yadınızda olsun o görüş gərək.
Tez ol, Orlovski, götür fırçanı,
Bir gecə savaşı mənzərəsi çək!
Ayın işığında o pəhləvanlar
Vuruşur dəhşətlə, batıb al qana;
Artıq nizələri düşüb bir yana;
Qırıq xəncərləri meydan içində,
Dəmir geyimləri al qan içində,
Sınıb qalxanları neçə yerindən…
Tutub at belində biri-birindən,
Qaldırırlar qara tozanaq göyə,
Atlar da vuruşur sinə-sinəyə.
Sanki bənd olublar o pəhləvanlar,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir an hərəkətsiz qalırlar onlar,
Mıxla kim onları yəhərə çalmış;
Girib bir-birinin böyrünə qalmış.
Qəzəbdən qıc olub əl-ayaqları,
Sızır hərəsindən qan bulaqları.
Düşmənin köksünə toxunur sinə;
Budur, əl-qolları sustalır yenə.
İkisindən biri düşəcək yerə…
O bizim pəhləvan, bax, birdən-birə
Yəhərdən atlını qaldırır göyə.
Atır gur sulara: "Yetər, öl!" deyə
Dalğalar bağrına alanda onu,
Deyir: "Paxıllığın bax, budur sonu!"

Ey mənim oxucum, mərd Ruslanın sən
Kimdi vuruşduğu, bilmişsən yəqin:
O, vuruş axtaran, macəra gəzən
Ümidi sayılan kiyevlilərin,
Roqdaydı. Sevərdi bizim pərini.
O gəzib Dneprin sahillərini,
Axtardı Ruslanı, ürəyində kin.
Böyük vuruşmalar pərvərdəsinin
Vəfa eyləmədi gücü-qüdrəti.
Bu adlı pəhləvan, belə, nəhayət
Düşdü, ölüm oldu yalnız qisməti.
Beləcə eyləyir ravvi rəvayət:
Cavan su pərisi alıb Roqdayı
Soyuq sinəsinə, üzərək çayı
Getmiş dərinlərə, axşam çağında.
Ətraf balıqçılar çay qırağında
O çağdan gecələr qaralan zaman
Onun kabusundan qorxurlar yaman.

## ÜÇÜNCÜ NƏĞMƏ

Siz, ey şeirlərim, çox nahaq yerə
Nəcib dostlarımdan gizlənirsiniz.
Paxılın gözündən qaçıb bilmərrə
Rahat olmadınız bircə an da siz.
Haman paxıllığı qatır səsinə
Bir solğun tənqidçi öz sualilə:
Nə üçün Ruslanın rəfiqəsinə
Guya lağ eyləyib salıram ələ,
Ona gah knyajna, gah qız deyərək?
Ey əziz oxucum, özün yəqin sən
Kinin, nəzər salıb gülümsəyərək,
Qara damğasını yaxşı görürsən!
*Bir utan, ey zail! Ey xain utan!*
Mən cavab verməyə eyləyirəm ar.
Sənin cavabını dilərəm haqdan.
Mən ancaq susuram, barı sən qızar.
Susuram, haqlıyam çünki ürəkdən;
bununçün həlimən, deyirəm sizə.
Lakin, Klimena, məni bircə sən
Duyarsan gözünü hey süzə-süzə
Yorucu Kimenin qurbanı, daim
Şerimin üstündə göz yaşı tökən,
Mən bunu görürəm, duyur ürəyim
Söndü baxışların qızaranda sən
Gizli hıçqırığın, dərdin bəllidir.
Ey qısqanc, sarsıl ki, yetişir zaman,
İnadkar Qəzəblə Məhəbbət hər an
Cəsur sui-qəsddə olublar əlbir.
Sənin o şərəfsiz, küt başın üçün
İntiqam töhfəsi hazırdır bu gün.

Şimal dağlarının təpəsində, bax,
Saçır öz nurunu soyuq bir səhər.
Öz gözəl qəsrində bu zaman ancaq
Susur Çernomor da qəmgin, mükəddər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baş açıq, xələtdə, səhər çağında,
Əsnəyir acıqla öz yatağında.
Uzun saqqallının önündə qullar
Durub kilkələri arayır bu an.
Sümük daraq ilə dilsiz, biqərar,
O ağ tüklərini darayır bu an.
Dolaşmış telləri bir-bir açırlar.
Uzun bığlarına ətir saçırlar.
Bu dəm pəncərəni açıb nagəhan
Girdi içəriyə uçan bir ilan.
Dəmir pullarını cingildədərək,
Qıvrıldı bir anda qara halqatək.
İzdiham heyrətlə donub baxanda,
Döndü Nainaya haman ilan da.
Dedi: "Əziz dostum görüm var olsun,
Sənə Nainadan salamlar olsun!
Ağızdan-ağıza Çernomoru mən
Ancaq eşitmişəm şayiələrdən.
İndi dost eləyib ədavət bizi,
Qədər birləşdirir taleyimizi.
Dəhşətli təhlükə gözləyir səni,
Gəlir üzərinə bulud kölgəsi;
Bu gün intiqama çağırır məni,
Bir təhqir olunmuş şərəfin səsi".

Riyakar, hiyləgər cırtdansa ona
Baxıb əl uzadır, deyir: "Naina!
Əzizdir mənimçün belə ittifaq.
Puça çıxardarıq Finin məkrini,
Məni qorxutmayır min hiylə, nifaq.
Qoy düşmən işlətsin zəif fikrini.
Qəribə bəxtimi, sən də yaxşı bil:
Çernomorun bu ağ, uzun saqqalı
Əbəs yerə onun zinəti deyil,
Bunların sirrindən ol sən də hali:
Bunlar kəsilməmiş, qoca kainat



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilir ki, Çernomor qüdrətdə təkdir.
Demək niyyətimi heç bir zihəyat
Məhv edə bilməyib, bilməyəcəkdir.
Lüdmila mənimdir, mənim olacaq,
Gömülər bu yerdə Ruslan məzara!"
Küpəgirən qarı töküb qaş-qabaq:
"O məhv olmalıdır!" dedi dübarə.
Sonra fışıldadı yaman üç kərə,
Üç yol ayağını vurdu bərk yerə;
Qara ilan kimi yenə göründü,
Gəldiyi yollarla geriyə döndü.

Cadugər sevindi şətarət ilə,
Sehirbaz qadından ürəklənərək;
Qərara gəldi ki, yenə gedərək
Eşqini, bığını itaət ilə,
Sərsin ayağına o gözəl qızın;
Bəzənib düzəndi cırtdan ansızın,
Onun otağına düzəldi yola.
Axtardı, yoxdu qız otaq içində,
Yoxdu buralarda gözəl Lüdmila.
Tələsik dolandı o bağ içində,
Dəfnə meşəsinə, çəpərə baxdı,
Şəlalə yanına, göl kənarına,
Körpünün altına, köşklərə baxdı;
Təsadüf etmədi gəzdikcə ona.
Sarsıldı qəzəbli səsindən aləm;
Halını yazmağa acizdir qələm.
Qüssədən gözündə gündüz tar oldu,
Cırtdanın nəsibi ahü-zar oldu:
"Qullar, gəlin, göyə çıxmasın ahım!
Sizsiniz ümidim, istinadgahım!
Tapın Lüdmilanı mənə tez verin,
Durmayın qeyrətlə himmət göstərin!
Buraxın bir yana hənəyinizi,
Yoxsa saqqalımla boğaram sizi!"



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Oxucu, qoy indi edim hekayət,
Harada gizlənib o gözəl afət:
Töküb göz yaşları bütün bir gecə,
Gülüb taleyinə olmur o sakin.
Qorxudurdu onu saqqal xeylicə,
Çernomor hər yanda məşhurdur; lakin
Həm də gülməliydi olduqca; fəqət
Bir yerə sığmayır gülüşlə dəhşət.
Lüdmila duyunca səhər çağını,
Durub tərk elədi öz yatağını.
Bir təmiz aynaya dəydi gözləri,
Dayanıb bir qədər süzdü dərindən;
Qızıl tellərini o gözəl pəri
Aldı zanbaq kimi çiyinlərindən.
Topa saçlarını o biixtiyar
Qeydsiz əllərlə hördükcə hördü.
Dünən geyindiyi bəzəkli paltar
Durur bir tərəfdə eləcə, gördü.
Geyinib ah çəkdi və yavaş-yavaş
Süzülüb üzündən axdı inci yaş.
Güzgüdən gözünü ayırmadan, qız
Hıçqırıb dururdu; bir an içində
Belə bir fikirlə düşündü yalnız:
Qəlbi inad ilə həyəcan içində,
Qərara gəldi ki, qoca sehrbaz
Qoyduğu qalpağı alsın o dərhal,
Onu öz başında seyr etsin bir az...
Burda kimsə yoxdur, otaqda təkdir;
Onu ki, heç bir kəs görməyəcəkdir...
On yeddi yaşında bir şux məhcamal
Yaraşar başına nə qoysa əlbət!
Nə var geyinməyə, yox bunda zəhmət,
Uzadıb əlini haman qalpağa
Gözünün üstünə çəpəki basdı;
Dalını çevirdi qoydu qabağa...
Ey keçən günlərin möcüzəsi! Ah!
Lüdmila güzgüdə yox oldu, nagah!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çevirdi papağı düz qoydu birdən,
Yenə də göründü durduğu yerdən.
Yenə də çevirdi, yenə yox oldu;
Çıxardı, göründü, kefi duruldu:
– Sağ ol, – söylədi, – ey gözümün nuru!
Qorxmaram burada əsla mən indi;
Canı qurtararam cəfadan indi!
Qızardı sevincdən qızın yanağı;
Knyajna əlinə aldı qalpağı,
Çevirib dal-qabaq başına qoydu.

Qayıdaq geriyə. Qəhrəman hanı?
Ar olar unutsaq igid Ruslanı.
Yetər ağ saqqalla yaxud qalpaqla
Məşğul olduğumuz böyük maraqla.
Roqdayı tapşırdı coşqun sellərə,
Keçdi gur meşədən bizim cəngavər.
Çıxdı qarşısına geniş bir dərə
Şəfəqlər saçanda gün, aydın səhər.
Onun biixtiyar titrədi canı;
Göründü bir köhnə döyüş meydanı.
Uzaqlarda heç nə görünmür gözə;
Saralmış sümüklər yayılmış düzə:
Sadaq, dəmir geyim doludur hər yan,
Hər addım başında bir paslı qalxan,
Orda dəbilqəni ələf bürümüş,
Burda bir qurumuş pəncədə xəncər,
Dəbilqə içində bir baş çürümüş,
Yanında öz atı, yatır cəngavər,
Çürümüş cəsədlər torpaqdan sarı!
Yanında nizəsi, bir də oxları
Sancılıb torpağa qalmışdır artıq;
Örtmüş üstlərini ancaq sarmaşıq...
Heç bir şey sükutu etmir xələldar,
Bu çöldə nə bir səs, nə bir nəfəs var.
Fəqət gözlərini bir günəş açır,
Ölüm dərəsinə şəfəqlər saçır.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

pəhləvan ürəkdən çəkib qəmli ah,
Gəzdirir ətrafa yenə bir nikah:
"Ey səhra, ey səhra! Söylə, kim belə
Ölü sümükləri səpmişdir çölə?
Qanlı vuruşların o son saatı
Üzərindən keçib, de, kimin atı?
Kim yıxıldı yerə, şərəflə-şanla?
Yalvarıb danışdı kim asimanla?
Susursan, de görüm, niyə dinmədən?
Nisyan otlarına büründün nədən?..
Zamanın əbədi qaranlığından
Qurtula bilmədim, ah, bəlkə mən də!
Bəlkə də burada gömüldü Ruslan
Bu sağır təpədə, otsuz çəməndə.
Bayanlar ucadan coşaraq bir az
Ondan söhbət açıb, ondan danışmaz!"

Lakin xatırladı Ruslan bir azdan
Ki, ona gərəkdir qalxanla xəncər.
Sonuncu vuruşdan sonra pəhləvan
Silahsız qalmışdı bu vaxta qədər.
Axtarıb hər yanı gəzdi səhranı;
Gördü ki, çürümüş sümükdür ətraf,
Paslı dəmir geyim basıb hər yanı
Sınıq dəbilqələr, xəncərlər; o saf
Bir zireh tapmaqçın baxdı, boylandı.
Sağır çöl yuxudan bu dəm oyandı;
Bir çatırtı düşdü ölüm çölünə,
Seçmədən bir qalxan aldı əlinə.
Dəbilqə, şeypur da götürdü əlbət,
Axtarıb tapmadı bir qılınc fəqət.
Gəzdi o meydanı, xeyli axtardı,
Orada xeyli çox qılınclar vardı;
Xırdaydı, yüngüldü hamısı, məgər
Ona yüngül qılınc gələrmi kara?
Gözəldi, güclüydü knyaz cəngavər,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tay deyil indiki pəhləvanlara.
Əli boş olmasın deyə, mərd Ruslan
Bir polad nizə də aldı əlinə.
Köksünə bir zireh geyərək, yenə
Düzəldi yoluna, getdi durmadan.

Dalacaq yuxuya bir azdan cahan,
Şəfəqin rəngini toran boğurdu.
Göydə burulurdu yenə boz duman,
Parlaya-parlaya ay da doğurdu.
Axşam düşən zaman bizim pəhləvan
Fikirli, cığırla atını sürdü;
Gecə dumanının lap arasından
Qaralmaqda böyük bir təpə gördü.
Uzaqdan qorxunc bir xorultu gəldi,
Ruslan o təpəyə sarı yönəldi.
Təpə sanki nəfəs alırdı, Ruslan
Diqqətlə dinləyib getdi qorxmadan,
Lakin şəkləyərək at qulağını,
Titrəyib əsirdi, yamandı halı.
Dirəyib torpağa öz ayağını
Qalmışdı, qabarmış boynunda yalı.
Ay çıxdı buluddan nur səpə-səpə,
Solğun işığında göründü təpə.
Aydınlıq içində nə gördü knyaz:
Canlanır önündə canlı bir əcaz.
Çox olaydı rəngim, sözlərim, ey kaş!
Ruslanın önündə canlıca bir baş
Yummuşdu o, nəhəng bəbəklərini,
Sanki dəbilqəsi qanad çalırdı
Yellədib havada lələklərini.
Qorxunc hüsnü ilə baş ucalırdı
Bu zülmət diyarı – çöl üzərində,
Eləcə dururdu sakit yerində;
Bu adsız çöllərdə, adsız pasiban
Dururdu dumanlı heybət içində.
Ona göz yetirib baxırdı Ruslan
Şaşqınlıq içində, heyrət içində.

Sehrkar yuxudan oyansın deyə,
Ona baxmaq üçün daha yaxından,
Başın ətrafını durdu gəzməyə.
*Önündə dinmədən dayandı Ruslan,*
Nizəni burnunun içinə saldı.
Turşudub üzünü əsnəyincə baş,
Oyandı, asqırdı, tufan ucaldı...
Lərzədən titrədi bir anda dağ-daş,
Bığından, qaşından, kirpiklərindən
Bayquşlar uçuşdu düşüb təşvişə.
Əks-səda qopdu, oyandı meşə,
Kişnəyib sıçradı köhlən yerindən,
Bahadır zor ilə durdu yəhərdə.
Eşidildi coşqun bir səs çöllərdə:
"Ey axmaq pəhləvan, hara cumursan?
Zarafat sevmirəm, qayıt, çapma at!
Həyasız, udaram səni bu saat!"
Ona saldı nəzər nifrətlə Ruslan,
Saxlayıb atını gəlmədən dilə.
Qürurlu bir halda o gülən zaman
Baş ondan acıqlı soruşdu belə:
"İstədiyin nədir, açıq de bir sən.
Bəxtin göndərdiyi qonağa bax ha!
Bura bax, hər kimsən, rədd ol gözümdən!
Yatmaq istəyirəm, gecədir daha;
Əlvida!" pəhləvan kobud sözləri
Ondan eşidincə, durdu bir təhər,
Qəzəblə, əzmlə gəlib irəli
Dedi: "Boş kəllə, sus! Söyləndin yetər!
Çoxdan eşitmişdim, düzmüş bu sözlər:
*Başın yekədirsə, ağlın azdır, az.*
Dinmədən gedirəm, şığısam əgər
Əlimdən heç bir kəs salamat çıxmaz!"

Kəllə eşidəndə belə sözləri,
Kinindən sıxılıb bərk acıqlandı:
Yaman qəzəbləndi, qanlı gözləri
Köz kimi parladı, od kimi yandı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Köpüklər qabardı dodaqlarından,
Ucaldı ağzından, qulaqlarından
Buxar, var gücilə knyazı birdən
Geriyə üflədi durduğu yerdən.
Yumub gözlərini at nahaq yerə,
Başladı getməyə; zülmətdi hər yan.
Yağışda, rüzgarda düşüb çöllərə
Oldu öz yoluna o, şaşqın rəvan.
Yeridi kor kimi, dildən düşərək,
Yenə də yollanıb döndü rüzgara,
Rahat olmaq üçün uzaqlarda tək.
Qəhrəman istədi dönsün, dübarə
Yenə qaytarıldı, ümidi bitdi.
Güldü qəhqəhəylə dalısınca baş,
Onun bu halına istehza etdi:
"Dayan, ey qəhrəman! Ey igid, yavaş,
Nə qaçırsan belə sonsuz çöllərə?
Atılıb düşmə çox gəl nahaq yerə.
Köhlənin sağ ikən tələsmə belə,
Heç olmazsa mənə bir zərbə endir,
Ağır vuruşunla məni sevindir".
Deyib qəhrəmanı müdhiş dililə
Kəllə cırnatmağa başladı yaman.
Udub acığını qəzəbli Ruslan,
Başın üzərinə doğru uzatdı
Tuşlayıb durmadan bir nizə atdı.
Polad nizə əsdi və birdən-birə
Kəllənin dilinə sancıldı. Bu an
Qan fəvvarə vurdu quru çöllərə,
Çağlayıb sel kimi axdı ağzından.
İtirdi ağrıdan kəllə özünü,
Canını dəhşətli bir heyrət sardı,
Qəhrəman knyaza tikib gözünü,
Dəmiri çeynədi, rəngi ağardı.
Bizim dövrümüzdə bəzən, inanın,
Naxələf övladı Melpomenanın,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Camaat fit çalıb lağ eyləyəndə,
İtirir özünü tamam səhnədə,
Onun heç bir şeyi görməyir gözü,
Unudur rolunu, bildiyi sözü.
Titrəyir, başını tez tikir yerə,
İstehzaya qarşı o, kütlələrə
Bir cavab verməyir, dinmədən susur.
Bu xoş dəqiqədə bahadır, budur,
Durub şaşqın başın dərhal qəsdinə,
Şığıyıb tərlantək cumdu üstünə.
Gəlib tez kəllənin önündə durdu,
Qaldırıb dəhşətlə o sağ əlini
Üzünə yumruqla bir zərbə vurdu.
Aldı səs ağzına ölüm çölünü;
Elə bil titrəyib sarsıldı dağ-daş,
Şehli göyərtilər boyandı qana.
Bir dəfə yerində yırğalandı baş,
Diyirlənib çöndü, düşdü bir yana.
Dəbilqə səsləndi ot üzərində,
Bu zaman göründü başın yerində
Bir qılınc, nuruna qərq oldu hər yan.
Əsdi sevincindən bizim pəhləvan.
Götürüb qılıncı qəti niyyətlə,
Qanlı ot üstüylə yüyürdü dərhal,
Burun-qulağını kəsib sürətlə,
Bir daha kəlləyə verməsin macal.
Enli qılıncını qaldırıb göyə,
Endirmək istədi məhv olsun deyə.
Birdən heyrət ilə o dondu, qaldı;
İnləyib yalvarır gördü haman baş…
Sustalıb qılıncı aşağı saldı,
Soyudu qəlbində kin yavaş-yavaş.
Qəlbində yalvarış şəfqət oyatdı,
Ruslanın intiqam dalğası yatdı.
Gün doğub nur saçdı sanki çöllərə,
Əriyib döndü buz coşqun sellərə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ötürüb köksünü baş haman saat
Dedi: "İgid, mənə ağıl vermisən,
Vurduğun o zərbə eylədi isbat
Ki, sənin önündə günahkaram mən.
Sözündən çıxmaram ömrümdə bir yol
Lakin, ey pəhləvan, alicənab ol!
Çox cəfalar çəkib odlara yandım.
Mən də, ey qəhrəman, bir pəhləvandım:
Qanlı vuruşlarda mənə bərabər
Dünyada olmazdı igid cəngavər.
Rəqib olmasaydı kiçik qardaşım,
Bəlalar çəkməzdi bəxtiyar başım.
Ah, kinli Çernomor, yaramaz alçaq,
Səbəb bu halıma sən oldun ancaq!
Yaman günə qoydu o cırtdan bizi,
Biabır eylədi ailəmizi.
Mənim xeyli qəşəng qamətim vardı,
O paxıl baxdıqca, dinməz yanardı.
Bəslədi gizlicə ədavət mənə,
Hər gün öz yolunu azdıqca-azdı;
Boyum ucaydısa, qoy deyim sənə,
Özüm sadəlövhdüm, o yaramazdı.
Yerdən seçilməyən o cırtdan, alçaq,
Cin kimi ağıllı, kinliydi ancaq.
Bir də bil ki, mənim bədbəxtliyimdən,
O ağ saqqalının min bir sirri var,
Onu çox gizli bir qüvvə yaşadar.
Nə qədər saqqalı durur, bil ki, sən,
Bəsləyir hər şeyə qəzəblə nifrət,
Onu sarsıtmayır əsla bir qüvvət.
O xain bir dəfə ülfət qataraq,
Mənə hiyləgərcə dedi: "Bura bax,
Gəl boyun qaçırma vacib bir işdən:
Gizli kitablarda oxumuşam mən
Ki, Şərq dağlarının hücrə yerində,
Sakit bir dənizin sahillərində



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir zirzəmi var ki, ağzı bağlıdır,
Bir qorxunc qılınc var orda, zağlıdır.
Sehrin zülmətində, öyrənmişəm mən,
Düşmən bir taleyin əmrilə hökmən
O qılınc olacaq bizlərə qənim:
Bizi məhv edəcək; yəqin bil, mənim
Uzun saqqalımı kəsib atacaq,
Sənin də başını... İndi özün bax,
Nə qədər gərəkdir o qılınc bizə,
Keçirək gəl onu biz əlimizə!"
Cırtdana söylədim: "Nə eybi vardır,
Çətin bir iş deyil, bu aşikardır.
İstəsən zülmətə yönəlib gedim".
Çiynimə budaqlı bir şam yüklədim,
Bir də ki, cırtdanı, məsləhət üçün.
Uzaq bir diyara yollandım o gün
Olmuşdusa mənim peyğəmbərim şər,
Şükür, pis getmirdi əvvəlcə işlər.
Dağları, daşları keçdik, nəhayət,
Məşum zirzəmini tapdıq biz əlbət.
Eşib əllərimlə zirzəmini mən
Tapdım o qılıncı torpaq içindən.
Belə istəməyib demə ki, iqbal,
Düşdü aramıza yaman qeylü-qal.
Səbəbi davanın aydındır, fəqət:
Qılınc kimə çatsın?.. Hirslə bu zaman
Mən höcət edirdim, coşurdu cırtdan.
Söyüşdük, söyüşdük xeyli, nəhayət,
Bir kələk işlədi hiyləgər yenə.
Sakit oldu, sanki yumşaldı, fəqət
Lovğalıqla dedi Çernomor mənə:
"Əbəsdir belə bir faydasız höcət,
Tapsın biliyimiz şərəf, şan, calal.
Bizə dost olmağı əmr edir kamal.
Bu bəhsi taleyin hökmünə verək,
Kimə qismət eylər qılıncı görək.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Uzanıb torpağı dinləyək bir az,
(Nələr ədavətdən, de, sadir olmaz!)
Eşitsə əvvəlcə hər kim səs, əlbət,
Olsun sirli qılınc qoy ona qismət".
Deyib bu sözləri, uzandı yerə;
Mən dəxi uzandım axmaqlığımdan.
Heç nə eşitmədim əsla bir kərə,
Dedim ki, qoy onu aldadım, yaman
Amansızcasına aldandım özüm.
Sakitlik içində bədəfkar xəlvət
Qalxaraq, yeridi görmədən gözüm.
Mənə əl qaldırdı, daldan, bədniyyət.
Qılınc vıyıldadı, endi bir anda,
Geriyə baxmamış, kəsildi başım,
Qaldı baş bir yanda, bədən bir yanda,
Fəqət həyat oldu, yenə sirdaşım.
Başım diri qaldı, öldü bədənim,
Sümüyüm üstündə ot bitdi mənim.
Bədənim qaldı bir uzaq diyarda,
Basdıran olmadı onu məzarda.
Kinli cırtdan məni alıb yönəldi,
Bu hücrə ölkəyə gətirdi, gəldi,
Sehrkar qılıncı, bəli, bax, onu
Əmr etdi qoruyum ömrüm uzunu.
Səni öz taleyin hifz etmişdir, ah,
Al onu, köməyin qoy olsun Allah.
Bəlkə öz yolunda əzm ilə getdin,
Cadugər cırtdana təsadüf etdin.
Ah, onu görəndə, minbir zərbə çal,
Xain hiyləgərdən sən intiqam al!
Sevinim o məlun cəza görəndə,
Arxayın tərk edim dünyanı mən də.
Onda təşəkkürlə anaraq səni,
Unudum vurduğun ağır zərbəni".



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## DÖRDÜNCÜ NƏĞMƏ

Yuxudan oyanıb erkən hər sabah,
Deyirəm ki: – Sənə çox şükür, Allah!
Bizim zəmanədə yoxdur o qədər
Min hiylə düzəldən bu cadugarlar.
Eşq olsun bu hala; hər gün, hər saat…
Evlənib qururuq xətərsiz həyat.
Çox da qorxutmayır onların şəri
Nişanlı qızları, cavan ərləri.
Fəqət var başqa cür əfsun eyləyən,
Onlardan lap nifrət eyləyirəm mən.
Mavi göz, təbəssüm, xoş səs… Dostlar, ah,
Onlara uymayın, görsəniz hərgah
Onlar hiyləgərdir, işləri kələk;
Siz də ancaq mənə təqlid edərək,
Füsunkar xəyalı kənara atın,
Sakit bir guşədə çəkilib yatın.

Ey qadir dahisi şerin, sənətin,
Sən, ey müğənnisi sirli xəyalın,
Sevdanın, cinlərin, qəbrin, cənnətin,
Ey ilham pərimin, yüngül kamalın
Sirdaşı, ustadı, hifz eləyəni,
Ey şimal Orfeyi, bağışla məni,
Bir azca məzəli bir əsərlə mən
Sənin göstərdiyin yolla gedirəm;
Mən də ilham alıb ilham pərimdən,
Qəşəng yalanları ifşa edirəm.

Yaxşı bilirsiniz, keçmişdə, dostlar,
Bir cani nə sayaq uymuş iblisə:
Vermiş öz qəlbini, sonra da naçar
Yazıq qızlarını haman xəbisə.
Nəhayət sədəqə, səxavət ilə,
Etiqadla, bir də ibadət ilə,
Eyləyib həqiqi tövbə, əstəğfar,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qazandı müqəddəs arxa-havadar.
Qoca kainatı sonra tərk etdi,
On iki qızısa yuxuya getdi.
Sirli gecələrin mənzərələri,
Əcaib arzular, qərib xəyallar,
Haman günahkarın dərdi, kədəri,
O məsum gözəllər, o məhcamallar,
O məlun iblisin xəbis hiyləsi,
Allahın qəzəbi, haqqın gur səsi
Bizi heyran etdi hər addım başı,
Ürəkdən ağlayıb töküb göz yaşı,
Dolanıb o qəsrin dörd divarını,
O yatan qızların yuxularını
Dərindən duyaraq, hörmət bəslədik;
Vadimi biz qəlbən daim səslədik.
Dilədik oyansın hər yatan pəri,
Çox zaman müqəddəs rahibələri
*Atanın qəbrinə salırdıq yola*
Bəlkə bunlar hamı boş yalan ola!..
Həqiqət deməyə göstərib hünər,
hücrə monastırdan deyimmi hərdən?
Yazımmı o qorxaq rahiblərdən
*Düzünü?.. Bəs necə verərəm xəbər?*
Lakin... utanıram, xiffət çəkirəm,
Heyrətlə başımı yerə dikirəm.

Çapıb köhlənini Ratmir bütün gün
Yonəlib cənuba yüyürək;
Lüdmilanı ələ gətirmək üçün
Gəzir gün doğandan gün batanadək.
Lakin günəş batıb, qarışırdı şər,
Uzaq dumanlara doğru hünərvər
Boş yerə gözünü zilləyirdi hey,
Çayın üzərində sakitdi hər şey.
Meşə al rəng ilə işıqlanırdı,
Qürubun rəngilə ətraf yanırdı.
Bu axşam çağında, qaralanda qaş,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sürüb öz atını o yavaş-yavaş
Qayalar yanından keçdiyi zaman,
Baxır ağaclığa diqqətlə hər an
Bir yer axtarırdı dincəlsin gecə.
Dərənin qoynunda, gördü gəlincə,
Qayalar üstündə tək bir qəsr var,
Ucalır ətrafa diş-diş divarlar;
Künclərində olan bürclər qaradır;
Uca hasarların üstündə bir qız
Sanki qu quşudur dəryada yalqız.
Yeriyir işıqda, yolu haradır?
Dərənin kəsilib gəlməyir səsi,
Qızın eşidilir güclə nəğməsi:

"Çölləri bürüyən qaranlıq gəlir;
Dalğalardan soyuq külək yüksəlir.
Gecdir artıq, cavan yolçu, durma gəl,
Bizim könül açan sarayda dincəl!

Xoş bir sükunət var burda hər gecə,
Gündüzsə – ziyafət, nəşə, əyləncə.
Dostluq dəvətidir, gəl yanımıza!

Gözəllər aləmi, olar xoş yerin:
Öpüşləri şirin, sözləri şirin.
Səni eyləyirik gizlincə dəvət,
Getmə, cavan yolçu, getmə qəbul et!

Şəfəq söküləndə, parlayanda gün,
Badə qaldırarıq ayrılıq üçün.
Qəbul eylə, gözəl, dəvətimizi,
Gəl bəri, ey cavan, şad elə bizi!

Çölləri bürüyən qaranlıq gəlir,
Dalğalardan soyuq külək yüksəlir.
Gecdir artıq, cavan yolçu, durma gəl,
Bizim könül açan sarayda dincəl!"



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız belə nəğməni oxuyur rəvan;
Qızlar dəstə-dəstə gözəldən-gözəl,
Gəlib qarşılayır onu əlbəəl.
Axır şəkər kimi şirin sözləri,
İnsanı mat qoyan şəhla gözləri
Dikilir o cavan oğlana yalnız.
Aparır atını iki gözəl qız;
Yönəlib saraya cavan xan gəlir;
Tərkidünya qızlar mehriban gəlir,
Alır dəbilqəni başından biri,
Əynindən çıxarır zireh digəri,
Biri qılınc alır, birisi qalxan…
Döyüş paltarını çıxarıb oğlan
Kef üçün başqa bir paltar geyəcək.
Lakin əvvəl onu soyunduran tək,
Dəvət eləyirlər rus hamamına:
Gümüş qazanlardan qızıl camına
Buğlanan isti su axıb süzülür,
Soyuq fəvvarədən inci düzülür.
Ayağı altına döşənir xalı,
Yorğun, üzərində uzanınca xan,
Buğlanır bədəni, dəyişir halı;
Ratmir xumarlanır. Azacıq üryan
Gözəllər edirlər qayğıyla xidmət,
Nəzərlərdə füsun, gözlərdə şəfqət.
Gəzib dövrəsində xana baxırlar,
Süzüb sular kimi bəzən axırlar,
Birisi götürüb təzə bir budaq,
Riqqətlə yelləyir onu mükəmməl;
Hər yana gözəl bir qoxu saçaraq,
Qızıl gül ətrilə başqa bir gözəl
Ovub sərinlədir, xan olsun rahat;
Qıvrım tellərini onun durmadan,
Ətrə qərq eləyib verir təravət.
Məst olub bunlardan cavan pəhləvan
Əsir Lüdmilanı unudur tamam,
Elə bil heç yoxmuş o şux güləndam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şirin arzularla o xumarlanır,
Çılğın nəzərləri ətrafı gəzir.
Əriyir şam kimi, od tutub yanır,
Ehtiras əlində qalır müntəzir.
Lakin çıxıb gəlir Ratmir hamamdan
Bəzənib-düzənib, əynində xələt.
Gözəllər içində gəlir qəsrə xan,
Başlanır təntənə, başlanır işrət.
Mən Homer deyiləm: yüksək şeirlə
Yunan ziyafəti yeməklərindən,
Qədəh səslərindən, köpükdən belə
O yaza bilərdi yalnız... İndi mən
Parninin izilə yaxşıdır gedim;
Laqeyd rübabımla vəcdə gəlincə,
Çılpaq gözəlliyi, qaranlıq gecə,
İncə busələri yazım, vəsf edim
Qəsrə ay işığı olmuş çilçıraq;
Görürəm uzaqda tənha bir otaq,
Burda yataqdadır odlu pəhləvan,
Yorğundur, yuxuya getmiş uzanır.
Ani alovlarda onun anbaan
Alnı, yanaqları od tutub yanır
Açıb dodağını bir qədər yarı,
Gizli öpüşləri dəvət eləyir.
Görür yuxusunda gözəl qızları,
Röyada ah çəkir, xiffət eləyir.
Basır yorğanını öz bağrına, bax,
Sükutun içində ətraf yenə lal.
Qapı tez açılır, cırıldayaraq,
Döşəmə səslənir birdən dalbadal,
Şəfəqlər saçanda göylərdən qəmər,
Görünür bir gözəl... Röyamıdır bu?
Röyamı, doğrumu?.. Qoy şirin yuxu
Çəkilsin, yox olsun, yetişdi dəmlər!
Ayıl, qiymətlidir itən hər bir an!..
Qız ona yanaşır, pəhləvan yatır,
Hiss ilə, şəhvətlə bayaqdan yatır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sürüşüb yorğanı düşür yataqdan,
Dayayır alnını isti balınca.
Qızsa qabağında səssiz qalınca,
Baxır ikiüzlü bir Diana tək,
Sakit, heykəl kimi tutub özünü
Durur hərəkətsiz; sonra gələrək,
Xanın çöhrəsinə gözəl üzünü
Xeyli yanaşdırır, ah çəkir bir az,
Canlı bir titrəyiş, canlı ehtizaz,
Sağır ehtiraslı öpüşlə bu an
Oyadır oğlanı şirin yuxudan…

Lakin, dostlar, mənim bakirə sazım
Susur, çalınmayır vəcdə gələrək;
Artıq zəifləyir qorxaq avazım.
Biz cavan Ratmiri tərk edək gərək.
Daha mən danışa bilmərəm ondan…
Gərək biz Ruslana qayıdaq artıq:
Misilsiz cəngavər, cəsur pəhləvan,
O şanlı qəhrəman, o sadiq aşiq
Yorulub inadlı qızğın savaşdan,
Bahadır başının yanında yatır.
Yatır şirin-şirin; yatır çöl, çayır…
Şəfəqlər görünür göy üzərində.
Ətraf işıqlanır, hər yan parlayır.
Səhərin oynağan al tellərində
Başın saçlı alnı qızaran zaman,
Oyanır yuxudan bizim pəhləvan,
Uçurur ox kimi onu köhlən at.

Günlər gəlib keçir, zəmilər sarı;
Yarpaqlar tökülür, dəyişir həyat.
Əsir meşələrdə payız rüzgarı,
Eşidilməz olur şirin nəğmələr.
Çökür yamaclara ağır bir duman.
Bürünür çiskinə çılpaq təpələr;
Qış gəlir… Yeriyib şimala Ruslan



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Gedir iradəylə, gedir birbaşa.
Üz tutub getdikcə pəhləvan çölə
Bəzən igidlərlə girir savaşa.
Yolunda rast gəlir bir çox əngələ,
Küpəgirən qarı kəsir yolunu,
Bəzən cəzb eyləyir görürsən onu
Sehrli bir yuxu, göz qabağında
Yırğalanan gözəl su pəriləri
Gülürlər hiyləylə gəlmədən dilə,
Cavan bahadırı cəzb edir belə…
pəhləvan göstərir xeyli mətanət,
Gedir öz yolunda qalıb səlamət;
Arzusu, muradı ürəyindədir,
Fikri, düşüncəsi mələyindədir.
Heç görmür onları, asmayır qulaq,
Təkcə Lüdmilanı düşünür ancaq.

Gözə görünməyən knyajna bu an
Sehirli papaqla xəbis cırtdanı
Aldadıb, özünü daim qoruyan
Lüdmila haradadır, o gözəl hanı?
Nə ilə məşğuldur indi qəmli qız,
Dinib danışmayan o matəmli qız?!
Yaşıl bağçalarda dolandıqca tək
Düşünür dostunu köks ötürərək.
Onun xəyalında nələr canlanır:
Kiyev düzlərinə uçur, dolanır,
Qucur atasını, qardaşlarını,
Yaxın dostlarını, yoldaşlarını;
Görür dayələri, olur kefi çağ,
Sevinir, saymayır özünü dustaq.
Lakin çox sürməyir bu ləzzətli an,
Knyajna ayılır şirin xəyaldan.
Yenə qüssəlidir o əvvəlkitək;
Yenə knyajnanı qullar gəzərək,
Axtarırlar gündüz, axşam çağları
Uca kaşanəni, yaşıl bağları.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gözəl əsirəni gəzib biqərar,
Qaçışıb ucadan çağırır onlar.
Lakin əbəs yerə; Lüdmila hələ
Oynadır onları, zövq alır belə:
Sehrli bir tala içində bəzən
Papaqsız görünür: durduğu yerdən
Çağırır: "Tez olun, buraya gəlin!"
Cumurlar üstünə qullar gözəlin.
Yenə gözdən itir, görünməz olur
Səssiz addımlarla, bu çox tez olur.
Yenə vəhşiləri salır həyəcana,
Yox olub çəkilir yenə bir yana.
Onu hər tərəfdə gəzəndən bəri
Görürlər bir anlıq ayaq izləri.
Bəzən xışıltılı yaşıl budaqdan
Görürsən astaca meyvə üzülür,
Bəzən atılaraq sərin budaqdan,
Otların üstünə sular süzülür.
Bu zaman deyirlər, yəqin ki yalnız
Dərir meyvə yeyir, sudan içir qız.
Gecələr də sidr ağacında tək
Sallanıb oturur o gizlənərək.
Düşünür: "Bircə an yatım mən barı!"
Süzülür üzünə inci yaşları.
Çağırır ərini, əziz Ruslanı,
Əsnəyir, yorulur, üzülür canı.
Bəzən bir ağaca ehmal söykənir,
Bir an göz qapağı qapanır, enir.
Dan yeri sökəndə, qalxıb ayağa,
Yeriyir Lüdmila əl-üz yumağa.
Cırtdan da bir dəfə səhər çağında
Baxıb görmüşdü ki, bağça-bağında
Şappıldadır suyu görünməz bir əl…
Yəqin yuyunurmuş orada gözəl.
Mükəddər həsrətlə belə, gizlicə
Dolanırdı qız ki, qaralsın gecə.
Ayaqdan salardı yaşıl bağları,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çox zaman o bağda axşam çağları
Bir səs ucalırdı, gözəl xoşahəng,
Yerdən tapardılar ya təzə çələng,
Göz yaşı silinmiş bir qız dəsmalı,
Ya da ki, didilmiş bir İran şalı.

Ehtiras əlində qıvrılıb canı
Təəssüflə, kinlə yanıb dübarə,
Gözəl Lüdmilanı, gəzib hər yanı
Tutmağı almışdı cırtdan qərara.
Bir zaman Lemnosda yaşayan axsaq
Dəmirçi hiyləylə haman bu sayaq
Tor qurub o gözəl Sitereyaya
Evlənmək çələngi taxaraq guya,
Ona yiyələnmiş, fənd işlətmişdi,
Allahlar önündə rüsvay etmişdi.

Zavallı knyajna qəmli, məlallı,
Mərmər köşk içində, kölgəliklərdən
Pəncərə önündə sakit, xəyallı
Seyr edir gülzarı durduğu yerdən.
Baxır çəmənzara, baxır güllüyə;
Birdən səda gəlir: "Əziz dost!" – deyə.
Görür sədaqətli əri Ruslanı,
Tanıyır: o qamət, o yeriş, vüqar,
Gözləri dumanlı, qaçmışdır qanı,
Baldırında da bir qanlı yara var.
Ürəyi çırpınır: "Ruslan, a Ruslan,
Özüdür!" ox kimi uçur yanına.
Axıdıb göz yaşı, gözləri giryan,
Elə bil od düşür şirin canına:
"Burdasan, əzizim, nədir bu zaval?"
Çatıb qucur onu... Dəhşət... Bu zaman
Önündən çəkilir, yox olur xəyal.
Qız düşür tələyə. Papaq başından
Belə bir zamanda sürüşür yerə,
Gəlir qulağına heybətli nərə:



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

"O mənimdir yenə!" görür gözləri
Yenə qabağında o cadugəri.
İnləyir, inləyir, ah zavallı qız;
Yıxılıb torpağın üstündə huşsuz.
Əcaib bir yuxu aparır onu.
Yazıq knyajnanın nə olar sonu?!
Müdhiş bir mənzərə: qoca cadugər
Qırışmış əlilə əvvəl bir qədər
Gənclik nemətini oxşayır qızın,
Solğun dodağından öpür ansızın.
O fikir verməyir, yaşı çoxsa da,
Qızın tər gülünü dərməyə əlan...
Ruslançın qoruyur onu Lel hər an.
Bircə ləhzə daha... lakin qocalıq
Yıxır həyasızı torpağa artıq.
O kaftar sehrkar, yatan zaman qız,
Nıqqıldayıb durur ədəbsiz, arsız.
Yıxılır o yerə, düşür taqətdən,
Ürəyi sızlayır, yanır hiddətdən;
Hönkürüb ağlayır qoca bir zaman...
Aha... şeypur səsi gəlir uzaqdan;
O kimdir çağırır belə cırtdanı?!
Sehrkar taqətsiz süzür dörd yanı,
Tez qızın başına qoyur papağı,
Yenə şeypur səsi dəlir qulağı.
Atıb saqqalını çiyninə qucur,
Məchul bir görüşə sürətlə uçur.

## BEŞİNCİ NƏĞMƏ

Ah, mənim knyajnam xeyli qəşəngdir!
Gözəl əxlaqı var, xasiyyəti var.
Həssas, təvəzökar, şux bir çiçəkdir,
Zövcəlik eşqinə sədaqəti var.
Bir azca yüngüldür, heç eybi yoxdur,
O belə daha da sevimli, şuxdur.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hər saat hüsnüylə, qəşəng halilə
Bizi məftun edir öz camalilə.
Qaba Delfirayla, deyiniz bunu,
Mümkünmü edilsin qiyas o pəri?
Birinə vermişdir tale əfsunu
Ovlamaqdan ötrü qəlbi, nəzəri.
O nitqə gələndə, səssiz güləndə,
Eşqin atəşinə yanıram mən də.
Birisə, tumanlı sərt bir qusardır,
Yalnız çatışmayır bığı, mahmızı!
Ah, axşam çağları, nə bəxtiyardır
Lüdmila, o gözəl, o sevda qızı
Müntəzir, görüşə gözləyən cavan,
Ona dost deyərək qız ürək açır…
O kəs də xoşbəxtdir hər vaxt, hər zaman
Qaba Delfiradan uzaşıb qaçır,
Hətta tanış deyil onunla… Ancaq
Biz yenə mətləbdən düşməyək uzaq.
Çalan şeypurunu dəhşətlə kimdir,
Cırtdanı qorxuzan heybətlə kimdi?!
Ruslan… qisas üçün kinlə yönəlmiş,
Cırtdanın qəsrinin önünə gəlmiş.
Dağın ətəyində durur pəhləvan,
Qoparır şeypuru qəzəblə tufan,
Atının səbirsiz qaynayır qanı,
Qarı dırnağilə eşərək durur.
Beləcə gözləyir knyaz cırtdanı…
Birdən dəbilqəyə bir zərbə vurur
Gözə görünməyən bir əl; bu zaman
Elə bil ildırım çaxır asiman.
Ruslan nəzər salıb baxır yerində,
Görür ki, başının lap üzərində
Əlində dəhşətli nizə, Çernomor
Uçub düşməninə hazırlayır gor.
Tutub qalxanını Ruslan üzünə,
Qaldırdı qılıncı göyün üzünə,
Girdi buludlara cırtdan bu dəfə,

Yox oldu bircə an, sonra hədəfə
Qoparıb gurultu, dübarə cumdu;
Ruslan haman saat kənara cumdu.
Çıxdı cadugərin boşa zərbəsi,
Yıxıldı qarlara, çıxmadı səsi.
Ruslan başlamadı bu zaman sözə,
Atından enərək o cumdu düzə.
İgidin əlinə keçincə saqqal,
Sehrkar gücəndi, hıqqandı bihal,
Ruslanla bərabər uçdu, o saat…
Onların ardınca baxdı köhlən at.
Qalxıb asimana cırtdan ucaldı,
Ruslan saqqalından asılı qaldı
Ağaclıq keçdilər, orman uçdular.
Dağlar üstündə yaman uçdular
Dənizlər üstündə onlar göründü,
Ruslanın bərkiyib sümüyə döndü
İnadla saqqaldan tutan əlləri,
Uçur bədəfkarla bayaqdan bəri;
Bu dəm dildən düşür sehrkar az-az;
O rus qüvvətinə heyrət eyləyir,
Hiyləgərcəsinə belə söyləyir:
"Qulaq as, bəri bax, knyaz, a knyaz!
İstəmirəm verim sənə mən zərər;
Çünki heyfim gəlir, yaxşı igidsən.
Səni əfv edirəm mən, artıq yetər;
Enərəm aşağı bircə şərtlə mən…"
Kəsərək sözünü bizim qəhrəman:
"Sus! – dedi, – yaraşmaz mənim adıma.
Girərmi sazişə səninlə Ruslan!
Cəfalar vermisən sən arvadıma.
Bu qılınc verəcək sənə min cəza,
İstəyirsən ucal, uç get ulduza,
Məhrum edəcəyəm saqqaldan səni!"
Qorxub Çernomorun əsdi bədəni;
Qərq oldu mənliyi ağır qəmlərə.
Yorulmuş sehrkar çox nahaq yerə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dartır saqqalını yollar uzunu,
Əldən buraxmayır igidim onu,
Yolar tellərindən arabir, az-az.
Dolanır iki gün göydə sehrbaz,
Üçüncü gün ondan aman istəyir:
"Ay igid, yazığam, gəl mənə rəhm et!
Canımda iqtidar qalmayıb, – deyir, –
Öldürmə, tabeyəm, eylə mərhəmət,
Hara əmr eləsən, enərəm daha"... –
"İndi əlimdəsən, əsirsən, aha,
Əyil rus gücünə, rus fərmanına,
Məni Lüdmilamın apar yanına!"

Asdı itaətlə Çernomor qulaq,
Enməyə başladı hər şeydən qabaq.
Bir anda alçaldı qorxunc dağlara,
Endi aşiyanı yaşıl bağlara.
Ruslan yoxlayaraq ayaqla yeri;
Sağ əlində kəsik başın şəmşiri,
Soluyla saqqaldan yapışdı tutdu,
Kəsdi, elə bil ki, bir çəngə otdu.
Amansızca dedi: "Get, bizi tanı!
Vəhşi, məziyyətin de görüm hanı?
Hanı iqtidarın?" deyib durmadan
Sardı dəbilqəyə saqqalı Ruslan.
Fitləyib atını o çağırınca,
Oynağan köhləni gəldi dalınca.
*pəhləvan cırtdanı yarımcan aldı*,
Yəhərdən asılı heybəyə saldı.
Ruslan itirmədən bircə an belə
Sıldırım dağlarda döndü ağ yelə.
Elə ki, sevinclə oraya çatdı,
Sirli otaqlara doğru can atdı.
Yığın-yığın qullar durub yol üstə.
Qorxaq cariyələr dəstəbədəstə,
Məşum qələbənin rəhnin uzaqdan
Dəbilqə üstündə görüb bayaqdan,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qaçıb yox oldular bir xəyal kimi.
Məğrur binaların arasında, tək
Əziz nigarını Ruslan gəzərək
Çağırır; qübbələr səs verir ona,
Başqa cavab verən yoxdur Ruslana.
Həyəcan içində çıxır otaqdan,
Axtarır yarını meyvəli bağdan.
Tapmayır, qəlbini intizar yaxır,
Tutqun nəzərlərlə hər yana baxır:
Yox bir insan izi gedirsə hara,
Köşklər boş durur, uçurumlara,
Çayın kənarına, gen dərələrə
Gözü işlədikcə mənzərələrə
Baxır, qulaq asır, süzür dörd yanı,
Buz kimi kəsilir knyazın canı.
Qaralır gözləri, sönür bir qədər,
Gəlir xəyalına qara fikirlər…
"Bəlkə… Dərd, əsarət, məyusluq, hicran
Dəqiqəsi… bir an… dalğalar… aman!"
Oldu o qüssələr, qəmlər dustağı,
pəhləvan başını saldı aşağı;
Canını çulğayıb qorxular aldı,
Qurudu daş kimi yerində qaldı.
Ağlının çaşdığı bir zamanında
Eşqinin zəhəri, çılğın atəşi
Axmağa başladı onun qanında.
Sanki görür onu, o şux günəşi,
Toxundu titrəyən dodaqlarına…
Güc verdi, pəhləvan ayaqlarına.
Üz qoydu bağlara dəhşətlə getdi.
Çağırıb tökdükcə o göz yaşları,
Qoparıb dağlardan yekə daşları,
Uçurdu hər şeyi tari-mar etdi:
Köşklər, körpülər, yıxılır yerə;
Ucalır şaqqıltı, gurultu, nərə.
Ətraf boş səhraya, çölə döndükcə,
Yayılır sədalar uzaq diyara.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dağıdır hər şeyi, yıxır qəhrəman;
Dönür qəşəng diyar xarabazara.
Qurbanlıq axtarır coşqun pəhləvan
Zərbələr endirir, kəsir dörd yanı,
Oynadıb qılıncı, yarır havanı...
Gözə görünməyən qızın nagəhan
Bir zərbə papağı salır başından.
Əfsundan qalmayır daha bir əsər:
Bir torun içində, sehr açılanda,
Lüdmila aşkara çıxır bir anda,
Məst olur sevincdən bizim cəngavər;
Baxır inanmayır, bu hala qarşı,
Öpür əllərini vəfalı yarın.
Məhəbbət vəcdilə axır göz yaşı,
Qırır torlarını o zülmkarın.
Çağırır, qız yatır havaxtdan bəri
Yumulub dodağı, ala gözləri.
Yatır şirin-şirin, çıxmayır səsi,
Coşqun arzularla qalxır sinəsi.
Ondan ayırmayır gözünü Ruslan,
Yenə bir dərd onu doğrayır, didir,
Bir tanış səs gəlir elə bu zaman,
Bu səda xeyirxah Finini səsidir:

"Özünü ələ al, knyaz, dön geri!
Yatmış Lüdmilanı apar, yaxşı yol!
Ayırma qəlbindən gücü, hünəri,
Namusa sadiq ol, eşqə sadiq ol!
Kini məhv eləyir göy gurultusu.
Sakitlik başlayar; həqiqətdir bu:
Kiyevdə Vladimir – ata önündə
Knyajna güldürər sənin üzünü.
Sehirli yuxudan açar gözünü".

Ürəklənib gəlir Ruslanım cana,
Alır arvadını öz ağuşuna,
Qolları üstündə qiymətli, bir yük,
Uca dağ başını haman tərk edir,
Tənha bir dərəyə enərək gedir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Cırtdan heybəsində, düzəlib yola
Gedərək, pəhləvan kama çatırdı;
Bahar şəfəqitək gözəl Lüdmila
Qolları üstündə şirin yatırdı.
İgidin çiyninə qoyub üzünü
Yatır sakitanə, yumub gözünü.
Halqatək hörülmüş ipək telləri
Oynadır səhranın əsən yelləri.
Ah çəkir, sinəsi dalğalanırdı,
Ani qızartılə gözəl sifəti
Alovlar içində tez-tez yanırdı.
Ruslanın mehriban, əziz surəti
Eşqi salır yada bir an içində;
Ərinin adını, açılıb yarı
Astadan söylənir gül dodaqları…
Bu zaman Ruslan da nisyan içində
Hiss edir sehrli tənəffüsünü,
Axan göz yaşını, həzin səsini,
Xumar döşlərinin həyəcanını…

Bu aralıq bizim Ruslan pəhləvan
Keçir dərələri, aşır dağları.
Gedir gecə-gündüz, əsla durmadan,
Ancaq mənzil hələ olmayıb yarı.
Qız yatır. Ancaq o iztirab çəkən,
Ehtiras odunda alışıb yanan
Cavan həmişəlik belə görəsən,
Hissini susdurub hər zaman, hər an
Təmiz arzularla dolanacaqmı?
Olub dildarına belə pasiban,
Tək bunu özünə xoş sanacaqmı…
Mənim adlı-sanlı qəhrəmanımdan
Bizə rəvayəti yazıb nəql edən
Rahib də inamla eləyir bəyan
Ki, belə olmuşdur… inanıram mən!
Əgər qarşılıqlı olmasa səfa,
Qabadır, ləzzəti olmaz heç əsla:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yalnız ikilikdə xoşdur məhəbbət
Ey çoban qızları, siz bilin əlbət,
Gözəl knyajnanın yuxusu sizin
Yuxunuza əsla bənzəməz… sərin
Bahar zamanında, yeri gələndə,
Yatırsınız rahat yaşıl çəməndə.
Qayın ağacları arasında şən,
Çiçəklik, axar su xatirimdədir.
Axşam qaranlığı çökəndə bəzən,
Lidanın yuxusu xatirimdədir.
O yalançı röya… dostlar, o titrək
Tələsikli olan ilk busə, o tək
Məhəbbət öpüşü xələl qatmadı,
Onu yuxusundan heç oyatmadı…
Yetər söylədiyim bu hərzə – hədyan!
Nə çıxar sevgini xatırlamaqdan?
Onun əzabını, zövqünü, inan
Çoxdan unutmuşam… İndisə, gerçək,
Mənim diqqətimi Lüdmila, Ruslan,
Çernomor özünə cəlb etsin gərək.

Onlar belə gəlib çıxdılar düzə,
Küknar ağacları tək-tək boy atır.
Uzaqda parlayır, görünür gözə
Zirvəsi dəyirmi bir təpə, yatır.
Heybətli bir təpə. Ruslan baxınca,
O yeri tanıdı, duydu o saat
Başa doğru gedir; qaralan uca
Zirvənin üstünə çatdı köhlən at.
Bir nadir möcüzə çıxdı aşkara:
Baxır ətrafına tərpənmədən baş;
Alnında saçları elə bil qara,
Qalın bir meşədir, yellənir yavaş.
Görmək üzrə idi ölüm işini,
Üzünün qurşuna bənzəri vardı;
O baxırdı çölə, qıcıb dişini,
Ağzı mağaraya sanki oxşardı…



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Deməli, çatmışdı axır günləri,
Artıq düzəngahda o verirdi can…
Cırtdan heybəsində, bizim qəhrəman
Qucağında yarı, gəlib irəli
Səsləndi ucadan: "Xoş gördük, a baş!
Mən burdayam, xain əcrini aldı.
Əsirdir əlimdə!" Baş yavaş-yavaş,
Knyazın elə ki, səsi ucaldı,
Ayıldı azacıq, gözləri axdı,
O gəldi özünə, dirçəldi bir an,
İnləyib dəhşətlə ətrafa baxdı.
Ölüm yuxusundan ayılan zaman,
Gördü pəhləvandır göz qabağında;
Tanıdı dəhşətlə öz qardaşını.
Şişdi pərəkləri ölüm çağında,
Bir alov bürüdü o göz-qaşını.
Ölən gözlərində sonuncu kərə
Qəzəb ildırımı parladı, çaxdı.
Qıcıb dişlərini, geniş düzlərə
Sağır çılğınlıqla, həyəcanla baxdı!
Baş öz qardaşına nəsə bu zaman
Astaca söylədi, danladı onu
Soyumuş dililə; nəhayət, bu an
Uzun əzabların yetişdi sonu:
Söndü alnındakı od əlaməti,
Nəfəsi təngləşdi, bərəldi gözlər…
Knyazla Çernomor bu son haləti,
Ölüm rəşəsini baxıb gördülər
Əbədi yatdı baş… Bizim pəhləvan
Yönəldi, bir kəlmə söhbət etmədi;
Atın yəhərindən asılı cırtdan,
Nəfəs almağa da cürət etmədi.
Sehrkar dililə o fikri qara
Dua eləyirdi o şeytanlara.
Bir naməlum çayın uzaq yerində,
Toran bir sahilin ətəklərində
Damı çöküb yatmış bir koma vardı,

Ətrafı meşəlik, sıx ağaclardı,
Hər yandan bürümüş göy şamlar onu,
Lal axan bir çay da günlər uzunu
Xumar dağlarla gəzib o yeri,
Yuyur ətrafda qamış çəpəri.
Orda cövlan edən xəfif küləklər
Səslənir ətrafda hər axşam, səhər.
O yerdə çarpardı daim nəzərə
Hər zaman qaranlıq bir tənha dərə.
Dünya binasını qurandan bəri
Sükut məskən edib sanki bu yeri.
Atını saxladı bu yerdə Ruslan.
Sakitdi hər tərəf, sahil uzunu
Sağır dumanlarda ağarırdı dan,
Səhər göstərirdi parlaq üzünü.
Ruslan arvadını tez qoyur yerə,
Oturur dinmədən onun yanında;
Onun şirin qüssə doğur canında.
Açılır önündə bu an mənzərə:
Görür ki, bir qayıq baş alıb gəlir,
Sakitanə axan çay üzərində
Balıqçı nəğməsi ucalıb gəlir.
Bir nəfər torunu atıb dərində,
Çəkir var gücüylə hey avarları,
Yönəlir meşəlik sahilə sarı,
Komanın üstünə üzür bir başa.
Mərhəmətli Ruslan edir tamaşa:
Yetişir sahilə qayıq aramsız,
Bir gözəl bayıra çıxır komadan;
Yüyürür sahilə bir qamətli qız.
Tökülüb çiyninə tellər pərişan,
Baxışı sakitdir, çöhrəsi gülgün.
Sinəsi üryandır, çiyini çılpaq,
İnsanı eyləyir hər halı məftun.
Onlar bir-birilə qucaqlaşaraq,
Suyun kənarında oturdu rahat:
Ötürdü qayğısız bu şirin saat



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Məhəbbətin əziz duyğularıyla.
Cavan knyazımız, sevimli Ruslan
Baxır, heyrət edir gəlmədən dilə.
Xoşbəxt balıqçını tanıyır haman:
Bu – xeyli şöhrətli, şərəfli, şanlı
Ratmir dedikləri Xəzər xanıdır.
Vuruşda, sevgidə o dəliqanlı
Ruslanın rəqibi, bir düşmanıdır.
Ratmir sakitanə, bu dinc səhrada
Bilməyir ki, nədir Lüdmila, şöhrət;
Yarının qoynunda vermişdir bada,
Onlara etmişdir çoxdan xəyanət.

Ona yaxınlaşdı bizim qəhrəman,
Tanıdı Ratmir də dərhal Ruslanı.
Qalxıb tez yüyürdü əsla durmadan,
Knyaz qucaqladı cəngavər xanı.
Dedi: "Bu nə işdir? Nə oldu, hanı
Döyüşlərdə keçən qızğın həyatın?
Niyə tərk olundu vuruş meydanı,
De, qılıncın hanı, hardadır atın?"
Balıqçı söylədi: "Dostum, doğrusu,
Döyüş şöhrətinin o boş kabusu
Sıxır mənliyimi, düşün bir qədər,
Nə xoşdur sevimli bu əyləncələr;
Palıdın kölgəsi, şirin məhəbbət
Yüz kərə davadan gözəldir əlbət.
Daha əl çəkmişəm qanlı şöhrətdən,
İndi çılğınlığa bac vermirəm mən.
Səadət eşqiylə məst olub başım,
Hər şeyi atmışam, əziz yoldaşım!
Hətta Lüdmilaya indi mən yadam".
Ruslan söylədi ki: "Olduqca şadam,
Canan mənimlədir, a sevimli xan!" –
"Bu olan iş deyil, eylə gəl bəyan,
Nələr eşidirəm? Göstər, bəs hanı,
Hanı rus gözəli, bir knyajna



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İcazə ver... Xeyir, qorxuram yenə...
Hər şeydən əzizdir rəfiqəm mənə.
Onunla varlığım bəxtiyar oldu;
O xoş dövranıma səbəbkar oldu.
Verdi sevinc dolu munis bir həyat,
Bir də itirdiyim gəncliyi verdi,
Səmimi sevdanı, dincliyi verdi.
Həyatım onundur, onundur nicat...
Sehrkar qadınlar nahaqdan nahaq
Daim vəd edirdi səadət mənə.
On iki qız sevdi Ratmiri, ancaq
Hamını tərk etdim bunun eşqinə.
Meşədə uymadım kölgəliklərə,
Ordakı sarayın daşını atdım,
Qoydum dəbilqəni, qılıncı yerə,
Qansız, şan-şöhrətsiz murada çatdım.
Burda yaşayıram dünyadan uzaq;
Bu yerlər olalı xoşbəxt məskənim.
Gözümün işığı, sevgilim ancaq
Sənsən əziz dostum, həmdəmim mənim!"

Uzaqdan seyr edib qəşəng çoban qız,
Bu şirin söhbətə asırdı qulaq,
Baxırdı yarına o mehriban qız,
Gülür, ah çəkirdi ara-bir ancaq.

Bizim cəngavərlə o balıqçı xan
Sanma ayrıldılar, durub getdilər;
Çayın qırağında bir xeyli zaman
İkisi doyunca söhbət etdilər.
Keçirdi sürətlə hər saat, hər dəm;
Yenə qaralırdı dərə, dağ, orman.
Ay doğmuşdu, xeyli sakitdi aləm,
Yola çıxmalıydı çoxdan qəhrəman.
Ruslan, qız arxayın uyusun deyə,
Üsullu, üstünə bir örtük salır,
Yönəlir sonra da ata minməyə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun arxasınca xan dalır, dalır,
Cumur xəyallara tənha qalınca,
Ruslana diləyir səadət, zəfər.
Cavan dəmlərini yada salınca,
Onun biixtiyar gəlir mükəddər
O dəmlər gözünün önündə durur.

Tale rübabına nə üçün, nədən
Keçən zamanların rəşadətindən,
Bir də ki, dostluqdan, saf məhəbbətdən,
(Dünyada yad olan) şirin ülfətdən
Tərənnüm etməyə vermədi imkan?
Qəmli şairtək haqqın, hər zaman
Mən öz əsərimdə nə üçün gərək
Yazım gələcəkçin qəbahətlərdən,
Həqiqi nəğməylə vəcdə gələrək,
Yazım fitnələrdən, xəyanətlərdən!

Ləyaqətsiz Farlaf, şux Lüdmilanı
Unudub, itirib şöhrəti-şanı,
Hamının yadından çıxaraq ancaq
Gizlənib kimsəsiz olduqca uzaq
Çöldə Nainanı gözləyir əlan.
Gəldi təntənəli, gözlənən zaman
İfritə önündə onun göründü;
Dedi: "Tanıdınmı? Tez eylə əməl,
Yəhərlə köhləni, dur, ardımca gəl!"
Sonra o çevrilib pişiyə döndü.
Yəhərləyib atı nəzər salınca,
Qaranlıq gecədə, cığırla Farlaf
Sehrkar qarının getdi dalınca.

Dərə sıx dumana qərq olan zaman
Sakit bir yuxuya dalır-dalırdı.
Buluddan buluda ay da nagəhan
Gizlənə-gizlənə hey ucalırdı.
O belə süzəndə nur səpə-səpə,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ani bir işıqla nurlandı təpə
Yatan knyajnanı Ruslan da bu dəm
Gözləyib dururdu, o sanki laldı.
Susurdu kainat, susurdu aləm,
Ruslanın həmdəmi qəmdi-məlaldı.
O fikrə getmişdi xəyalat ilə.
Arzular, diləklər qanad çalırdı.
Halay vurub soyuq bir qanad ilə
Başının üstünü onun alırdı.
Dumanlı gözlərlə can yoldaşını
Süzdü xumar-xumar baxdı yarına;
Orda yatmaq üçün yorğun başını
Söykədi o qızın ayaqlarına.

Yuxuda gördü ki, knyajna solğun,
Hərəkətsiz kimi, dilsiz çağında
Yanıb ataşlərə, qüssəli, yorğun
Durub uçurumun lap qırağında...
Yarğanın üstündən itir bu dəm qız,
Baxıb heyran-heyran Ruslan tək qalır.
Dərənin dibindən qalxıb qərarsız,
Tanıyıb bildiyi bir səs ucalır…
Ruslan arvadının cumur dalınca,
Yıxılır dərəyə elə bu anda…
Birdən qarşısında, nezər salınca,
Görür: Vladimir uca eyvanda,
Qoca bahadırlar yanında, qəmli
Yığışıb çağırılmış bir dəstə qonaq;
On iki oğluyla, dərdli, ələmli
Oturmuş; heç kəsin deyil kefi çağ.
O müdhiş ayrılıq günütək yenə
Yaman qəzəblidir o qoca knyaz.
Heç kəs cürət etmir əsla dillənə,
Kimsə tərpənməyir, çıxmır bir avaz
Nəşəsiz oturmuş əsilzadələr,
Gəzmir əldən-ələ gülgün badələr…
Qonaqlar içində, yuxarı başda



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Roqdaydır oturan; O ki, savaşda
Ölmüşdü; indisə sağdır bəs nədən?
Xeyli nəşəlidir, qızıl qədəhdən
Şərab nuş eləyir, baxmır Ruslana,
Diqqət yetirməyir heç əsla ona.
Nəzər yetirəndə, görür gənc xanı,
Görür o məclisdə dostu-düşmanı.
Ucalır qüslinin o oynaq səsi;
Ötən əyləncədən, qəhrəmanlıqdan
Misilsiz Bayanın coşur nəğməsi.
Farlaf girir qəsrə elə bu zaman,
Yanında Lüdmila, o şux gülbədən.
Qoca tərpənməyir əsla yerindən
Sallayır başını, deyil kefi saz.
Nəşəsiz boyarlar, ağsaçlı knyaz
Gizlədir hissini, süzür dörd yanı.
Hamısı yox oldu; gənc qəhrəmanı
Ölümün soyuğu ağzına aldı;
Ruslan xeyli ağır yuxuya daldı.
Əzabla göz yaşı tökür, axıdır,
Deyir: "Ola bilməz, bu bir yuxudur"
Yorğunluq hiss edir, fəqət o bir an
Ayıla bilməyir məşum xəyaldan.

Ay zəif parlayıb göydə yüksəlir,
Qaranlıq yayılıb meşəliklərə;
Ölüm sükutilə yatır gen dərə…
Xain, at belində çaparaq gəlir.

Önündə bir tala, azacıq kənar,
Üstünü çən almış bir təpəcik var;
Dolanır təpənin ətrafında at,
Qızın ayağında yatmışdır Ruslan.
Farlaf qorxusundan edir ehtiyat,
Olur dumanlarda ifritə nəhan.
Onun ürəyini bürüyür təlaş;
Atının cilovu düşür əlindən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Siyirir qılıncı o yavaş-yavaş,
İstəyir qəfilcə vuraraq birdən
Tən bölsün igidi... Duyuq düşür at.
Kişnəyir, qızışır, coşur o saat, –
Ruslan eşitməyir, – çox nahaqdır bu;
Bir ağır yük kimi qəflət yuxusu
Onu buraxmayır, yatırdı yenə!
Qarı ürək verdi qorxaq xainə;
Mənfur əllərilə o, cəngavərə
Ağır zərbə vurdu yaman, üç kərə,
Keçirib ovunu sonra caynağa,
Atı qorxa-qorxa çapdı uzağa.

Bütün gecə bihuş uzandı Ruslan
Təpənin dibində, zülmət çöldə tək.
Ağır yarasından çağladı al qan,
Saatlar ötdükcə hey axdı seltək.
Açdı gözlərini doğunca səhər,
Zar-zar inildədi yazıq yaralı.
Doğrulub zor-güclə baxdı bir qədər,
Bəlalı başını aşağı saldı,
İtirib huşunu çöllərdə qaldı.

## ALTINCI NƏĞMƏ

Əziz dost, deyirsən, mən avazımla,
Sözümdə gül açan güllü yazımla
Deyim keçənlərin xoş anlarını,
Sadiq ilhamıma həsr eləyim mən
Ömrümün qiymətli zamanlarını.
Ey əziz rəfiqəm, bilirsən ki, sən:
Dostun söz-söhbətdən artıq uzaqdır,
Uyub səadətə, indi havaxtdır,
Tənha çalışmağa yoxdur həvəsi,
Unudulmuş əziz rübabın səsi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nazü-qəmzələrə könüldən uydum,
Zövqü, əyləncəni bir yana qoydum...
Mən sənin eşqinlə əl çəkdim, inan,
Şöhrət qürurundan, o boş arzudan.
Məni tərk eyləmiş şirin xəyallar,
Yaratmaq dühası, o gizli əsrar.
Mənim düşüncəmə hakimdir ancaq
Məhəbbət, bir də ki, ondan zövq almaq.
Sən ki, əmr edirsən, çünki bir zaman
Mənim məhəbbətdən, şərəfdən, şandan
Dediyim o keçmiş rəvayətləri
Sevərək dinlərdin sən, çoxdan bəri:
İxtiyar knyazım, Lüdmila, Ruslan,
Sehrkar Çernomor, ifritə qarı,
Finin ağır olan həsrəti, dərdi
Sənin xəyalını məşğul edərdi.
Dinlərkən bu yüngül, xoş hədyanları,
Mehriban gülərdin hey xumar-xumar;
Lakin nəğməkara bəzən lütf edər,
Daha da naz ilə qılardın nəzər...
Yaxşı; bir vurğuntək verirəm qərar:
Yenə dindirərəm tənbəl simləri,
Oturub mən sənin yanında, candan
Ötərəm yenə də gənc pəhləvandan.

Mən harda qalmışdım? Ruslan hardadır?!
Artıq ölmüşdür o, çəmənzardadır.
Daha sellər kimi axmayır qanı;
Qarğalar başının üstünü almış.
Şeypuru, geyimi, ağır qalxanı,
Tüklü dəbilqəsi sahibsiz qalmış...

Sallamış başını qürur ilə at,
Gəzir dövrəsində, bilmir halını;
Sönür gözlərində od saçan həyat,
Daha tərpətməyir qızıl yalını.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Çapıb oynamayır, gözləyir hər an,
Gözləyir pəhləvan dursun ayağa.
Lakin durmayacaq knyaz yuxudan,
Batıbdır qalxanı toza-torpağa.

Bəs Çernomor? Onu unutmuş qarı,
Heybədə asılıb qalmış yəhərdən.
Cırtdanın heç nədən yoxdur xəbəri;
Yorğun, acıqlıdır, kədərlə hərdən
Söyür Lüdmilanı, söyür Ruslanı,
Söyür ürəyində, qaradır qanı.
O səs eşitməyib uzun bir zaman
Baxdı – əcaib hal!.. baxdı çöllərə,
Ruslan öldürülüb qanına qəltan,
Havaxtdan bəridir yıxılıb yerə,
Yoxdur Lüdmiladan əsla bir əsər.
Məlun şadlığından əsdi bir qədər:
"Azad oldum" – deyə, eylədi güman,
Lakin yanılırdı fikrində cırtdan.

Bu aralıq Farlaf, o qatil, oğru,
Qolları üstündə yatmış o gözəl,
Çapırdı Kiyevin üstünə doğru,
Qəlbində bir qorxu, bir ümid, əməl,
Axır mənzil edib ta uzaqları.
Dnepr səslənir hey pərdə-pərdə;
Görünür Kiyevin qızıl tağları;
Farlaf öz atını sürür şəhərdə.
Keçdiyi meydanı bürüdükcə səs,
Onu həyəcanla təqib edirlər.
Düşür dalısınca eşidən hər kəs,
Qaçırlar knyaza versinlər xəbər;
Qəsrə yaxınlaşır xain bu dəmdə.

Günəş – Vladimir elə bu zaman
Oturmuşdu qəmlər əlində dustaq;



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Öz uca qəsrində, ürəyində qan,
Oturmuşdu qoca fikrə dalaraq.
Vüqarlı boyarlar-pəhləvanları
Yanında, qaradır xeyli qanları.
Birdən səs eşitdi bayırdan qoca,
Çöldən hay-küy gəlir ucadan uca.
Açılır qapılar girir otağa
Naməlum bir igid, məəttəl qalırlar.
Boğuq pıçıltıyla qalxıb ayağa
Heyrət eyləyərək, haray salırlar:
"Lüdmila buradadır! Farlaf da… Görən
Doğrumu?.." Qoca da qalxaraq həmən
Ağır addımlarla ora yönəlir,
Bəlalı qızının yanına gəlir.
Yanaşır, atadır, qəlbində şəfqət;
Uzadır əlini qızına; fəqət
Əsla hiss etməyir, eşitməyir qız;
Sanki sehrlənib, qatilin yalnız
Yatır qucağında, etmir hərəkət.
Hamı nigarandır, gözlərdə heyrət,
Baxırlar qocaya; knyaz dinmədən
Gözünü zilləyir Farlafa… həmən
Gəlir o knyazın lap qabağına,
Basır barmağını öz dodağına.
"Lüdmila yatmışdır, – o verir xəbər,
Deyir ki: Tapmışam onu bu günlər
Murom meşəsində yatdığı zaman,
Almışam kinli bir qulyabanıdan.
Döyüş oldu orda şərəfli, şanlı,
Biz üç gün vuruşduq; ay da üç kərə
Qalxıb işıq saçdı dediyim yerə.
Nəhayət məhv oldu o əli qanlı.
Keçdi əllərimə knyajna bu dəm
Mənim yatmış halda; indi bilmirəm
O şirin yuxudan nə vaxt duracaq,
Taleyin qanunu gizlidir ancaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İndi gərək bizə versin əməlli
Bir ümid, bir də ki, səbr, təsəlli".

Azca keçmədi ki, bu məşum xəbər
Yayıldı sürətlə, eşitdi şəhər.
İzdiham axışıb tutdu hər yanı,
Qaynayıb köpürdü şəhər meydanı.
Açıldı üzlərə qəmli imarət,
Doluşdu oraya hamı bir müddət.
Gözəl, səliqəli, geniş otaqda,
Yorğanı ipəkdən, uca yataqda
Yatır knyajnamız, yuxuya dalmış,
Onun dövrəsini igidlər almış.
Knyaz ələmlidir, bayaqdan bəri
Quslilər, şeypurlar, qaval səsləri
Ucalır, qız yatır, knyaz üzülür,
Onun göz yaşları axır, süzülür.
Qızının yanında qoymuşdur yerə
Ağsaçlı başını, batıb kədərə…
Rəngi qaçmış Farlaf qızın yanında
Dayanmış, taqəti yoxdur canında;
Əsir təəssüflə, peşimandır o…

Gecə gəldi, yenə yatmayır heç kəs
Yuxulu gözünü yummayır, əlbət.
Hamı yığılmışdır, kəsilməyir səs,
Gedir möcüzədən hər yerdə söhbət.
Sadə evciyində hətta cavan ər
Öz gənc arvadını bütün unudur.
Çəkib işığını göylərdən qəmər,
Doğarkən üfüqdə zərrin şəfəqlər,
Kiyevi bürüyür eyni həyəcan…
Bütün kiyevlilər seltək axışır,
Şəhər bürclərinin üstə yığışır…



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çayın o tayında dumanda seyrək
Görünür ətrafda çadırlar ağ-ağ,
Parlayır qalxanlar nurlu şəfəqtək.
Çöllərdə atlılar toz qopararaq,
Görünür yox olur bir an içində;
Səfər arabası doludur hər yan.
Tonqallar od saçır duman içində,
Dəhşət, – peçeneqlər qaldırmış üsyan!

Ruhlar hökmdarı hikmətli Fin də
Arxayın, o sakit çöllər içində,
Durub gözləyirdi elə bu zaman
O labüd gününü taleyin əlan.

İsti səhraların bir kənarında,
Qorxunc dik dağlardan olduqca uzaq,
Küləyin, tufanın diyarlarında,
Sehrkar qarının cəsur nəzəri
Nüfuz eləməyə qorxduğu yerdə,
Gözəl bir dərə var, qədimdən bəri
Burdan iki bulaq axır çöllərdə.
Birisinin suyu abi-həyatdır,
Daşların içindən axır xeyli şən;
Digərinin suyu ölüm-məmatdır.
Dərədə yox əsər coşqun küləkdən,
Baharın əsməyir sərin yelləri;
Qalxır qoca şamlar asimana lal,
Quşların basmayır səsi çölləri,
Ora su içməyə gəlməyir maral.
Bir cüt qorxunc ifrit əzəldən bəri
Qoruyur əbədi haman o yeri,
Keçilməz sahilə göz yetirərək…
Zahid, əllərində iki boş sənək,
Gəldi bulaqların önündə durdu,
İfritlər diksinib, qorxub çaşdılar,
Vahimə içində uzaqlaşdılar.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Zahid sənəkləri tutub doldurdu
Sulardan, fürsəti vermədən bada,
Sonradan yox oldu birdən səhrada.
Gəlib hazır oldu bir an içində
O yerdə ki, Ruslan al qan içində
Yatırdı… Qoca tez gəldi o yerə,
Yanaşdı əlbə-əl gənc hünərvərə.
Səpdi üzərinə əvvəl məmatdan,
Yaralar parladı, açdı gül-çiçək,
Ölü təravətlə oldu çox qəşəng,
Qoca bu dəfə də abi-həyatdan
Səpdi qəhrəmanın dərhal üzünə;
Ruslan gümrahlanıb gəldi özünə,
Canında gəncliyin həyatı axdı.
O çox həris durdu, süzdü cürətlə,
Parlayan gündüzə baxdıqca baxdı.
İyrənc röya kimi keçmiş sürətlə
Gözünün önündən ötdü nagəhan,
Lüdmila hardadır?! Təkdir pəhləvan;
Qəlbi çılğın kimi vurdu, cəngavər
Qəmləndi; səs gəldi, o qulaq asdı,
Fin onu çağırıb bağrına basdı:
"Oğlum, qüssələnmə, beləymiş qədər.
İndi gözətləyir səadət səni;
Çağırır qanlı bir ziyafət səni.
Qılıncın gurlasın qoy əzəmətlə,
Kiyevdə qurular əmin-amanlıq.
Qarşılarlar səni bir məhəbbətlə,
Al bu qüdsi üzük, keçər yamanlıq
Qıza toxundursan üzüyü əgər,
Tilsim kəsərindən o zaman düşər.
Düşməni xar edər ora getməyin,
Dinclik şərəflənər, ölər qəzəb, kin.
Yalnız səadətə siz layiqsiniz!
Artıq ayrılırıq, gəl məni dinlə;
Orada, o dünyada vaxt olar ki, biz



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə görüşərik bir gün səninlə".
Deyib gözdən itdi… Alovlu Ruslan
Dilsiz bir vəcd ilə tənha qalınca,
Əlini qaldırıb süzür nagəhan,
Bir şey eşitməyib baxır dalınca…
Çöllərin içində o qalanda tək,
Yalını tərpədir səbirsiz atı, –
Heybədə Çernomor, – gedir yüyürək,
Kişnəyir, var onun əzmi, səbatı.
Knyaz yəhərdədir, qalın meşədən,
Çöllərdən, yeriyir, düzəlir yola,
Sap-sağlam, qüvvətli uçur dördnala.

Ar olsun! Kiyevə yeriyir yağı,
Coşqun dəstələrlə necə gör axır!
Süzür dərdli-qəmli yaxın-uzağı,
Bürclərdən, qüllədən adamlar baxır.
Camaat göz tikir, baxır çöllərə.
Qorxu hökm eləyir gen meydanlara.
Durub öz qızının yanında knyaz,
Dua eləyirdi, dərdi daşırdı;
İgid bahadırlar sakit dayanmaz,
Qanlı vuruşmaya hazırlaşırdı,
Sadiq knyazlarla verib əl-ələ.

Artıq sabah oldu. Düşmən dəstələr
Təpələrdən keçdi hücuma yer-yer.
Coşqun sıralarla gəldilər yaxın,
Keçib düzəngahı çöllər alındı;
Şəhər divarına cumdu bu axın.
Kiyevdə şeypurlar yaman çalındı.
Qalxıb döyüşçülər çıxdılar düzə,
Artıq vuruşmağa verdilər qərar.
Döyüş başlanıldı, gəlib üz-üzə,
Ölüm hiss eləyir, sıçrayır atlar.
Dəmir libaslara qılınclar dəyir,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Geyimlər səslənir zərbəylə hər an;
Uçur vıyıltıyla oxlar sürətlə,
Götürür ağzına düzəngahı qan.
Çapır süvarilər yeltək cürətlə,
Qarışır dəstələr xeyli səbatlı.
Qalın divar kimi keçib hücuma
Vuruşur dəhşətlə piyada, atlı;
Qırır bir-birini hey cuma-cuma.
Bir tərəfdə qorxub ürkək at qaçır,
Burda rusdur ölən, orda peçeneq;
Burda nərə çəkir biri, od saçır;
Nizə yarasından ölür biri tək;
Qalxanın altında əzilmiş biri,
Oxla yaralanıb ölür digəri,
Harın köhlən etdi birini tapdaq…
Susdu, gecə durdu vuruşma ancaq;
Nə qəsbkar basdı, nə bizimkilər!
Meyitlər içində yatdı igidlər,
Gözlər mürgüləyib dərhal yumuldu,
Onların yuxusu əbədi oldu.
Hələ kəsilməyib axırdı qanlar;
Ağır yaralılar zarıldayırdı;
Dua oxuyurdu rus pəhləvanlar.

Səhərin kölgəsi solur-solurdu,
Dalğalar parlayıb axırdı dümdüz.
Şərqin dumanında əyan olurdu,
Titrəyə-titrəyə açılır gündüz,
Ətraf yavaş-yavaş şəfəq geyirdi,
Şəfəq oyadırdı yatmış səmanı;
Fəqət sakit-sakit mürgüləyirdi
Hələ qızıl qanlı döyüş meydanı…
Birdən qanlı düşmən gözünü açdı,
Oyandı yuxudan ahü-fəğanla,
Pozuldu səfləri bir həyəcanla…
Kiyevlilər dəxi heyrətlə qaçdı,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlar yüyürəndə, dəstəbədəstə,
Baxıb gördülər ki, çöldə, at üstə
Polad zirehləri gün tək parlayan
Bir atlı pəhləvan çapır durmadan
Həm sağa, həm sola, qırır leş salır,
O vuruşan zaman şeypur da çalır…
Ruslandı bu igid; çapırdı harın,
Allah bəlasıydı basurmanların.
Düşmən səflərini eyləyir viran,
Asıb cırtdanı da yəhər qaşından.
Orda ki, qılıncı səslənir azad,
Qəzəblənmiş atı çapır dörd yana,
Qoşunlar qoparır orada fəryad,
Başlar yuvarlanır qanlı meydana.
Cəsədlər qalanır bir an içində,
Təpələr yaranır meydan içində
Qanlı meyitlərdən, yaralılardan;
Hər tərəf ox, nizə, qılıncla qalxan…
Slavyanlar çapdı çölün düzüylə,
Qəhrəman səslənib şeypur çalınca,
Üz qoyub getdilər onun iziylə.
Vuruşub düşməni əldən salınca.
Bürüdü vahimə tutdu hər yeri.
Basqınların azğın yetirmələri,
Səslədilər qaçan atları dərhal;
Geriyə baxmadan, cumub biməcal,
Fəryad edirdilər dərindən-dərin.
Qılıncı altında kiyevlilərin
Düşmən cəhənnəmə vasil edildi;
Səfləri dağıdan rus qılıncıdır.
Kiyevin şadlığı hasil edildi…
Şəhərin içilə çaparaq, budur,
Tutub sağ əlində zəfər şəmşiri,
Parlayır nizəsi, gedir biməcal,
Bulayır qalxandan axan qan yeri.
Yenə dəbilqədə asılı saqqal.



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Onu eyləmişdir ümid qanadlı;
Yollar izdihamlı, gedir səbatlı;
Axışır kütlələr gəlir camaət;
Gəlir, bütün şəhər qalxır ayağa…
Qapladı Ruslanı dərin şətarət.
O sükut içində girdi otağa;
Görür Lüdmilası yuxuya dalmış.
Qızın atasını dərdü-qəm almış;
Ayağı altında fikrə gedərək,
Qoca Vladimir dayanırdı tək.
Dostları getmişdi qanlı meydana;
Farlaf göz yumaraq şöhrətə, şana,
Düşmən qılıncından xeyli uzaqda, –
Nifrət bəsləyirdi, qaraydı qanı.
Bədəfkar tanıdı igid Ruslanı,
Sönük nəzərləri söndü sərbəsər,
Qorxudan boğazı bağladı qəhər.
Diz çökdü, qalmadı canda dəyanət!..
Cəza gözləyirdi xain-xəyanət!..
Üzük şölə saçdı şirin canına,
Ruslan Lüdmilanın cumdu yanına.
Toxundu əlilə sakit üzünə…
Heyrət! Gənc knyajna gəldi özünə.
Açdı gözlərini aləmə ahla
Təəccüb eylədi, qəribədir bu!
Nədən qovuşmayıb aydın sabahla,
Nədən uzun sürüb əcaib yuxu.
Anlaşılmaz duyğu əzirdi onu,
İgidin tanıdı kim olduğunu!
Basdı öz bağrına gözəl Ruslanı.
Coşmuşdu həyəcandan igidin qanı,
Görüb eşitməyir, duymayır bir az.
Şadlığından baxıb ağsaçlı knyaz,
Qucur ağlayaraq övladlarını.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nəylə qurtaracaq əsərin sonu?
Əziz dost, duyarsan sən özün bunu.
İxtiyarın haqsız qəzəbi söndü,
Onların önündə Farlaf göründü.
Gizlədə bilmədi xəcalətini,
Aldı öz boynuna xəyanətini.
Xoşbəxt knyaz isə, əfv etdi onu.
Əlindən gedəli sehri, ovsunu,
Cırtdana verdilər sarayda xidmət;
Öldü şər, başladı eyş ilə işrət.
Öz uca qəsrində ağsaçlı knyaz,
Qurdu şən ziyafət, coşdu xoş avaz.

Bu, ötən günlərin hekayətidir,
Uzaq bir keçmişin rəvayətidir.

## EPİLOQ

Bir laqeyd sakini bu dünyanın mən
Sükut aləmində nəğmələr dedim;
Müti rübabımla dinclik bilmədən,
Keçmişi vəsf edib tərif eylədim.
O kor səadətdən, düşmənlərimdən,
Dönük Doridadan və axmaqlardan
Duyduğum inciklik, xəyanət, böhtan,
Nə varsa unutdum, heç saymadım mən.
Xəyali duyğular açdılar qanad,
Uçdum, bu dünyanı dolandım azad.
Başımın üstündə yığıldı bu dəm
Qalın sıx buludlar, qaraldı aləm!
Mən həlak olurdum... Keçən günlərin
Qüdsi qoruyusu, ey mehribanlıq!
Sən xəstə qəlbimə dərindən-dərin
Təsəlli vermisən! Yenə saç işıq,
Yatırtdın tufanı, başladı şadlıq!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dincliyi ömrümə qaytardın geri,
Coşqun gəncliyimin dostu – azadlıq
Əlinlə qorundu o gündən bəri.
Unudub qeybəti, xas cəmiyyəti,
Neva sahilindən çox uzaqlarda,
Qafqazda, vüqarlı uca dağlarda
Görürəm önümdə mən təbiəti.
Dağların sıldırım zirvələrində,
Yalçın qayaların qorxunc yerində
Sağır duyğularla vəhşi təbiət
Mənə qida verir, baxıram həsrət.
Yenə əvvəlkitək ürəyim, budur,
Yorucu fikirlə – ancaq doludur;
Şerimin alovu qalmayıb, heyhat!
Boş yerə gəzirəm mən təəssürat;
Bu atəş, bu alov, şeirlər dəmi
Sevgi, şirin yuxu, ürək həmdəmi –
İlham uzaqlara salmış özünü,
Vəcdin də ötmüşdür qısalan günü!
Sakit nəğmələrin ilahəsindən
Artıq ayrılmışam həmişəlik mən…

*1817-1820*



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## QULDUR QARDAŞLAR

Qara qarğa deyil bir dəstə bu gün
Çürüyən sümüklər üstə toplaşan.
Volqa kənarında, ocaq başında,
Quldurlar oturmuş yenə bu axşam…
Nə qədər müxtəlif üzlər, paltarlar,
Qəbilələr, dillər və müxtəlif hal!
Daxmadan, zindandan, çöldən onları
Qazanc ümidilə gətirmiş xəyal…
Bütün ürəklərin məqsədi birdir –
Hökmsüz, qanunsuz yaşayır onlar.
Donun o döyüşkən sahillərindən,
Onların içində qaçqın olan var.
Qara qıvrım saçlı yəhudi oğlan,
Vəhşi səhra oğlu rüzgarı acı,
Qalmıq və eybəcər başqırd balası,
Kürən fin, gəzəntə tənbəl, qaraçı!
Təhlükə, fəlakət, pozğunluq və qan –
Bu müdhiş külfəti budur bağlayan.
Onlardırlar bütün daş bir ürəklə
Hər cür cinayətdən, qandan keçənlər,
Öz soyuq əlilə kəsib qadını,
Körpələr qanını su tək içənlər…
Uşaq fəryadından həzz alıb gülən,
Onlardır insanı min dərdə salan,
Vüsaldan məst olan gənc aşiq kimi

Adam öldürməkdən nəşələr alan…
Hər yer sakit yatır, yalnız sarı ay
Solğun işığını saçmış onlara,
Köpüklü şərabla dolu bir badə
Əldən-ələ keçib gəzir bu ara…
Yaş torpaq üstünə sərilmiş bəzi,
Yuxusu sayıqdır bəzisinin, bax,
Uğursuz yuxular uçur onların
Cani və başlarını dinc qoymayaraq…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir qorxunc gecənin boş saatını,
Bəzən də əfsanə, nağıl doldurur.
Sükuta qərq olub dinləyir hamı,
Bir təzə gələnin sözünü, budur:

"İki nəfər idik – qardaşım və mən,
Bir yerdə böyüdük gənclik illəri;
Bir özgə ailə yetdirdi bizi:
Bir sevinc görmədik o gündən bəri...
Duyduq ehtiyacın acı səsini,
Gördük bizə hər vaxt xor baxanları.
Amansız paxıllıq əzablarıylə,
Boğuldu gəncliyin eşqi, vüqarı...
Biz yetimlərin nə bir daxması var,
Nə də bir torpağı, bir yeri vardı;
Belə həyat bizi yorub yandırardı,
Başımıza dünya elə bir dardı...
Danışıb söz qoyduq öz aramızda,
Bəxtimizi bir də dedik sınayaq,
Özümüzə yoldaş götürdük yalnız
Qaranlıq bir gecə, iti bir bıçaq...
Atıb dərdi-qəmi üstümüzdən biz,
O gündən vicdanı tulladıq təmiz...

Ah, gənclik, hünərli, qüdrətli gənclik!
Nə yaxşı güzəran keçirdi onda!
Ölümü nifrətlə qarşılayırdıq:
İkiyə bölürük hər şeyi sonda...
Parlaq ay göylərdə doğanda bəzi,
Biz yerin altından dərhal çıxardıq.
Qorxulu bir işi niyyət edərək,
Meşəyə soxulub, evlər yıxardıq...
Oturub gözlərdik ağac dalında,
Gecikmiş bir yolçu, zəngin bir cühud, –
Bu yoldan keçəni soyub-kəsərdik.
Kasıbca bir keşiş olsa da yaxud
Bəzən qış zamanı gecə yarıda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üçatlı faytonu dərhal qoşardıq…
Fit çalıb, oxuyar, qarda ox kimi
Çaparaq gəzdikcə xeyli coşardıq…
Bizə rast gəlməkdən kimdi qorxmayan?!
Görsək aşxanada yanır bir çıraq,
Cəld ora çapardıq, döyüb qapını,
Sahibəni bərkdən səslərdik ancaq.
İçəri girərdik, yeyib-içərdik,
Havayı, bir qəpik pul da xərcləməz.
Oxşayardıq gözəl-göyçək qızları,
Belə keçirərdik biz vaxtı bir az…

Bir gün ələ düşdü qəfil qardaşlar;
Çox sürə bilmədik səfalar belə.
Tutub bir-birimizə çatdılar bizi,
Zindana saldılar min cəfa ilə…

Beş yaş böyük idim mən qardaşımdan,
Ondan çox dözürdüm hər məşəqqətə.
Qolları zəncirli, zindan içində
Mən qaldım, dözmədi o bu möhnətə…
Zorla nəfəs alır, qüssədən yorğun,
Huşunu itirir, başı yanırdı.
Əyilib çiynimə yaslanır bəzən,
Özünü bir başqa yerdə sanırdı…
Ölərkən hey təkrar edirdi bunu:
"Burda darıxıram… gedək meşəyə…
Su ver mənə!.." deyir, mən də verirdim,
Bəlkə iztirabı azalsın deyə…
Təzədən yanırdı, yanğı içində,
Canından sel kimi hey tər axırdı,
Fikirləri, qanı coşurdu bəzən,
Qızdırma yandırıb onu yaxırdı…
Məni tanımadı, qarışdı huşu,
Səslədi dostunu, yoldaşını hey…
"Hara gizlənmisən?" – deyirdi mənə;
"Nə qaçırsan? – deyib, edirdi giley…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu zülmət qaranlıq içində məni,
Qardaşım nə üçün tulladı, qaçdı?
O dinc zəmilərdən qorxunc meşəyə,
Mənimçin yolları o özü açdı?!
Gecə vaxtı orda güclü, qorxulu,
Adam öldürməyi öyrətdi mənə,
İndi azadlıqda mənsiz dolanır,
Açıq düzənlərdə gəzir o yenə...
Ağır gürzü indi yelləyib azad,
Ağ günlər içində ömr eləyir şad,
Burda dara düşüb möhnətə yanan,
Dostunu unudub, yad etmir bir an!.."
Bəzən cansıxıcı vicdan əzabı
Onda baş qaldırır, yanırdı bəzən.
Barmaqla uzaqdan yanayıb onu,
Qorxulu xəyallar gəlirdi hərdən...
Çoxdan kəsdiyimiz bir ixtiyarın
Xəyalı heç onu dinc qoymur bir an;
Əliylə gözünü qapayaraq hey
Onu düşünürdü yazıq hər zaman...
Qocanın yerinə yalvarır mənə:
"Qardaş, göz yaşına yazığın gəlsin!
Bu qoca vaxtında doğrama onu...
Fəryadları əsər eləsin sənə...
Burax, ondan bizə təhlükə yoxdur,
Qanında bir damla yoxdur hərarət...
Onun ağ saçına gülmə, qardaşım,
Bizə dua edər, sən onu əfv et!"
Mən dəhşət içində qulaq asırdım,
Çalışırdım kəsəm göz yaşlarını...
Boş-boş xəyallardan qurtarım onu,
Azaldım qəlbinin qəm-qubarını...
Meşədən zindana yığışıb gələn
Ölülərin rəqsi görünür ona.
Gah duyar onların pıçıltısını,
Gah girir yenidən bir başqa dona...
Eşidib yaxında ayaq səsləri,



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Vəhşi baxışları yanırdı birdən.
Başında saçları biz-biz olurdu,
Titrəyirdi yarpaqsayağı bəzən...
Gah da qabağında görürdü sanki
Meydanlarda gəlib durmuş izdiham,
Cəza yerinədək dəhşətlə gedir...
Qamçılar, cəlladlar hazırdır tamam...
Vahimə içində hissiz düşürdü,
Mənim sinəm üstə xəstə qardaşım,
Gözümüzü bir an yummadıq onda...
Rahatlıq bilmədi bu yorğun başım...

Lakin cavanlığın çoxdur qüvvəti,
Qardaşım sağaldı, durdu ayağa,
Dəhşətli xəstəlik qurtardı, keçdi,
Mərəz təhlükəsi köçdü uzağa.
Yenidən canlanıb, dirildik tamam,
Əvvəlki həyatın artdı qüssəsi...
Azadlıq meşələr istədi ürək,
Çağırdı çöllərin şirin nəfəsi.
Zindanın zülməti əzirdi bizi,
Barmaqlıqdan düşən sarı şəfəqlər,
Keşikçinin səsi, zəncir səsləri,
Bir quş civiltisi etmirdi əsər.

Əlimiz zəncirli, küçələrdə biz,
Sədəqə *yığırdıq həbsxanayçın.*
Çoxdan qəlbimizdə yatan arzunu
Qət etdik ki, indi eləyək yəqin...
Bir yanda çağlayıb gurlayırdı çay;
Atıldıq sahildən çaya nəhayət,
Bir yerə çatılmış zəncirlərlə biz
Ayağımızla tək üzlük bir müddət...
Kiçik qum adası göründü birdən,
Üzüb cərəyanı keçdik tərsinə.
Ora can atarkən arxamızca hey,
Bağırdılar: tutun, qaçdılar yenə...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İki qarovulçu üzür uzaqdan,
Lakin biz adaya çatmışdıq artıq,
Daşla buxovları qırıb açaraq,
İslanmış paltarı yırtıb atırıq...
İzləyirlər bizi görürük aydın.
Ürəklə baxırıq... birisi batır,
Gah boğulur, gah da inləyir suda,
Qurğuşun tək çayın dibinə yatır...
Digəri əlində silahı üzür.
Mənim bağırtıma verməyir fikir,
Bizim atdığımız iki daş onun,
Başının qanını sulara tökür...
O batdı, biz isə cumduq sulara,
Dalımızca düşən olmadı daha.
Yetişdik sahilə, getdik meşəyə,
Ancaq yazıq qardaş tapmadı şəfa...
Soyuq payız suyu, çəkdiyi zəhmət
Xəstə vücuduna elədi əsər.
Qızdırma taqətdən saldı yazığı,
Göründü gözünə qorxunc kölgələr...
Üç gün danışmadı bir kəlmə xəstə,
Yummadı gözünü bircə an belə;
Dördüncü gün qəmli bir qayğılə o
Çağırıb əlimi sıxdı həsrətlə...
İçində çəkdiyi qorxunc əzablar.
Sönən gözlərində parladı bir an,
Əlləri titrədi, çəkdi dərin ah,
Sinəmin üstündə yatdı sonradan...

Soyuq bədənini qucaqlayıb mən,
Ayrılmadım ondan üç gün, üç gecə.
Gözləyirdim bəlkə oyandı ölü,
Qardaşımdan axı ayrılım necə...
Bel alıb oxudum günah duası,
Qazdım qardaşıma orda bir qəbir.
Onu torpaqlara basdırıb yenə,
Əvvəlki peşəmə tökdüm bir tədbir...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin keçən illər getdi uzağa,
Qonaqlıq, gecələr kef məclisləri,
O coşqun basqınlar, hər şənlik, sevinc
Məhv oldu qardaşım öləndən bəri…
Yalqız və kədərli sürünürəm mən,
Amansız ürəyim dönmüşdür daşa.
Qəlbimdə mərhəmət ölmüşdür çoxdan,
Vururam ömrümü qüssəylə başa…
Bəzən ağsaçlara verirəm aman,
Qoca kəsmək mənə dəhşətli gəlir;
Köməksiz, qırışıq qoca sifətə,
Əlim heç qalxmayır, bağrımı dəlir.
Amansız zindanda xəstə qardaşım,
Əlləri buxovlu, taqətsiz, bihal,
Qüssəylə deyirdi yalvarıb mənə:
"Qocaları kəsmə, burax, yola sal".

*1821-1822*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# QRAF NULİN

Artıq çatmışdır zaman, qoy çalınsın borular,
Səfər paltarı geymiş it saxlayan ovçular
Səhər tezdən qalxmışdır at üstünə müntəzir.
Ova hazır tazılar belədən-belə gəzir.
Ağa ağır addımla gəlib çıxır eyvana,
Əli belində durub baxır o yan-bu yana.
Onun gözləri gülür, üzü görünür məmnun,
Onda yaxşı xəbər var, kefi durudur onun.
Bəzəklidir çuxası, yaraşıqlı papağı;
Sancımışdır qurşağına yekə bir türk bıçağı.
Romla dolu bir matra asılmışdır kəmərdən,
Bir də buynuz asılmış nazik, qızıl zəncirdən.
Öz gecə paltarında, başında ağ bir ləçək,
Arvadı pəncərədən çox qaşqabaq tökərək
Baxırdı toplanışa, adamlara, itlərə,
Əri bir an içində tez atlandı yəhərə.
Arvadına bağırdı: – Məni gözləmə, yat sən! –
Atını sürüb çıxdı, dəstəsiylə həyətdən.

Sentyabr ayının son günlərində belə –
(Fikrimizi söyləsək, yoxsul nəsr diliylə)
Kənddə ürək darıxır, hər yer palçıqdır, çəndir,
Külək əsir, göydən də xırda-xırda qar gəlir.
Ulayır orda-burda ac gəzən canavarlar.
Ovçuyçun bu günlərin başqa bir aləmi var.
Çöldə, düzəndə sürür atı belədən-belə,
Gecikdi, axşamlayır meşədə dəstəsiylə.
Söyüş söyür, islanır, gah da kefə oturur;
Həvəsli ovçuluğun məziyyətləri budur.

Ər kefdə, şikardadır. Arvad evdə neyləsin?
Kimə açsın dərdini, bəs kimlərə söyləsin?!
İş azdırmı? Bax, hələ duzlanmayıb göbələk;
Şam üçün, nahar üçün o sərəncam verəcək.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qazlara baş çəkəcək, zirzəmiyə baxacaq,
Evdə ki, xanım oldun, hər bir şeyə özün bax!
Yiyə gözü itidir, tez fərq edər hər nə var,
Xüsusilə bu işdə mahir olur qadınlar.

Təsvir etdiyim xanım, (təəssüf olsun ki, çox,
Ad qoymağı unutduq ona, keçər, eybi yox,
Əri, Nataşa deyə, çağırardı hər zaman.
Biz Natalya Pavlovna ad qoyarıq, nə ziyan?)
Bu Natalya Pavlovna, təəssüf olsun ki, heç
Təsərrüfat işiylə – məşğul olmazdı: – Vaz keç, –
Deyərdi. Çünki evdə ata-baba dəbiylə
Tərbiyə almamışdı, uşaqlığında belə
Nəcib bir pansiyonda olmuşdu il uzunu,
Mühacirə Falbala yetişdirmişdi onu.

Pəncərə qabağında oturmuş düşüncəli,
Sentimental bir roman vərəqləyirdi əli,
Dördüncü cild Armanın, Elizanın sevgisi.
İki külfət məktubu, həm maraqlı, həm hissi.
Bu klassik romandır. Çox qədimdir, çox uzun.
Uzun, dedikcə uzun, dərmanı yuxusuzun.
Orda ədəb-ərkandan söhbət var varaq-varaq,
İçində bir romantik əhvalat yoxdur ancaq.

Natalya Pavlovna çox diqqət verərək, əvvəl
Oxuyurdu kitabı, ondan çəkməyirdi əl.
Birdən həyətdə itlə keçi dava başladı,
Natalya Pavlovna da oxumağı boşladı.
Gülüşüb əl çalırdı bir çox oğlan uşağı,
Natalya baxan zaman pəncərədən aşağı,
Gördü hind toyuqları qovlayır bir xoruzu;
Xoruz suya düşərək, lilləndirir hovuzu.
Yanda, bir gölməçədə sakit üzür üç ördək,
Bir arvad da, çiynində yaş paltarlar, keçərək
Gedir sərsin onları qabaqdakı hasara,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hava da çox pisləşir, çox güman vardır qara.
Natalya oldu diltəng,
Birdən cingildədi zəng.

Hicra, qəmli guşədə yaşayanlar bilirlər;
Bir zəng səsi insanı sevindirir nə qədər.
Düşünürsən, bəlkə də gələn əziz qonaqdır:
Bəlkə gənclik yoldaşın bu gələn olacaqdır.
Bəlkə gələn o qızdır; könlünü əsir edən.
Yaxınlaşdı. Lap yaxın. Kimdir o keçib gedən?
Yox, o deyil. Zəng səsi uzağa ötdü, getdi,
Səslər dağın dalında əriyib tamam itdi.

Natalya Pavlovna tez qaçıb çıxdı eyvana,
Zınqırov səslərindən o gəlmişdir həyəcana.
Görür: çayın yanında, dəyirman tərəfdə, bax
Bir kolyaska sürətlə gəlir toz qaldıraraq.
Odur, çatdı körpüyə, yəqin ki, gəlir bizə,
Buruldu sol tərəfə. Yox, üz döndərdi düzə.
Natalya Pavlovnanı boğur bir hiss, bir qəhər.
Özünü ağlamaqdan saxlayır o bir təhər.

Birdən. Nə gözəl oldu. Dağ ətəyi… enişdir,
Kolyaska böyrü üstə yıxıldı. "Bu nə işdir?
– Filka, Vaska, yubanma, kim var orda, tez olun,
Gedin, bura gətirin tez yetişin köməyə,
Ağanı dəvət edin evimizə yeməyə.
Lakin sağdırmı yazıq, tez olun, bilin xəbər,
Yubanmayın, cəld olun!"

Yüyürüşür nökərlər.
Natalya da fürsəti əlindən verməyərək
Baş-gözünü düzəldib, üzünə vurur bəzək.
Saçlarını hörür tez, çiyninə bir şal salır,
Həyəcanından bir anda min rəng verib, rəng alır.
Pəncərə pərdəsini bir azca qaldıraraq,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kürsü çəkib oturur, baxışlarında maraq.
Qəlbi tez-tez döyünür, gözlərində intizar,
Nə oldular görəsən? Hanı, ey pərvərdigar?
Ah, budur, göründülər. Nəhayət gəlir onlar,
Uzaq yol səfərində bəlaya uğrayanlar.
Üst-başları toz-torpaq, bəzisi bərk yaralı,
Gəlirlər yavaş-yavaş, bir-birindən aralı.
Onların arxasınca yeriyir axsayaraq,
Cavan zadəgan, budur. Nökər fransız ancaq,
Heç dil boğaza qoymur, allons, courage[1] deyir.
Eyvanın qabağına gəlib çatırlar bir-bir.
– Lütfən buyurun, – deyə, qapıları açaraq,
Hələ ağaya məxsus ayrılırkən bir otaq,
Hələ Picard səs salıb, çalışıb vurnuxurkan,
Hələ yol paltarını dəyişərkən zadəgan,
Söyləyimmi sizə mən, kimdi gələn bu qonaq?
Qraf Nulin! Yad eldən səfərə çıxmış qoçaq.
Gələcək mədaxili, o yerlərdə, bu adam,
Modalar tufanında, bada vermişdir tamam.
İndi də üz tutmuşdu o, Petropola sarı
Ki, heyrətə gətirsin doğma vətəndaşları.
Ehtiyat gətirmişdi bir yığın plaş, frak,
Yelpiç və qol düyməsi, ayaqqabıyla, papaq.
Rəngli əlvan dəsmallar, jiletlər, a jour[2] corab,
Sancaq, lornet, Qizotun – əsəri müdhiş kitab,
Vərəqləri yazılmış bir qalın, qara dəftər.
İçi dolu tikanlı, acı-acı həcvlər.
Paris saraylarının məşhur hərzə-hədyanı.
Bir də Valter Skottun yeni çıxmış romanı,
Bir də ki, Beranjerin ən yeni bir nəğməsi,
Rossini, həm də Perin gözəl. Xoş təranəsi
Və daha nələr, nələr, sadalamaqla bitməz.
Bəsdir, – dedim, – bu qədər, sizi yormayım əbəs.

[1] Cürətlə, irəli
[2] Zərif toxunmuş



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səbirsizcə gözləyir çoxdan ev sahibəsi,
Açılmışdır, hazırdır onun qonaq süfrəsi.
Birdən qapı açılır, qraf girir otağa,
Natalya Pavlovna da qalxıb durur ayağa,
Hörmətlə qarşılayıb özü cavan qonağı;
Əhval tutur: necədir indi onun ayağı.
Qraf da cavab verir: "Sağ olun, keçər-gedər".
Gəlib süfrə başına, kürsüyə əyləşirlər.
Qraf məhrəm dost kimi ona yaxın oturur,
Söhbətini başlayır, gah danışır, gah sorur,
Müqəddəs Rusiyanı məzəmmət eləyərək,
Deyir: "Onun qarına necə tab edər ürək".
Xatırlayır Parisi təəssüflə, kədərlə,
İnsan orda darıxmaz ömür sürsə illərlə.
"Bəs teatr necədir?" – "Ax, indi qalır yetim,
Cest bien mauvais çafait pitie[1]
Talma lap kar olmuşdur, gücdən düşmüşdür əlan,
Mamzel Mars da ki, heyhat, qocalıb gedir yaman.
Ancaq qaldı ki, Pote, le grand Potier[2] yenə bax,
Öz köhnə şöhrətini o saxlamışdır ancaq".
"İndi yazıçılardan modada kimdir, deyin?"
"Yenə, də Arlincourt, yenə qoca Lamartin"
"Bizlərdə onları çoxdur təqlid edənlər".
"Yox, canım? Doğrudanmı? Görünür ki, aqillər
İnkişaf eləyərək, yüksəlirlər bir qədər.
Olsun, Allah eləsin, biz də maariflənək".
"İndi bellər necədir, lütfən söyləyin görək?"
"İndi kəmər yarıdan lap aşağı… burdandır…
Necə geyinmişsiniz, lütfən baxım, hamandır,
Baxyalı tül, burda bant, bu naxış da ortaya
Yaraşır. Bunlar düzü çox yaxındır modaya".
"Biz "Teleqraf" alırıq. Orda yazılır bunlar".
"Aha, istəyirsiniz, bir gözəl vodevil var", –
Qraf deyib bu sözü, başlayır oxumağa,

[1] Çox pisdir, lap adamın heyfi gəlir.
[2] Böyük Potye



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun səsi yayılır bütün evə, otağa.
"Qraf, lütfən bir yeyin!"
"Onsuz da toxam!". Onlar
qalxır süfrə başından. Xanımda başqa hal var.
O çox şəndir, gülşəndir. Qraf unudub artıq
Parisdən söhbətini. Düşünür, bu yaraşıq,
Bu gözəllik hardandır? Vaxt keçir, gecə olur,
Ürəyinə qrafın min şirin arzu dolur.
Gah xanımın baxışı onda ümid oyadır.
Birdən gülüş əriyir, elə bil ki, boyadır.
Qəlbinin sorğusuna qraf almayır cavab.
Susur ev sahibəsi, nə bir nida, nə xitab.
Gecə yarıdan keçib, görür qraf bir zaman,
Artırmada xidmətçi xorhaxor yatır çoxdan.
Tutmuşdur hər tərəfi səsilə xoruz banı,
Gecə keşikçisi də taqqıldadır taxtanı.
Şamlar yanıb qurtarıb, zülmət çöküb otağa,
Natalya Pavlovna da birdən durub ayağa.
Deyir: "Vaxtdır, sağ olun, sizi gözləyir yataq,
Gecəniz xeyrə qalsın!" Qeyri-məmnun qalxaraq,
Bizim yarı vurulmuş, ədəb-ərkanlı mehman
Tutur onun əlindən, lakin, baxın, bu zaman
Nə olur. Nazü-qəmzə nələr doğurur, eyvah!
Bizim sevimli afət (onu bağışla, Allah).
Öz əlində qrafın əlini sıxır yavaş,
Sonra süzülüb gedir öz otağına birbaş.

Natalya Pavlovna tez soyunmuş, yataqdadır,
Paraşa da dayanmış yanında. Otaqdadır.
Dostlar, deyim, qoy bilin, bu Paraşa nəçidir,
Həm xanımın sirdaşı, həm də ki, xidmətçidir;
Paltar yuyur, şey tikir, həm də xəbər gəzdirir,
Uzun-uzun danışır, lap insanı bezdirir.
Hərdən gəlib xanımdan köhnə paltar istəyir.
Nimdaş kapot, ya köynək, hər nə ki var, istəyir.
O bəzən ağasilə görürsən mazaqlaşır,
Bəzən ona çəmkirir, bəzən həddini aşır.
Bəzən gəlib xanıma ağ yalanlar söyləyir,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qiybətlər, uydurmalar, həm böhtanlar söyləyir.
Söhbət açıb indi də ona gələn qrafdan:
(Deyər köhnə tanışdır hər kim baxsa qıraqdan).
O hardan öyrənibdir bu qədər məlumatı,
Söyləyir bircə-bircə bütün təfərrüatı.
Nəhayət təngə gəlib, xanım deyir: "Di bəsdir,
Xeyli danışdın, dedin, söhbətini di kəs bir!
Mənə köynək, ləçək ver!" Sonra da qovur onu,
Yatır, hələ duymadan xeyli yorulduğunu.

Fransız xidmətçi də qrafı soyundurub,
Yatağına salmışdır. Özü yanında durub,
Buyruğa müntəzirdir. Qraf siqar istəyir.
Müsyo Pikart baş əyib: "Cənab, bu saat", – deyir
Sonra siqar gətirir, bir də bir su bardağı,
Bir də bürünc bir şamdan, işıqlatsın otağı,
Bir yaylı qayçı, saat, bir də gümüş stəkan,
Bir də, hələ vərəqi kəsilməmiş bir roman.

Qraf öz yatağında Valter Skotta baxır,
Bir səhifə oxuyur, beş səhifə buraxır.
Onun könlü nigaran, ürəyi təşvişdədir,
Öz-özündən soruşur, vurulmuşam, ya nədir?
Fikirləşir, nə olar? Qəribə gəlir bir az
Ona bunlar. Sonra da düşünür ki, bəd olmaz.
Həm də məndən deyəsən xanım xoşlanıb, deyir,
Sonra şamı söndürüb, yuxulamaq istəyir.

Lakin yuxusu gəlmir, fikri qarışır yaman,
Dolanıb keçir onun nə desən xəyalından.
Gözünün qarşısında, nə səhnələr dolanır,
Səbirsiz ürəyində nələr-nələr dolanır,
Qarşısında canlanır xanımın şux gözləri,
Mənalı baxışları, şirin-şirin sözləri.
O kənd yerinə məxsus qırmızı yanaqları,
Ehtiraslı, təzə-tər gül kimi dodaqları.
O sevimli ayaqlar, o boy-buxun, o duruş,
O nəzakət, o əda, o hərəkət, oturuş.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birdən düşür yadına. Ondan ayrılan zaman,
Xanım bir an tutaraq onun barmaqlarından
Xəfif sıxdı əlini.
Bəli, bəli, ah, axmaq!
Sən bircə an da belə ondan ayrılmayaraq
Fürsət aramalıydın. Hələ gec deyil, fəqət
Qapı bağlanmamışdır, qapı açıqdır əlbət,
Güllü ipək xalatı tez çiyninə salaraq,
Dadlı-şirin xəyalın ləzzətinə dalaraq,
Qraf gedir. Yolunda bir stul da yıxır o,
Ayağının ucunda otağından çıxır o.
Bu bir yeni Lükretsi, bu yeni Tarkvinidir.

Şikarının dalınca qraf cürətlə gedir.
Evin xidmətçisinə sevimli bir dost olan,
Siçanların qənimi çevik, hiyləgər məstan
Belə ov arxasınca oğrun-oğrun sürünür,
Bəzən yumub gözünü, yatmış kimi görünür.
Bəzən durur, bükülür tüklü bir yumaq kimi,
Pəncəsini açaraq sakit durub, dayanır,
Birdən-birə sıçrayır, ov qanına boyanır.

Bizim aşiq qraf da əllərini sürtərək,
Qaranlıqda yeriyir. Yıxılır, qalxır tək-tək.
Ehtirasın alovu yandırıb yaxır onu.
Min bir həvəs, min arzu doldurmuşdur könlünü.
Ayağını ehmallı, yavaşca basa-basa
Yeriyir o. Döşəmə qəflətən cırıldasa –
Qəlbi yarpaq tək əsir. Gəldi nəhayət, budur,
O qapının yanına. Bürünc dəstəyi burur.
Qapı səssiz-səmirsiz açılır yavaş-yavaş,
Ehtiyatla yeriyir girir, otağa birbaş.
Bir yanda zəif yanır kiçik gecə çırağı,
Onun solğun işığı bəzəmişdir otağı.
Xanım yatmış, otaqda sanki məsum mələkdir.
Bəlkə də yatmamışdır, bu özü bir kələkdir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O çəkilir geriyə, baxır durduğu yerdən;
Yıxılır ayağına xanımın sonra birdən.
Xanım... İndi lütf edib Peterburq xanımları
Təsəvvür eləsinlər, bu zaman, gecə yarı
Natalya Pavlovna bəs heyrətlə diksinərək
Necə qalxdı yuxudan və neyləsin o gərək?

O, iri gözlərini açıb, heyrət içində,
Qrafa zilləmişdir böyük dəhşət içində.
Oxuyub-öyrəndiyi məhəbbətdən, duyğudan
Üstünə yağdırırdı onun bizim qəhrəman.
Uzadaraq əlini, sonra da cürətlə, bax,
İstədi yorğanından yapışsın onun... Ancaq
İtirmişdi özünü əvvəl o nazlı canan.
Bir an sonra toxtayıb özünə gələn zaman
Sinəsini qabardır, coşqun bir qəzəb, qürur,
Bəlkə qəzəb deyildir, bu adi bir qorxudur.
Nəsə... O Tarkviniyə birdən bütün gücüylə
Bir yağlı şillə vurur. Bəli, yaxşı bir şillə.
Bir şillə ki, səslənir otaqda güllə kimi,
Hər kişi vura bilməz şillə, bu şillə kimi!

Qraf Nulin həyadan bütün alışıb yanır,
Lakin bir an yerində donmuş kimi dayanır.
Bu təhqirə qarşı o neylərdi bilmirəm,
Dəhşətli hal keçirdi, düşünüb durdu; bu dəm
Tüklü köpək də hürüb haray saldı nagəhan
Paraşanı oyatdı o şirin yuxusundan.
Ayaq səsi eşidib qraf tez daban aldı,
Bütün olub-keçəni nifrətlə yada saldı,
Lənət dedi bəxtinə, lənət belə afətə,
Bu qəribə ədaya, bu qəribə xislətə.

Gecə hələ keçməyib, açılmamışdı səhər,
Paraşa, xanım, qraf bəs sonra nə etdilər?
İxtiyar sizinkidir, təsəvvür edin görək,
Bu işdə məndən əsla gözləməyin bir kömək.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Səhər ayılır qraf, o dinməyir, qəmlidir.
Yavaş-yavaş geyinir, görkəmi ələmlidir.
Könülsüz təmizləyir çəhrayı dırnağını,
Dəsmal çıxarıb silir sonra da barmağını.
Səliqəsiz bağlayır qalstuku boynuna.
Bu yorğun, tənbəl əda hardan gəlmişdir ona?
Çatmışdır bir-birinə qraf nazik qaşını.
Nələr düşünür qraf doğrusu, bilmirəm mən.
Onu çaya çağırır, gəlir xidmətçi birdən.
Neyləsin, əlac nədir? Öz gizli nifrətini,
Rüsvayçılıqla bitən yüngül məhəbbətini
Ataraq bir tərəfə qraf gedir dəvətə,
Budur, təzim eləyir qraf şıltaq afətə.
Gözünü dikir yerə, gülümsəyir o canan,
Bir az rişxənd də vardır baxışında bu zaman.
Xəfif qızartı örtmüş onun yanaqlarını,
Hərdənbir də dişləyir lalə dodaqlarını.
Əvvəlcə söhbət açır, ordan-burdan danışır.
İlkin qraf çəkinir, bir az sonra alışır.
Cavab verir, soruşur, gülümsəyir də bir az,
Söhbət başladıqları yarımca saat olmaz,
Baxın, yenə də gülür, zarafatlaşır,
Şirin söhbət, naz, əda yenə həddindən aşır.
Qəflətən artırmadan bir səs gəlir bu zaman,
Bir nəfər daxil olur. Kim? "Salam, Nataşacan!"
"Aman Allah, buyurun, qraf, gəlmişdir ərim.
Yolunu gözlədiyim, əziz canım, ciyərim.
Bu da qraf Nulindir, tanış olun".
"Çox şadam.
Hava yaman xarabdır, düzü, darıxır adam.
Dəmirçi dükanının yanından keçəndə mən,
Gördüm kolyaskanızı, tərpənməyə yerindən
O, hazırdır. Nataşa bostanın yanında, bax,
Bir boz dovşan vurmuşuq, burdaca qovlayaraq.
Araq gətirin bura! Qraf, əlbəttə ki, siz
Lütfən bizim araqdan bir az meyl edərsiniz,
Qraf, gözəl araqdır, bir dostun töhfəsidir,
Uzaq yerdən göndərib, siz dadına baxın bir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nahara bizdəsiniz, yəqin, şübhəsizdir bu".
"Bilmirəm ki, nə deyim, tələsirəm doğrusu".
"Bu nə sözdür, boşlayın! Həm xanım, həm də ki, mən
Sizdən rica edirik. Getməyin, qalın lütfən".
Qrafın ümidləri boşa çıxmışdır tamam;
Geri qayıtmayacaq bir də o keçən axşam.
Fürsət getdi, təəssüf, qraf kədərlidir çox,
Getməlidir, neyləsin, indi ayrı çarə yox.
Pikard da bir stəkan araq vurub bədənə,
Kolyaskaya daşıyır çamadanları yenə.
İki nəfər xidmətçi sandığı aparırlar
Kolyaskaya qoymağa. Artıq, verilmiş qərar.
Eyvanın qabağında dayandılar bir qədər,
Pikard şeyləri qoydu. Qraf mindi, getdilər.
Burda bizim hekayət qurtardı, a dostlar,
Ancaq mənim deməyə iki kəlmə sözüm var.

Qonağın kolyaskası elə ki, gözdən itdi,
Natalya söhbət açdı, olanları nəql etdi
Başdan-başa ərinə. Qrafın əməlləri
Yayıldı qonşulara, hər kəs bildi xəbəri.
Natalya Pavlovnaya qoşularaq, ürəkdən
Kimdi, bilirsinizmi, bu əhvalata gülən?
Yox, onu bilməzsiniz! Neçin? Bunun sirri var.
Ərimi? Yox, qətiyyən! Onu bu macəralar
Yaman hirsləndirmişdi, o çox acıqlanaraq,
Deyirdi ki, bu qraf həm cahildir, həm axmaq.
Ona bir toy tutaram, bağırar heyvan kimi,
Boğduraram itlərə onu bir dovşan kimi.
Gülən o deyildi, yox. Başqasıydı, o, cavan.
İyirmi üç yaşında Lidin, qonşu zadəgan.

İndi ədalətlə biz deyərik xoşdur həyat,
Bizim zəmanəmizdə ərinə sadiq arvad
Heç də nadir şey deyil. Belə deyilmi, dostlar?
Mənim bu sözlərimdə, görürsünüz, əsas var!

*1825*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## POLTAVA

The power and glory of the war,
Faithless as their vain votaries men
Had passed to the triumphant Czar.[1]

*Bayron*

### *İTHAF*

*Sənə – lakin ilham vəcdə gəlirkən,*
*Səsi qulağına çatarmı bir gün?*
*Qəlbimin dinc bilməz meylini, görən*
*Anlaya bilərmi o sadə könül?*
*Şairin ithafı, bəlkə də, canan,*
*Ötəcək qarşından axar su kimi.*
*Təqdir edilmədən, cavab almadan,*
*Keçən eşqi kimi, arzusu kimi?*

*Sənə əziz olan səsləri barı,*
*Eşit, heç olmazsa belə vaxtımda.*
*Bil ki, hicran dəmi, könül qubarı*
*Çoxalan zamanda, dönük baxtımda,*
*Sənin yoxluğundan doğan kədərin,*
*Sənin söhbətlərin, sənin sözlərin,*
*Könlümün müqəddəs xəzinəsidir,*
*Eşqin ruhumdakı doğma səsidir.*

### BİRİNCİ NƏĞMƏ

Koçubey zəngindir, çox hörməti var,
Yoxdur çöllərinin ucu-bucağı.
Onundur qoruqsuz, azad ilxılar,
Dolaşıb gəzirlər bütün otlağı
Tamam Poltavanın xutorlarını
Onun bağçaları, bağları örtmüş.
Onun saya bilməz kimsə varını,
Nə qədər xəz, atlas, nə qədər gümüş,

[1] Müharibənin qüdrəti, şan və şərəfi, bunların düşkünü olan adamlar kimi qalib hökmdarın tərəfinə keçdilər (*Bayron*).



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə qədər desən var, – açıq və pünhan;
Qonaq-qaralıdır evi hər zaman.
Ancaq Koçubeyin əsl sərvəti
Uzun yallı atlar, yəhər deyildir.
Qızıl-gümüş deyil onun dövləti,
Babasından qalan kəndlər deyildir.
Onun fəxri – qızı, şux nigarıdır.
Bu qız, Koçubeyin iftixarıdır.

Bütün Poltavanı gəzsən nə qədər,
Mariyadan gözəl bir qız tapılmaz.
Çöllər çiçəyin tək qəşəng, təzə-tər,
Qoynunda bəsləmiş onu sanki yaz.
Kiyev sərvi kimi boy-buxunludur.
Yeriyən zamanda ondakı qürur
Göllər sonasını andırır, hər an,
Duruşu maraldır, baxışı ceyran.
Sinəsi ağappaq, təzə-təmiz qar,
Düşmüş topuğuna dümqara saçlar.
Buludla örtülmüş aytək çöhrəsi,
Ulduz gözlərinin var min töhfəsi;
Nazik dodaqları bir qönçə güldür,
O bircə hüsniylə məşhur deyildir;
Adını dillərdə dastan eyləyən,
Görüb, eşidəni heyran eyləyən,
Onun həm ağlıdır, həm də isməti,
Təvazökarlığı, gözəl xisləti.
Odur, Ukraynadan, Rus torpağından,
Elçilər gəlirdi ona hər zaman.
Buxov tək qorxardı nişandan ancaq,
Mariya qaçardı onlardan uzaq.
Bütün elçiləri o rədd edərdi,
Axır hetman özü elçi göndərdi.

O qoca kişidir, sonsuz qayğılar,
Döyüşlər qoymamış onda iqtidar.
Ancaq duyğuları coşmuşdur yenə,
Mazepa qul olmuş öz sevgisinə.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Cavan qəlbin işi başqadır əlbət:
Birdən yanır, sönür onda məhəbbət.
Birdən axır gəlir, birdən çəkilir,
Hər gün ürəyinə bir həvəs gəlir.
Tufan, boran görmüş qara daş kimi
İllərlə bərkimiş bir qoca qəlbi
Elə müti olmaz, sərsəri olmaz,
Onun ehtirası ötəri olmaz.
Ehtiras odunda o yavaş-yavaş
Bərkimiş, onu heç sarsıtmaz təlaş;
Soyuyan deyildir belə hərarət,
Həyatilə çıxar canından, əlbət.

O ceyran deyildir qartal görürkən,
Qayalar altında qaçıb gizlənə.
Gözəl qız dəhlizdə gəzişərək tək,
Bir qərar gözləyir hey titrəyərək.

Qəlbi hiddət dolu, kin dolu ana
Acıqlanmış, gəlir qızın yanına.
Əllərindən tutub deyir ordaca:
"Ax utanmaz qoca, həyasız qoca!
Belə şey olarmı? Yox, yox, biz sağkən,
Onun bu niyyəti baş tutmaz, inan!
Doğma ata kimi, dost kimi gərək,
O öz qızlığını əzizləyərək,
Ona ömrü boyu koc baxmayaydı.
Azğın qoca! Məgər qız sənə taydı?
Bir ayağı gorda, buna baxın bir,
O öz qızlığını almaq istəyir".
Mariya diksindi, onun üzünü
Ansızın bürüdü bir sarı pərdə.
Bədəni soyudu, yumdu gözünü,
Yıxıldı eyvana durduğu yerdə.

Özünə gəlincə yenidən yenə
Yumdu gözlərini, oldu sanki lal.
Anası, atası onun dərdinə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Təsəlli axtarır; keçsin bu məlal.
Könlündəki qəmi, gizli qorxunu
Qovmaqçın min dilə tutdular onu.
Ancaq əbəs yerə. Tamam iki gün
Gah göz yaşı töküb, gah inləyərək,
Mariya yemədi, içmədi bütün,
Gəzdi kölgə kimi bağçaları tək.
Üçüncü gün artıq boşdu otağı,
Heç yerdən gəlmədi onun sorağı.

Bir kimsə bilmədi nə zaman, necə
Mariya yox oldu. Yalnız o gecə
Bir qoca balıqçı balıq tutarkən,
Eşitmişdi, atlar keçdiyi zaman.
Eşitmişdi, xəfif bir qız səsini,
Kazak sözlərini, it hürməsini.
Sübh açılan zaman, çöllərdə səhər
Səkkiz nal izini şehdə gördülər.

Tüklənmiş gənc yanaq, şux gözlər deyil,
Qıvrım sarı saçlar, şən üzlər deyil,
Bəzən qocaların ciddi görkəmi,
Üzünün çapığı, ağarmış başı
Salır gözəlləri tora quş kimi,
Ehtiras içində coşur göz yaşı.

Bir axşam Koçubey fikrə dalmışkən,
Bu məşum xəbəri verdilər ona:
Namusu, həyanı atıb tamamən
Mariya caninin girmiş qoynuna.
Anlaya bilməyir ata-anası
Bu dedi-qodunu. Birdən o zaman
Gəlir həqiqətin açıq aynası,
Bütün dəhşətilə görünür əyan.
O zaman yaramaz, gənc günahkarın
Qəlbinin duyğusu olur aşikar:



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Atıb məclisini o qonaqların
Neçin dolaşırmış külfətdən kənar.
Dərdli ürəyində gizli iztirab,
Gələn elçilərin salamlarına
Bir məğrur sükutla verirmiş cavab,
Güvənib hüsnünə, öz vüqarına,
Qədəhdə köpüklü şərab daşanda,
Danışıq coşanda, söhbət qızaraq,
Neçin sakit-sakit süfrə başında
O fikir verirmiş hetmana ancaq.
Nədəndir ki, hələ yoxsul bir adam,
Şöhrətsiz bir gənckən indiki hetman,
Qoşub, düzəltdiyi nəğməni müdam
Dilindən salmırmış Mariya bir an.
O nazik, riqqətli qəlbilə nədən
Sevirmiş atlılar dəstəsini o,
Eşidib nağara, sinc səsini o,
Maloross hakimi gəlib keçirkən,
Hetman bəzəyinə onun baxırmış,
Bulava, buncuqçun qəlbi axırmış...

Koçubey zəngindir, hörməti, vardır;
Çoxdur adamları, çoxdur dostları.
İstəsə həll edər o, bu davanı,
Qaldırar üsyana o Poltavanı
Hücumla qəflətən girər saraya,
İntiqam odunu orda söndürər.
Qəlbinə vurulmuş müdhiş yaraya.
Qarşı o, hetmanı özü öldürər.
Ancaq Koçubeyin fikri özgədir,
Axtarır onunçun başqa bir tədbir.

O zaman iğtişaş sarmışdı yurdu,
Rusiya toplayıb öz qüdrətini,
Böyük Pyotrla yaşa dolurdu.
Döyüşlərə verib gənc qüvvətini,
Şərəfin yolunda ölkə o zaman,



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bir sərt müəllimin əlinə düşdü.
Şved kralından, köhnə yağıdan
Necə qanlı, qəfil dava görmüşdü.
Lakin intiqamçın yanaraq yenə
Dözüb taleyinin zərbələrinə,
Bərkidi Rus yurdu. Necə ki qat-qat
Döyülüb çəkiclə bərkiyər polad.

Cəsur Karl almışdı faydasız şöhrət,
Onu gözləyirdi qorxunc aqibət.
Qədim Moskvaya hücum edirdi,
Güclü külək kimi keçib gedirdi.
Əsib toz qoparan qara yel kimi,
Ağaclar sındıran coşqun sel kimi,
Rusun qoşununu salıb dərbədər,
Hər yana quduz tək edirdi səfər.
O da yeriyirdi həmin o yoldan
Ki, bizim günlərdə zorlu bir düşmən
Qan töküb özünə bir iz açmışdı,
Sonra bəd taleylə qoyub qaçmışdı.

Ukrayna deyildi sakit o zaman,
İçindən qövr alıb yanırdı hər an.
Qanlı keçmişlərə sadiq qalanlar,
Bir xalq davasına vermişdi qərar.
Hetman qırsın deyə, bağları artıq,
Onlar salmışdılar haray-qışqırıq.
Səbirsiz çəkirdi Karla intizar
Bu yüngülxasiyyət, bu boş lovğalar.
Hər gün Mazepanın yanında göyə
Səslər yüksəlirdi – zamandır! – deyə.
Lakin qoca hetman fikrə dalmışdı.
O yenə Pyotra sadiq qalmışdı.
Köhnə sərtliyini saxlayıb yenə,
Başçılıq edirdi öz ellərinə.
Sanki eşitmirdi gedən söhbəti,
Qayğısız keçirdi keyfi-işrəti.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gənclər deyinirdi: "Bəllidir, hetman
Artıq yorulmuşdur qocadır indi.
Zəhmətlər, əməklər, keçdikcə zaman,
Onu çox qocaltdı, atəşi söndü.
Neçin o titrəyən əlində hələ
Bulvanı tutub saxlayır yenə?
Vaxtdır hücum edək var gücümüzlə
Bizə düşmən olan Moskov üstünə.
Qoca Doroşenko olsaydı burda,
Cavan Samoyloviç ya Paley özü
Ya da Qordeyenko, onda bu yurda
Tamam yad olardı əsarət sözü.
Onda yad ellərdə soyuqda, qarda
Kazaklar can verib qırılmazdılar.
Qəmli Malorosya qalmazdı darda,
Alaylar dönərdi geri, bəxtiyar".

Özbaşına gənclər artıq bu zaman,
Şikayətlənirdi hər gün açıqdan.
Unudub keçmişini əsarətini,
Yadların zülmünü, həqarətini,
Boqdanın işini, savaşmaları,
Tökülən qanları, bağlaşmaları,
Qədim babaları… unudub yeksər
Qorxulu tədbirlər istəyirdilər.
Ehtiyatlı olur qocalıq, lakin
O, şübhəylə baxır gördüklərinə.
Nə olar, nə olmaz, yoxlayır dərin,
Verməz qərarını qəflətən yenə.
Örtülmüşkən qalın buzlarla dəniz,
Kim suya baş vurub gətirər xəbər?
Kim əqlin gözüylə girərək səssiz,
Məkrli bir qəlbi duyar, öyrənər?
Ordakı duyğular qapalı qalmış,
Boğulmuş həvəsin bir bəhrəsidir;
Ordakı istəklər sükuta dalmış, –
Belə bir könüldə bəlkə kim bilir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gəlincə bəslənən bir köhnə niyyət.
Böyüyür, boy atır, yalnızca fəqət.
Lakin Mazepanın hirsi artdıqca,
Yalanla, hiyləylə dolduqca qəlbi,
Üzdən ehtiyatsız görünür qoca,
Sadəcə dolanır… Nədir mətləbi?
Gör nə məharətlə zalım ixtiyar
Qəlbləri cəlb edir, fikri öyrənir;
Edib insanları bir itaətkar
Ölkənin sirrini açır o, bir-bir.
Ünsiyyətinə bax, məkrinə bir bax,
Sadəliyə vurub kefdə özünü,
Qoca məclisində çox danışaraq,
"Hayıf keçmiş!" – deyib başlar sözünü.
Hürriyyət sevənə, hərarətlə o
Tərifə başlayır tez hürriyyəti,
Narazı yanında, məharətlə o,
Söyür, təkdir edir mütləqiyyəti.
Qəzəbli adama rast gələn zaman,
Göz yaşı axıdır, ah çəkir dərin.
Bir axmaq adamı gördükdə haman,
Açır sandığını dərin sözlərin!
Onun ruhu bilmir təsəlli, rahat;
Ya namus yoluyla, ya da cinayət,
Hazırdır məhv etsin öz düşmənini,
Ona zidd çıxanın töksün qanını.
Gözünü dünyaya açandan bəri,
Bütün təhqirləri xatırlayırdı.
Təkəbbürlü qoca cinayətləri,
Hər yana əlaltı, gizlin yayırdı.
Onunçun müqəddəs heç bir şey yoxdur,
Ona tamam yaddır mərhəmət sözü,
Sevgidən uzaqdır ondakı qürur,
Sutək qan tökməyə hazırdır özü;
Azadlığa qarşı coşub nifrəti,
Nə vətəni vardır, nə də rahəti.
Onda bu xisləti bilənlər azdır,
Kim bilir ki, hetman bir yaramazdır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu qəzəbli qoca xeyli zamandır,
Könlündə bəsləyir qorxunc bir məqsəd,
O bilmir düşmənə sirri əyandır,
Düşmən niyyətini duymuşdur fəqət.

Dişini qıcayıb deyir Koçubey:
"Hey, amansız vəhşi, hey, yaramaz, hey!
Mən doğma qızıma zindan kəsilən
Yuvanı məhv edib dağıtmaram, bil!
Məhv olmayacaqsan yanğınlarda sən,
Kazak qılıncı da qismətin deyil.
Yox, yox, ey yaramaz yaxın bir zaman,
Moskov cəlladları əlində gərək
Qanına bulaşıb çəkib əlaman,
Əməlini əbəs inkar edərək,
Qıvrılıb, can verib əzab içində,
Qorxunc iztirabla öldüyün gündə,
Nifrət eliyəsən o dəqiqəyə
Ki, mənim qızımı övladım, deyə
Özün xaça çəkdin, mən də əlimlə
Namus qədəhini doldurub belə
Sənə təqdim etdim, sənə inandım,
Səni təmiz qəlbli, namuslu sandım.
Nifrət eyləyəsən o gecəyə ki,
Apardın qızımı bir quzğun təki!.."

Bir zaman vardı ki, bir ürək kimi
Koçubey – Mazepa yaxın dost idi.
Onlar bölüşürdü duz-çörək kimi.
Hər duyğunu, sözü, hər bir ümidi.
Zəfər meydanında onların atı,
Od-alov içində qoşa gedərdi.
Çox zaman yol üstə uzun-uzadı,
İki dost mehriban söhbət edərdi.
Sirr saxlayan hetman söhbət edirkən,
Üsyankar ruhunun, doymaz könlünün
Gizli aləmini bir qədər bəzən
Dostuna açardı. Yaxında bir gün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Baş verəcək böyük təbəddülatdan,
Gedən danışıqdan, qəzəbdən, hər an
Dumanlı sözlərlə eyham vurardı,
Onların bu sayaq dostluğu vardı.
O zaman Koçubey dost olub belə
Hetmana sadiqdi bütün qəlbiylə.
İndi qəzəbindən ürəyi dolmuş,
Bu qəlb bir məqsədə ancaq qul olmuş:
Ya özü məhv olub dünyadan gedər,
Ya yetər məqsədə, onu məhv edər.
Çıxarır təmizə bir gün namını
Alaraq qızının intiqamını.

Ancaq düşünülmüş bu niyyətini
Qəlbində saxladı gizli hamıdan.
"Artıq öz fikrini, öz diqqətini
Tabuta vermiş o, çatmışdır zaman.
Hetmana istəmir heç bir yamanlıq;
Bütün qüsur onun öz qızındadır,
İtaətdən çıxan yolsuzundadır.
İndi qızını da əfv etmiş artıq,
Unudub göyləri, ürfü, adəti,
O rəva gördüsə bu qəbahəti,
Çəkdirdisə ona böylə iztirab,
Qoy Allah yanında o versin cavab..."

Qızğın gözləriylə baxaraq ancaq
Külfətin içindən öz ətrafından
Tərəddüd etməyən namuslu, qoçaq
Adamlar axtarır özünə həyan.
Açdı arvadına sirri, nəhayət,
Gizlində çoxdandır, bilmədən rahat,
Yuxusuna qatıb haram, gecələr
Qoca hazırlayır qorxunc bir xəbər.
Bir qadın kiniylə ürəyi dolu,
Onu tələsdirir səbirsiz arvad
Gecələr yataqda gözü yuxulu



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Görünür ruh kimi hər an, hər saat
İntiqamdan deyir, məzəmmət edir,
Göz yaşı axıdır, yüz töhmət edir.
Ruh verir, and verir başlayır giley,
Nəhayət, and içir tutqun Koçubey.

Zərbə hazırlanmış, verilmiş qərar –
Koçubey İskra olacaq kömək,
Onlar düşünürlər: "Gücümüz çatar.
Düşmən bir zərbədən məhv olsun gərək.
Qəlbində qətiyyət atəşilə, kim
Gözəl iş uğrunda həvəslə gedər.
Olub duyğusuna hissinə hakim,
Güclü yaramazdan, qorxu bilmədən,
İnanmış Pyotra yetirər xəbər?.."

Bədbəxt qız rədd edib nifrət etdiyi
Poltavanın igid kazaklarından
Biri, ürəyində alovlu sevgi,
Ona məftun idi hələ uşaqkən.
Həzin axşam çağı, hər qızıl səhər
Doğma çay yanına, sahilə gələr,
Ukraynanın gilas kölgələrində,
Yaşıllıq içində, xoş bir sərində,
Gözəl Mariyanı o gözləyərdi,
Könlündə intizar, qəlbində dərdi.
Qısa görüşlərlə tapıb təsəlli,
Bilirdi müşküldür dərdinin həlli;
Eşqi ümidsizdi, bilirdi özü,
Dilindən çıxmazdı şikayət sözü.
Müsbət bir cavaba ümidi azdı,
Yox cavabı alsa, o yaşamazdı.
Qıza, elçiliyə gələndə bəzən
Kazaklar içindən sevdalı gənclər,
O çıxıb gedərdi gənclər içindən,
Könlündə bir acı, qəlbində dərdi.
Qısa görüşlərlə tapıb təsəlli,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bilirdi müşküldür dərdinin həlli;
Eşqi ümidsizdi, bilirdi özü,
Dilindən çıxmazdı şikayət sözü.
Müsbət bir cavaba ümidi azdı,
Yox cavabı alsa, o yaşamazdı.
Qıza, elçiliyə gələndə bəzən
Kazaklar içindən sevdalı gənclər,
O çıxıb gedərdi gənclər içindən,
Könlündə bir acı, qəlbində kədər.
Kazaklar içində qəflətən bir gün
Mariyanın işi olanda aşkar;
Amansız bu xəbər yayılıb bütün,
Qıza gülən zaman bütün kazaklar –
Onunçun əzizdi Mariya yenə,
Hakimdi qəlbinə, bütün hissinə.
Ancaq təsadüfən, bir nəfər belə
Mazepa adını gətirsə dilə,
Onun saralardı bir anda üzü,
Yerə tikilərdi qəzəbli gözü.

Bu ulduzlu-aylı gecədə kimdir
At üstündə belə vaxtsız yol gedən?
O at kimindir ki, cilov gəmirir,
Qaçır bu çöllərdə birbaşa, nədən?

Şimala üz tutub, yol gedir kazak,
Nə açıq bir çöldə, nə meşəlikdə,
Nə qorxunc keçiddə, daşlı gədikdə,
İstirahət üçün dayanmayaraq.

Şüşə tək parlayır belində polad;
Arxada torbası hərdən səslənir.
Büdrəmədən gedir altındakı at,
Atın bulud yalı hey qalxıb enir.

Çapara lazımdır, əlbət, qızıllar,
Silahsa, igidçin fərəhdir, əlbət.
Yüyrək at bəladan onu qurtarar,
Papağı hər şeydən artıqdır fəqət.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Papağın uğrunda eyləyər fəda
Atı, qızılları, xəncəri qoçaq.
Papağını verər döyüşdə, o da
Başıyla birlikdə, ölərsə, ancaq.

Papağın qiyməti əcəb nədəymiş?
Çünki kağız vardır içində pünhan.
Böyük Pyotra Koçubey müdhiş
Çuğullar yazmışdır cani hetmandan.

Bu zaman xəbərsiz gələn tufandan,
Qorxusu olmadan bir şeydən hələ,
Fitnə-fəsadını yayırdı hetman.
Qadir yezuitlə verib əl-ələ,
Camaat üsyanı təşkil edərək,
Ona boş bir taxt da vəd edir gərək.
Onlar oğru kimi zülmətdə, gecə
Söhbət aparırlar daim gizlicə.
Onlar xəyanətə qiymət qoyurlar.
Universala yeni ədəd qoyurlar.
Alınır, satılır padşahın başı,
Vassalların andı, xalqın savaşı.
Məchul bir dilənçi gəlir saraya,
Nə yeri bəllidir, nə də yatağı.
Fəndgir Orlik salıb onu araya,
Aparır, gətirir gizli qonağı.
Hər yerdə gizlicə yayırlar zəhər.
Onun adamları dolub hər yana,
Yayıb Bulavinlə hər yerə xəbər,
Donu o qaldırır gizli üsyana.
Vəhşi orduların cəsarətini,
Döyüş həvəsini, məharətini
Oyadır Dneprin sahillərində,
Kazaklar yurdunun hər bir yerində.
Coşqun dəstələri gizli, aşikar –
Pyotrun zülmüylə qorxudur onlar.
Mazepa hər yana yetirir nəzər.
Ölkədən-ölkəyə kağız göndərir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gah hədə yollayır, gah da fitnə, şər.
Minbir hiylə qurur. Gizli döndərir
Moskva üstünə Baxçasarayı.
Üzdə nə səsi var, nə bir harayı.
Paşa Oçakovda, kral Varşavada,
Onun sözlərinə qulaq asırlar.
Ona inanırlar Karl da, çar da.
Onun xəbis qəlbi tutmayır qərar.
Fikrinə gələni sınayır bir-bir,
Zərbə hazırlayır diqqətlə özü.
Onun iradəsi heç zəifləmir,
Sönmür ürəyində cinayət közü.

Gör necə diksindi, ayıldı hetman
Xəbər ildırım tək çatdığı zaman.
O zaman ki, məlum rus əyanları,
Yetirib yerinə gizli ilqarı,
Uzaq Poltavadan gələn xəbəri,
Tezcə qaytardılar birbaşa geri
Rusiya düşməninə, onun üstünə,
Cəzalar yerinə xaini yenə
Bir günahsız kimi əzizlədilər.
Hörmət göstərdilər, ona nə qədər.
Başı döyüşlərə qarışmış çar da
Bir əsas görməyib bu böhtanlarda.
Bu çuğul xəbərə vermədi diqqət.
Çalışdı xaini təskinə fəqət.
Dedi çuğulçuya cəza verərək,
Hetmanın hayıfı alınsın gərək!

Mazepa yalandan çəkir minbir ah,
Çara bildirir ki: "Şahiddir Allah,
Bunu özü görür, bilir ki, cahan
İyirmi il olur, bu yazıq hetman
Çara xidmət edib sadiq ürəklə,
Sadiq də qalacaq bu gündən belə.
Çar ona göstərib daim iltifat,
Onun kərimidir bu dövlət, bu ad...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Aman bu kin, qərəz nə kor olurmuş,
Onlarla bacarmaq nə zor olurmuş,
Bu qoca vaxtında, böhtana bir bax,
Omu xəyanətdən təlim alacaq?
Öz gözəl adını edərək yaman,
Omu başlayacaq ölkədə üsyan?..
Stanislav ondan istərkən kömək,
O, yox, demədimi, nifrət edərək.
Ona Ukraynanı təklif edirkən,
Bəs o deyildimi, dərhal rədd edən?
Tamam gizli məktub, müqavilələr
Əlinə keçdisə bütün nə qədər,
Özünə borc bilib, müti qul kimi,
Çarına göndərən o deyildimi?
Min fasad çıxaran qəzəbli xanın,
İstanbul hakimi qorxunc sultanın,
Bütün təklifinə verməyib qulaq,
Kimdi öz çarını dinləyən ancaq?
Getməyib ardınca ehtirasların,
Bütün düşmənini böyük ağ çarın
Ağıl ya qılıncla məhv eləməkçin
Yanırdı hər zaman o için-için.
O nə zəhmətini, nə həyatını
Çarının yolunda əsirgəmişdir.
İndi kinli düşmən onun adını
Belə ləkələyir, bu necə işdir?
Düşmən də kim ola? Hey, baxta bax, hey!
Uzun illər dostu İskra, Koçubey!"
Həris göz yaşıyla yaramaz xəbis
Deyir ki, onları edam ediniz…

Kimi? Öz fikrindən dönməyən qoca,
Qoynundakı o qız kimindir, düşün.
Soyuq ürəyində sual dolunca,
Boğur bu duyğunu qoca büsbütün.
O deyir: "Ax, yazıq, ağılsız kişi,
Gücü düşməz işə özünü saldı.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Özü üsyankardır, fitnədir işi,
Özü ayağına baltanı saldı.
Hara gedir elə yumub gözünü.
Bəlkə də qızının eşqinə, lakin
Onu xilas etməz gücü bir eşqin...
Yox, eşqi şöhrətə qurban edərək,
Burda öz canımı qurtaram gərək".

Mariya, Mariya, zavallı ceyran,
Çərkəs qızlarının gözəli, dilbər!
Sevib bəslədiyin o əfi ilan,
Maral gözlərinə layiqdir məgər?
Hansı bir qüvvətə belə, ürəkdən
O qəddar insana bağlanmısan sən?
Sevib dəli kimi belə insanı,
Bir düşün, olmusan kimin qurbanı?
Onun qıvrım tüklü ağarmış başı,
O çuxura düşmüş parlaq gözləri,
Üzünün qırışı, sallanmış qaşı,
Gizli məna dolu bic-bic sözləri
Dünyada hər şeydən əzizdir sənə.
Onlarçın anadan əl götürdün sən.
Qocanın vədinə və hiyləsinə
Uyub uzaqlaşdın ata evindən.
Səni məftun edib şux gözlərilə
Qoca ovçu aldı öz töhfəsini.
Şirin söhbətilə, xoş sözlərilə
Susdurdu ruhunda vicdan səsini.
Tutmuş gözlərini eşqin dumanı,
Ona məhəbbətlə nəzər salırsan;
Bəsləyib, oxşayıb qoca hetmanı,
Rüsvayçılığından sən həzz alırsan,
Eşqin də coşqundur, həzzin də coşqun,
Onu ismətin tək tutursan yüksək.
Zərif pərdəsini utancaqlığın
İtirdin, yazıq qız yerə düşərək...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun dizlərinə əyilən zaman
Qocanın ağ saçlı o məğrur başı,
Əl çəkib baxtının küy-harayından
Qalanda onunla hetman yanaşı,
Qorxunc, cəsarətli fikrini hərdən
Bu ürək gözələ qoca deyirkən,
Şayiə, söz nədir, ya nədir həya? –
Heç kəsi dinləmir xoşbəxt Mariya.
Məsum günlərinə hayıfsılanmır,
Ömrünü düşünüb keçmişi anmır.
Ancaq bəzən onu aparır xəyal,
Oyanır könlündə uzaq bir məlal;
Enir bulud kimi bir pərdə bəzən,
Mariya dumanlı xəfif pərdədən
Ata-anasını görür o yalqız,
Qoca vaxtlarında qərib, övladsız...
Yaşarır gözləri qızın bu dəmlər;
Sanki Mariyanı danlayır onlar...
Ancaq bilsə yazıq nə olmuş, nə var –
Bütün Ukraynanın bildiyi xəbər
Ona məlum olsa bu dəmdə, əgər...
Lakin öldürücü, amansız bu sirr
Ondan gizli qalmış, qız onu bilmir.

### İKİNCİ NƏĞMƏ

Mazepa qəmgindir. Onun xəyalı
Zalım xülyalarla gəlmiş həyəcana.
Mariya, çöllərin ürkək maralı,
Xumar-xumar baxır qoca hetmana.
Qocanın dizini qucaqlayıb qız,
Ona məhəbbətdən min bir hekayət
Söyləyir. Nə yazıq, ancaq faydasız,
Qara fikirləri saf bir məhəbbət
Qovub dağıtmayır. Soyuq nəzərlə
Hetman baxır yalnız qızın üzünə.
O dadlı söhbətə, o şirin dilə
Qoca cavab verir sükutla yenə.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Belə bir təhqirdən hiddətlənərək,
Mariya tez qalxır. Köksündə ürək
Vurur yeyin-yeyin. Söyləyir: "Hetman,
Səninçin əl çəkdim bütün dünyadan;
Mən səni sevmişəm ömrümdə ancaq.
Bu eşqin yolunda cəsarətlə, bax,
Keçmişəm hər şeydən, səadətimdən,
Təəssüf etmirəm əsla buna mən
Xatirində varmı, o müdhiş gecə…
Mən öz varlığımı sənə verincə,
"Sevəcəyəm" deyib sən də and içdin,
Məni sevməyirsən indi bəs neçin?"

Mazepa

Dostum, dediklərin əbəsdir, əbəs;
Dəli xülyalara uymağa dəyməz.
Qəlbini məhv etmə bu şübhələrlə.
O coşqun könlünü, bilirəm yəqin,
Həyəcana salmışdır ehtiras belə.
Mariya, qarşında edirəm əmin
Mən səni sevirəm, şöhrətdən artıq.

Mariya

Yalandır: sən mənə kələk gəlirsən.
Biz ki, bir olardıq hər axşam-səhər;
Məndən gen gəzirsən artıq indi sən,
Nəvazişim sənə gətirir kədər.
Günü koxalarla başa verərək,
Kefdə keçirirsən; mən atılmışam.
Uzun gecələri ya olursan tək,
Rahiblə, saillə yaxud hər axşam…
Eşqim deyilsə də mənim tələbkar,
Səndə ona qarşı buz tək əda var.
Mən yaxşı bilirəm, bu yaxında sən
"Sağ olsun Dulskaya" – deyib içmisən
Bu Dulskaya kimdir?
Anlat mənə bir!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mazepa

Sən də qısqancmısan? Mən bu yaşımda,
Bir qara tük yoxkən bütün başımda,
Məğrur bir gözəldən ülfət umaraq,
Sevdaya düşmüşəm? Tənəyə bir bax…
Bu yaşda, bu başda mənmi, bir düşün,
Sevdalı gənc kimi hər səhər-axşam
Ah çəkib, dolanıb, gəzib bütün gün
Arvadları yoldan çıxaracağam?

Mariya

Yox, bunlar hamısı bir yana qalsın,
Burax, bəhanəni cavab ver aydın.

Mazepa

Qəlbinin rahatı mənə əzizdir,
Sən dinlə Mariya, mən deyim bir-bir: –
Bir şey düşünürdük biz çoxdan bəri.
Bu işimiz indi baş tutur artıq,
Çatmışdır döyüşün böyük günləri;
Biz də bu zamançın hazırlaşmışıq.
Əziz azadlıqdan, şərəfdən uzaq,
Biz gah Varşavaya bir qul olaraq,
Gah da Moskvaya əymişik boyun;
Gəlmiş başımıza min iş, min oyun.
Artıq dəyişmişdir indi zamana,
Azad dövlət olsun gərək Ukrayna.
Qanlı bayrağını azadlığın, mən
Çar Pyotra qarşı doğma elimdən
Qaldırıram. Hər şey artıq hazırdır;
Əlbirdir mənimlə hər iki kral.
Tezliklə başlayar döyüş, qırhaqır;
Bir həqiqət olar bu günkü xəyal.
Bəlkə də üzümə bir gün gülər baxt,
Özüm yaradaram burda tacü taxt.
Yaxşı etibarlı dostlarım vardır;
Onlar sözü birdir, çox vəfadardır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biri Knyaginya Dulskaya özü,
Biri o keşişdir, biri də sail.
Bir yerə qoymuşuq onlarla sözü,
Onlar məqsədimi doğruldurlar, bil,
Onların əliylə mənə yetişir
Şahların hər əmri, məktubu bir-bir.
Budur, etirafım sənə bunlardır.
Razı qalırsanmı? Yoxsa ki, vardır
Yenə şübhən, söylə!

M a r i y a

Mənim əzizim,
Sən doğma torpaqda çar olacaqsan!
O ağ saçlarına baxarsa hər kim, –
Yaraşır onlara, – deyər, – tac, inan!

M a z e p a

İş qurtarmamışdır, hələ dayan bir,
Kim bilir ki, məni nələr gözləyir?

M a r i y a

Sən yanımda varkən, qorxu nədir nə?
Sən ki, qüdrətlisən, bilirəm sənə
Taxt qismət olacaq.

M a z e p a

Ölüm olarsa?

M a r i y a

Səninlə gedərəm. O, böyük yasa
Dözə bilərəmmi yox, yox, bu nədir?
Səndə hakimiyyət bir nişanədir.

M a z e p a

Məni sevirsənmi?

M a r i y a

Sevirəmmi mən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mazepa

Bir söylə, atanı, yoxsa məni sən
Daha çox sevirsən?

Mariya

Dostum, nədir bu?
Bu sual neçindir? Könlümü qayğı
Bürüdü qəflətən. Öz ailəmi
Daim unutmağa mən səy edirəm.
Mən verdim onlara dərdi, ələmi,
(Ax, qorxunc xülyalar, ey tanrı, kərəm!)
Atam lənətləmiş məni o gündən
Kimə görə?

Mazepa

Demək, qiymətliyəm mən
Atadan səninçin? Bu sükut nədir?..

Mariya

İlahi!

Mazepa

Cavab ver, anlat mənə bir

Mariya

Özün ver qərarı.

Mazepa

Qulaq as, qulaq,
İkimizdən biri bir zaman, bir vaxt,
Ölməli olarsa: sən də bir hakim, –
Onda qərarınla açıq söylə, kim
Ölməli olardı? Kimi bu zaman
Qoruyub saxlardın hər bir bəladan?

Mariya

Yetər, ürəyimi qaraltma yenə,
Gəl azdırma məni.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mazepa

Cavab versənə!

Mariya

Sözün amansızdır, ağırdır yaman;
Acığın tutmasın, dur daha yetər,
Edərəm hər şeyi yolunda qurban,
Ancaq dəhşət verir mənə bu sözlər.

Mazepa

Mariya, söhbəti burda qurtaraq.
İndi dediyini unutma ancaq...

Ukrayna gecəsi sakitdir yenə,
Ulduzlar səpilmiş göy qübbəsinə.
Havadan yayılır ətrafa xumar,
Gecənin qoynunda min əfsanə var.
Gümüş yarpaqları əbrişimlərin
Xəfifcə titrəşir. Uzaqda dərin
Göylər dənizində sakit gəzir ay,
Üfüqdə buludlar vurmuşdur halay.
Yayılmış sulara qızıl bir alov.
Batmış ay nuruna Belaya Serkov.
Dövlətli hetmanın bağçası, bağı,
Köhnə qəsr bütün nura boyanmış.
Dərin sükut sarmış göyü, torpağı...
Lakin köhnə qala sanki oyanmış,
Qüllənin birində qolları bağlı,
Xəyalı pərişan, ürəyi dağlı
Koçubey oturmuş. Onun nəzəri
Kədərlə dolaşır sakit göyləri.

Səhər öləcəkdir. Duymadan qorxu
Dəhşətli ölümü salır fikrinə;
Ömrünə yanmayır. Ölüm nədir, nə?
Arzulanan bir şey, şirin bir yuxu.
Hazırdır girməyə qanlı məzara.
Mürgüləyir. Lakin pərvərdigara,
Ağırdır bir dilsiz məxluq tək belə



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yaramaz caninin əsiri olmaq.
Çarın düşməninə, çarın əliylə
Dustaq tək verilmək... taleyə bir bax!
Namusum da gedir, ömrüm də bada;
Məhv olur mənimlə yarım, yoldaşım.
Lənətdir nəsibim ancaq dünyada;
Günahsız, nahaqdan kəsilir başım.
Düşmən seyr edərkən səni gülərək,
Cəlladın əlində ömrü bitirmək...
Vəsiyyət etmədən kimsəyə, heyhat,
Düşmənlik duyğunu, bitəcək həyat!..
Doğma Poltavası yadına düşdü,
Dostların söhbəti, öz ailəsi,
Dövlət, şərəf, nələr, nələr görmüşdü.
Qızının mahnısı, mehriban səsi;
Doğulduğu o ev, yaşadığı yer,
Yatdığı kölgəlik, gəzdiyi çöllər;
Hər şey, həyatının hər şirin dəmi.
Özü tərk etmişdi o xoş aləmi;
Nədən ötrü, neçin?..
Paslı qıfılda
Açar qıcırdadı, odur qəfildən
*Koçubey ayıldı. Düşünür yazıq* –
Bu qanlı yolumda gəlmişdir artıq
O xaçın altında bütün günahı
Əfv edən, könlümün yalnız pənahı,
O dərdli ruhların böyük təbibi
Girəcəkdir indi xilaskar kimi.
Bizimçin asılan böyük İsanın
Qanını gətirmiş mənə. İnsanın
Könlünə təsəlli olsun deyərək;
Özümü toxdadıb dayanım gərək,
Ölümü cürətlə mən qəbul edim,
Əbədi həyata qarışıb gedim!

Qəlbi sarsılaraq, artıq Koçubey
Hazırdır o sonsuz qüdrətli ruha,
Dərdlilər pənahı qüvvətli ruha,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Açsın dərdlərini eləsin giley.
Bir rahib deyildir bu gələn ancaq,
Koçubey tanıdı kimdir bu qonaq.
Amansız Orlikdi önündə duran,
Nifrətlə boğulan müztərib qoca
Deyir: "Sənmisən bu, ey zalım insan?
Neçin əzab verib mənə bir bunca
Bu son gecənin də Mazepa yenə
Xələldar eyləyir, bir dillənsənə?!"

Orlik

İstintaq bitməyib, cavab ver, tez ol!

Koçubey

Mən cavab vermişəm düşün, neçə yol…
Çıx get, tərk et məni.

Orlik

Səndən pan hetman
Bir etiraf daha tələb eyləyir.

Koçubey

Nə etiraf, söylə, hər şeyi çoxdan
Mən boynuma aldım, yanında bir-bir.
Mənim yazdıqlarım yalandır tamam.
Mənəm ən kələkbaz, fitnəçi adam.
Mazepa haqlıdır. Daha nə, söylə,
Nə istəyirsiniz?

Orlik

Bir az səbr elə,
Biz yaxşı bilirik sənin dövlətin,
Yatırın, daş-qaşın, böyük sərvətin
Saysızdır. Çoxunu bu xəzinələrdən
Dikanka kəndində basdırmısan sən.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qərar üzrə, səni edəndə edam,
Hər şeyin vardırsa, qanunla tamam,
Ordu xəzinəsinə yetişsin gərək
Bu son vəzifədir, nişan ver görək,
Harda basdırılmış söylə, xəzinələr

Koçubey

Səhv etməmişsiniz, deyim, nə zərər:
Üç xəzinəm vardır ki, həyatımda mən
Fərəh, zövq alırdım bu xəzinələrdən.
Biri namusumdur; əzab, əziyyət
Əllərimdən aldı onu nəhayət.
Geri dönməyəcək ikinci xəzinəm
Qızımın namusu, təmiz adıydı;
Üstündə əsərdim mən onun hər dəm…
Amansız Mazepa ona da qıydı;
Oğurladı məndən onu da… Ancaq
Sonuncu xəzinəmi saxlamışam, bax,
Üçüncü xəzinəmdir qüdsi intiqam,
Onu öz tanrıma aparacağam.

Orlik

Qoca, boş danışma, söhbəti burax,
İndi bu dünyanı tərk edən zaman,
Sən ölüm haqqında fikirləş ancaq;
Zarafat yersizdir. Hara qoymusan
Pulları? Cavab ver. Yenidən əgər
Bütün o əzablar, o işgəncələr
İstəmirsən bir də olunsun təkrar!

Koçubey

Bu axmaq sorğunu kəs, daha qurtar,
Yaramaz qul! Burax girim məzara;
Sonra Mazepayla birlikdə ara
Mənim dövlətimi. Qanlı əliniz
Hər yerdə buraxsın ləkəli bir iz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Alın qızımı da bərabər gedin,
Evimi-bağımı yaxıb məhv edin.
O hər şeyi deyər, sizə anladar,
Sizə xəzinələri o verər nişan.
İndi and verirəm, sən pərvərdigar,
Məni rahat burax, ey zalım insan!

Orlik

Harda gizlətmisən, söylə, pulları!
İstəmirsən? – Tez ol, yerini anlat,
İstintaq pis olar. Bir dillən barı,
Fikirləş, vədə ver. Susursan? Cəllad?

Cəllad daxil oldu…
Nə müdhiş gecə!
Bəs hetman hardadır, hanı o xain?
İlan vìcdanına əzab, işgəncə
Verməməkçin qaçmış, gizlənmiş yəqin.
Qız yatmış otaqda sakit, bixəbər,
Onun gül rənginə çökməmiş kədər
Qızın yatağının bir kənarında
Oturmuş Mazepa əyib başını,
Sözlər donmuş onun dodaqlarında.
Qəmgin düşüncələr çatmış qaşını.
"Ağılsız Koçubey sabah öləcək;
Xilas yolu yoxdur. Hetman nə qədər
Yaxlaşsa məqsədə o qədər gərək
Hökmü artıq olsun. Bütün düşmənlər
Ona boyun əysin. Belədir qərar
Nicat yolu yoxdur, məhv olacaqlar.
Çuğulçu dostuyla öləcək sabah;
Özü dinc durmadı, ondadır günah".
Yatağa düşüncə birdən nəzəri
Mazepa düşünür: "Böyük yaradan!
Eşidən zamanda müdhiş xəbəri,
Bəs neyləyəcəkdir bu yazıq, aman!
Hələ xəbərsizdir, yatmışdır rahat;



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gizli tutmaq olmaz bu sirri ancaq.
Balta səslənəcək sabah, nəhayət,
Bütün Ukraynaya səs yayılacaq.
Bundan danışacaq ətrafda hər kəs,
Nə etsəm fərqi yox, əbəsdir, əbəs!
İndi mən bilirəm, – tale hər kəsə
Həyat qayğısını bəxş eyləmişsə,
O arvad almasın, dolansın subay,
Sevgidən tikməsin dünyada saray.
Eyni arabaya qoşulmaz, inan,
Yük çəkən bir atla, zərif bir ceyran.
Ehtiyatsız oldum, həm ağılı kəm,
İndi əməlimçin əzab çəkirəm.
Dünyanın ən əziz nemətlərindən,
Həyatın zövqündən, şəfqətlərindən,
Nə varsa, hər şeydən əl çəkdi bütün;
Bir həmdəm elədi məni könlünə.
Gör sonu nə oldu? İndi mən bu gün
Ən müdhiş zərbəni vuraram ona!"
Mazepa diqqətlə baxır yatağa, –
Nə qədər şirindir gənclik yuxusu!
Axşamdan yayılmış bütün otağa
İpək saçlarının bahar qoxusu.
Məsum dodaqları açılmış bir az,
Yatmış, hər gözündə min qəmzə, min naz.
Lakin sabah, sabah... Sarsılır hetman
Çevrilib üzünü durur ayağa,
Səssiz addımlarla qızın yanından,
Çıxıb təkbaşına üz tutur bağa.

Ukrayna gecəsi sakitdir yenə;
Ulduzlar səpilmiş göy qübbəsinə.
Havadan yayılır ətrafa xumar,
Gecənin qoynunda min əfsanə var.
Gümüş yarpaqları əbrişimlərin
Titrəşir. Mazepa düşünür dərin,
Bulud tək qarışır tutqun xəyalı;
Əcəb qəribədir onun bu halı...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecənin qoynunda yanan hər ulduz
İttiham gözüdür sanki uğursuz
Taleyinə onun gülüb dururlar.
Onların nurunda min bir tənə var.
Əbrişimlər durub qatar-qatar, bax,
Birər hakim kimi pıçıldaşaraq,
Sanki danışırlar. Geniş asiman
Kəsilir ruhuna bir qara zindan.

Birdən bir qarışıq… tutqun bir fəryad
Eşidilir… sanki qala tərəfdən.
Bəlkə bir xəyaldır, qaradır, heyhat.
Bir bayquş səsidir bəlkə. Qəflətən
Yayıldı. Bəlkə də işgəncə səsi
Eşidilir belə. Onun nəfəsi
Tutulur. Qəlbinin dərin həyəcanı
Bu zaman sarsıdır o sərt qocanı.
O da qışqırıqla tez verir cavab
Bu səsə. Könlündə acı iztirab.
Bir zaman bu səslə, bu qışqırıqla,
Döyüş meydanına düşərdi yola,
Yanında Zabela, igid Qamaley,
Bir də o… köhnə dost, bədbəxt Koçubey…
Sonsuzdu cəlallı, gözəl büsatı,
Döyüş meydanında çapardı atı…

Dan atır, qızarır göylərin üzü,
Şəfəq xəbər verir yaxın gündüzü.
Parlayır yamaclar, düzlər təpələr,
Meşələrin üstü, çayda ləpələr…
Şux səhər səsiylə bürünür hər yan;
Ayılır təbiət, ayılır insan.

Hələ şirin-şirin nəfəs alaraq,
Mariya yataqda xumarlanırdı.
Yüngül yuxusunda hiss etdi ancaq,
Kimsə daxil oldu, sükutu qırdı.
Onun ayağına toxundu; həmən



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Mariya ayıldı. Lakin yenidən
Qamaşıb, görüncə parlaq gündüzü,
Yenə təbəssümlə qapandı gözü.
Zənn etdi ki, gəlmiş otağına yar,
Açdı qollarını. O xumar-xumar
Səsləndi: "Mazepa sənsənmi?". Aman,
Başaq səs eşitdi. Böyük yaradan!
Diksindi, baxdı, ah!.. Önündə, budur,
Dayanmış anası...

Ana

Səs çıxarma, dur,
Məhv edərsən bizi, qaranlıq gecə
Yol tapıb gəlmişəm bura gizlicə.
Göz yaşlarıma bax; bircə ricam var
Edam bu gün olur. Ancaq bircə sən
Onların kinini bir az soyudar,
Qurtara bilərsən atanı.

Qız

*(dəhşətlə)*

Nə, mən?
Atamı? Nə edam? Nədir bu sözlər?

Ana

Xəbərin yoxdurmu indiyə qədər?
Yox, yox, sən səhrada yaşamayırsan;
Sən gərək biləsən. Amansız hetman
Nə qədər güclüdür. Düşmənlərinə
Aman verən deyil. Padşah da ona
Qulaq asır. Lakin görürəm ki, sən
Hetmançın keçmisən öz ailəndən.
İcra olunarkən amansız qərar,
Mən yatmış görürəm qızımı, heyhat!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Hökmü oxuyarkən orda adamlar,
Baltanı alırkən əlinə cəllad…
Özünə gəl, qızım! Mariya! Aman!
Durma get, düş onun ayaqlarına!
Xilas et atanı müdhiş cəzadan.
Bir mələk ol bizə, – dodaqlarına,
Yaşlı gözlərinə baxıb canilər
Edamı saxlayar. Yubanma, yetər.
Saxlaya bilərsən müdhiş baltanı,
Yüyür, durma artıq, tez tap hetmanı;
Sən ondan tələb et, rədd etməz yəqin;
Sən ki, ondan ötrü bizdən əl çəkdin
Onun sevgisilə olaraq dəli,
Unutdun namusu, tanrını, eli.

Qız

Mənə nə olmuşdur?.. Mazepa… atam…
Nələr eşidirəm: son qərar, edam.
Anam saraydadır, o yalvarır, bax!
Bəlkə mən dəliyəm, bəlkə də ancaq
Bir xəyaldır bunlar…

Ana

Dur, nədir bu hal?
Bunlar nə yuxudur, nə də bir xəyal.
Xəbərin yoxdurmu, zavallı atan,
Qızına üz verən rüsvayçılıqdan
Qəzəblənib bir gün gəldi qərara,
Bir çuğul göndərdi hetmandan çara.
Qanlı işgəncələr içində yazıq,
Etiraf etmişdir hər şeyi artıq.
Bütün yazdıqlarım, demiş, böhtandır;
Qəzəbimdən doğan kinli yalandır…–
Həqiqət yolunda gedərkən qurban,
Düşmənin əlinə verildi atan,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ordu qabağında, bilmirsən məgər,
Hələ gün çıxmadan erkən, bu səhər
Edam olunacaq; indi bu saat
Qara zindandadır zavallı, heyhat.

Qız

Bu gün... yazıq atam... Pərvərdigara!

Zəif hıçqırıqla birdən bu ara
Qız yıxılır yerə bir meyit kimi;
Soyuyur əlləri, döyünür qəlbi.
Rəngbərəng papaqlar, parlaq nizələr;
Təbillər çalınır, qoşunlar, gəlir.
Alaylar düzlənir, hey birər-birər;
Adamlar qaynaşır, səslər yüksəlir,
Ürəklər döyünür. Adamla dolu
Qıvrılır gedir yol bir ilan kimi.
Cəllad şad dayanmış, çirməkli qolu;
Gözləyir ovunu ac heyvan kimi!
Bəzən camaatla zarafatlaşır.
Adamla dolmuşdur onun dörd yanı,
İnsanların sayı həddindən aşır.
Qadın səsi, söyüş, gülüş, şikayət...
Qəflətən yüksəlir amir bir nida;
Birdən susur hər şey, nal səsi fəqət
Bu müdhiş sükutu pozur bir anda.
Dörd bir tərəfində öz qoşunları,
Koxalarla gəlir hökmdar hetman.
Altında qara at kütləyə sarı
Çapır. Yan tərəfdən elə bu zaman
Bir araba gəlir Kiyev yolundan;
Həycanlı nəzərlər tikilir ona.
Dünya, axirətlə barışıb artıq,
Gəlir arabada Koçubey, yazıq
Qəlbini toxtatmış qüdrətli bir din;
Yanında İskra, sakit və qəmgin.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Quzu tək taleyə boyun əyərək,
Günahsız dostuyla birgə öləcək.
Araba dayandı, Dua səsləri
Yüksəldi. Bir yandan buxurdanlardan
Zəif tüstü qalxdı. Bütün hər yeri
Bir sükut bürüdü. Ancaq bu zaman
Xələldar etmədən sükutu əsla,
Ürək yanğısıyla, böyük ixlasla,
Dua oxuyurdu səssiz, xalq bütün
O qurban verilən bədbəxtlər üçün.
Budur, irəlilədi yaxlaşdı onlar,
Koçubey uzandı, bir xaç çəkərək,
Baltanın altına. Sanki insanlar
Tabut içindədir, səssiz meyit tək.
Balta parıldadı, havada birdən
Baş sıçradı düşdü. Çırpındı bədən.
Bütün çöl "vah" dedi. Sonra o biri
Sıçrayıb qanlara boyadı yeri.
Qəzəbli qəlbində sevinc duyaraq,
Tutub kəkilindən qanlı başları;
Qaldırdı hiddətlə cəllad yuxarı,
Kütlənin üstündə silkələdi, bax.

Edam bitdi artıq, qayğısız kütlə
Dağılışır, gedir hərə evinə.
Yolda bir-biriylə köhnə adətlə
İşindən-gücündən danışır yenə.
Getdikcə boşalır çöl yavaş-yavaş.
Qarışıq yollardan keçib bu zaman
İki qadın qaçır meydana birbaş.
Onların üst-başı tozludur yaman,
Bu edam yerinə bu zavallılar
Qorxuyla gəlirdi görünür. Nə var,
"*Gecdir artıq*" – dedi onlara kimsə,
Barmağilə çölü verərək nişan.
Qadınlar diksindi, bu müdhiş səsə,
Qarşıya baxdılar. Orda bu zaman
Adamlar uğursuz edam yerini



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sökürdü. Qap-qara geyinmiş keşiş
Son dua oxuyur, o gözlərini
Göylərdən çəkmirdi. Bitmişdi hər iş,
Arabaya qoyur tez qaldıraraq,
Palıd tabutları iki gənc kazak.

Ölüm meydanını tərk eyləyərək,
Atlı dəstələrin qabağında tək,
Qəzəbli Mazepa dalğın gedirdi,
Qəlbindəki boşluq onu didirdi.
Lal, dinməz gedirdi yolu Mazepa;
Yalqız buraxmışdı hamı hetmanı.
O toz qaldırırdı at çapa-çapa,
Evə çatıb sordu: "Mariya hanı?"
Həyəcanlı suala cavab olaraq,
Qorxaq, zəif səslər eşitdi ancaq.
Qəlbi səksəkəli, girdi otağa,
Lakin otaq boşdur. Tez çıxır çölə,
Təşviş sarır onu. Üz qoyur bağa.
Baxır pöhrəliyə, sakit göy gölə.
Hər yerdə boşluqdur. Nə iz, nə əsər.
Mazepa çağırır. Gəlir nökərlər;
Hamısı sınanmış, ürəkqızandır.
Atlar əldən düşüb, tapqır boşalıb,
İgidlər at üstə gəzir hər yanı,
Tapıb gətirməkçin tez Mariyanı.

Əziz dəqiqələr sovuşur bir-bir;
Mariya hələ də dönməmiş geri
Hara, necə qaçdı? Səbəbi nədir?
Kimsənin olmamış ondan xəbəri.
Qıcırdadıb durur dişini hetman;
Bütün nökər-nayib əsir qorxudan.
Qəlbində bir zəhər, olunca axşam,
Çəkilir otağa Mazepa tamam.
Gecə, hər yan qara, qəlbində kədər,
Göz yummamış hetman. Açılır səhər;
Nökərlər dolaşıb xeyli gəzərək,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sübh olcaq dönürlər geriyə tək-tək.
Atlar əldən düşüb, tapqır boşalıb.
Nal düşüb, yüyəndən bir parça qalıb
Atların hər yeri tamam qan, köpük,
Çapraqların üstü başdan-başa tük…
Gedən adamlardan heç biri lakin
Ona, yazıq qızdan xəbər vermədi,
Boşluqlarda itən zəif səs təkin
Onun izini də kimsə görmədi.
Bir anası ancaq zülmət içində,
Apardı dərdini, zillət içində.

## ÜÇÜNCÜ NƏĞMƏ

Ruhun ovunmayan dərin kədəri
Uzaşır sürətlə gedir uzağa.
Geniş Ukraynanın qoca rəhbəri,
Qovmuşdu özündən onu irağa.
Onun niyyətləri bərkiyib hər an,
Şved kralıyla uzlaşır hetman.
Lakin düşmən gözü yayındırmaqçın
Yalandan yatmışdır, guya xəstədir.
İnləyir, yalvarır hey için-için,
Dörd yanında təbib dəstə-dəstədir.
Deyir həvəs, döyüş, aramsız əmək,
Xəstəlik, qocalıq, bu kədər, bu qəm
Onu yəqindir ki, tez öldürəcək.
Beş günlük ömrü var. Yaxındır ədəm;
Çox çəkməz tərk edər fani dünyanı.
Müqəddəs ayinin icrası üçün
Arxipastdır, deyir, çağırın, hanı?
Gəlsin sondur artıq, gedirəm bu gün
Öz ağ saçlarına hiyləgər qoca
Zeytun yağı sürtür xəlvət bolluca.

Gün gəlib keçirdi, əbəs hər anda
Qonaq gözləyirdi Moskva. Ancaq
Düşmənlər yatdığı məzarıstanda



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şvedlərə gizli bir tor quraraq.
Qəflətən dəyişdi Karl cəbhəni,
Saldı Ukraynaya müharibəni.

Zaman gəldi artıq, qalxdı yerindən
Mazepa, bu zəif müztərib qoca,
O canlı cənazə, dünən inləyən,
Ölümdən danışan o qərib qoca
İndi o Pyotrun zor düşmənidir,
Qoşunlar önündə gəzir şəst ilə;
Məğrur gözlərində bir alov yanır,
Oynadır qılıncı belədən-belə.
Çapır köhlənini Desnaya sarı,
Altında at deyil, qara bir külək.
Çiynində həyatın ağırlıqları,
*Rim papağı qoyan bic kardinal tək,*
İndi Mazepanın beli düzəlmiş,
İndi o gəncləşib özünə gəlmiş.

Qanadlı quş kimi yayıldı xəbər,
Ukrayna tərpəndi, coşdu bir qədər.
Ülfət bağlamışdır xəyanətlə o,
Karlın ayağına itaətlə o
Hetman buncuğunu atmış". Hər yanı
*Ukraynada bütün eli-obanı*
Bir xalq davasının alovu sarır.
Qanlı şəfəqlərdən göylər qızarır.
Eşidən zamanda bu xəyanəti,
Təsvirə gəlməyir çarın hiddəti.
Bütün kilsələrdə lənət oxunur;
Cəllad, Mazepanın şəklini didir.
Səs-küylü Radada hər gün vurhavur
Yeni hetman üçün danışıq gedir.
Uzaq Yeniseyin sahillərindən
Pyotrun əmriylə çağrılır birdən
İskra, Koçubeyin külfətləri. Çar
Onlarla bir yerdə edib ahu-zar
Çox hörmət göstərir, izzət göstərir,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onlara həm şərəf, həm dövlət verir.
Mazepaya düşmən, igid minici
Paley də, sürgündən çağırılır geri,
Çarın ətrafında olur birinci.
Üsyan başsız qalır. Onun rəhbəri
Qəhrəman Çeçelin kəsilir başı.
Məhv olur ataman, onun yoldaşı.
Döyüş şərəfinin ey həmdəmi, sən
Bir dəmir sərpüşçün çələngdən keçən,
Sonundur. Uzaqdan eyləyib diqqət,
Poltava bəndini gördün, nəhayət.

Tez ora göndərdi qoşunları çar,
Getdilər amansız bir boran kimi.
Gəlib bir düzəndə durdu qoşunlar;
Durdular üz-üzə, bir tufan kimi.
Sarıb bir-birinə düşmən ordular,
Növbəti döyüşçün hiylə qurdular.
Əvvəldən göz qızıb, susayıb qana,
Görür qarşısında köhnə düşmanı,
Döyüşçü atılır qızğın meydana.
Böyük Karl baxır hiddətlənərək.
İndi qarşısında onun dayanan
Narva qaçqınları deyildir tək-tək,
Müntəzəm qoşundur baxdıqda hər yan.
Çevik, itaətkar, inamlı, igid;
Süngülər qatarı durmuşdur sakit.

Lakin o qət etdi: döyüşdür səhər.
Şved qərərgahı yuxuya batmış;
Bir çadır altında ikicə nəfər
Gizli söhbət edir. Qalanlar yatmış.

"Yox, Orlik, görürəm, bu iş yersizdir,
Biz vaxtından əvvəl tələsdik yaman,
Hesabımız qaba, həm də ki, pisdir.
Yaxşı bəhrə çıxmaz ortaya bundan.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Görünür, məqsədim məhv oldu tamam.
Neyləyək? Səhv etdim, mühüm bir işdə
Nahaqdan bu Karla bel bağlamışam.
*Yarımçıq qalacaq arzu da, iş də,*
O zirək oğlandır, cəsarəti var;
Bir-iki döyüşdə, göstərib hünər,
Bəlkə də düşmənə qələbə çalar.
Ona yad deyildir əlbət ki, zəfər.
Düşmən şad edirkən üstünü alıb,
Bombaya gülüşlə cavab verər o.
Rus nişançısıtək gecəyə salıb
Yad qərərgahına gedib girər o.
Yarasına qarşı vuraraq yara,
Hücum edə bilər o kazaklara.
Lakin nəhəngiylə mütləqiyyətin
Üz-üzə durmağı bacarmaz, yəqin:
Taleyi, qoşun tək, təbil səsiylə
Döndərmək istəyir beladən-belə.
O çox səbirsizdir, kordur, höcətdir:
Həm xeyli yüngüldür, lovğadır yaman,
Nəyə bel bağlayır daim, kim bilir.
Yeni bir qüvvətlə gələndə düşman,
Keçmiş qələbəylə ölçür o bunu.
Yəqin sındıracaq öz buynuzunu.
İndi utanıram öz əməlimdən;
Səfil cəngavərə məftun oldum mən;
Bu qoca vaxtımda cavan qız kimi,
Saxlaya bilmədim mən öz hissimi.
Valeh etdi məni onun cürəti,
Tez gəlib, tez keçən qalibiyyəti".

Orlik

Döyüş olacaqdır. Gözəyək bir az,
Gec deyil. Fürsəti buraxmaq olmaz.
Pyotrla uzlaşmaq olar, istəsək,
Rədd etmək mümkündür bəlanı demək.
Bizim zərbəmizdən sınıq çıxsa çar,
Zənn etmə ki, sülhdən boyun qaçırar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## Mazepa

Gecdir-gec. Rus çarı, yox, heç bir zaman
Qoca Mazepayla barışmaz, inan.
Çoxdan həll olunmuş mənim taleyim,
Dəyişdirə bilməz bəxtimi heç kim.
Çoxdan gizləyirəm qəlbimdə kini,
Bir kimsə bilməyir qəlbimdəkini.
Bir dəfə azovun sahillərində,
Açıq göy altında, gecə sərində,
Kef məclisindəydim çarla bərabər.
Qədəhlərdə şərab dolub-daşırdı;
Mən qulaq verərdim, çar danışırdı,
Mən də danışırdım dinləyirdi çar;
Birdən cəsarətli bir söz dedim mən.
Susdu gənc qonaqlar, çox pərtləşərək,
Çar hirsləndi, qədəh düşdü əlindən;
Qəzəblə bığımdan yapışdı bərk-bərk,
Gücsüz bir qəzəblə susdum, dinmədim.
And içib, "intiqam alaram" – dedim.
Ananın rəhmində bir bala kimi,
Bağrımda bəslədim mən öz kinimi.
İndi zaman gəldi. Çar ölənədək
Qoca Mazepanı yad eyləyəcək.
Pyotrun başının bəlasıyam mən,
Yaşıl çələngində – zəhərli tikan.
Ən xoş günlərini ömrümün bu an
Qədim şəhərləri, razıdır verə
Tutmaqçın qəzəblə ağ bığlarından
Qoca Mazepanın yenə bir kərə.
Hələ də bizimçin ümid yeri var:
Səhər həll olunar – görək kim qaçar.

Böyük rus çarının xaini qoca
Yumdu gözlərini söz qurtarınca.

Şərqi alovlatmış açılan səhər;
Geniş-geniş düzlər, alçaq təpələr



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dolmuş top səsiylə. Göylərə sarı
Qalxır tüstülərin ağ burumları.
Səhərin şəfəqi örtəndə yeri,
Düzləndi qoşunun sıx dəstələri.
Nişançıyla doldu kolluqlar, sol-sağ,
Güllə, mərmi gəlir vıyıldayaraq;
Soyuq süngülərin ucu göründü.
Döyüş səsləriylə hər yan büründü.
Əziz övladları qalibiyyətin
Şvedlər, atəşdən keçirlər mətin.
Göydən qızıl güllə hey yağa-yağa;
Süvari dəstələr uçur qabağa,
Onların ardınca piyada gedir,
Sarsılmaz gücüylə, mətanətiylə
Onlar süvariyə çox yardım edir:
Yağdırıb gülləni belədən-belə,
Qızışır döyüşün məşum meydanı;
Coşqun çarpışmalar tutmuş hər yanı,
Lakin qızışdıqca qanlı vuruşlar,
Döyüşün taleyi olur bizə yar.
Yaylım atəşindən olub dərbədər,
Qarışır, yıxılır, qaçır dəstələr.
Rozen çıxıb qaçır fürsət taparaq,
Əsir düşür bizə hirsli Şlipenbax.
Geriyə basırıq biz şvedləri;
Döyüş bayraqları əyilir yerə.
Döyüş meydanının bütün hər yeri,
Zəfər izimizlə dolur yüz kərə.

O zaman göylərdən ilham alaraq,
Pyotrun zil səsi eşidilir: "Qalx,
Allah bizimlədir, döyüşə!" Özü
Yanında dostları, çıxır çadırdan.
Gözləri parlayır. Müdhişdir üzü.
Hərəkəti çevik, bax nə qəşəngdir!
Tanrı tufanıdır o, şimşirəkdir.
Atını verirlər, qulağını at
Şəkləyib durmuşdur sakit, farağat.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ancaq hiss edərək yaxın döyüşü,
Titrəyir, həyəcandan qabarır döşü.
Bir şey görüb ürkək köhlənlər təki
Ayağını vurur, baxır çəpəki.
Böyük sahibiylə fəxr eləyərək,
Birdən sıçrayır o, yel kimi yüyrək.

Günorta. Torpaqdan bürkü yüksəlir.
Bir əkinçi kimi döyüş dincəlir.
Alaylar düzlənib, bərabərləşır;
Tək-tək atlı kazak gəzir, dolaşır;
Döyüş musiqisi susmuşdur artıq;
Susmuş əvvəlki küy, haray, qışqırıq,
Təpələrdə toplar bağırmır indi.
Birdən göylər coşdu, çöllər diksindi.
"Ura!" səsləriylə çulğandı hər yan
Qoşunlar Pyotru gördüyü zaman.

Bölüklər önündə at çapdı keçdi,
Qüdrətli həvəsli bir döyüş kimi.
Gözləriylə sanki çölləri biçdi,
Keçdi sarsılmayan sonsuz güc kimi.
Onun arxasınca bir dəstə adam,
Pyotr yuvasının yetirmələri,
Çara köməkdilər hər işdə müdam,
Döyüşdə arxaydı ona hər biri.
Biri Şeremetev, nəcib və mətin,
Sonra Bryus, Bour, biri də Repnin.
Biri də yarımşah hakim, bəxtiyar,
Hər an o sonsuza tale olur yar.

Cəngavər qoşunun qarşısında, bax!
Sadiq qullarına əsaslanaraq,
Ağır yaralardan çəkib min əzab,
Gəlir təskərədə Karl, solğun, bitab.
Onu təqib edir bir yığın insan,
Döyüşlərdən çıxmış rəhbər, qəhrəman.
Düşüncəyə dalmış Karlın gözləri,
Rahatsız seyr edir indi hər yeri.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üzündən görünür dərin həyəcanı,
Sanki istədiyin döyüş meydanı
Təəccübə salır baxdıqca onu.
Birdən qaldıraraq zəif qolunu,
Əmr edib göndərir o qoşunları
Döyüş meydanında, ruslara sarı.

Çarın qoşunları duman içində,
Onlarla tutuşdu tufan içində.
Poltava döyüşü başladı, qızdı!
Alovlar içində ölən saysızdı.
Dəstələr biçilir, dalbadal gəlir,
Güllələr səslənir, süngü yüksəlir.
Bulud kimi keçir atlı dəstəsi,
Qılınc şaqqıltısı, ah-aman səsi
Bürümüş hər yanı. Əl-qol, baş-ayaq
Doğranıb tökülür hey qalaq-qalaq.
İnsanlar vuruşur, gəlir döş-döşə;
Odlu çuqun şarlar salınır işə.
Atılır, partlayır, qırır tökürlər,
Qanlı bədənləri yarıb sökürlər.
Rus, şved çarpışır, doğrayır, deşir;
Nağara səslənir, döyüş sərtləşir,
Top səsi, inilti, at kişnəməsi;
Hər tərəf cəhənnəm, ölüm səhnəsi.

Təşvişdə, həyəcanda yenə rəhbərlər,
İlhamın gözüylə salırlar nəzər
Döyüş meydanına, döyüşənlərə,
Qan bulaqlarının axdığı yerə.
Kimlər məhv olacaq, kimlər müzəffər,
Söyləyib yavaşca söhbət edirlər
Moskva çarının yanında ancaq,
Kimdir o döyüşçü, başı ağappaq,
İki kazak vardır onun yanında,
Bir qısqanclıq yanır onun canında.
Döyüşlərdən çıxmış qəhrəman gözü,
Seyr edir meydanı, sakitdir özü.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Artıq at üstünə o minən deyil.
Sürgündə can qoyub gəlmiş neçə il.
Pleyin səsinə artıq kazaklar,
Hay verib gəlməzlər hey qatar-qatar.
Nədən onun gözü parladı belə?
Qəzəb gecə kimi öz pərdəsiylə
O qoca üzünü onun örtü, bax!
Onu həyəcanladan nədir bu sayaq?
Bəlkə vuruşmanın dumanlarından,
Gözünə göründü o əski düşman –

Qohum-qardaş, koxa, serdyuk, dost-aşna,
Yaxın kazakları yığıb başına,
Mazepa dayanmış fikirli. Birdən
Bir güllə açıldı yandan, qəflətən.
Başını qaldırdı Mazepa yeyin,
Əlində hələ də Voynarovskinin
Tüfəngin lüləsi tüstülənir, bax!
Bulaşmış qanına bir cavan kazak,
Köpük, toz içində köhləni bu an
Azad olcaq qaçdı, çıxdı aradan.
Od-alov içində gözdən itdi o.
Yay kimi dartılıb, ox tək getdi o.
Alovlardan keçib, atın belində,
Çarpışma içindən, qılınc əlində,
Hetmanın üstünə gəlmişdi kazak,
Gözlərində acıq, qəzəb yanaraq.
Qoca yaxın gəldi, söz sordu, lakin
Kazak can verirdi. Gözlərində kin,
Böyük Rusiyanın bu düşməninə
İntiqam saçırdı. Ölürkən yenə
Ölüm pərdəsiylə örtülmüş üzü
Qorxuncdu. Dilinin son əziz sözü
"Mariyacan!" oldu. Kəsildi səsi,
Uçdu dodağından artıq nəfəsi.

Lakin qalibiyyət yaxındır, yaxın;
Şvedlər sarsıldı. Hey axın-axın



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Urra!" deyib gedir bizim qoşunlar,
Zəfərin bir başqa gözəlliyi var.
Bircə hücum daha. Düşmənlər qaçır,
İnsan hasarından süngü yol açır;
"Urra!" nərələri, "Qoyma! Vur!" – səsi,
Arxadan yetişdi atlı dəstəsi.
Qara çəyirtkə tək qırıldı düşman,
Saysız cəsədlərlə örtüldü meydan.

Pyotr kef edir, şad, həm də məğrur;
Onun baxışları zəfər doludur.
Şahanə məclisi, bax, nə gözəldir,
Düzülmüş yanına dostları bir-bir.
Çadırında Pyotr verir ziyafət,
Döyüş başçıları yad, doğma bütün
Onun qonağıdır. Göstərir ülfət
Qoçaq əsirlərə belə əziz gün
Qaldırır badəni xatirəsinə
Müəllimlərinin hey dönə-dönə.

Lakin bəs hardadır birinci qonaq?
O birinci müdhiş müəllimimiz,
Poltava qalibi onun qıraraq
Köhnə qəzəbini, qoymadı bir iz.
Hardadır Mazepa, hanı o cani,
O xain qorxudan hara qaçdı tez?
Qonaqlar içində bəs kral hanı?
Xain çəkilməyib dara neçin bəs?

Çılpaq çöldə, odur, kralla hetman
At belində qaçıb çıxır aradan.
Tale başlamışdır onları artıq,
Yaxın bir təhlükə, sonsuz bir acıq
Yeni qüvvət verir krala yenə,
Sallamış başını qanlı köksünə;
Yaranı unutmuş, qaçır o qoçaq,
Rusların önündən qaçır qorxaraq.
Sadiq adamları onun bu zaman
Zorla yetişirlər çapıb arxadan,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İti gözlərilə baxıb uzaqdan
Quru səhraların genişliyinə,
Onunla yan-yana at sürür hetman;
Qalın ağ qaşları çatılmış yenə.
Bir xutor göründü qabaqda birdən,
Mazepa diksindi onu görərkən;
Xutorun yanından sivişdi, keçdi,
Gözləri böyüdü, rəngi dəyişdi;
Yoxsa yalqız həyat, bu yalqız ocaq,
Xaraba qalmış ev, bu kimsəsiz bağ,
Açıq buraxılmış köhnə qapılar,
Bu əyilmiş ağac, o köhnə divar,
Ona xatırlatdı bir hekayəti?
Keçmiş bir söhbəti, bir şikayəti?
Qüdsi məsumluğu məhv edən cani!
Söylə, tanıdınmı bu boş yuvanı?
Bu evi, o yer ki, bir zamanlar sən
Şərabın zövqilə vəcdə gələrkən,
Zarafat başlayar, söhbət edərdin?
Xoşbəxt ailəyə ülfət edərdin?
Tanıdınmı, söylə, burda bir zaman,
Sakit bir mələkdi gəzib dolanan?
Bağa bax, tanıdın? Tanıdın? Gecə
Burdan çıxarmışdın onu gizlicə!..

O mavi Dneprin sahillərində,
Gecə kölgələri sarır hər yanı.
Bir daş qayalığın gizli yerində,
Rusiya düşmanı, Pyotrun düşmanı
Mürgüləyir. Lakin qazdan ayıqdır,
Gözləri yumulmuş, özü oyaqdır.
Uzaqlarda gəzir Karlın xəyalı,
Artıq unutmuşdur o qeylü-qalı;
Örtmüşdür xülyalar sərt həqiqəti,
Poltavada olan məğlubiyyəti…
Qarışıq yuxular görürdü hetman,
Rahatsız ruhunda susmurdu həyəcan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Gecənin sükutu sarmış hər yanı,
Çağırdı bu zaman kimsə qocanı.
Hetman tez ayıldı. Çırpındı ürək
Kimsə, barmağilə təhdid edərək,
Əyilmişdi onun üstünə sarı.
Xəfifcə əsirdi göy dodaqları;
Sanki başı üstə bir iti balta
Görüb qorxdu hetman çox yaman halda.
Onun qarşısında, saçı dağınıq,
Batmış gözlərində qorxunc bir işıq,
Bədəni yaralı, arıq, ağappaq.
Ayın işığında durmuş... kim ancaq?
"Mariya... sənmisən... yoxsa yuxudur?"

Mariya

Amandır, səs salma, dostum, sakit dur!..
Atam, anam yatmış... dinmə, nə olar...
Yavaş... səsimizi eşidər onlar...

Mazepa

Mariya, ay yazıq Mariya, aman!
Bircə özünə gəl, eyvah, yaradan!

Mariya

Bir mənə qulaq ver: bicliyə bir bax!
Bircə gülmək olar bu sözə ancaq;
Anam xəlvət dedi mənə bu axşam,
Guya ölmüş mənim zavallı atam.
Məni apararaq o yavaş-yavaş
Göstərdi kəsilmiş ağ saçlı bir baş.
Bu yalan sözlərdən hara qaçaq biz?
Bir düşün, o baş ki, göstərdi səssiz,
Gördüm insan başı deyildi, ancaq
Canavar başıydı, hiyləyə bir bax!
Aldatmaq istəyir gör məni necə?
Utanmayır da bir... belə bir gecə



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əzab verir mənə. İstəyir ki, mən
Onları tərk edib, çıxıb bu evdən
Səninlə qaçmağa etməyim cürət.
Mümkün bir şeydirmi belə hərəkət? –

Könlündə onun var dərin bir əzab,
Sərt aşiq dinləyir vermədən cavab.
Lakin uyub fikrin coşğun selinə,
Kəsməyir sözünü Mariya yenə:
"Yadımdadır bir çöl, səs-küylü bayram,
Adamlar... bir yanda cansız bədənlər...
Məni aparmışdı bayrama anam
Lakin sən hardaydın, söylə, o səhər?
Neçin gecə vaxtı səndən aralı
Belə tək gəzirəm, anlat bu halı?
Tez ol, gedək evə, yubanma bunca...
Ax, boş fikirlərlə doludur başım;
Səni başqasına oxşatdım, qoca!
Tərk et məni, yoxdur yarım-yoldaşım.
Sənin baxışların istehzalıdır,
Müdhişdir. Özün də çirkinsən yaman.
O yaman gözəldir, o vəfalıdır;
Məhəbbətdir onun gözündə yanan.
Onun söhbətləri şirindir, xoşdur,
Bığları ağappaq təzə qar kimi;
Sənin bığlarında qan qurumuşdur,
Bir ov parçalamış canavar kimi".

Vəhşi bir qıy vurub qalxdı yerindən,
Qız bir ceyran kimi sıçradı, getdi.
Vaz atıb yüyürdü, getdi qəflətən,
Qaranlıq gecədə tez gözdən itdi.

Kölgə seyrəkləşir, qızarırdı dan,
Kükrəyib qalxırdı alov ocaqdan.
Ocağın başına toplaşıb bir-bir,
Kazaklar həvəslə buğda bişirir.
Yəhərsiz atları sürüb drabantlar,
Dneprdən sulayır, hey qatar-qatar.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Karl açır gözünü: "Zamandır, yetər!
Qalx görək, Mazepa! Açılır səhər".
Lakin çoxdandır ki, oyaqdır hetman:
Kədər yeyir onu içindən yaman.
Nəfəsi təngişir, təlxdir ovqatı,
Səssiz yəhərləyir yorulmuş atı.
Qaçaq kralla o, at çapır gedir,
Qorxunc gözlərilə baxıb seyr edir
Ayrıldığı yurdu, bu doğma düzü,
Qəzəbdən dəhşətlə parlayır gözü.

Yüz il keçdi getdi. Məğrur, qüvvətli,
Möhkəm iradəli igid, qüdrətli
Kişilərdən indi nə qaldı əsər?
Keçdi getdi onlar, keçdi nəsillər.
Səyin bədbəxtliyin, qələbənin, bax,
Qanlı izi getdi, onlarla uzaq.
Şimal dövlətinin torpaqlarında,
Onun döyüş yolu varaqlarında
Bircə Poltavanın qəhrəmanı, sən
Böyük heykəl qoydun qələbələrdən.
Lal-dinməz hasarı dəyirmanların
Boz enişlərini qədim bəndlərin
Bürüdüyü yerdə. Orda ki, kəllər
Məzarlığa gəlib gəzir hər səhər,
Cəngavər ərlərin qəbri yanında,
Köhnə xarabanın bir sahmanında
Üç pillə vardır ki, enir aşağı,
Üstü yosun, alaq, məzar torpağı.
Şved kralından nişan bu qalmış,
O gündən əbədi sükuta dalmış
Onların üstündən çılğın qəhrəman
Xidmətçilərilə tək qalan zaman,
Türk qoşunlarına qarşı duraraq,
Hey qılınc vururdu şaraqhaşaraq.
Sonra baxdı söndü, taleyi yatdı,
Buncuğun önündə qılıncı atdı.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Lakin yol üstündən keçərsə hər kəs,
Hetmanın qəbrini arayar əbəs.
Unudulub getmiş Mazepa çoxdan,
İldə bircə dəfə, kilsə, ucadan
Müqəddəs bir gündə lənətlə onu
Yad edir. Bu oldu Hetmanın sonu.
İki günahsızın yatdığı məzar
İndi orda durur, ancaq bərqərar.
Qədim məzarlara qatıb məzarı,
Almışdır qoynuna kilsə onları.
Dostların əkdiyi palıdlar, odur,
Dikankada indi bu gün də durur.
Onlar öldürülmüş o babalardan
İndi nəvələrə söz deyir hər an.
Bəs o günahkar qız? Ondan xatirat
Bir xəbər verməyir, nədənsə, heyhat...
Onun əzabları, taleyi, sonu
Qaranlıq pərdəyə örtülmüş bütün;
Axıb gedən günlər unutmuş onu.
Bəzən kor bir aşiq, görürsən bir gün
Ukrayna kəndində xalqa Hetmandan
Şirin nəğməsini oxuyan zaman,
Kazak qızlarına qəmli, mükəddər,
O günahkar qızdan deyir bir qədər.

*1828*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# Dramlar

Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional

# BORİS QODUNOV

Nikolay Mixayloviç Karamzinin rusiyalılar üçün çox əziz olan xatirəsinə, onun dühasından ilham alaraq, yazdığım bu əsəri hörmət və şükranla həsr edirəm.

*Aleksandr Puşkin*

## KREML SARAYI

(1598-ci il, 20 fevral)

Knyaz Şuyski və knyaz Vorotınski.

Vorotınski

Biz, hazırlaşmışıq ki, şəhri gözdən keçirək,
Ancaq orda görməli bir kəs olmasın gərək:
Bomboş qalıb Moskva; xalq şəhri tərk edibdir,
Ağlınca, bu təlaşın necə olacaq sonu?

Şuyski

Sonu necə olacaq? Nə var bilməyə bunu;
Xalq bir az ağlayacaq, zarıyacaq mükəddər,
Boris də, şərab görmüş əyyaş kimi, bir qədər
Üz-gözünü turşudub duracaqdır, nəhayət,
Özü rəhmə gələrək, göstərəcək inayət,
Özü razı olacaq, tacı qəbul edəcək;
Sonra? Sonra da, bəli, yenə də əvvəlki tək
Bizə hakim olacaq...

Vorotınski

Ancaq indi bir ay var
Çəkilib monastıra bacısilə bərabər;
Sanki bütün dünyadan əl çəkməkdir qərarı.
Nə patriarx, nə də ki, dumanın boyarları
Razı edə bilirlər onu bu vaxta qədər,
Qulaq asmır, ağlayıb hey iltimas edirlər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Nə bütün Moskvanın fəryadı ona yetir.
Nə də böyük kilsənin sözünə əməl edir.
Borisi padşahlığa təşviq eləmək üçün
Bacısına əbəscə yalvardılar, nə mümkün!
Rahibə-çariçə də batıb matəmə-qəmə,
Qardaşı tək möhkəmdir, qulaq asmır heç kimə.
Ona da bunu Boris təlqin edib deyəsən...
Yaxşı, belə olarsa, hökmdar həqiqətən
Dövlət qayğılarından tamam eləyib həzər,
Sahibsiz qalan taxta sahib durmasa əgər,
Onda sən nə deyərsən?

Şuyski

Sözüm bu olar ancaq
O köhnə şahzadənin qanı axmışdır nahaq;
*Dmitri sağ qalardı iş belədirsə* əgər.

Vorotınski

Of, nə müdhiş cinayət! Doğrumu söyləyirlər?
Şahzadəni məhv edən Borisdirmi?

Şuyski

Bəs necə?
Çepçuqovu pul verib tovlayan, kimdi səncə,
Bityaqovskiləri, Kaçalovu göndərən?
Bu işi yoxlamaqçın Uqliçə getmişdim mən.
Tapmışdım cinayətin lap yenicə izini,
Bütün şəhər bilirdi bu işin baisini,
*Bütün əhali açıq deyirdi bir ağızdan.*
Əgər mən istəsəydim, qayıdıb gələn zaman,
Bircə kəlmə sözümlə açıb bütün əsrarı,
Aşkara çıxarırdım əsl cinayətkarı.

Vorotınski

Bəs niyə məhv etməyib sən ona verdin aman?



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Şuyski

Etiraf edirəm ki, çaşdırmışdı o zaman
Məni, onda gördüyüm həyasızca sükunət;
Haqlı kimi, gözümə dik-dik baxıb bir müddət,
Sorğu-sual elədi bütün təfərrüatı,
Mən də onun dediyi boş-boş cəfəngiyatı
Təkrar eləyib durdum, bildiyimi demədən…

Vorotınski

Yaxşı iş deyil, knyaz!

Şuyski

Bəs necə edəydim mən?
Hər şeyi Fyodora açıb demədim naçar!
Necə deyə bilərdim? Yaxşı bilirsən ki, çar
Hər bir şeyə baxırdı Qodunovun gözüylə,
Hər bir işi edirdi Qodunovun sözüylə.
Vaqif etsəydim də mən çarı işin əslinə,
Başdan çıxaracaqdı Boris tez onu yenə.
Məni sürgün eləyib burdan qovacaqdılar,
Əmim kimi, zindanda bir gün boğacaqdılar.
Lovğalanmıram, ancaq, yeri gələn zamanda,
Ən dəhşətli cəzadan qorxmaram bu cahanda;
Qorxaq deyil ancaq, axmaq da deyiləm mən
Öz boynumu kəndirə keçirəm nahaq yerdən.

Vorotınski

Nə dəhşətli cinayət! Yəqin ki, cani özü,
Peşmandır, əzab çəkir bütün gecə-gündüzü.
Əlbət məsum körpənin qanı, tökdüyü o qan
Ona, taxta çıxmağa mane olur hər zaman.

Şuyski

Boris elə də qorxaq deyil; O, taxta çıxar!
Bütün rus diyarına, bizə şərəf, iftixar!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünənki qul, bir tatar, körpə qatili, cəllad,
Malyutanın yeznəsi, cəllad damadı, heyhat,
Monomaxın tacını öz başına qoyacaq...

Vorotınski

Əsli-nəsli də yox; biz əslzadəyik ancaq.

Şuyski

Bəli!..

Vorotınski

Axı, Şuyski, Vorotınski... əslən
Nəcib knyaz nəslidir, sən ki yaxşı bilirsən.

Şuyski

Bu səhihdir, özü də xalis Ryurik qanından...

Vorotınski

Onda, bura bax, knyaz, əgər əslinə baxsan,
Fyodorun varisi gərək biz olaq əlbət.

Şuyski

Qodunova nisbətən bizdə çoxdur ləyaqət.

Vorotınski

Doğrudan da belədir!

Şuyski

Eləsə, onda gəl biz,
Nə qədər ki, hiylədən əl çəkməmişdir Boris,
Camaatın içinə gizlincə salaq üsyan,
Qoy əl çəksinlər onlar o xain Qodunovdan.
Özlərinin bu qədər nəcib knyazları var,
Hər kimi bəyənərlər, qoy seçsinlər onu çar.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vorotınski

Varyaqın bizim kimi varisi çoxdur, ancaq,
Çətindir bizim üçün Qodunovla çarpışmaq:
Camaat artıq çoxdan yaddan çıxarıb bizi,
Bir zaman hakim olan o qədim nəslimizi.

Çoxdan bizi əlaltı eləyibdir xanədan.
O isə, qorxutmaqla, saxta məhəbbət ilə
Bacarıb camaatın könlünü alıb ələ.

Şuyski

(*pəncərədən baxır*)

O, çox cəsarətlidir, bizlərsə... artıq yetər!
Odur, xalq dəstə-dəstə pərakəndə gəlirlər;
Tez gedək görək nə var, verilmişmi bir qərar?

**QIZIL MEYDAN**

Xalq

Bir nəfər

Heç yumşalmır; qəzəblə qovdu hamını kənar,
Boş qayıtdı patriarx, ruhanilər, boyarlar,
Yalvarıb-yaxardılar, hamısı getdi hədər,
Taxtın parıltısından o qorxur, edir həzər...

Bir başqası

Aman Allah, padşahsız qalacağıq biz nədir?
Vay bizim halımıza!

Üçüncü bir adam

Odur, baş məmur gəlir.
Gəlir bildirsin bizə qərarını Dumanın.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Camaat

Dumanın baş məmuru danışır, bir dayanın!
Sus! Sus! Bir sakit olun!

Şelkalov

*(qırmızı eyvandan)*

Kilsə çıxarıb qərar,
Son dəfə yoxlanılsın, gərək qəmgin hökmdar
Qəbul buyuracaqmı xahişimizi lütfən?
Pak, müqəddəs patriarx, yenə də səhər erkən
Böyük bir ayin icra edəcək Kremldə,
Vladimirsk, Donskoy ikonaları əldə,
Qabaqda pak lövhələr, müqəddəs bayraqlarla,
Boyarlar, dvoryanlar birgə düşəcək yola.
Ardınca Moskvanın pravoslav camaatı,
Gedib yalvaracağıq, çariçənin hümməti
*Əskik olmasın, yetim* qoymasın ölkəmizi,
Tacı qəbul etməyə təşviq etsin Borisi.
İndi isə, dağılın, evlərinizə gedin,
Hamı sidqi-ürəklə Allaha dua edin!..

*(Camaat dağılıb gedir)*

**DEVİÇYE POLE. NOVODEVÇ MONASTIRI**

*Xalq*

Bir nəfər

İndicə çariçənin hücrəsinə girdilər:
Boris də, patriarx da, boyarlarla bərabər.

Bir başqası

Nə var, nə yox? Nə xəbər?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Üçüncü

İnad eləyir, ancaq,
Yenə ümid yeri var; Bəlkə razı olacaq...

Bir arvad

*(qucağında uşaq)*

Can, can! Ağlama, bala, damdabaca gələr ha!
Gələr aparar səni! Can, can! Ağlama, bala!

Bir nəfər

Görəsən o hasardan aşıb keçmək olarmı?

Bir başqası

Əşi hara? Görmürsən? Heç belə iş yararmı?
Çöldə dayanmaq olmur! Zarafatdır? Nə qədər
Adam varsa axışıb gəlib bura, sal nəzər:
Hasarlara, damlara, kilsənin qülləsinə,
Künbəzlərin üstünə, xaçların kəlləsinə,
Hər yer adam gətirib...

Birinci

Qəribədir, doğrudan!

Bir nəfər

Bu nə hay-küydür?

Bir başqası

Dayan! Nə səsdir gəlir ordan?
Camaat ağlaşır, bax, diz çökür dalğa-dalğa...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir cərgə… bir cərgə də… Budur, bax, qardaş,
daha
Növbə bizə də çatdı; yubanma tez diz çök, diz!

C a m a a t

(*diz çöküb ağlaşır, yalvarır*)

Ax, ata, rəhmin gəlsin! Ol bizim hakimimiz!
Bizə ata ol! Çar ol!..

B i r  n ə f ə r

(*yavaşdan*)

Nə deyib ağlayırlar?

B i r  b a ş q a s ı

Biz nə bilək? Bu işi bilər yalnız boyarlar…
Onlar bizə tay deyil!..

U ş a q l ı  a r v a d

Ağlasana!.. Ağlamaq
Vaxtı gələndə, susur!.. Vay səni, fərsiz uşaq!..
Xortdan gəlir! Di ağla!..

(*Uşağı yerə atır; uşaq hıçqırır.*)

Bax, belə ha!..

B i r  n ə f ə r

A qardaş,
Gəl ağlayaq!

B i r  b a ş q a s ı

Neyləyim gözümdən bir gilə yaş
Çıxmır, ha əlləşirəm…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birinci

Mənim də... bir az soğan
Olsaydı, gözümüzə sürtərdik...

İkinci

Yox, bir dayan,
Mən tüpürcək sürtürəm... Yaxşı bax bir gör nə
var.

Birinci

Heç baş çıxarmaq olmur... Hey qaynaşır adamlar.

Camaat

Tac onundur! Çar odur! Razı oldu! Şadıq biz!
Boris bizə çar oldu! Var ol! Yaşasın Boris!

**KREML SARAYI**

Boris, patriarx, boyarlar.

Boris

Dinlə, patriarx-ata, dinləyəni, ey boyarlar,
Qəlbində olanları eləyim sizə nahar:
Özünüz gördünüz ki, nə qorxdu, nə minnətlə
Böyük hökmranlığı alıram bu gün ələ.
Ağır bir vezifəni öhdəmə alıram mən,
Qüdrətli İoannın varisi oluram mən!
Mən əvəz eləyirəm o mələk kimi çarı...
Ey həqiqi ustadım! Hökmdar-atam, barı
Öz sadiq qullarının göz yaşına göylərdən,
O ali məqamından bir nəzər qıl özün sən;
Himayə et lütfünlə yüksəltdiyin insanı,
Göndər hökmranlıqçın mənə xeyir-duanı:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən də olum xalqıma şərəfli bir padşah,
Mən də olum sənin tək ədalətli, xeyirxah...
Ey boyarlar, sizdən nə gözləyirəm mən kömək,
Mənə də qulluq edin,. Ona qulluq edən tək.
Xalqın iradəsilə hələ seçilməmişkən,
Sizinlə hər zəhmətə qatlaşırdım onda mən...

B o y a r l a r

Biz and içdik, dönmərik əsla bu andımızdan.

B o r i s

İndisə, Rusiyanın torpaq altında yatan
Ulu hökmdarları məzarlığına gedək,
Onlara ehtiramla baş əyib təzim edək.
Sonra verilsin xalqa misilsiz bir ziyafət,
Çağrılsın varlı-yoxsul, hamı, bütün camaət...

(*Gedir ardınca boyarlar da çıxırlar*)

V o r o t ı n s k i

(*Şuyskini dayandıraraq*)

Başa düşdünmü?

Ş u y s k i

Nəyi?

V o r o t ı n s k i

O gün danışırdıq ha!..
Xatırlamırsanmı?

Ş u y s k i

Yox, yadıma gəlmir əsla.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Vorotınski

Xalq Deviçye düzünə iltimasa gedərkən,
Dedin ha...

Şuyski

Vaxtı deyil, o sözü yad etmə sən
Məhəbbət görürəm ki, tamam unut o sözü...
Qəsdən elə söyləyib o zaman, sözün düzü,
Sənin gizli fikrini öyrənmək istəyirdim...
Xalq çarı təbrik edir... Vaxtdır, daha mən gedim.
Orda olmasam əgər, yaxşı düşməz, duyarlar...

Vorotınski

Ax, saray xidmətçisi, çar nökəri, riyakar!..

**GECƏ. ÇUD MONASTIRINDA BİR HÜCRƏ**

(1603-cü il)

Pimenata, Qriqori

*(yatmış)*

Pimen

*(qəndil önündə oturub, yazır)*

Bircə şey qalır ancaq, – axırıncı rəvayət...
Bununla da salnaməm tamam olur nəhayət.
Allahın buyruğunu mən yerinə yetirdim,
Həvalə elədiyin vəzifəni bitirdim.
Məni uzun illərin şahidi etdi Allah,
Kitab yazmaq faninin mənə öyrətdi Allah
Bir zaman haqq yolunda zəhmət sevən bir rahib



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mənim bu adsız olan əsərimi kəşf edib
Yandırar qəndilinin o da burda mənim tək,
Üstündən əsrlərin tozlarını silərək,
Köçürər bu kitabdan düzgün rəvayətləri.
Pravoslav övladları keçmiş zamandan bəri
Olar doğma vətənin taleyindən xəbərdar;
Bilər nə işlər görüb ölkədə böyük çarlar.
Xeyirxah olanlara edirlər xeyir-dua,
Bədəməl olanları tapşırarlar Allaha.
Yenidən əmr edirəm bu qoca günümdə mən.
Keçmiş zamanlar gəlib ötüşür gözlərimdən:
Sərgüzəştli dəmlərim çoşğun bir ümman kimi,
Keçdi-getdi, macara dolu bir zaman kimi.
İndi səssiz-səmirsiz, sakit keçir həyatım,
Yalnız bir neçə sima hifz edib xatiratım.
Bir neçə sözdür mənə o günlərdən yadigar,
Unudulub əbədi bütün qalan hər nə var...
Artıq sabah açılır, qəndil sönür nəhayət,
Yalnız bircə şey qalır, – sonuncu bir rəvayət...

*(yazır)*

Q r i q o r i

*(ayılır)*

Biz həmən o röya!.. Üçüncü dəfədir bu!
Heç belə şey olarmı? Aman, o məlun yuxu!
Qoca oturub yazır qəndil yazır qəndil önündə yenə ;
Bütün gecə yuxu da getməyib gözlərinə.
Nə qədər xoşdur onun belə sakit görkəmi...
Oturub yad edərək bütün keçmiş aləmi,
Yazır öz kitabını, ta sübhə qədər yazır?
Nə olaydı biləydim, biləydim nələr yazır? –
Tatar təhəkkümündən, məşum zamanlardanmı?
İoanın zülm ilə tökdüyü qanadlardanmı?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Novqorodun o coşqun-qızğın üsyanındanmı?
Vətənin qüdrətindən, şöhrətli şanındanmı?..
Ancaq, açıq alnından, sakit nəzərlərindən
Heç şey oxumaq olmur, duymaq olmur qətiyyən.
Müqəssirə, haqlıya sakitcə nəzər salan.
Xeyri-şəri dinlərkən, tamamən laqeyd qalan,
Nə mərhəmət, nə qəzəb duyan bir məmur kimi,
Üzündə bir sükunət, bir vüqar var daimi...

P i m e n

Oyandınmı qardaşım?

Q r i q o r i

Xeyir-dua ver mənə
Sən, ey möhtərəm baba.

P i m e n

Allah yar olsun sənə,
Gecə gündüz hər yerdə, hər işində hər zaman...

Q r i q o r i

Sən elə hey yazırsan, bütün gecə yatmadan;
Ancaq mənim yuxuma min xələl qatdı iblis,
Təşvişə saldı mənim xəyalımı o xəbis,
Röyada bir qülləyə çıxmışdım, xeyli yüksək
Moskva görünürdü qarınca yuvası tək.
Aşağıda camaat qaynaşırdı bu zaman,
Hamı məni göstərib gülüşürdü ucadan.
Qəlbim həyəcana gəlib həya ilə dəhşətdən,
Başaşağı düşərkən, ayıldım yuxudan mən…
Üç dəfə bir gecədə gördüm həmin röyanı;
Qəribə deyilmi bu?..



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Pimen

Oynayır gənclik qanı…
Onda röyaların da dincləşər, xəfifləşər.
Mənə hələ indi də, gecə yatan zamanda
Xeyli dua etməsəm, azca huş aparanda,
Bu yaşda da narəva yuxular vermir aman:
Gah oluram hay-küylü ziyafətlərdə mehman,
Gah döyüş meydanında şığıyıram irəli…
Hey, gənclik günlərinin çılğın əyləncələri!..

Qriqori

Necə xoş keçirmisən gənclik günlərini sən!
Qazan qüllələrini özündə döyüşmüsən,
Qovub litvalıları Şuyskinin vaxtında,
İoannı görmüsən sarayında- taxtında!..
Nə xoşbəxtsən!.. Mən isə, uşaqlıq yaşlarımdan
Şagird olub gəzirəm hücrələri sərgərdan!..
Döyüş meydanlarında neyçin at çapmayım mən?
Neçin ləzzət almayım mən də çar süfrəsindən?
Mən də qocalan zaman vaxt tapardım sənin tək,
Dünyanın işlərindən kənara çəkilərək,
Əhdü-peyman edərdim, rahib olardım yəqin,,
Tənha, dinc bir yer tapıb olardım guşəsinin…

Pimen

Bu fani dünyanı tez tərk etməyindən əsla.
Narazı olma, qardaş, guya haqqi-təala
Binəsib eləyiblər səni zövqü səfadan.
Şöhrət, sərvət, riyakar qadın sevgisi, inan,
Uzaqdan xoş görünür; lakin, çürükdür əslən.
Çox əmr edib dünyada hər zövqü dadmışam mən;
Onda ki monastıra yol göstərdi mənə haqq,
Səfa nə olduğunu mən onda bildim ancaq…
Oğul, özün bir düşün, xəyala gətir barı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dünyaya gəlib-gedən böyük hökmdarları:
Varmı onlardan yüksək hökmdarları:
Onlara zidd getməyə heç kimsə cürət etməz.
Ancaq ağırlıq etmiş onlara çox zaman tac,
Bir rahib təsəyinə olmuş çoxları möhtac:
Çar İvan rahibliyə bənzər bir yol tutmuşdu,
Bunda təsəlli tapıb dərdini unutmuşdu.
Məğrur dost-aşnalara dolu saray boşaldı,
Döndü bir monastıra, quru bir adı qaldı.
Keçə təsəklər qoyub, geyinib qara paltar.
Müti rahib oldular mənsəbçin boğuşanlar.
Bir baş ruhani oldu dəhşətli çar özü də;
Mən özüm gördüm onu, bax, həmin hücrədə…
(Bu hücrədə mənim tək yaşayırdı o zaman
Kirill adlı cəfakeş, sədaqətli bir insan.
Onda məni də Allah etmişdi haqqa dəvət,
Dünyanın heçliyini görüb etmişdim nifrət)…
Bax, burda çar Qroznı qəzəbli xəyallardan,
Cəzalardan bezikmiş, oturmuşdu pərişan.
*Durmuşduq qarşısında hərəkətsiz, müti, ram.*
O, söhbət eləyirdi bizimlə aram-aram.
Baş rahibə, bizlərə belə söyləyirdi çar:
"Atalarım, gün gələr, arzum yerinə çatar,
Mən də nicat tapmağa gələrəm içinizə,
Ey Nikodim, ey Sergi, ey Kirill, indi sizə
Bir sözüm var, dinləyin: əhd edirəm ürəkdən,
Bir gün bir cani kimi yanınıza gəlib mən,
Ayağına düşərəm, müqəddəs ata, sənin,
"Tövbə-istiğfar edib olaram guşənişin"
Bax, belə söyləyirdi o qüdrətli hökmdar.
Şirin-şirin danışır, tökürdü qanlı yaşlar.
Biz hamımız ağlaşıb dua edərdik ona,
Allah təskinlik versin onun coşqun ruhuna.
Hələ oğlu Feodor? Taxtında olan zaman,
Rahiblik həsrətilə edirdi ahu-aman.
O, döndərib sarayı sadə ibadətgaha,
Dua edirdi orda gecə-gündüz Allaha.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kəsalətli, qərəzli dövlət qayğılarından
Onun müqəddəs ruhu duymazdı bir həyəcan.
Allah da bəyənmiş o itaətkar çarı,
Dövründə dinc və məsud yaşadı Rus diyarı.
Ölən zamanında da oldu qəribə bir iş;
Bir möcüzə baş verdi ki, misli heç görünməmiş:
Yatağının başında bir anda oldu zahir
Yalnız ona görünən yüksək nurani bir pir,
– Böyük patriarx! – deyə, həmin o xəyalətə
Çar Feodor başladı xəyalətlə söhbətə.
Bu halı seyr edənlər heyrət içində qaldı,
Yanında olanları böyük bir dəhşət aldı,
Çünki ulu hakimin sarayda, çar önündə
Zühurunu eşidən olmamışdı ömründə.
Nəhayət, çar ruhunu təslim edən zamanda,
Sarayı xoş rayihə bürüdü bircə anda;
Günəş kimi parlaqdı ölünün yanaqları...
Bir də görə bilmərik belə nəcib bir çarı!
Aman, nə böyük dəhşət, nə misilsiz fəlakət!
Günahkarıq... Allah da qəzəbləndi nəhayət.
Bir padşah qatilinin etdik özümüzə çar...

Qriqori

Əziz ata, çoxdandır sənə bir sualım var:
Şahzadə Dmitrini kim öldürüb görəsən?
Deyirlər ki, Uqliçdə olubsan o zaman sən?

Pimen

Ah, o qanlı cinayət yaxşı addımdadır, ah!
Bu günahın şahidi elədi məni Allah.
O zaman bir əhd üçün getmişdim mən Uqliçə.
Yenicə yetişmişdim həmin şəhərə, gecə,
Sübh dua zamanı küy qopdu, çan vuruldu,
Çariçənin həyəti camaat ilə doldu.
Mən də yüyürüb gördüm ordadır bütün şəhər,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şahzadə qan içində, boğazını kəsiblər;
Başı üstə anası, çariçə əldən gedir,
Dayəsi hönkürtüylə ağlayır, fəryad edir.
Camaat axışaraq qəzəblə dalğa-dalğa,
Xain süd anasını sürüdü ortalığa.
Onların arasından, rəngi ağ kətan kimi,
Mürtəd Bityaqovski zahirə çıxan kimi;
"Bax, budur cani!" – deyə, camaat hay-küy saldı,
Nəticədə o cani bircə anda yoxladı.
Birdən camaat görüb üç qatili qaçanda,
Yaxalayıb gətirdi onları bircə anda
Körpənin soyumamış cəsədinin önünə;
Birdən meyit tərpəşdi, möcüzə göründü yenə.
"Tövbə edin!" – deyərək bağırışdı camaat,
Baltalarla onları təhdid etdi, nəhayət,
Canilər tövbə edib Borisi göstərdilər...

Q r i q o r i

Neçə yaşında idi məqtul şahzadə məgər?

P i m e n

Yeddi yaşı olardı... Sağ qalsaydı... – (deyəsən
Oh, yox, düz on iki il keçir o hadisədən.) –
Sağ qalsaydı, səninlə indi yaşıd olardı;
Allah qismət etmədi; yoxsa o indi çardı...
Bununla da salnaməm çatacaq nəhayətə,
Həsr edirəm sonunu bu məşum rəvayətə...
O zamandan bəri mən biganə olub tamam,
Dünyanın işlərinə daha baş qoşmamışam,
Bax, Qriqori, qardaş savad kəsb etmisən sən,
Bu əsərimi sənə əmanət verirəm mən:
İbadətdən, duadan asudə vaxt tapanda,
Yazırsan bura bir-bir hər nə görsən cahanda, –
Özündən riyakarca heç bir şey artırmadan:
Hərbdən, sülhdən, çarların xalq ilə rəftarından,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Müqəddəs övliyanın möcüzəli işindən,
Qəzanın rəftarından, fələyin gərdişindən
Daha vaxtdır, indicə sabah da açılacaq,
Qəndil də sönür; gedim bir dincəlim... Yox ancaq,
Sübh duasıdır bu, çanlar vuruldu, eyvah,
Sən özün qullarına havadır ol, ya Allah!
Qriqori, ver görüm, qardaş, mənim əsamı...

(*Gedir*)

Boris! Boris! Qarşında qorxub titrəyir hamı!
Hüzurunda heç kimsə cürət etməz dünyada
Taleyini o bədbəxt körpənin salsın yada!
Bu qaranlıq hücrədə ancaq bir rahib bu an
Yazır sənin işindən, sonsuz günahlarından.
Yaxan qurtarmayacaq dünya məhkəməsindən,
Haqq məhkəməsindən də qaça bilməyəcəksən!

**PATRİARXIN SARAYI**

Patriarx. Çud monastırının baş rahibi.

P a t r i a r x

Deməli ki, o qaçıb getmişdir, rahib ata, eləmi?

B a ş  r a h i b

Qaçmışdır, müqəddəs ata. İndi üç gün olar ki,
Qaçmışdır.

P a t r i a r x

Məlun, bəzzat! Əsli-nəsli haradandır?

B a ş  r a h i b

Otrepyevlər nəslindən. Qaliça boyarları uşaqlarındandır. Hardasa, cavanlıqla saçlarını kəsdirib rahibliyə girmişdir. Suzdalda, Yefimevski monastırında yaşamış, oradan gedib müxtəlif məskənlərdə dərbədər



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

gəzmiş, axırda gəlib Çud monastırındakı mənim rahib qardaşlarıma qoşulmuşdur. Mən də onun hələ cavan və dərrakəsiz olduğunu görüb, onu mötəbər və mömin bir qoca olan Pimen atanın himayəsinə vermişdim. O, çox savadlı idi; bizim salnamələri oxuyur və övliyalara dualar yazırdı. Ancaq görünür ki, savad ona Allah tərəfindən verilməyibmiş…

Patriarx

Ax, həzər bu oxumuşlardan! Xam xəyalına bir bax: Moskvaya çar olacağam! Ax, şeytanın nökəri! Ancaq bu barədə çara məlumat vermək lazım deyil; atamız-çarı niyə narahat edək? Onun qaçdığını dayaklardan Smirnova və ya Yefimevə xəbər vermək kifayət edər. Küfr edib danışdığına bir bax: Moskvaya çar olacağam!.. Tutmaq, o düşmən həmrahini yaxalamaq və əbədi tövbə etdirmək üçün, həmişəlik Solovski monastırına sürgün etmək lazımdır. Bu ki, küfrdür, rahib-ata?

Başrahib

Küfrdür, müqəddəs ata, xalis küfrdür!..

**ÇARIN SARAYI**

İki saray xadimi

Birinci

Padşah haradadır?

İkinci

Orada, öz otağında, inan,
Yenə bir sehrbazla baş-başa verib çoxdan.

Birinci

Onun əcəb qəribə sevimli peşəsi var;
Həmsöhbətləri kimdir: Sehrbazlar, falçılar…
Nazlı bir gəlin kimi hey falına baxdırır.
Bir biləydim axı o, bu falda nə axtarır?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İkinci

Odur, gəlir. Meylin var, buyur soruş özündən!

Birinci

Qanı yaman qaradır!..

*(Gedirlər)*

Çar

*(daxil olur)*

Hökmdar da oldum mən.
Asudə hökm edirəm indi düz altı ildir;
Ancaq yenə də qəlbim, ruhum rahat deyildir.
Bu ona bənzəyir ki, cavan yaşlarında biz
Eşqin oduna yanıb çırpınarkən qəlbimiz,
Sonra yar vüsalına nail olan zamanda,
Soyuyuruq, doyuruq məhəbbətdən bir anda!..
Nahaq yerə falçılar deyirlər – uzun müddət
Asudəlik içində sürərəm hakimiyyətdən.
Nə hökmranlıq məni sevindirir, nə həyat,
İlahi bir fəlakət gözləyir, nə heyhat!
Səadət yoxdur mənə… Bir zaman səxavətlə,
Firavan yaşatmaqla, xalqın qəlbini ələ
Almaq fikrinə düşdüm… Baş tutmadı niyyətim
Camaat düşmənidir canlı hakimiyyətin.
Ölüləri sevməyi bacarır onları ancaq:
Xalqın alqışlarına, ax-vayına inanmaq
Dəlillikdir… Ona bel bağlamaq olmaz əsla.
Allah etdi ölkəmi qəhətliyə mübtəla,
Xalq ahu-zar içində acından qırılarkən,
Taxıl anbarlarını onlara payladım mən,
Qızıl səpdim başıma, iş tapdım hər birinə,
Əvəzində qəzəblə nifrət qazandım yenə!
Yanğın məskənlərini etdi bütün tarmar,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mən tikdirdim onlara yeni gözəl binalar;
Onlar məzəmmət etdi yanğında məni… Budur
Xalqın mühakiməsi!.. Məhəbbət axtar, buyur!
Dedim ki, ailəmdə bəlkə könlüm ola şad:
Ərə verim qızımı, keçirsin xoşbəxt həyat;
Ölüm nişanlısını apardı gözlənmədən…
İşə bax ki, camaat bunu da görür məndən!
Guya mən, bədbəxt ata, səbəb olmuşam buna,
Özüm bais olmuşam qızımın dulluğuna!
Kim ölsə, gizli qətli isnad edirlər mənə:
Fyodor tez ölübsə, bais mənmişəm yenə!
Guya zəhərləmişəm öz bacım çariçəni,
Hər qanlı cinayətə bais bilirlər məni!..
Of!..Deyəsən bizlərə heç şey, bəli
Bu dünya dərdlərindən verə bilməz təsəlli…
Yalnız bir təsəlli var: saf, ləkəsiz bir vicdan.
Bircə onun önündə acizdir fitnə, böhtan…
Lakin onun da yalnız bir ləkəsi olarsa,
Təsadüfi də olsa, bir qan ləkəsi varsa,
Onda… Aman, nə dəhşət!.. Bu, insanı məhv edər,
Könül od tutub yanar, qəlbi parçalar zəhər, –
Qulağı çəkic kimi döyəcləyər nədamət,
Baş daimi hərlənir, qalmaz bədəndə taqət,
Görünər gözlərinə qanlı körpə cəsədlər,
Qaçmağa yer tapılmaz, dünya ona dar gələr…
Ah, nə acı fəlakət! Aman, nə dəhşətli, aman!
Nə miskindir vicdanı təmiz olmayan insan!..

## LİTVA SƏRHƏDİNDƏ BİR MEYXANA

*Misail və Varlaam, sərsəri rahiblər; Qriqori Otrepyev adi qiyafətdə; meyxana sahibəsi.*

Meyxana sahibəsi

Hörmətli qocalar, sizə yeməyə nə verim?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Varlaam

Allah verdiyindən, əziz xanım. Şərab yoxdurmu?

Meyxana sahibəsi

Niyə yoxdur, atalarım! Bu saat gətirim.

(*Gedir*)

Misail

Niyə belə fikrə gedibsən a dost? Budur, bu da sənin belə can atdığın Litva sərhədi.

Qriqori

Gedib Litvaya çıxmayınca, ürəyim sakit olmayacaqdır.

Varlaam

Bu Litvada nə görüb belə bənd olmusan? Budur, biz, Misail ata və mən günahkar, monastırdan yaxmazı qurtarıb daha heç bir şeyin fikrini çəkmirik. İstər Litva olsun, istər Rus ölkəsi, nə fərqi var? Təki içməyə şərab olsun... Budur, o da gəldi!..

Misail

Lap yaxşı dedin, Varlaam ata.

Meyxana sahibəsi

(*daxil olur*)

Buyurun, atalarım, için, nuş olsun!

Misail

Sağ ol, əzizim, Allah köməyin olsun.

(Rahiblər şərab içirlər; Varlaam nəğmə oxumağa başlanır: "Bir zaman var idi, Qazan şəhərində... ")



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Varlaam

*(Qriqoriyə)*

Sənə nə olub, nə içirsən, nə səsimə səs verirsən?

Qriqori

Könlüm istəmir.

Misail

Kef sənindir...

Varlaam

Kef içindədir, Misail ata! Gəl bir qədəh də içək bizim meyxana sahibəsinin sağlığına... Ancaq, bilirsənmi, Misail ata, mən içəndə, ayıq adamdan xoşum gəlməz; kefcilik başqa, lovğalıq başqa; Bizim kimi yaşamaq istəyirsən, gözümüz üstə yerin var, istəmirsən, itil buradan, rəd dol: lotu ilə keşişinki tutmaz.

Qriqori

Varlaam ata, şərabını iç, otur dinc! Görürsən ki, mən hərdən qafiyə ilə danışa bilirəm.

Varlaam

Mənə nə olub ki, dinc oturam?

Misail

Varlaam ata, onda işin olmasın.

Varlaam

Axı bu haranın pəhrizkarı oldu? Heç bilmirik kimdir, hansı yuvanın quşudur, özü gəlib bizə qoşulub, yoldaş olub, hələ bir özünü naza da qoyur; bəlkə burnuna arvad iyi dəyib...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*(İçir və oxuyur: "Gənc rahib saçını kəsdirdi")*

Qriqori

*(meyxana sahibəsinə)*

Bu yol hara gedir?

Meyxana sahibəsi

Litvaya gedir, vəlinemətim, Luyov dağlarına.

Qriqori

Luyov dağları burdan çoxmu uzaqdır?

Meyxana sahibəsi

Əgər çar gözətçiləri və keşikçi yasavullara rast gəlməsən, axşama gedib çata bilərsən.

Qriqori

Necə yəni gözətçilər? Bu nə deməkdir?

Meyxana sahibəsi

Moskvadan kim isə qaçıb, tapşırıblar ki, hamını saxlayıb yoxlasınlar.

Qriqori

*(öz-özünə)*

Bəli, yaxşı yerdə axşamladıq.

Varlaam

Bura bax, dostum! Deyəsən meyxana sahibəsinə gözün düşübdür. Deməli, könlün araq yox, canan istəyir. O da bəd olmaz! Hərənin öz zövqü var. Misail ata ilə mənimki bircə şeydir: dibinədək içmək, sonra qabı çevirib dibini taqqıldatmaq.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Misail

Lap yaxşı dedin. Varlaam ata...

Qriqori

Onlar kimi axtarır ki, Moskvadan qaçan kimdir ki?

Meyxana sahibəsi

Allah bilir, oğrudurmu, quldurdumu, ancaq daha buradan bir Allah bəndəsi də gəlib-gedə bilmir; bundan nə çıxacaq? Heç bir şey. Heç əllərinə qotur keçi də keçməyəcək; elə bil ki, Litvaya bu padşahlıq yolundan başqa yol yox imiş! Budur, bax, elə buradanca sola dönüb meşənin içi ilə ensiz cığırla Çekan çayın qırağındakı kilsəyə qədər, oradan düz bataqlığın içi ilə Xlopinoya, oradan da Zaxarevoya kim getsə, orada balaca uşaq da onu aparıb Luyov dağına çıxarar. Bu yasavulların da işi-peşəsi yolçuları incitməkdi; bir də ki, biz yazıqları soymaq. (*Səs-küy gəlir.*)

Yenə bu nədir? Budur, o məlunlar gəldilər! Hamısı bir yerdə gəlir.

Qriqori

Xanım, bir başqa yeriniz yoxdurmu?

Meyxana sahibəsi

Yoxdur, əzizim. Olsa, elə özüm başımı bir yerə soxub gizlənərdim. Elə yoxlamaq bəhanəsi ilə hey gəlirlər, şərab ver, çörək ver, nə bilim, nə ver. Görüm onları Allah qırsın! Görüm onları...

(*Yasavullar daxil olur*)

Yasavul

Salam xanım!

Meyxana sahibəsi

Xoş gəldiniz, əziz qonaqlar, səfa gətirdiniz, buyurun.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bir yasavul

(*o birinə*)

Baho! Burada kef məclisi varmış ki! Bir qarnımızı qızdırarıq. (*Rahiblərə*) Siz kimsiniz?

Varlaam

Biz Allahın fağır bəndələri – qoca rahiblər, aciz kilsə xadimləriyik; kənd-kənd gəzib xristianlardan monastır üçün sədəqə yığırıq.

Yasavul

(*Qriqoriyə*)

Bəs sən?

Misail

Bizim yoldaşımızdır…

Qriqori

Bu şəhər civarının camaatındanam; bu qocaları buraya qədər ötür-düm; buradan da öz yerimizə qayıdacağam.

Misail

Deməli, fikrini dəyişdin?..

Qriqori

Sus!

Yasavul

Ay xanım, bir az da şərab ver, Bu qocalarla içib bir az söhbət edək.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

O biri yasavul

(*yavaşcadan*)

Bu oğlan görünür lütün biridir; ondan bizə şey düşməz; ancaq qocalar, hə...

Birinci

Dayan bir, indi onlara bir əl gəzdirərik. Hə, atalar, işiniz necə gedir?

Varlaam

Pis keçir, oğul, çox pis! Xristianlar indi yaman xəsisləşiblər. Pul düşkünü olublar, pulu gizlədirlər. Allah yoluna az verirlər. Allah bəlanı bizim ölkədən uzaq eləsin... Hamı alverə, qazanc axtarmağa qurşanıb, elə dünya malının dərdinə qalıblar, axirəti yaddan çıxarıblar. Hey gəzirsən, hey yalvarırsan, üç günə üçcə çet də yığmaq olmur. Hamı günaha batıb! Bir-iki həftə gəzəndən sonra kisəyə baxırsan, içində o qədər az şey var ki, adam monastıra qayıtmağa utanır. Nə çarə? Canının dərdindən olan-olmazı da içkiyə verirsən. Bəlaya düşmüşük, bəlaya. – Of, işimiz xarabdır, deyəsən, axır zamanımızdır.

Meyxana sahibəsi

(*ağlayır*)

Aman Allah, özün bizə rəhm elə!

(*Varlaam danışdığı müddətdə birinci yasavul mənalı-mənalı Misaili nəzərdən keçirir.*)

Birinci yasavul

Alyoxa! Çarın fərmanı yanındadırmı?

İkinci

Yanımdadır.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Birinci

Bəri ver görüm.

Misail

Niyə belə diqqətlə mənə baxırsan?

Birinci yasavul

Ona görə ki: Moskvadan Qrişka Otrepyev adlı bir qəddar mürtəd qaçıbdır. Eşidibsinizmi?

Misail

Eşitməmişəm.

Yasavul

Eşitməyibsən? Yaxşı. Çar əmr edib ki, həmin qaçqın mürtəd tutulub asılsın. Bundan xəbərin varmı?

Misail

Yox, eşitməmişəm.

Yasavul

(*Varlaama*)

Oxumaq bilərsənmi?

Varlaam

Cavanlıqda bilərdim, yadımdan çıxarmışam.

Yasavul

(*Misailə*)

Sən necə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Misail

Allah qismət etməyib.

Yasavul

Onda, al çarın fərmanını.

Misail

Mən onu neyləyirəm?

Yasavul

Mənə elə gəlir ki, o qaçqın mürtəd, oğru, fırıldaqçı sənsən.

Misail

Mən! Allah eləməsin! Nə danışırsan?

Yasavul

Dayan! Qapıları kəsin! Biz bu saat yoxlayarıq.

Meyxana sahibəsi

Of, məlun zalimlər! Yazıq qoca rahibi də dinc qoymurlar.

Yasavul

Burada savadlı olan kimdir?

Qriqori

(*irəli çıxır*)

Mən savadlıyam.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Y a s a v u l

Al! Savadı kimdən öyrənibsən?

Q r i q o r i

Bizim keşişdən.

Y a s a v u l

(*fərmanı ona verir*)

Ucadan oxu!

Q r i q o r i

(*oxuyur*)

"Çud monastırının nadürüst rahibi Otrepyev nəslindən olan Qriqori mürtəd olub və şeytanın vəsvəsəsinə uyub müqəddəs ruhaniləri cürbəcür hiylə və qanunsuzluqlarla yoldan çıxarmağa cürət etmişdir. Alınan məlumata görə o məlun Qrişka Litva sərhədinə tərəf qaçmışdır..."

Y a s a v u l

(*Misailə*)

Bəs bu sən deyilsənmi?

Q r i q o r i

"Çar əmr etmişdir ki, o tutulsun..."

Y a s a v u l

Və asılsın.

Q r i q o r i

Burada, asılsın yazılmayıb.

Y a s a v u l

Boş sözdür hər sözü ora yazmazlar ki. Oxu ki, tutulsun və asılsın.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qriqori

"...Və asılsın. Həmin oğru Qrişkanın yaşı... (*Varlaama baxaraq*) 50-dən çoxdur. Boyu orta, alnı daz, saqqalı çal, qarnı yoğun..."

(*Hamı Varlaama baxır.*)

Yasavul

Uşaqlar! Qrişka buradadır! Tutqun, əl-qolunu sarıyın! Bir gör, heç ağlıma da gəlməzdi.

Varlaam

(*kağızı qaparaq*)

Əl çəkin, köpək uşağı! Mən haradan Qrişka oldum? – Necə yəni! Yaşı 50, saqqalı çal, qarnı yekə! Yox, qardaş! Məni lağa qoymaq üçün hələ körpəsən. Çox da yazı oxumamışam, çox da başım çıxmaz, ancaq iş kəndirə qalanda, bir təhər baş taparam. (*Hecalaya-hecalaya oxuyur.*) "O-on-nun ya-yaşı-ı... 20. Necə oldu, qardaş? Hanı burada 50? Görürsən? 20 yazılıb.

İkinci yasavul

Hə, yadıma gəlir, iyirmi. Bizə də belə demişdilər.

Birinci yasavul

(*Qriqoriyə*)

Qardaş, deyəsən sən məzəli adamsan.

(*Fərman oxunan müddətdə, Qriqori, əli belində,
başıaşağı dayanmışdır.*)

Varlaam

(*davam edir*)

"Onun boyu alçaq, sinəsi enli, bir qolu o birindən gödək, gözləri göy, saçı kürəndir, yanağında və alnında xalları var". Dostum, olmaya bu, elə sən özünsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*(Qriqori birdən xəncəri çəkir, hamı qabağından qaçır, o pəncərələrdən bayıra atılır.)*

Yasavul

Tutun! Qoymayın!

Hamı, pərakəndə halda qaçışır.

**MOSKVA. ŞUYSKİNİN EVİ**

Şuyski, çox qonaq var. Axşam yeməyi zamanıdır.

Şuyski

Bir də şərab doldurun!

*(Ayağa qalxır, ardınca hamı durur.)*

Əziz qonaqlarım, bu
Axırıncı qədəhdir! Oğlan, duanı oxu!

Oğlan

Sən, ey hər yerdə mövcud, ulu göylər sultanı,
Qəbul et qullarından bu səmimi duanı:
Himayə qıl həmişə sən bizim padşahı,
Sən özün bəyənmisən o zatı, ya ilahi!
Biz xristianların qüdrətli çarıdır o,
Onu sarayında da, savaşda da sən qoru!
Səfərdə, rəxti-xabda onu bəxtəvər elə,
Düşmənlər üzərində daim müzəffər elə!
Bütün dünya üzündə şöhrəti olsun hər zaman!
Nəsli ucalıb salsın cümlə cahana sayə,
Etsin biz qullarını o həmişə himayə.
Mərhəməti çox olsun, səbri uca dağ kimi,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Mərifəti, zəkası tükənməz bulaq kimi.
Qaldırıb badələri, çar üçün bu duanı
Səndən niyaz edirik, ey göylərin sultanı!

Şuyski

(*içir*)

Min yaşasın, var olsun daim böyük hökmdar!
Xudahafiz! Sağ olun, ey möhtərəm qonaqlar!
Sağ olun ki, süfrəmi şərəfləndirdiniz siz,
Xudahafiz dostlarım, xeyrə qalsın gecəniz!

(*Qonaqlar gedir. Şuyski onları qapıya qədər ötürür.*)

Puşkin

Axır ki, rədd oldular!.. Hə, knyaz Vasili İvanoviç, güman edirdim ki, heç söhbət etməyə fürsət tapmayacağıq.

Şuyski

(*xidmətkarlara*)

Niyə ağzınızı ayırıb durursunuz? İşiniz-peşəniz ağaların söhbətlərinə qulaq asmaqdır. Süfrəni yığışdırın, itilin buradan!
– Nə deyirdiniz, Afanasi Mixayloviç?

Puşkin

Lap möcüzədir, möcüzə…
Qardaşoğlum Qavrila Puşkin bu sabah yenə
Krakovdan gizlincə qasid göndərib mənə.

Şuyski

Hə…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P u ş k i n

Qardaşoğlu yazır tamam yeni bir xəbər.
Çar Qroznının oğlu… Bir dayan!

(*Qapıya sarı gedib ətrafı yoxlayır.*)

O, bir səhər
Borisin əmri ilə həlak edilmiş olan
Şahzadə…

Ş u y s k i

Bu ki, köhnə xəbərdir…

P u ş k i n

Yox, bir dayan:
Dmitri sağdır!

Ş u y s k i

Yox-a! Bax, bu xəbər təzədir!
Şahzadə sağmış demək!.. Bu, xalis möcüzədir!
Elə bircə bu?

P u ş k i n

Dayan, axırınıza qulaq as:
Hər kim isə, şahzadə bəlkə olubmuş xilas,
Bəlkə cürətli lotu, bir macərapərəstdir.
Hər necəsə, Dmitri olubdur orda əyan.

Ş u y s k i

Yox, canım!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P u ş k i n

Puşkin onu saraya gələn zaman
Litva əyanlarının pişvaz etdiyini,
Gizlincə düz kralın yanına getdiyini
Özü görüb…

Ş u y s k i

Kimdir o? Haralıdır?

P u ş k i n

Kim bilsin.
Bircə şey məlumdur ki, o Vişnevetskinin
Xidmətkarı olubmuş… Etiraf edib bunu
Xəstəykən bir keşişə… Pan da eşidib bunu,
Gəlib tez yatağına qaldıraraq, birbaşa
Sigizmundun yanına yola düşüblər qoşa.

Ş u y s k i

Yaxşı, bəs daha nələr deyirlər o qoçaqdan?
Deyirlər ki, ağıllı, xoşdil, zirəkdir yaman;
Hamı xoşlayır onu… Moskvadan qaçanlar
Ona məftun olublar… Edir ona etibar
Latın keşişləri də… Deyirlər hörmət-izzət
Bəsləyir kral ona, vəd edir müavinət.

Ş u y s k i

Qardaş, bir elə hiylə bir fitnədir ki, bunlar
Düzü, adamın başı hərlənir biixtiyar.
Söz yox ki, qondarma bir şahzadədir o qoçaq;
Təhlükə çox böyükdür, bilirəm bunu ancaq



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Bu çox mühüm xəbərdir! Xalq bunu bilsə, inan,
Qonacaq bu ölkədə inan müdhiş bir tufan…

Puşkin

Bir tufan ki, çar Boris nə qədər etsə qeyrət.
O ağıllı başından tacı gedəcək əlbət…
Əcəb olur. Gör o da (qulaqlara qurğuşun!)
Çar İvan tək zülm edir, yoluyla gedir onun.
Hərçənd indi boyunlar vurulmayır aşkara,
Xalqın gözü önündə çəkilmir insan dara,
İsanın şərəfinə beyt oxuda-oxuda,
Diri-diri atmırlar bizi meydanda oda,
Çar əsasıyla gözü qurdalamır… Müxtəsər,
Ancaq miskin həyatdan arxayınıqmı bizlər?!
nagəhani bir cəza gözləyir bizi hər gün:
Zindan, monastır, zəncir və ya acından ölmək!..
Adlı-sanlı nəsillər hanı, söylə bir görək?
O, Sitski knyazları, Şestunovlar bəs hanı?
Hanı vətən dirəyi Romanov xanədanı?!
Zindanlarda, sürgündə çürüdülər nəhayət…
Bir az sonra səni də gözləyir bu aqibət!
Belə də şey olarmı?! Öz evimizdə bizi
Güdürlər, sanki Litva bürüyüb dövrəmizi.
Hökumət satın alıb hər nanəcib adamı;
Bircə söz danışdınmı, adamı satır hamı!..
Cəza verə bilmirik qorxudan bir nökərə,
Onlardan da qorxursan, bir ağa olub hərə.
Yuri bayramını da qaldırdı çar aradan,
İxtiyar səndə deyil, mülk sahibi də olsan:
Tənbəli qovmaq olmaz! Yedirtməlisən naçar;
Nökəri dəyişməyə yoxdur səndə ixtiyar!
Yoxsa qanuna qarşı edirsən müxalifət…
Heç çar İvan zamanı vardımı belə bidət?
Xalqın halı yamandır? Bir soruş, gör nə deyər!..
Qədim Yuri gününü o özündən çar əgər
Xalqa vəd etsə, bir gör nə həngamə qopacaq!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ş u y s k i

Sözün haqlıdır, Puşkin, bilirsən nə var, ancaq,
Bütün bu əhvalatı hələ gərək bir müddət
Biz gizlində saxlayaq, dinməyək…

P u ş k i n

Əlbət, əlbət...
Öz aramızda qalsın… Sən ağıllı adamsan;
Səninlə söhbət etmək xoşdur mənə hər zaman.
Nə gizlin sirrim olsa, nə arzum, nə diləyim,
Ta sənə deməyincə sakit olmur ürəyim.
Bir də, bu gün verdiyin sərin pivə, şirin bal
Lap yumşalıb dilimi, eləyib məni bihal…
Əlvida, knyaz, sağ ol!..

Ş u y s k i

Xoş gəldin, dost, yaxşı yol!..

(*Puşkini yola salır.*)

**ÇARIN SARAYI**

Ş a h z a d ə coğrafiya xəritəsi çəkir. Ç a r ı n q ı z ı
və onun d a y ə s i .

K s e n i y a

(*şəkli öpür*)

Ey mənim əziz nişanlım, gözəl şahzadə, sən mənə, öz sevgilinə qismət olmadın, yad bir ölkədə qaranlıq bir məzar nəsibin oldu. Ürəyim heç bir zaman sakit olmayacaq, daim səni yad edib göz yaşları tökəcəyəm.

Eh, şahzadə xanım, qızın ağlaması şeh kimi bir şeydir, Gün çıxan kimi, şeh də quruyub gedər. Sənin üçün gözəl və mehriban bir nişanlı tapılar; onu sevərsən, gözəl xanım, o şah oğlu da yaddan çıxıb gedər.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kseniya

Yox, dayə can, mən onun ölüsünə də sadiq qalacağam…

*(Boris daxil olur.)*

Çar

Kseniya, nə var yenə, mənim mehriban qızım?
Gəlinlik duvağında, yazıq, dul qalan qızım!
O, ölmüş nişanlına ağlayırsan sən yenə?
Of, bala can! Taleyim qismət etmədi mənə
Məsud həyatınızın baisi olam!.. Yəqin,
Qəzəbi keçib mənə, hər nədənsə, göylərin.
Sənin xoşbəxtliyini yarada bilmədim mən…
Nədən dərd çəkəsən sən, məsum ikən, ah, nədən?
Sən neyləyirsən, oğlum? Bəs bu nədir bu sayaq?

Fyodor

Moskva torpağının xəritəsidir bu, bax,
Görürsənmi, çəkilib burda bütün ölkəmiz;
Bax: Moskva, Novqorod, Astraxan… Bax, dəniz…
Bu da Perm meşələri, budur, bax, bu da Sibir…

Çar

Bəs belə qıvrım-qıvrım uzanan bu xətt nədir?

Fyodor

Bu, Volqadır.

Çar

Nə gözəl! Elmin gücünə bir bax!
Elə bil buludlarla göylərə ucalaraq,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Seyr edirsən ölkəni sərhəd, çaylar, şəhərlər…
Oxu, oğlum, elm öyrən, ondadır əsil hünər;
Odur bu qısa ömrü təcrübəylə artıran…
Kağızda nəqş etdiyin bütün yerlər bir zaman,.
Bəlkə də bu yaxında, sənə qismət olacaq…
Oxu, elm öyrən, oğlum, onun gücüylə ancaq
Hökumət işlərini yaxşı başa düşərsən…

(*Semyon Qodunov gəlir*)

Budur, Qodunov gəlir, bir xəbər var deyəsən.

(*Kseniyaya*)

Can qızım, əziz qızım, sən öz otağına get.
Xudahafiz, haqq özü etsin sənə mərhəmət!

(*Kseniya dayəsi ilə gedir.*)

De görək nə sözün var, Semyon Nikitiç?

S e m y o n  Q o d u n o v

Səhər
Şuyskilə Puşkinin nökərləri bir xəbər
Veriblər mənə…

Ç a r

Aha!

S e m y o n  Q o d u n o v

Puşkinin nökərindən
Əvvəl bildim ki, dünən sübh ertə Krakovdan
Onlara çapar gəlib; bir saat sonra haman
Çapar fərman almadan, yenə qayıdıb gedib…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ç a r

O çaparı tutdurun!

S e m y o n  Q o d u n o v

Onu edirlər təqib…

Ç a r

Bəs Şuyskidən nə var?

S e m y o n  Q o d u n o v

Şuyski dünən axşam
Qonaq dəvət edibmiş öz dostlarını tamam:
Ordaymış Buturlinlər, qoşa Miloslavskilər,
Mixayıl Saltıkovla Puşkin… Bir neçə nəfər
Başqaları da varmış… Xeyli gec dağılmışlar;
Puşkinlə ev sahibi bir müddət tək qalmışlar…

Ç a r

Dalınca adam göndər bu saat Şuyskinin!

S e m y o n  Q o d u n o v

Padşahım, o, burdadır.

Ç a r

Çağır, tez bura gəlsin!

(*Qodunov gedir*)

Ç a r

Litvayla əlaqəyə giriblər!.. Nə deməkdir?..
Asi Puşkin nəslindən əvvəldən zəhləm gedir.
Şuyskiyə də əsla etmək olmaz etibar:
Üzü dönükdür onun, özü cəsur, hiyləgər…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

(*Şuyski daxil olur.*)

Knyaz, səninlə etmək istəyirdim bir söhbət;
Özün gəlib çıxıbsan; bir sözün vardır əlbət…
Əvvəl səni dinləyim, elə isə söylə, nə var?

Şuyski

Padşahım, bir borc bildim edim səni xəbərdar
Mühüm bir məsələdən…

Çar

Dinləyirəm səni mən.

Şuyski

(*Fyodoru göstərib yavaşcadan*)

Lakin, padşahım…

Çar

Gizlin deyildir şahzadədən
Knyaz Şuyskinin mənə söyləyəcəyi sözlər.

Şuyski

Ey padşahım, Litvadan eşitmişik bir xəbər…

Çar

Yoxsa dünən çaparın Puşkinə gətirdiyi
Xəbərdir?..

Şuyski

O bilmirmiş!.. Mən güman edirdim ki,
Padşahım, sən bu sirrə hələ vaqif deyilsən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Çar

Heç zərər yoxdur, knyaz, gələn xəbərləri mən
Yoxlamaq istəyirəm… Yoxsa, haqq ilə nahaq
Aşkara çıxa bilməz…

Şuyski

Mən bilirəm ki, ancaq
Bir yalançı çar çıxıb Krakovda meydana;
Kral da, əyanlar da kömək edirlər ona.

Çar

Nə danışırlar ondan? Kimdir o yalançı çar.

Şuyski

*Bilmirəm…*

Çar

Bəs eləsə, onda qorxacaq nə var?

Şuyski

Əlbəttə ki, padşahım, qüdrətlidir dövlətin,
Mərhəmətin, şəfqətin, tükənməz səxavətin
Sayəsində qulların oğul tək sevir səni…
Ancaq, tanıyırsan ki, sən bu qara kütləni;
Üzü dönük, ağlı kəm, mövhumatçı, üsyankar,
Boş ümidə qapılıb tez eləyər etibar.
Ötərgi bir təlqinə uyub edər itaət,
Anlamaz, duymaz nədir əsl sadiq həqiqət.
Nağıldan, əfsanədən zövq duyar, ləzzət anlar,
Həyasız cəsarəti bəyənər, sevər onlar.
Belə olan zamanda, o naməlum sərsəri



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Litva sərhədlərindən atlayıb keçsə bəri,
Yığılacaq başına yəqin bir sürü axmaq,
Dirilmiş Dmitrinin adına aldanaraq…

Çar

Dmitrinin!.. Nə dedin?.. O körpənin!.. Nə dəhşət!..
Dmitrinin!.. Eləmi?.. Şahzadə, sən durma, get!..

Şuyski

Onun rəngi qızardı: tufan qopacaq, tufan!

Fyodor

Padşahım, icazə ver…

Çar

Yox, oğlum, sən get burdan!

(*Fyodor gedir*)

Dmitri!..

Şuyski

Bu barədə heç şey bilmirmiş əlbət!..

Çar

Knyaz, gərək görülsün hər bir tədbir bu saat:
Hər tərəfdən bağlansın Litvanın sərhədləri;
Bircə nəfər də ordan keçə bilməsin bəri.
Lehistandan bu taya keçməsin bircə dovşan,
Bircə qarğa uçmasın bu yana Krakovdan!..
Di get!..



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Şuyski

Baş üstə…

Çar

Dayan!.. Nə deyirsən, bu xəbər
Qəribədir. Ömründə görmüsənmi ölülər
Dirilərək istintaq eləsinlər yenidən
Xalqın iradəsilə, arzusuyla seçilən,
Müqəddəs patriarxın nəsb etdiyi çarları?!
Gülünc deyilmi?.. Söylə!.. Sən də gülsənə barı!

Şuyski

Mənmi, padşahım?..

Çar

Knyaz Vasili, bir bura bax,
Belə eşitmişdim ki, o vaxt nədir… o uşaq…
Həmin uşaq, necəsə, öldürüləndə bir gün…
Sənə göndəriblərmiş onda təhqiqat üçün…
İndi xaça, Allaha and verirəm səni mən,
Vicdanla söylə mənə, doğru de, həqiqətən
Tanıdınmı o məqtul uşağı?.. Əvəzinə
Başqası deyildi ki, ölən?.. Cavab ver mənə!

Şuyski

And içirəm sənə…

Çar

Yox, Şuyski, and içmə, sən
Söylə, Şahzadəydimi doğrudan öldürülən?..

Şuyski

Oydu!



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Ç a r

Bir düşün, knyaz: vəd edirəm mərhəmət,
O keçmiş yalan üçün cəza vermərəm, əlbət!..
Ancaq yalan söyləsən əgər sən indi mənə
And içirəm oğlumun başına, onda sənə
Elə müdhiş bir cəza verirəm mən ki, inan,
Dəhşətindən titrəyər məzarında çar İvan!..

Ş u y s k i

Hər cəzadan ağırdır elədiyin bu töhmət...
Sənə yalan deməyə heç edərəmmi cürət?
Mən gərək kor olam ki, bu dərəcə aldanam,
Dmitrini tanıya bilməyəm... Üç gün tamam
Bütün Uqliç xalqilə bərabərcə getmişəm,
Meyitini kilsədə mən ziyarət etmişəm...
Orda on üç cəsəd də qoyulmuşdu yan-yana,
Onları xalq öldürüb bulamışdı al-qana...
Bir üfunət yayırkən cəsədlər dövrəsində,
Şahzadənin o məsum, o körpə çöhrəsində
Hələ qalmışdı təmiz bir sakitlik, təravət,
Sanki heç ölməmişdi, yatırdı rahət-rahət;
Heç laxtalanmamışdı dərin yaranın yeri,
Əsla dəyişməmişdi üzünün cizgiləri...
Yox, padşahım, heç əsla şübhə eləmə, inan,
Dmitri məzardadır...

Ç a r

(*sakit*)

Bəsdir... indi, get burdan!

(*Şuyski gedir*)

Of!.. Ürəyim çatlayır!.. bir azca rahatlanım...
Duyurdum ki, beynimə vururdu mənim qanım,
Ağır-ağır enirdi, mən onu dinlədikcə...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

bununçün bu on üç il, dinc qoymadan, hər gecə
Röyada görünürmüş mənə o məqtul uşaq!..
Bəli, bəli anladım... İndi anladım ancaq!..
Lakin o müdhiş rəqib, bir biləydim kimdir, kim?
Bir quru ad, bir kölgə olacaq mənə qənim,
Bir kölgəmi əlimdən taxtı-tacı alacaq?
Balalarım irsimdən məhrum olub qalacaq!
Mən dəlimi olmuşam!.. nədən qorxuram, nədən?
Yox olacaq o xəyal bir dəfə üfləsəm mən!..
Artıq tərəddüd yetər... Budur verdiyim qərar:
Qorxunu edəm gərək tamam özümdən kənar,
Ancaq ehtiyatı da güdəm... Aman, ilahi...
Of, nə ağırmışsan, ey, Monomaxın günahı!..

## KRAKOV. VİŞNEVETSKİNİN EVİ

Saxta çar və Pater Çernikovski.

Saxta çar

Yox ata, qorxum yoxdur əsla bir çətinlikdən,
Öz xalqımın ruhuna yaxşıca bələdəm mən:
Onun ürəyində var Allahına etiqad,
Müqəddəs bir duyğuyla bəslər çara etimad.
Daima dözümlüdür, əzmi, səbatı möhkəm...
İkicə il də keçməz, səni əmin edirəm.
Bütün şimal kilsəsi, bütün xalq edib iqrar,
Pyotrun naibini tanıyacaq hökmdar. –

Pater

Pak-müqəddəs İqnati havadar olsun sənə
Çərxi-fələk dövr edib dəyişəndə zəmanə!
Feyzi-ilahiyə sən sidqi-ürəklə, inan,
Onu qəlbində saxla, ey şahzadə, hər zaman.
Bu zahiri aləmə bəzən gərək uyaq biz.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*Bunu əmr edir bizə mənəvi vəzifəmiz.*
Sözünü, işlərini bir yalnız insanlar bilir.
Qəsdini, niyyətini bir Allah edər təhqir.

S a x t a  ç a r

Amin!.. Kimdir?

(*Xidmətkar daxil olur*)

Söylə ki, icazə var, gəlsinlər.

(*Qapılar açılır, bir dəstə rus və polyak içəri girir.*)

Dostlar! Biz Krakovdan sabah edirdik səfər,
Mnişek, gərək üç gün sizdə qalaq Samborda;
Bilmirəm, mehmannəvaz bir qəsrin vardır orda.
Tanıyıram o gözəl, o möhtəşəm binanı.
Qəsrin gənc sahibəsi, o gözəl Marinanı
Yəqin ki, orda görmək müyəssər olar mənə…
*Siz, ey əziz dostlarım, ey ümumi düşmənə,*
Mənfur rəqibə qarşı mənə arxa duranlar,
Ona qarşı qardaşlıq bayrağı qaldıranlar:
Ey litvalı, ey ruslar, ey slavyan igidlər,
Gedərik düşmən üstə bu yaxında bərabər!..
Deyəsən aranızda yeni adamlar da var?

Q a v r i l a  P u ş k i n

Sənə qılıncla xidmət etməyə gəlib onlar…

S a x t a  ç a r

Çox razıyam, övladlar, dostlar, yaxına gəlin!
Bəs o gənc, qəşəng oğlan kimdir, de görüm,
Puşkin?

P u ş k i n

O, knyaz Kurbskidir.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Saxta çar

Şərəflidir bu ad-san!

(*Kurbskiyə*)

Qazan qəhrəmanının əqrabasındanmısan?

Kurbski

Oğluyam...

Saxta çar

O sağmıdır?

Kurbski

Xeyir, etmişdir vəfat.
Döyüşdə, məşvərətdə böyük adamdı... Heyhat!..
Ancaq litvalılara əlbir olub o bir gün,
Şəxsi həqarətlərə intiqam almaq üçün,
Qədim Olgin şəhrinə hücum edəndən bəri
Adı batdı...

Kurbski

Atamın ömrünün son günləri
Volınidə tənhalıq, sükut içində keçdi.
Orda Batori ona bir mülk bəxş eləmişdi;
Təsəlli axtarırdı elmi işlərdə, fəqət,
Təskin etmədi onu əsla bu məşğuliyyət:
Gəncliyini, vətəni hər zaman salıb yada,
Son günədək həsrətlə qəlbi gəldi fəryada...

Saxta çar

Yazıq rəhbər!.. Nə parlaq şölə saçmışdı bir an
O coşqun-daşqın ömrü, ilk zühur edən zaman!
Ey nəcabətli igid, bu hal xoş gəlir mənə:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Onun qanı barışır bu gün vətənlə yenə;
Ataların çıxaraq yaddan bəd əməlini;
Qoy ruhları şad olsun! Kurbski, ver əlini!..
– Bəli, Kurbski oğlu taxt üçün yol alacaq…
Kimə?.. Gör, İoannın oğluna!.. – İşə bir bax!..
Hər şey mənə sarıdır: tale, insanlar, dövran…
Sən kimsən?

P o l y a k

Sobanski, – mülkədar, hürr bir insan.

S a x t a  ç a r

Eşq olsun azadlığın igid, cəsur oğlana!
Bu gündən üç qat artıq donluq verilsin ona…
Bəs bunlar kimdir? Mənə deyəsən tanış gəlir
Bu vətən geyimləri… Bunlar bizimkilərdir?

X r u ş ş o v

(*təzim edir*)

Düzdür, ey atamız – çar, sənin yerindənik biz,
Yurdunda əzab çəkən nökərlərindənik biz.
Moskvadan qaçmışıq amansız cəzalardan,
Yanına sığınmışıq, ey atamız, hər zaman
Yolunda candan-başdan keçməyə hazırıq biz,
Taxtına pillə olsun qoy bu cəsədlərimiz!..

S a x t a  ç a r

Mərd olun, səbr eləyin, ey məsum cəfakeşlər,
O gün ki, Moskvaya mənim ayağım dəyər;
Onda Boris hər şeyi cəzasını alacaq!..
Sən kimsən?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

K a r e l a

Hüzuruna Dondan gəlmiş bir kazak.
İgid atamanlardan, sərazad övladından,
Bütün vətəndaşlarım kazakların adından
Gəlmişəm təzim ilə hüzuruna baş əyim,
Şahanə gözlərini minnətlə seyr eləyim…

S a x t a   ç a r

Donlulara bələdəm, mən bilirdim ki, kazak
Ələmləri ordumun içində ucalacaq.
Don qoşunlarımıza təşəkkür edirik biz…
Bunu da bilirik ki, igid kazaklar yersiz
Təzyiq olunub, artıq əziyyətlər çəkirlər,
Atamızın taxtını nəsib etsə haqq əgər,
Biz qədim dədə-baba yolu ilə gedərik,
O azad, sadiq Dona bəxş edərik!..

Ş a i r

(*Yaxınlaşır ikiqat təzim edib Qrişkanın ətəyindən yapışır.*)

Ey əzəmətli prins, ey müqəddəs şahzadə!..

S a x t a   ç a r

Nə istəyirsən?

Ş a i r

(*ona bir kağız təqdim edir*)

Lütfən qəbul edin bu sadə,
Bu həqir zəhmətimin dəyərsiz məhsulunu…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Saxta çar

Nələr görür gözlərim? Latın şeridir ki, bu!
Qılınc ilə rübabın birliyi müqəddəsdir!
Onları eyni çələng nə xoş dərağuş edir!..
Mən yarı zülmət səma altında doğulmuşam,
Ancaq latın şerinin hüsnünə bənd olmuşam.
Parnas çiçəklərinin ətri xoş gəlir mənə,
Valehəm şairlərin peyğəmbərliklərinə.
Nahaq deyil onların qəlbində coşqun hisslər:
Bir şücaəti əvvəl şair mədh etsə əgər,
Yəqin ki, o, həmişə xeyir ilə əncam tapar...
Gəl, dostum, al, bu olsun məndən sənə yadigar!..

(*Üzüyünü ona verir*)

Ümidvaram ki, tale yar olan zaman mənə,
Babamın öz taxtına çıxdığım zaman, yenə
Sənin o xoş səsini eşidərəm mən əlbət,
Sənin coşqun Mədhiyyən verər daha da ləzzət.
Musa gloriam coronat, gloriaque musam,[1]
Di, sağ olun, sübhədək xudahafiz, dostlarım!..

Hamı

Yaşa, var ol Dmitri, biz hazırıq savaşa!
Yaşa, böyük Moskva knyazı, var ol, yaşa!..

## VOYEVODA MNİŞEKİN SAMBORDAKI QƏSRİ

Bir sıra işıqlanmış otaq. Musiqi səsləri.

Vişnevetski, Mnişek

Mnişek

Qızım Marina ilə söhbət edir o ancaq;
Yalnız Marina ilə məşğuldur... İşə bir bax:

[1] İlham pərisi şöhrəti, şöhrət ilham pərisini alqışlayır.

Bu işdən toy qoxusu gəlir deyəsən yaman…
Söylə, Vişnevetski, heç edərdimi güman,
Mənim qızım çariçə ola?.. Hə, nə deyirsən?

Vişnevetski

Bəli, əcazdır, əcaz… Güman edərdinmi sən
Ki, Moskva taxtına çıxa nökərim bir gün?

Mnişek

Bəs bizim Marinanın hünərinə nə sözün?
Bircə işarə vurub ona, söylədim ki, mən:
Fürsətdir, Dmitrini, ayıq ol, vermə əldən!
Vəssalam, iş qurtardı… Salıb onu toruna,
Nə edibsə, Dmitri yaman yapışıb ona…

(*Musiqi leh rəqsi çalır. Saxta çar birinci sırada Marina ilə rəqs edir.*)

Marina

(*yavaşcadan Dmitriyə*)

Hə, gecə düz on birdə cökə xiyabanında
Sabah səni gözlərəm fəvvarənin yanında…

(*Ayrılırlar. Başqa bir cüt*)

Kişi

Dmitri nə görübdür onda bilmirəm?

Qadın

Necə?!
Çox gözəl qızdır!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

K i ş i

Bəli, mərmər heykəldir məncə:
Nə gözləri nur saçır, nə dodağı gülümsər…
Mən ki, görmürəm onda dirilikdən bir əsər.

(*Yeni bir cüt*)

Q a d ı n

Dmitri gözəl deyil, ancaq xoşdur zahirən;
Çar nəslindən olduğu bilinir görkəmindən…

(*Yeni bir cüt*)

Q a d ı n

Bəs səfər nə zamandır?

K i ş i

Əmrə hazırıq hər an.
Ancaq pan Mnişekin qızı hələ bir zaman
Dmitriylə birlikdə əsir eləyib bizi…

Q a d ı n

Nə xoş bir əsarətdir…

K i ş i

Əlbəttə, əgər sizi…

(*Ayrılırlar. Otaqlar boşalır*)

M n i ş e k

Biz daha qocalmışıq, qalmışıq oynamaqdan;
Musiqinin hay-küyü çəkmir bizi uzaqdan.
Öpmürük, oxşamırıq incə, zərif əlləri…
Of, unuda bilmirəm o keçmiş əməlləri!



Created with nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Eh, o keçən dəmlərdən heç qalmayıb əlamət,
Vallah cavanlarda da yoxdur əvvəlki cürət.
Hanı gözəllərdəki nəşə, şətarət hanı?
Hara baxsan, əzizim, qüssə basır insanı…
Gedək, dostum, üstünü qat-qat ot basmış olan,
Ətirli, məlahətli, yağ tək cana yayılan
O macar şərabından çıxartdıraq bir şüşə,
Tapaq özümüz üçün rahat, xəlvət bir guşə,
İkilikdə bir vuraq, dəmlənək aram-aram,
Bir az da söhbət edək…

Vişnevetski

Bax, dostum, buna varam!..

**GECƏ. BAĞÇA. FƏVVARƏ**

Saxta çar

Bu da fəvvarə… İndi o da bura gələcək…
Mən ki, anadan qorxaq doğulmamışam gərək:
Ən yaxından üz-üzə gəlmişəm ölüm ilə,
Ölümün qarşısında ruhum əsməmiş belə.
Təhdid eləmiş məni ömürlük qara zindan,
Məni təqib etmişlər… Düşməmişəm, heç ruhdan.
Cürətimin sayəsində qurtulmuşam məhbəsdən…
Bəs indi niyə nəfəs çəkə bilməyirəm mən?
Bütün ruhum, vücudum belə uçunur niyə?
Bəlkə gərgin arzular salıb məni lərzəyə?
Yox, yox… Bu, qorxudandır… Gözləmişəm bütün gün,
Marina ilə burda gizlin görüşmək üçün.
Axtarmışam deməyə ona ən şirin sözlər.
Məğrur qəlbini bəlkə ələ alam bir təhər.
Moskva çariçəsi – deyə ucaldan göyə,
İndi, vaxtı çatanda, söz tapmıram deməyə…
Əzbərlədiyim sözlər bütün çıxıb yadımdan,
Eşq məni məhrum edib bütün xatiratımdan…
Aha, nəsə göründü… Bir xışıltı duyuldu…
Yox, yox… Ayın o şıltaq – oynaq ziyasıdır bu,
Bir də, küləyin xəfif bir nəfəsi…



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

M a r i n a

(*daxil olur*)

Şahzadə!..

S a x t a ç a r

Odur, az qala qanım donub qala qəlbimdə…

M a r i n a

Dmitri, sizsinizmi?

S a x t a ç a r

O füsunkar, dadlı səs!..

(*Ona sarı gedir*)

Axır gəlib çıxdınmı? Nə üçün gec gəldin bəs?
Sakit gecə qoynunda bu gördüyüm sənmisən?
Ah, bu üzüntülü gün nə ağır keçdi bilsən!
Nə ağır söndü bilsən, axşamın şəfəqləri!
Nə qədər gözləmişəm səni gecədən bəri…

M a r i n a

Vaxt keçib-gedir; məncə qiymətlidir hər bir an;
Səninlə burda görüş təyin etməkdən, inan,
Məqsədim aşiqanə sözlər eşitmək deyil,
Mənə zərif, bəzəkli boş sözlər gərək deyil…
Bilirəm ki, sən məni sevirsən… Ancaq, dinlə:
Mən öz bəxtimi sənin o dönük taleyinlə.
Bağlarkən, tək bircə şey tələb etməyə səndən
Haqqım vardır… Dmitri, tələb eləyirəm mən:
Aç, söylə mənə bütün qəlbinin hər sirrini,
Ümidini, arzunu, ən gizlin tədbirini…
Varsa, qorxduğun bir şey hətta onu da gərək



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Biləm ki, ondan sonra biz əl-ələ verərək,
Cürətlə qədəm qoyaq bu həyata... Çünki mən
Uşaq tək kor-koranə hər arzuya baş əyən,
Ərinin hər kefinə qul olan bir qaravaş
Deyil, sənə hər işdə ləyaqətli əməkdaş,
Moskva çarına bir köməkçi olmalıyam...

Saxta çar

Ah, barı bircə saat qoy qəlbim olsun aram,
Unudum dərdlərimi, taleyimi, qayğımı;
Sən də yad etmə mənim şahzadə olduğumu.
Marina! Sən bil məni məhəbbətinə layiq,
Tək bircə baxışınla məsud olan bir aşiq...
Dinlə eşqin yalvaran, yanıqlı naləsini,
Dinlə coşqun qəlbimin həyəcan dolu səsini...

Marina

Yox, Knyaz, vaxtı deyil... Sən xeyli ləngiyirsən:
Gözlə, tərəfdarların soyuyar, dönər səndən,
Təhlükələr, müşkülat get-gedə şiddətlənər...
Başlayıb yayılmağa cürbəcür şayiələr.
Hər gün hər şey dəyişir, yeni xəbərləri gəlir.
Qodunov da boş durmaz, gərək özünə tədbir!..

Saxta çar

Qodunov kimdir? Onun yetərmi heç, gözəlim,
Hökmü sənin eşqinə?.. Budur, mənim əməlim!..
Yox, yox indi mənimçin heçdir onun niyyəti,
Taxtı, tacı, qüdrəti, çarlıq hakimiyyəti...
Sənin eşqin!.. Nə lazım onsuz mənə şərəf, şan?
Neyləyirəm ki, olam rus taxtına hökmran?
Qupquru bir biyaban, bir kaha olsun, yenə
Taxtı-tacdan artıqdır bircə sən olsan, mənə,
Sənin eşqin...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Marina

Bir utan!.. Düşün kim olduğunu!
Müqəddəs vəzifə var öhdəndə, sən bil bunu:
Səninçin mənsəb gərək pak olsun, təmiz olsun,
Dünyada hər nemətdən, ləzzətdən əziz olsun!
Onu heç şeylə əsla qiyas edə bilməzsən…
Mən də ki, öz qəlbimi yalnız dərdimdən ölən,
Hüsnümə heyran olan bir gəncə deyil, inan,
Moskva dövlətinin taxtına varis olan,
Taleyin qurtardığı şahzadəyə verirəm!..

Saxta çar

Bəsdir, gözəl Marina!.. Yoxmu ürəyində rəhm?
Bu nə sözdür? Məni yox, mənsəbimi seçmisən?
Marina, ürəyimi dəldin bu sözünlə sən!
Necə!.. Deməli… – Aman, nə qorxuncdur şübhələr!.. –
Bir söylə, o kor tale vilayətimdə əgər
Şahzadə etməsəydi məni, doğrudan da mən
İoannın o, çoxdan yaddan silinib gedən
Övladı olmasaydı, yatmazdı mənə könlün?

Marina

Dmitri, sən başqa cür ola bilməzsən, düşün!
Mən də sevə bilmərəm başqasını.

Saxta çar

Yetər, bil,
Bir ölü məşuqəsi heç mənə lazım deyil!
Yox, bəsdir, başqasının adı ilə yaşadım!..
Qoy sənə açıq deyim, həqiqəti anladım:
Sənin Dmitrin çoxdan həlak olub; bir daha
Dirilib gələn deyil… Yatır dərin məzarda!
Mənim kim olduğumu əgər bilmək istəsən,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Buyur dinlə söyləyim nəçiyəm mən, kiməm mən:
Zavallı bir keşişdim, başımda qara təsək;
Rahiblikdən darıxdım, bir xeyli fikir edərək,
Dünyaya hazırladım qəribə bir möcüzə;
Cürətli bir niyyətlə, heç görünmədən gözə,
Hücrədən çıxıb qaçdım… Ukraynada bir müddət
Öyrənib at və qılınc oynatmağı nəhayət
Bura gəldim… Şahzadə Dmitri oldu adım;
Axmaq polyakları da bu sayaqla aldatdım…
Söylə məğrur Marina, de, sözün nədir buna?
Mənim bu etirafım gəlmədimi xoşuna?
Niyə dinmirsən?

M a r i n a

Aman, rüsvay oldum!.. Nə dəhşət!

(*Sükut*)

S a x t a  ç a r

(*yavaşcadan*)

Gör qəzəb məni nəyə sövq elədi nəhayət!..
Bu qədər əziyyətlə qurduğum səadəti
Bəlkə də öz əlimlə məhv elədim əbədi!..
Gör neylədim mən bədbəxt…

(*Ucadan*)

Yaxşı görürəm ki, sən
Utanırsan əsilsiz şəxsin məhəbbətindən!..
Eləsə, bircə kəlmə söylə, hökmünü bildir:
İndi mənim taleyim tək sənin əlindədir!
Qərar ver, gözləyirəm.

(*Diz çökür*)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Marina

Qalx, ey yazıq saxta çar!..
Yoxsa, zənn edirsən ki, səbatsız, etimadkar
Qızların qəlbi kimi diz çökməklə mənim də
Şöhrətpərəst qəlbimi gətirəsən riqqətə?..
Aldanırsan, əzizim... Mənim çox təcrübəm var:
Çox diz çöküb qarşımda cəngavərlər, qraflar...
Bütün yalvarışları rədd etmişdim mən məgər
Ki, axırda bir rahib, bir qaçqın, bir dərbədər...

Saxta çar

(*qalxır*)

Çox cavan saxta çara göstərmə gəl həqarət!..
Bəlkə onun qəlbində var elə bir şücaət
Ki, layiqdir Moskva dövlətinin taxtına,
Layiqdir sənin uca eşqinə, xoş baxtına!..

Marina

Layiqdir bir kəndirə boğazın!.. Cürətə bax!..

Saxta çar

Bəli, mən təqsirkaram... Mən qürura uyaraq,
Yalan satdım Allaha, çarlara, bu cahana...
Ancaq, mənə cəzanı sən vermə, yox, Marina,
Çünki sənin önündə mən haqlıyam tamamən
Yox, səni... Səni əsla aldada bilməzdim mən!
Çünki, sənsən mənimçin yeganə pak bir xilqət;
Sənə yalan satmağa edə bilməzdim cürət!
Qısqanc eşqin, kor eşqin ardınca düşüb getdim,
Hüzurunda hər şeyi açdım, etiraf etdim...



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Marina

Bir öyünür də, bədbəxt!.. Böyük hünərdir yəqin!
Söylə, kimə gərəkdir bu etirafın sənin?
İndi ki, a sərsəri, sən iki xalqı heyran
Qoyub hiyləgərliklə bu sayaq aldatmısan,
Heç olmasa öz işin, öz xeyrin xatirinə,
Bu cürətli yalanı çalış, təqlid et yenə:
İnadla hər bir zaman, hər məqamda susmaqla,
Qəlbin dərinliyində bu sirri möhkəm saxla!..
İndi, sən özün söylə: əsl-nəcabətimi
Unudub, tərk edərək və qızlıq ismətimi,
Mümkündürmü, mən bütün bunları bilə-bilə,
Bəxtimi, taleyimi rəbt eləyim səninlə...
Buna bax!.. Məhəbbətmiş bunu dilə gətirən!..
Təəccüblüdür: nə əcəb hələ bu vaxtadək sən
Atamın qarşısında, dostluğa qapılaraq,
Bir halda ki, sən özün yelbeyinlik elədin,
Özünü rüsvay edib hər eybini söylədin...
Kralın hüzurunda sevinib məst olaraq
Və ya köhnə nökərlik hissinə uyub barı
Pan Vişnevetskiyə açmamısan bunları?!

Saxta çar

And içirəm ki, mənim dərdli qəlbimi açmaq
Təkcə sənə müyəssər ola bilərdi ancaq!
And içirəm ki, nə coşqun ziyafətdə,
Nə məhrəmanə, gizlin, ən səmimi söhbətdə,
Nə ağır işgəncələr, nə ölüm təhdidilə
Bu sözləri heç zaman gətirmərəm mən dilə!..

Marina

And içirsən, eləmi? Mən də inanam gərək!..
Bəli, bəli, inandım!.. Çox maraqlıdır, görək
Sən nəyə and içirsən?.. Yoxsa bir dindar kimi



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Allahın adınamı?.. Keşiş oğlu, eləmi?
Bəlkə nəcabətli bir cəngavər tək vicdana
Və ya şahzadə kimi, çar sözünə, imana
And içirsən?.. Eləmi?.. Nə durubsan, desənə!..

Dmitri

(*qürurla*)

Qroznının xəyalı atalıq etdi mənə:
Dmitri adlandırıb xilas etdi məzardan;
Xalq yığışıb dövrəmə, coşub qaldırdı üsyan…
Boris tələf olacaq mənim önümdə yəqin!..
Bəli mən şahzadəyəm!.. Bir polyak gözəlinin
Qüruruna baş əymək mənə yaraşmaz… Yetər…
Həmişəlik əlvida!.. Qızğın qanlı döyüşlər,
Taleyim qarşısında duran sonsuz qayğılar
Eşqin iztirabını yəqin yaddan çıxarar!..
Bu eybəcər ehtiras atəşi sönəndə, mən
Nifrət eləyəcəyəm bütün qəlbimlə səndən!..
İndi, gedirəm artıq… Rusiyada nəhayət
Başıma dövlət tacı qonacaq, ya fəlakət…
Namuslu vuruşmada bir döyüşçü tək ölsəm,
Meydanda cani tək bir gün dara çəkilsəm,
Olmayacaqsan mənə sən nə bir dost, nə qəmxar
Sənsiz keçirəcəyəm taleyimdə hər nə var…
Bəlkə də gələcəkdir elə bir gün bir zaman,
Bəxtini rədd etməkdən olacaqsan peşiman!..

Marina

Mən sənin bu hiyləni əvvəlcə, açsam əgər,
Onda sənin başına, bir düşün, nələr gələr?..

Saxta çar

Yoxsa güman edirsən, səndən çəkinirəm mən?
Kimə çox inanarlar, anlayarsan düşünsən:
Bir leh qızına, yoxsa bir rus şahzadəsinə?



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sözümün doğruluğu, – bunu da deyim sənə, –
Nə krala gərəkdir, nə də ki, əyanlara…
Mən Dmitriyəm, ya yox, nə dəxli var onlara?
Məqsəd – bir fitnə salıb müharibə etməkdir,
Onlara çoxdan belə bir bəhanə gərəkdir!..
Üsyankar qız, səni də susdurar onlar əlbət…
Artıq əlvida!..

Marina

Dayan, şahzadə, bax, nəhayət.
Uşaqlıqdan əl çəkib kişi tək danışırsan…
Knyaz barışmaq üçün bu; mənə verir imkan:
O çılğın sözlərini yaddan çıxarıram mən,
Qarşımda Dmitrini görürəm mən yenidən…
Ancaq, bura bax, daha vaxt keçir, bəsdir, oyan.
Moskva üzərinə hücum et dayanmadan!
Kremli xilas edib Moskva taxtına çıx,
Onda mənim dalımca elçilər göndər artıq…
Ancaq, Allah şahiddir, nə qədər ki, sən hələ
O taxta qalxmamısan ayaqla pillə-pillə;
Nə qədər ki, Qodunov salınmayıb təxtindən,
Eşqə dair bir kəlmə eşidən deyiləm mən!..

*(Gedir)*

Saxta çar

Yox, yox… Qodunov ilə qanlı savaşa getmək,
Və ya saray əhlinə qarşı hiylə işlətmək
Qadınla rast gəlməkdən asanmış!.. Bezdim, yetər:
Sürünür, fısıldayır, qıvrılır, *sancmaq istər…*
Aman, ilandır, ilan!.. Soxulmuşdu yanıma,
Yaman qorxu salmışdı bircə anda canımı;
Az qalmışdı məhv ola bütün əməlim, arzum…
Artıq qərara gəldim: səhər başlanır hücum!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## LİTVA SƏRHƏDİ

*(1604-cü il, 16 oktyabr)*

Knyaz Kurbski və Saxta çar, hər ikisi atlı.
Alaylar sərhəddən yaxınlaşır.

Kurbski

*(birinci olaraq atını çapıb gəlir)*

Budur bax, rus sərhəddi!.. Ey əziz ana vətən!
Ey müqəddəs Rus yurdu, sənin öz oğlunam mən!
Çırpıb qürbət tozunu paltarımdan nifrətlə,
Qoxlayıram vətənin havasını həsrətlə.
Ah, saf vətən havası!.. İndi, ata can, yəqin
Dincələcək məzarda incimiş sümüklərin!
Parlayır, bax, babadan irs qalan qılıncımız,
Qazan üfüqlərində bərq çalan qılıncımız.
O qılınc ki, Moskva çarlarına bir zaman
Xidmət etmişdi, yenə qanlı meydanda, inan,
Çarımızın yolunda rəşadət göstərəcək!..

Saxta çar

*(at üstündə, başı aşağı, yavaş-yavaş gəlir)*

Ah, gör nə xoşbəxtdir o!.. Qəlbi nə safdır gerçək,
Cilvələnir üzündə səadətlə rəşadət!..
Ey igid cəngavərim!.. Yaxır qəlbimi həsəd…
Kurbskinin qürbətdə böyümüş mərd oğlu, sən,
*Öz atanın çəkdiyi müsibətləri, qəlbən*
Unudub günahını yumağa çalışaraq,
İoanın oğlunun yolunda qan axıtmaq,
Əsl çarı qaytarmaq istəyirsən vətənə…
Sən haqlısan, sevinmək, şadlıq yaraşır sənə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kurbski

Şahzadə, bəs ürəyin niyə açılmayır?.. Bax,
Odur bizim Rus yurdu, səninkidir bu torpaq!
Orda gözləyir səni sadiq təbəələr, yəqin,
Öz Moskvan, Kremlin, öz irsi-tacu-taxtın…

Saxta çar

Ah, Kurbski, görürəm rus qanı axacaq… Siz
Çar yolunda vuruşa, qəlbi saf gedirsiniz;
Ancaq mən qardaş üstə aparıram qardaşı.
O gözəl Moskvaya, Rus ölkəsinə qarşı
Litvanı saldıraram özüm ana vətənə,
Öz yurduma mən özüm yol açıram düşmənə.
Ancaq, ey çar qatili Boris, şahiddir Allah,
Mənim boynuma deyil, sənə düşər bu günah!..
İrəli!

Kurbski

Vay halına Qodunovun, irəli!..

(*Çapırlar. Alaylar sərhədi keçir.*)

**ÇAR DUMASI**

Çar, patriarx və boyarlar.

Çar

Bu nədir? Bir dərbədər, qudurğan bir sərsəri
Qaldırsın üstümüzə bir yığın caniləri,
Bizə təhdidnamələr yazsın!.. Yox, bəsdir, gərək
O azğının həddini biz özünə bildirək!
Siz, ey Trubetskoy, ey Basmanov, tez gedin,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sadiq valilərimə vaxtında kömək edin.
Mühasirə ediblər Çernikovu asilər,
Gərək xilas edilsin həm əhali, həm şəhər!

Basmanov

Padşahım, əmin ol ki, üç ay keçməz aradan,
Bir əlamət də qalmaz o asi saxta çardan.
Onu bir heyvan kimi salıb dəmir qəfəsə,
Gətirib Moskvaya göstərərik hər kəsə.
And içirəm!..

(*Trubetskoy ilə gedir*)

Çar

İsveçdən elçilər gəlib yenə
O hökmdar ittifaq təklif eləyir mənə.
Ancaq özgədən əsla kömək istəmirik biz,
Az deyil özümüzün rəşid igidlərimiz.
Xainləri, lehləri öz ordumuz dəf edər;
Mən təklifi rədd etdim…
Şelkalov, fərman göndər,
Başçılar atlasınlar, keçmişlərdə olan tək,
Orduda xidmət üçün adam yığsınlar gərək;
Ruhanilər seçilsin bütün monastırlardan…
Təhlükə üz verəndə məmləkətdə, bir zaman,
Özləri gedirdilər hərbə rahiblərimiz;
Ancaq indi onları narahat etmirik biz;
Bizim əvəzimizə dua etsinlər barı…
Budur çarın fərmanı, boyarların qərarı!
İndi həll edilməli mühüm bir məsələ var:
Bilirsiniz ki, məlun o həyasız saxta çar
Fitnəkar şayiələr yayıb bütün hər yana,
Camaatı salıbdır min şübhəyə, həyəcana.
Meydanlarda üsyankar pıçıltılar gəzərək,
Beyinləri qızdırır… Onlar soyusun gərək!..



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Edam edib qan tökmək istəmirəm mən, ancaq...
Neyləyək? Necə olsun?.. Gəlin bir çarə tapaq!
Əvvəl sən de fikrini, buyur, müqəddəs ata.

Patriarx

O adil ulu tanrı eləmiş sənə əta,
Ey böyük padşahımız, mərhəmət göstərərək,
Səbrli bir iradə, çox rəhmli bir ürək:
Qıymırsan ki, məhv ola o yol azmış günahkar;
Sükutla gözləyirsən zail ola fəsadlar...
Əlbəttə, zail olar, doğar nuri-həqiqət!
Mən ki, sadiq qulunam, peşəm haqqa ibadət;
Hərçənd ağlım irişməz bu dünya işlərinə,
Cürət edib hüzurda rəyimi deyim yenə:
O, xəbis oğlu qurub məharətlə min hiylə,
Tanınıb xalq içində Dmitrinin adilə.
Sanki, oğurlanmış bir rida geyib, o nadan
İstifadə eləyir şahzadənin adından
Bu rida parçalanıb birdən atılsa ancaq,
O özü çılpaq qalıb bütün rüsvay olacaq.
Allahın köməyilə faş olar bu bəd əməl...
Bil ki, sən ey padşahım, bundan altı il əvvəl,
Həmin o il ki, Allah edib lütfi-inayət,
Sayəsində olmuşdu taxtu-tac sənə qismət;
Bir dəfə, axşam çağı dua etdiyim zaman,
Gəldi mənim yanıma qoca, sadə bir çoban,
Bir qəribə əhvalat danışdı gözlənilmədən;
Dedi ki, "Kor olmuşdum hələ cavan ikən mən.
Gecə-gündüz bilməzdim, o vaxtdan bu yaşadək;
Hər çarəyə əl atdım, min cür əlac edərək:
Dava-dərmandan çıxdım, sehr etdim, əfsun etdim,
Möcüzəli yerlərə piyada-zəvvar getdim;
Müqəddəs bulaqlardan su səpdim etdim dava,
Hamısı boşa çıxdı, Allah vermədi şəfa,
Axır əlim üzüldü, naçar qaldım, nəhayət
Qəzaya razı oldum, etdim zülmətə adət.



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Artıq röyada da görə bilmirdim, hətta
Vaxtilə bu dünyada gördüyüm əşyanı da.
Röyalarımda mən səs eşidirdim ancaq...
Bir dəfə də yuxu da eşitdim ki, bir uşaq
Səsi mənə deyir ki: – Baba dur Uqliçə get,
Preobrajene adlı kilsəni et ziyarət;
Orda, mənim qəbrimin üstündə et dua,
Allah mərhəmətlidir, dilərəm, verər şəfa...
Mən o uşaq səsindən soruşdum: – Söylə, kimsən?
– Şahzadə Dmitriyəm, – dedi, – baba, indi mən,
Allahın qüdrətilə mələk olub yaşaram,
Dərdlərə əlac edən qadir bir ecazkaram...
Get, qoca... – Mən düşündüm ayılanda yuxudan:
Nə olar, bəlkə Allah şəfa verdi doğrudan;
Allaha pənah, gedim bir bu uzaq səfərə!..
Axır gəlib yetişdim Uqliç adlı şəhərə;
O kilsədə günorta duasını dinlədim,
Sonra sidqi-ürəklə çox ağladım, inlədim...
Sanki mən ağladıqca könlüm-gözüm gülürdü,
Korluq göz yaşı olub gözümdən tökülürdü.
Xalq gedəndə nəvəmə dedim ki: – Ötür məni,
Şahzadə Dmitrinin qəbrinə yetir məni.
Uşaq apardı məni məzara çatar-çatmaz
Sakitanə edərkən ürəkdən razu-niyaz,
Birdən gözüm açıldı ... Gördüm açıq-aşkar:
Bu Allahın işığı, bu nəvəm bu da məzar!.."
Buydu eşitdiklərim, padşahım, o qocadan...

Ümumi təşviş. Bu sözlər söylənən zaman Boris bir
neçə dəfə üzünü yaylıqla silir.

Qəsdən adam göndərdim mən Uqliçə o zaman,
Öyrəndim çox şikəstlər şəfa tapırlar, gerçək,
Şahzadənin qəbrini ziyarət eləyərək.
Məsləhətim budur ki, həmin müqəddəs cəsəd
Gətirilsin Kremlə göstərilsin bir müddət



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Arxangel kilsəsində, camaat görsün əyan...
Onda həmin mürtədin sözünün tamam yalan
Olduğunu yəqinən hamı bilər aşkar,
O xəbisin qüdrəti bir anda puça çıxar.

(*Sükut*)

Knyaz Şuyski

Müqəddəs ata, bilmək olmaz haqqın işini:
Mən şərh edə bilmərəm fələyin gərdişini.
Ulu tanrı möcüzə göstərə bilər, əlbət,
Körpənin cəsədinə verə bilər kəramət...
Xalq arasında gedən şayiələrə ancaq
Lazımdır diqqət ilə, soyuqqanlı yanaşmaq.
Belə böyük bir işə, bir az düşünək görək,
Bu qarışıq zamanda mümkündürmü girişmək?
Deməzlərmi, müqəddəs şeylərə əl atırıq,
Biz onları bu dünya işlərinə qatırıq?..
Onsuz da bu camaat düşüb yaman təşvişə,
Onsuz da çox şübhəylə baxırlar hər bir işə:
Belə mühüm, nagəhan bir iş ilə yenidən
Xalqı çaxnaşdırmağı məsləhət görmürəm mən.
Bilirəm o mürtədin nəşr etdiyi bu yalan
Yox edilə tamamən, gərək qalxa aradan:
Ancaq vardır bununçün başqa sadə çarələr...
Bəli, ey böyük padşah, icazə versin əgər,
Özüm gedib meydana yığaram camaatı,
O, məlun sərsərinin etdiyi cinayəti,
Uydurduğu yalanı açıb bir-bir söylərəm,
Onu nüfuzdan salıb tamam rüsvay edərəm...

Çar

Yaxşı, sən deyən olsun!.. Patriarx-atamız, sən
Xahiş edirəm lütfən bir saraya gələsən:
Bu gün çox istəyirəm edəm səninlə söhbət.

(*Gedir. Ardınca boyarlar çıxırlar.*)



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

B i r  b o y a r

(*yavaşcadan*)

Padşahın sifətinə sən elədinmi diqqət?
Rəngi yaman qaçmışdı, tər gedirdi üzündən...

O  b i r i

Düzü, hərəkət etmək nədir ki, qorxudan mən
Nəfəsimi bir təhər zorla çəkirdim ancaq...

B i r i n c i  b o y a r

Yenə knyaz Şuyski dadına çatdı, qoçaq!..

## NOVQOROD-SEVERSK YAXINLIĞINDA BİR DÜZƏN

(*1604-cü il, 21 dekabr*)
D ö y ü ş

D ö y ü ş ç ü l ə r

(*dağınıq halda qaçırlar*)

Fəlakət! Fəlakət! Şahzadə! Lehlər! Budur ha! Budur ha, gəlirlər!..

(*Kapitanlar Marjeret və Valter Rozen daxil olurlar.*)

M a r j e r e t

Hara, hara? *allons*...[1] qayıt dala!..

Q a ç a n l a r d a n  b i r i

Özün qayıt! Hünərin varsa, məlun kafər...

[1] Haydı



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Marjeret

*Qouil? Qouil?*[1]

Bir başqası

Quruldа! Quruldа! Özgə yerdən gəlmə qurbağa, sənə nə var, rus şahzadəsinə quruldamaq sənə xoşdur. Ancaq biz ki provoslavıq.

Marjeret

*Quest-ce a dire pravoslavni?.. Sacres gueux, maudile canaille! Mordieu, mein Herr, jenerage: on dirait que ça na pas de bras pour frapper, ça n a que des jambes pour foutre le camp.*[2]

B.Rozen

*Es ist Schande.*[3]

Marjeret

*Ventre-saint-gris! Je ne bouge plus dun pas – puisque le vin est tire. Il faut le boire. Quen dites vous, mein Herr?*[4]

B.Rozen

*Sie haben Recht.* [5]

Marjeret

*Tudien, il fait chaud! Ce diable de Somazvanetz, comme ils l appelent, estun bougre qui a du poil au cul. Quin pensez-vous, mein Herr?*[6]

---

[1] Nə var? Nə var?

[2] "Pravoslavnı" nə deməkdir?.. Cır-cındır məlunlar, rəzil əclaflar! Lənətə gəlsinlər, cənab, mənim lap hirs başıma vurub. Sanki bunların vuruşmaq üçün əl-qolları yox, yalnız qaçmaq üçün ayaqları var.

[3] Rüsvayçılıqdır

[4] Məlun xəbislər! Mən burdan bircə addım da tərpənən deyiləm, – indi ki, iş başlamışdır, onu axıra çatdırmaq lazımdır. Siz buna nə deyirsiniz, cənab?

[5] Siz haqlısınız

[6] Vay xəbislər, iş qızışır! Bu xəbis saxta çara, *nə ad qoyurlar-qoysunlar, qorxaq* köpək oğlu deyil. Siz necə bilirsiniz, cənab?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

B.Rozen

*Oh, ja!*[1].

Marjeret

*He! Voyez donc, voyez donc! Laction s engage sur les derrieres de İennemi Ce doit etre le brave Basmanoff, qui aurait fait une srtie,*[2]

B.Rozen

*Leh glauğe das.*[3]

*(Almanlar daxil olur.)*

Marjeret

*Ha, halvoici nos Aliemands. – Messieurs!.. Mein: Herr dits leur done de se rallier et, sacrebleu, chargeousi.*[4]

B.Rozen

*Sehr gut. Halt!*

*(Almanlar sıraya düzülürlər.)*

*Marsch!..* [5]

Almanlar

*Hilf Gott.*[6]

*(Döyüş. Ruslar yenidən qaçırlar.)*

---

[1] Elədir ki, var!

[2] Budur, baxın, baxın! Düşmənin arxasında döyüş başladı. Yəqin ki, qoçaq Basmanov basqın etmişdir.

[3] Mən də elə güman edirəm.

[4] Budur, bizim almanlar da gəldilər. Cənablar!.. Onlara əmr edin sıraya düzülsünlər cənab, biz də, vaxt ikən zərbəmizi vuraq.

[5] Çox əla Dur... Marş!

[6] Allah bizimlədir.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

L e h l ə r

Zəfər! Zəfər! Yaşasın çar Dmitri!

D m i t r i

(*at üstündə*)

Döyüş dayandırılsın! Biz qalib gəldik. Bəsdir; Rus qanına hayıfınız gəlsin. Döyüş dayandırılsın!

Şeypurlar, təbillər çalınır.

**MOSKVADA KİLSƏ ÖNÜNDƏ MEYDAN**

X a l q

B i r  n ə f ə r

Görəsən çar kilsədən tezmi çıxacaqdır?

B i r  b a ş q a s ı

Günorta duası qurtardı; başqa dua oxunur.

B i r i n c i

Necə oldu? Onu təlin etdilərmi?

O  b i r i

Mən içəridə durmuşdum, baş keşişin nidasını eşitdim: Qrişka Otrepyev – Təkfir olunur!

B i r i n c i

Qoy təlin etsinlər; şahzadənin Otrepyev ilə nə işi.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O biri

Şahzadəyə isə, rəhmət oxuyurlar.

Birinci

Diriyə rəhmət! Daha nə qaldı etməsinlər, mürtədlər!

Üçüncü

Yavaş! Səs gəlir. Görəsən çardırmı?

Dördüncü

Yox; bu gələn dəlidir.

*(Dəli, başında dəmir sərpuş, üst-başından cürbəcür təsvirlər asılmış, uşaqlarla əhatə olunmuş bir halda gəlir.)*

Uşaqlar

Nikolka – dəmirtəsək, Nikolka!.. Tırrr...

Qarı

Allahın fağırından əl çəkin, şeytan uşaqları! Nikolka, mən günahkar üçün dua elə.

Dəli

Ver, ver, bir qəpik ver!

Qarı

Al, bu bir qəpik. Mənə dua elə.

Dəli

*(yerdə oturub oxuyur)*

Ay işıq yayır,
Pişik ağlayır,
Ay dəli dur, get,
Haqqa dua et!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*(Uşaqlar yenə onu araya alırlar.)*

Bir uşaq

Xoş gördük, Nikolka! Şapkanı niyə çıxarmırsan? *(Dəmir təsəyinə bir cırtma vurur.)* Oho, gör nə cingildəyir!

Dəli

Bax, mənim bir qəpik pulum var, ha!

Uşaq

Yalan deyirsən! Göstər görüm.

*(Qəpiyi onun əlindən alıb qaçır.)*

Dəli

*(ağlayır)*

Qəpiyinimi aldılar; Nikolkanı incidirlər!

Camaat

Çar, çar gəlir!

*(Çar kilsədən çıxır. Qabaqda bir boyar dilənçilərə sədəqə paylayır.)*

Dəli

Boris, ay Boris! Uşaqlar Nikolkanı incidirlər!

Çar

Ona sədəqə verin. O niyə ağlayır?

Dəli

Balaca uşaqlar Nikolkanı incidirlər. Sən balaca şahzadənin başını kəsən kimi, əmr elə, onların da başını kəssinlər...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Boyarlar

Rədd ol buradan, axmaq! Tutun o axmağı!

Çar

Onda işiniz olmasın. Mənim əvəzimə dua et, yazıq Nikolka!

(*Gedir*)

Dəli

Yox, yox! Zalım padşaha dua etmək olmaz. Məryəm ana icazə vermir...

**SEVSK**

Saxta çar ətrafında rəiyyəti

Saxta çar

Əsir hanı?

Leh

Burdadır.

Saxta çar

Gətirin yubanmadan!

(*əsir rus daxil olur*)

Sən kimsən?

Əsir

Mən – Rojnovam, moskvalı dvoryan.

Saxta çar

Çoxdanmı ordudasan?

Əsir

Gəldiyim bir ay olar.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S a x t a   ç a r

Rojnov, utanmırsanmı, heç eləmirsənmi ar,
Qılınc çəkirsən mənə?..

Ə s i r

Buyruq quluyuq bizlər.

S a x t a   ç a r

Seversk savaşında sən vardınmı?

Ə s i r

Yox, bir qədər
Gecikdim... Moskvadan gec gəldim iki həftə.

S a x t a   ç a r

Qodunov nə haldadır?

Ə s i r

Çox qəmgindir… Bu hərbdə
Döyündü uduzması, bir də Mstislavskinin
Yaralanması ona çox təsir edib yəqin…
Şuyskini sərkərdə təyin etmiş…

S a x t a   ç a r

Bəs niyə
Basmanovu çağırdı Moskvaya – geriyə?

Ə s i r

Xidmətçilərinə görə təltif edib onu çar;
İndi o dumadadır, çox uca rütbəsi var.

S a x t a   ç a r

Faydası çox olardı o qalsaydı orduda.
Moskvada nə xəbər?



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Əsir

Şükür dinclikdir orda.

Saxta çar

Məni gözləyirlərmi?

Əsir

Nə deyim... Allah bilir.
Adını çəkənlərin bəzən dili kəsilir,
Bəzən boynu vurulur... Qan tökmək adət olub;
Edamsız bir gün keçmir; dustaqxanalar dolub...
Yığışsa bir araya meydanda üçcə nəfər,
Casuslar həmin saat pusub aparır xəbər.
Asudə vaxt tapanda, casuslar birbəbir
Çar özü çağırtdırıb hüzurunda dindirir.
Heç dinməmək yaxşıdır... Canın sağ qalar barı...

Saxta çar

Çox yaxşı əmr edirmiş Borisin adamları!..
Bəs ordu nə haldadır?

Əsir

Ordu?.. Onlara nə var?
Yeyir, yatır, dincəlir...

Saxta çar

Sayı nə qədər olar?

Əsir

Allah bilir...



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

S a x t a  ç a r

Otuz min olarmı?

Ə s i r

Yox, çox olar!
Yaxşı hesaba alsan bəlkə də əlli min var.

(*Saxta çar fikrə gedir. Ətrafdakılar bir-birinə baxışır.*)

S a x t a  ç a r

Yaxşı, sizin orduda nə danışırlar məndən?

Ə s i r

Acığına gəlməsin, deyirlər, guya ki, sən
Oğru da olsan, qoçaq, mərhəmətlisən ancaq…

S a x t a  ç a r

(*gülərək.*)

Yaxşı, borc olsun mənə onları başa salmaq!..
Dostlar, niyə gözləyək burda Şuyskinin biz?
Sabah hücuma keçsin igid əsgərlərimiz!..
Təbrik edirəm sizi!..

(*Gedir*)

H a m ı

Dmitri, səni min yaşa!

B i r  l e h

Onlar əlli min nəfər!.. Bu, başlayır savaşa!..
Biz vur-tut on beşcə min... Dəli olub bu, nədir?



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Bir başqası

Dostum, kefini pozma, bunlar boş əfsanədir...
Əlli moskal da olsa, bir polyak üstün gələr!

Əsir

Üstün gələr, görərik!.. Lovğalanma, dərbədər!
Qaçıb gizlənəcəksən əsl yeri gələndə!..

Leh

Ax, ey həyasız əsir, silah olaydı səndə,
Bax, bununla (*qılıncını göstərir*)
Həddini bildirərdim!.. Buna bax!..

Əsir

Biz ruslar qılıncsız da ötüşərik bir sayaq;
Bax, görürsənmi bunu!.. (*Yumruğunu göstərir*)
Axmağın biri axmaq!..

(*Leh qürurla ona baxır və dinmədən çıxıb gedir.
Hamı gülüşür.*)

**MEŞƏ**

Saxta Dmitri, Puşkin

Uzaqda can verməkdə olan bir at görünür.

Saxta Dmitri

Ay mənim yazıq atım!.. Çox dəyərli heyvandı.
Bugünkü son döyüşdə yaman bərk yaralandı;



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə qurtardı məni çapıb bütün meydanı...
Ay mənim yazıq atım!..

P u ş k i n

(*öz-özünə*)

Gör nəyə yanır canı!
Bir ata heyfi gəlir!.. Bir halda ki, tarmar
Olub qoşunlarımız...

S a x t a  ç a r

Bir bax, bəlkə ümid var?
Bəlkə bir az dincəlsə, yenə sağalar yazıq?..

P u ş k i n

Hardan!.. Sağalan deyil, o ki can verir artıq...

S a x t a  ç a r

(*atına tərəf gedir*)

Ay mənim yazıq atım!.. Nə çarə... Qayışları
Açım, tapqır boşalsın, rahat can versin barı!..

(*Atın yəhərini, yüyəni açır; Bir neçə leh gəlir.*)

Salam cənablar!.. Niyə bəs Kurbski heç yoxdur?
Bu gün gözümlə gördüm: qızışanda vurhavur,
O şığıdı döyüşün ən qızğın bir yerinə;
Hər tərəfdən yel vuran sünbül tək, üzərinə
Qılınclar enirdisə onun qılıncı ancaq
Hamıdan ucadaydı; bərk vuruşurdu qoçaq...
Hamı tir-tir əsirdi nərəsi ucalanda!..
Hanı mənim igidim?



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Leh

Həlak oldu meydanda...

Saxta çar

Eşq olsun mərd igidə, xatiri qalsın əziz!..
Nə yaman azalmışıq bu döyüşdən sonra biz?..
Ax, xainlər!.. Məlunlar... O zaporojelilər...
Onlar məhv etdi bizi!.. Üççə dəqiqə qədər
Düşmənin təzyiqinə gətirmədilər davam...
Ax, quldurlar! Canilər... Onlarçın hələ varam!..
Hər onda bir nəfəri dara çəkdirəcəyəm...

Puşkin

Müqəssir hər kimsə, biz əzilməmişik çox möhkəm;
Qoşun dağılıb tamam…

Saxta çar

Ancaq bizim də zəfər!
Dağılmışdı qarşımda az qala ön dəstələr…
Lakin almanlar bizi geri basdılar yaman;
Vallahı qoçaqdırlar!.. Mütləq, vaxtı gələndə,
Onlardan fəxri dəstə düzəldəcəyəm mən də!

Puşkin

Yaxşı, bəs indi harda yatacağıq bu gecə?

Saxta çar

Elə burda, meşədə… çox yaxşı yerdir məncə…
Erkən çıxıb, günorta Rılskə çatarıq biz.
Yuxun şirin!..

(*Uzanır, yəhəri başının altına qoyub yuxuya gedir.*)



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P u ş k i n

Şahzadə xeyrə qalsın gecəniz!..
Qoşun tarmar olub, özü qaçıb bir təhər;
Səfeh bir uşaq kimi dərd çəkmir zərrə qədər.
Tale qoruyur onu qada-baladan əlbət;
Dostlar zərəri yoxdur, etmirik biz də qəflət…

**MOSKVA. ÇARIN SARAYI**

B o r i s, B a s m a n o v

Ç a r

O məğlub oldu; ancaq nə fayda bu zəfərdən?
Nə qazandıq, bilmirəm, bir məna görmürəm mən
Dağılmış qoşunun toplayıb o bir yerə,
Putvil bürcü önündə hədə gəlir bizlərə.
Neyləyirlər bəs indi bizim igid qoçaqlar?
Kromda dayanıblar… Bir ovuc sarsaq kazak
Çürük hasar ardından gülür onlara ancaq…
Başçılığa nəsli yox, ağlı edirəm təyin;
Yerlilik qürurları vəcdə gələcək yəqin…
Əyanlar güruhundan gərək eləyim nifrət,
Bu pis qorxunc adəti məhv eləyəm nəhayət!

B a s m a n o v

Ay, padşahım, uğurlu olsun o gün, o zaman
Ki, məğrur şəcərələr yazılıb, nifaq salan
Zər-zibalı kitablar atılacaqdır oda…

Ç a r

Arxayın ol, az qalıb; uzaq deyildir o da.
Qoy bir bu iğtişaşı yatırdım mən bir təhər…



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Basmanov

Ona əhəmiyyət vermək lazım deyil o qədər:
İğtişaşa bir rəğbət var daim camaata;
Həmişə yüyənin gəmirər harın at da,
Oğul narazı olar ata təhəkkümündən…
Ancaq atı ram edər yaxşı, mahir at minən,
Övlada buyruq verər, məlum şeydir atalar.

Çar

Bəzən at süvarini ayaq altına salar;
Oğul ataya olmaz əbədi ram, əlbəttə…
Xalqı möhkəm zabitə saxlayar itaətdə!..
Bu sayaq düşünürdü İoann, o əsl çar,
Fırtınalar yatıran o ağıllı hökmdar;
Amansız nəvəsi də şərik idi bu fikrə.
Yaxşılığı camaat duyan deyil, bir kərə:
Ona yaxşılıq etsən, – sağ ol, – da deməz sənə;
Talayıb edam etsən, heç fərqi olmaz yenə…

(*Bir boyar daxil olur.*)

Nə var?

Boyar

Yad ölkələrdən gəlib bir neçə qonaq.

Çar

Yaxşı, indi gəlirəm… Basmanov, bir bəri bax,
Getmə; səninlə hələ bitmədi söhbətimiz…

(*Gedir*)

Basmanov

Onun yüksək hökmdar zəkası var şübhəsiz.
Allah eləyəydi ki, məlun Otrepyev ilə



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Tez işi qurtaraydı… O bundan sonra hələ
Rusiyayçın xeyirli çox-çox işlər görəcək.
Yaxşı bir fikir gəlib onun ağlına… Gərək
Qoymayım ki, soyuya, dönə bu arzusunda.
Nəsilli boyarların başı əzilən zaman
Açılacaq qarşımda mənim geniş üfüqlər!..
Döyüşdə mənə rəqib ola bilməz bir nəfər;
Çarın birinci yaxın adamı olaram mən…
Hələ bəlkə də… Ancaq nə hay-küydür görəsən?

*(Təlaş. Boyarlar, saray xidmətkarları qarma-qarışıq bir halda qaçışır; Bir-birinə rast gəlib pıçıldaşırlar.)*

Bir nəfər

Həkim çağırın!..

Bir başqası

Get tap patriarxı!..

Üçüncüsü

Tez ol, çar
Şahzadəni istəyir!..

Dördüncüsü

Keşişi!..

Basmanov

Məgər nə var?

Beşinçisi

Çar xəstədir!..



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Altıncısı

Çar ölür!..

Basmanov

Aman, ya rəbbi, aman!..

Beşincisi

Taxtdan yıxıldı yerə birdən-birə, nagəhan
Ağzından, qulağından sel kimi açıldı qan…

*(Çarı sandalyada gətirirlər; çarın bütün ailəsi və boyarlar gəlirlər.)*

Çar

Gedin, gedin; tək qoyun şahzadə ilə məni!..

*(Hamı çəkilib gedir.)*

Oğul ölürəm!.. Gəl bir doyunca öpüm səni!..
İndi sən çar olursan… Aman, of, aman Allah!..
Bu saat hüzuruna gəlirəm… Nə çarə… ah…
Tövbə-istiğfara da qalmayacaqdır imkan!
Ancaq, duyuram, oğul, tövbədən-istiğfardan
Sən əzizisən mənimçin!.. Qədər beləymiş əlbət!..
Mən nə idim anadan olanda? – Bir rəiyyət…
Gərək rəiyyət kimi ölüb gedəydim… Ancaq
Yüksəldim, bir çar oldum… Sorma, oğul, nə sayaq?..
Yetər ki, sən deyilsən əsla günahkar, oğul,
Qanuni çar olmağa sənin haqqın var, oğul!
Allahın hüzurunda tək mən məsulam ancaq…
Ey əziz oğlum, səni aldatmasın təmtəraq,
Bilə-bilə qəflətə qapılmaqdan həzər et;
Çətin zamanda keçir əlinə hakimiyyət…

Çox qorxunc bir düşməndir o hiyləgər saxta çar.
Özünə dəhşətli bir ad qoyub o riyakar
Təcrübə sahibiyəm mən bu dövlət işində;
Saxlayırdım qəlbləri qorxu, dəhşət içində…
Onlar tir-tir əsirdi hüzurumda qorxudan,
Xəyanətə cəsarət etməzdilər heç zaman…
Sən ki, gənc, təcrübəsiz bir hökmdarsan hələ;
Bu tufanlı zamanda dövləti alıb ələ,
Necə yatırdacaqsan bu qanlı üsyanları?
Ancaq Allah kərimdir!.. Lütf edər ulu tanrı:
Cavan olana zəka, zəif olana qüvvət…
Oğul, dinlə, bu olsun məndən sənə vəsiyyət:
Özünə xalq içində nüfuz sahibi olan,
Boyarlar arasında nəcabətli sayılan,
Dünya görmüş, mötəbər, hər barədə mükəmməl,
Məsələn, Şuyski tək, – bir müşavir seç əvvəl…
Sonra qoşun işində sənə gərəkdir əlbət
Çox mahir bir sərkərdə… Basmanovu təyin et!
Boyarlar deyinsinlər, möhkəm ol, çəkinmə sən…
Dumada çox olmusan mənimlə kiçiklikdən,
Az-çox görmüsən orda dövlətin hər işini;
Əsla dəyişmə, oğul işlərin gedişini:
Dövlətin canıdır, bil, alışqanlıqla adət…
Qüvvəyə mindirməyə mən məcbur oldum, əlbət,
Ağır işgəncələri, edamı, zindanları…
İstəyirsən ləğv elə sən tamamən bunları.
Qroznıdan dövləti əlinə alan zaman,
Dayın kimi, səndən də razı qalır xalq, inan…
Yavaş-yavaş sonralar, vaxtı gələndə, yenə
Dövlətin cilovunu möhkəm çək, al əlinə.
İdi bir azca boş tut, əldən buraxma ancaq!
Yadellilərə qarşı mehriban ol, yaxşı bax;
Onların xidmətini etimadla qəbul et.
Kilsə qanunlarına elə möhkəm riayət.
Dilini möhkəm saxla, çarın bir sözü gərək
Boş-boşuna itməyə mənasız bir səda tək;
O gərək xəbər verə müqəddəs bir can kimi:



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ya böyük bir bayramı, ya böyük bir matəmi!..
Əziz oğlum, elə bir yaşa gəlmisən ki, sən,
Qanın coşub qaynayır qadınların hüsnündən.
Özünü yaxşı qoru, daim pak ol, təmiz ol,
Məğrur bir safiyyətlə hörmətli qal, əziz ol!
Gənclikdə namüvafiq səfalara dalanlar,
Hissiyata qapılıb, işrətdən zövq alanlar,
Böyüyəndə olurlar qaraqabaq, qaniçən;
Zəkaları qaralır, sönür vaxtından erkən!
Ailənə həmişə başçılıq elə, oğul;
Anana hörmət bəslə, ancaq ki, müstəqil ol!
Sən həm çarsan, həm kişi, – bacını sev ürəkdən,.
Bil ki, onun pənahı, arxası bircə sənsən!..

Fyodor

(*diz çökərək*)

Yox, yox, ata, sən yaşa, padişah ol üstümüzdə,
Sənsiz tələf olarıq bu camaat da, biz də!..

Çar

Hər şey bitdi… Gözlərim qaralır; donur bədən…
Məzar üşütməsini duyuram…

(*Patriarx, ruhanilər, onların ardınca bütün boyarlar daxil olurlar. Çariçənin qollarına girib gətirirlər; çarın qızı hönkürür.*)

Kimdir gələn?..
Hə!.. Anladım… Müqəddəs saç kəsmə mərasimi!..
Vaxtı çatdı… Çar gedir hüzura rahib kimi…
Hücrəm olacaq mənim qapqaranlıq bir məzar…
Ata-patriarx, dayan!.. Dinləyin. Ey boyarlar,
Mən hələ çarınızam… Bilin vəsiyyətimi:
Oğluma tərk edirəm taxtımı-dövlətimi…
Xaç öpüb Fyodora and içiniz ürəkdən!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Basmanov, ey dostlarım, ölüm ayağında mən
Rica edirəm, ona sadiq olun hamınız!..
O, hələ çox cavandır, məsum, təmiz, günahsız…
Əmin edrisinizmi?

Boyarlar

Edirik.

Çar

Çox razıyam.
İndi halal eləyin ömrüm uzunu tamam,
Bilib və ya bilməyib xətalar etdiyimi,
Gizlində, ya aşkarda sizi incitdiyimi…
Müqəddəs ata, buyur, yaxın gəl, mən hazıram!

(*Saç kəsmə mərasimi başlanır. Özlərindən getmiş qadınları aparırlar.*)

**QƏRARGAH**

Basmanov Puşkinlə bərabər gəlir.

Basmanov

İçəri gəl, açıqca söylə sözünü görək,
Səni mənim yanıma o göndəribdir demək?

Puşkin

Moskva dövlətində ən birinci rütbəni
Vəd ilə, o, dostluğa dəvət eləyir səni.

Basmanov

Fyodor çox ucaldıb onsuz məni indidən;
Bütün qoşunlarına sərkərdə olmuşam mən.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Boyarların kininə, mənsəb qaydalarına
O, xor baxıb mənimçin… Mən də söz verib ona
And içmişəm…

Puşkin

Nə olsun?.. Sən ki, bu tacu-taxtın
Qanuni varisini əmin etmisən yəqin.
*Ondan daha qanuni biri varsa…*

Basmanov

Bura bax,
Puşkin, xahiş edirəm, bu boş sözləri burax!
Mən bilirəm o kimdir…

Puşkin

Rusiya, Litva çoxdan
Onu Dmitri deyə təsdiq edibdir, inan!
Ancaq mən özüm buna eləmirəm etibar:
Bəlkə Dmitridir o… Bəlkə də bir saxta çar…
Amma Borisin oğlu, – heç şübhəm yoxdur buna, –
Moskvanı gec, ya tez, təslim edəcək ona!

Basmanov

Nə qədər ki, cavan çar əl çəkməyib taxtından,
Ona sədaqət ilə xidmət edəcəyəm mən…
Allaha şükür, çarın az deyil qoşunları!
Mən də ruhlandırıram zəfər üçün onları.
Kimi qoyacaqsınız siz mənə qarşı, kimi?
Kazak Karelanımı? Yoxsa Mnişekimi?
Sizdə nə qoşun var ki?.. Səkkiz min, bəlkə də az…

Puşkin

Yox, sən səhv eləyirsən; heç o qədər də olmaz!
Mən özüm açıq deyim: qoşunumuz sarsaqdır;



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Kazakların peşəsi kəndləri talamaqdır;
Lehlər hey lovğalanır, bir də bol-bol içirlər,
Ruslarsa… Eh, nə deyim… Deyilməlidir məgər…
Sənə yalan satmaram… Ancaq qüvvətliyik biz.
Bilirsənmi, Basmanov, nədədir qüdrətimiz:
Nə qoşunda, nə də ki, lehlərin hümmətində,
Bircə inamda!.. Bəli xalqın zehniyyətində!..
Dmitrinin yadında deyilmi zəfərləri:
Davasız fəth edirdi dalbadal şəhərləri;
İnadkar başçıları xalq eləyirdi əsir…
Sən ki, yaxşı bilirsən, sizin qoşun, söylə bir.
Bizə qarşı ya indi, ya Boris zamanında
Həvəslə vuruşduğu varmı sənin yadında?..
Yox, Basmanov, nahaqdır indi bəhsə girişmək,
Savaşmanın yenidən soyuq külünü eşmək…
Bütün o zəkavətin, möhkəm iradənlə, sən
Bu qüdrətli axına dözə bilməyəcəksən!
Bu yaxşı olmazmı ki, ilk ağıllı adam tək,
Sən özün Dmitrini çar elan eləyərək,
Qazanasan bu yolla əbədi dostluğunu?
Nə deyirsən?..

B a s m a n o v

Siz sabah öyrənərsiniz bunu.

P u ş k i n

Di, qərar ver!

B a s m a n o v

Əlvida!

P u ş k i n

Basmanov, yaxşı düşün!

(*Gedir*)



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

B a s m a n o v

Haqlıdır o, deyir, hamı xaindir bütün…
Bəs mən neyləyim indi?.. Yoxsa, gözləyim mən də
Üsyankarlar, göz görə, salıb məni də bəndə,
Versinlər Otrepyevə?.. Yaxşı olmazmı ki, mən
Bu coşqun-azğın seli qarşılayım əvvəldən.
Bəs andıma xəyanət yaraşarmı adıma?
Nəsillikcə həqarət qazanım övladıma!..
Bəs cavan şahzadənin inamını aldadım;
Müdhiş bir xəyanətlə, onu düşmənə satım!..
Bir dərbədər caniyə üsyan, hiylə, xəyanət,
Sui-qəsd hazırlamaq… Asan bir işdir, əlbət…
Ancaq çarın sevimli məhrəmi olan mənə,
Mənə heç yaraşarmı arxa olam düşmənə?..
Bəs ölüm… Bəs rəyasət… Xalqın halı nə olsun?..

(*Fikrə gedir*)

Hey… (*Fit verir.*)

Atımı! Şeypuru çalın, yığılsın qoşun!..

**LOBNOYE MESTO**[1]

P u ş k i n Camaatla əhatə olunmuş bir halda gedir.

C a m a a t

Boyarini şahzadə göndərib şəhrimizə,
Tez yığışın, nə deyir görək boyarin bizə…
Tez olun!..

[1] Qədimdə çar fərmanlarının elan edildiyi hündür yer



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

P u ş k i n

(*kürsüdə*)

Ey Moskva camaatı, şahzadəm
Buyurdu ki, ən əvvəl sizlərə təzim edəm…

(*Təzim edir*)

Bilirsiniz, ilahi möcüzə qəbilindən,
Şahzadə xilas olub qatillərin əlindən.
Gəlirdi edam edə özü həmin xəbisi,
Lakin, Allahın hökmü yox elədi Borisi.
Bütün Rusiya etdi Dmitriyə itaət;
Basmanovun özü də peşiman olub, nəhayət,
Sədaqətə and içdi bütün öz qoşunilə;
Dmitri gəlir bura sülh ilə, sürgün ilə…
İndi siz Qodunovlar nəsli yolunda yenə,
Monomaxın nəvəsi – əsl çar üzərinə
Əl qaldıracaqsınız?.. Bir qərar verin, qəti…

C a m a a t

Əlbəttə, yox!..

P u ş k i n

Bilin, ey Moskva camaatı!
Hökm edərkən ölkəyə o zalım, o dərbədər,
Dünya bilir ki, sizə eləyib nə zülmlər:
Sürgün, edam, haqsızlıq, vergi, əziyyət, əzab;
Nələr çəkib başınız… hər cür, hər cür iztirab…
Dmitri vəd edir ki, boyarlar, mülkədarlar,
Məmur, əsgər, ya tacir… – bütün sadiq, namuskar
Əhaliyə lütf ilə mərhəmət etsin ehsan…
Deyin, inad edərək, bu lütfdən boş yerə
Lovğalıqla əl çəkmək yaraşarmı sizlərə?



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, öz atalarının taxtına sahib gəlir,
Yanınca da qoşunu, hər yerdə qalib gəlir.
Qəzəbə gətirməyin çarı, qorxun Allahdan,
Xaç öpüb sədaqətə and için yubanmadan...
Tabe olun, göndərin Dmitriyə elçilər,
Mitropolit, boyarlar, məmurlar verib xəbər,
Hamımızın adından atamız hökmdara,
Təzim ilə itaət izhar etsinlər çara...

(*Aşağı enir. Camaatın hay-küyü eşidilir.*)

Camaat

Daha nə söz olacaq? Doğru söyləyir boyar;
Min yaşasın Dmitri!.. Yaşasın atamız – çar!..

Bir kəndli

Ay camaat!.. Kremlə, çar sarayına gedək!
Borisin küçüyünü tez tutaq, əsir edək!..

Camaat

(*dəstə-dəstə axışır*)

Tutaq!.. Boğaq!.. Min yaşa, çar Dmitri, min yaşa!..
Qodunovların nəsli məhv olsun başdan-başa!..

## KREML. BORİSİN EVİ. EYVAN QABAĞINDA KEŞİKÇİLƏR

Fyodor pəncərə dalında.

Dilənçi

İsa yolunda mənə bir sədəqə!



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Keşikçi

Rədd ol burdan, dustaqlarla danışmağa icazə yoxdur.

Fyodor

Get, ay qoca, mən səndən də yoxsulam, sən heç olmasa, azadsan.

*(Kseniya başı örtüklü, pəncərəyə yanaşır.)*

Camaatdan bir nəfər

Bacı-qardaş!.. Yazıq uşaqlar, quş kimi qəfəsdədirlər…

Bir başqası

Gör kimlərə canı yanır?.. Məlun nəslinə!..

Birinci

Ataları qan içəndi, uşaqlar ki, günahsızdır!

O biri

Ot kökü üstə bitər.

Kseniya

Ay qardaş, ay qardaş, deyəsən yanımıza boyarlar gəlirlər.

Fyodor

Onlardan biri Qolitsin, biri də Mosalskidir.
O birilərini tanımıram.

Kseniya

Ax, a qardaşım, ürəyim qısılır!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

*(Qolitsin, Mosalski, Molçanov və Şərəfəddinov, ardlarınca üç əsgər.)*

Camaat

Çəkilin. Yol verin. Boyarlar gəlir.

*(Onlar evə daxil olurlar)*

Camaatdan biri

Onlar niyə gəliblər?

Bir başqası

Yəqin ki, Fyodor Qodunova and verdirəcəklər.

Üçüncüsü

Doğrudanmı? – Eşidirsənmi evdən nə hay-küy gəlir! Çaxnaşma var, vuruşurlar…

Camaat

Eşidirsənmi? Fəryad edir! – Bu qadın səsidir. –
Gedək! Qapılar bağlıdır… Çığırtılar kəsildi.

*(Qapılar açılır. Mosalski eyvanda görünür.)*

Mosalski

Ay camaat! Mariya Qodunova və oğlu Fyodor özlərini zəhərləyiblər. Biz onların cansız cəsədlərini gördük. (Xalq dəhşət içində susur.) Niyə dinmirsiniz? çığırın ki: yaşasın çar Dmitri İvanoviç!

Camaat dinmir

Son

*1825*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# TAUN ZAMANI İŞRƏT

Küçə. Miz üstündə süfrə açılmışdır. Bir neçə kişi və qadın işrətlə məşğuldur.

Bir gənc

Hörmətli sədrimiz! Bu məclisdə mən
Bizə tanış olan şən bir nəfərdən
Demək istəyirəm söhbət açaraq,
O yoxdur məclisdə: bu gün deyil sağ.
O bir adamdı ki, şən söhbətləri,
Şux əyləncələri zarafatları,
Bizim məclisləri canlandırardı.
Kəskin cavabları, sərt dili vardı.
O bir adamdı ki, hər sözü onun
Bu gün qonaq gələn qorxunc taunun
Ən gözəl, ən aydın qəlblərə belə
Saldığı zülməti qovardı; hələ
İkicə gün əvvəl dediyi sözlər
Bizi əyləndirdi burda nə qədər.
Heç ola bilərmi belə şən, əziz –
Bir süfrə başında yığışaraq biz
Jaksonu unudaq! Bir baxın, budur.
Onun kürsüləri burda boş durur.
Sanki gözləyirlər onun yolunu
İşrət məclisinin o şən oğlunu.
Lakin aramızda o yoxdur artıq.
Mənzili soyuqdur həm də qaranlıq.
Fəqət torpaqlara gömülən o dil
Susmamış, canlıdır yenə elə bil.
Hələ sağ qalanlar, az deyilik biz
Səbəbsiz olardı qəmlənməyimiz.
Sözümü bitirib beləliklə mən,
Təklif edirəm ki, badələri şən
Cingilti səsləri altında bu gün
Səs-səsə verərək hamımız bütün



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

İçək dostumuzun sağlığına gəl,
Sanki o da sağdır…

S ə d r

Hamıdan əvvəl
Bizim cərgəmizdən o getdi, ancaq
Onun şərəfinə, bu gün susaraq,
İçək badəmizi.

G ə n c

Qoy olsun, içək!

(*Hamı səssiz içir*)

S ə d r

Oxu, əziz Meri, məharətlə sən
Doğma mahnıları ifa edirsən,
Oxu, qoy ucalsın o qəmli avaz.
Kədərli səsini dinləyək bir az.
Sonra da dünyanı tərk edib gedən
O xəyal qurbanı, o bəməzədən
Daha ehtiraslı şənlik başlayaq
İndi oxu, qəmli, kədərli ancaq.

M e r i

(*oxuyur*)

Bir gün vardı yer üzündə
Parlayırdı bizim diyar.
Adamlarla hey dolurdu
Bazar günü kəlisalar
Mahnı deyib oxuyardı
Məktəblərdə saysız uşaq,



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Günəş dolu düzənlərdə
Parlayırdı dəryaz, oraq.
İndi məktəblər qapanmış,
Kəlisalar qalmış viran
Göy zəmilər solub yanmış,
Boşdur meşə, boşdur hər yan.
Kəndlər susmuş, hər tərəfi
Sarmış qatı bir qaranlıq,
Hər yan səssiz – susmamışdır
Yalnız bircə qəbristanlıq.

Gətirirlər ölənləri
Hər dəqiqə qatar-qatar
Dirilər də deyir, Allah
Ruhlarına ol xilaskar.
Yer çatışmır, hey qəbirdir
Qazılır, bax, dönə-dönə
Onlar hürkmüş sürülər tək
Sıxılmışdır bir-birinə.

Əgər ömür baharıma
Nəsib isə vaxtsız əcəl.
Sən də əziz sevdiciyim
Yalvarıram, toxunma gəl.
Yaxınlaşma öz Cenninin
Bədəninə, ey mehriban!
Dəymə cansız dodaqlara,
İzlə onu uzaqlardan.

Sonra tərk et sən bu kəndi
Çıx get burdan başqa yerə.
Bir yerə ki, dərdli könlün
Rast gəlməsin sitəmlərə.
Qurtaranda müdhiş yazar
Gəl qəbrimi et ziyarət.
Cenni isə Edmondunu
Göylərdə də atmaz əlbət.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sədr

Dalğın Meri, qəmli nəğmələrinçin
Təşəkkür edirik sənə biz dərin!
Görünür sizin də bir vaxt, bir zaman
Dərin dərələrdən, yaşıl dağlardan
Bu cürə bir taun etmişdir səfər.
Doğma torpağının o cənnət qədər
Səfalı qoynundan süzülərək şən,
Ağır karvan kimi yol alıb keçən
Çayların, suların sahillərindən
Bu cür iniltilər yüksəlmiş göyə.

İgid oğulların, gözəl canların
Qurban getdikləri o kədərli il
Bu gün, nəğməsində gənc çobanların
Sönük xatirədir, başqa şey deyil.
Yox, yox! Bu şadlıqlar zamanı, inan
Yaralı bir qəlbin içindən qopan
Həzin nəvalar tək başqa bir nida,
Qəmləndirə bilməz bizi dünyada!

Meri

Ah, oxuyaydım uzaqda bir an
Kaş, ata-anamın öz komasından
Onlar zövq alardı səsimdən mənim.
Mənə elə gəlir, bu nəğmələrim
Doğma yuvamızda səslənir indi.
O zaman avazım daha şirindi.
Günahsız bir səsdi, səsim o dəmlər…

Luiza

İndi dəbdən düşüb belə nəğmələr
Sadəlövh qəlblilər, lakin yenə var.
Ağlayan qadını dinlərkən onlar



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yumşalır qəlbləri göz yaşlarından.
Sözsüz inanırlar onlara hər an.
Meri də düşünür, yaş dolu gözlər
Daha munis olur daha da dilbər
Bilsəydi belədir gülüşü, hər an
Təbəssüm edərdi yəqin durmadan.
Şimalın çığırğan, qızını burda
Tərifə başladı Valsinqam. O da
İnlədi. Sevmirəm, düzü, bu sarı
Kəhrəbaya bənzər qalın saçları.

Sədr

Durun, təkər səsi eşidirəm mən!

(*Ölü cəsədləri ilə dolu bir araba keçir.
Arabanı bir zənci sürür.*)

Aha! Luizanın halı deyəsən
Pisləşdi; bayaqkı danışığından
Mən düşündüm onda kişi qəlbi var.
Demə ki, o incə, zəif, natəvan
Ürəkdə yaşarmış böyük qorxular.
Su çilə üzünə, Meri! Sovuşar.
Ayıldı...

Meri

Bəlalı başıma qəmxar,
Qalx gəl sinəm üstə...

Luiza

(*ayılır*)

Qorxunc Demonun
Xəyalı yuxuma gəlmişdi. Onun
Görkəmi qapqara, gözü ağ idi.
Öz arabasına məni çağırdı.
Gördüm arabada çoxlu ölü var.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qorxunc, əcaib söz danışırdılar.
Bu bir yuxudumu? Gördüm indi mən
Yoxsa arabaydı küçədən keçən?..

Gənc

Yaxşı bəsdir, şənlən, Luiza bircə!
Hərçənd, ölümdən qorunmaq üçün
Sakit bir sığınaq olan bu küçə
Qurmuş təntənəli böyük bir işrət.
Onu poza bilməz heç bir şey; fəqət
Gördüyün o qorxunc araba ki var
Hər yerdən keçməyə almış ixtiyar.
Kimsə kəsə bilməz onun yolunu
Biz də buraxmağa borcluyuq onu
Sən də, ey Valsinqam, yubanma barı
Ürəkgetmələri, qəmi, qubarı
Qov, oxuyub azad, canlı bir nəğmə,
Son ver höcətlərə, kədərə, qəmə
Gəlməsin qoy ondan şotland nəfəsi
Oxu, odlu, coşqun işrət nəğməsi!
Oxu, meydən doğan təranələrdən.

Sədr

Onlardan bilmirəm, lakin sizə mən
Taun haqqında himn oxuyam, burax!
Yazdım keçən gecə, biz ayrılaraq
Gedəndə. Ömrümdə ilk dəfə, budur
Məndə söz qoşmağa həvəs doğmuşdur.
Səsim batmışsa da bu günlər fəqət
Belə bir nəğməyçin yarayır əlbət.

Hamı

Taun haqqında himn! Gözəldir, başla!
Taun haqqında himn! Mərhəba, yaşa!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

## Sədr

Nə zaman ki, qüdrətli qış, heybətli qış
*Bir rəhbər tək, komandan tək verib əmr*
Öz saçı ağ, saqqalı ağ, buz bağlamış
Qoşununu, üstümüzə doğru çəkir;
Çatırlayır buxarılar yanır bütün
Çox şən olur işrətləri qış gününün.

İndisə, bax, taun adlı heybətli çar –
*Qoşununu çəkib, alıb üstümüzü.*
O baxdıqca, seyr etdikcə öz məhsuldar
Zəmisini, lovğalanır, gülür gözü.
Qəbir qazan külüngüylə qapıları
Döyür, döyür. Nə etməli, deyin barı?

Dəcəl qışdan, zalım qışdan gizlənək.
Gəl dolduraq qədəhləri, od yandıraq
Qoy qərq olsun şüurumuz şadlıqlara,
*Qızışdırıb məclisləri, sonra duraq*
Alqış deyək taun adlı hökmdara!
Həm qorxulu uçurumlarda, dəryalarda,
Acı səmum yellərinin qaranlıqda, dalğalarda,
Həm taunun zəhər dolu nəfəsində,
Hamısında döyüş, qovqa ruhu yaşar,
Hamısında mübarizə nəşəsi var.

Fəlakətə səbəb olan bütün şeylər
Anlaşılmaz həzz doğurur qəlbdə dərin.
Ah, bəlkə də bu həzlər, bu nəşələr
Bir rəhnidir, sübutdur ölməzliyini.
Xoşbəxt isə, bax, bu həzzi duyanlardır.
Bu nəşəyə vaqif olan insanlardır.

Alqış taun! Görkəmindən qorxmuruq biz!
Qorxutmayır həm qaranlıq məzar bizi.
Bu gün qızılgülə bənzər gözəl bir qız



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Milli Kitabxana

Nəfəsiylə dolduraraq badəmizi
Nuş edirik sevə-sevə gülə-gülə,
Bu nəfəsdən zəhər saçsa taun belə.

(*Qoca bir keşiş gəlir.*)

Keşiş

Bu necə məclisdir. Kafir dəlilər!
Bu ətrafı saran acı, mükəddər
Dəhşətli sükutu, işrət qurub siz
Pozğun nəğmələrlə titrədirsiniz.
Bu qorxunc matəmin içində ancaq
Mən lal məzarlıqda tək dolaşaraq,
Dua oxuyuram müqəddəs, təmiz,
Sizinsə bu mənfur sevincləriniz
Pozur qəbirlərin sükutunu, bax.
Titrəyir məzarlar üstündə torpaq.
Hərgah qocaların ibadət səsi,
Ağlar qadınların qəm təranəsi
Bütün sarmasaydı ətrafı, onda
Deyərdim cəhənnəm qaranlığında
Toplaşıb bir yerə cinlər, gülərək
Alçaq bir kafirə vurular kötək.
İncidib məhv olmuş, yaman ruhunu
Zülmət qaranlığa çəkirlər onu.

Səslər

Bir gör cəhənnəmdən danışır necə?!
Düzəl öz yoluna, qoy çıx get, qoca!

Keşiş

Sizi and verirəm o xilaskarın
Müqəddəs canına, bəsdir, qurtarın!
Əgər itirilmiş sevgili, əziz



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ruhları göylərdə arayaraq siz
Tapmaq istəsəniz, eyş işrəti,
Günahlarla dolu bu ziyafəti
Kəsin, evinizə qayıdın hamı!

S ə d r

Evimiz fəlakət, qəm içindədir.
Gəncliyin qüvvəti sevincindədir.
Evlərdə qəm-qüssə basır adamı!

K e ş i ş

Sənmisən Valsinqam! Bu sözlər nədir.
O, sən deyilmidin üç həftə qabaq
Qəm-qüssə əlində olub bir əsir,
Ananın meyitini qucaqlayaraq,
Acı göz yaşları töküb ağlayan?
Yoxsa düşünürsən, o, qoca anan
Bu pozğun məclisdə oxuduqca sən,
Müqəddəs dualar, ahlar içindən
Eşidib duyduqca sənin səsini
Ucaltmır qəlbinin qəm nəğməsini?
Baxıb eyş-işrət quran oğluna
Göylərdən ağlamır o yana-yana?!
Dur, qalx, dalımca gəl!

S ə d r

De, hər dəfə sən
Təşvişə salırsan könlümü nədən,
Mən getməməliyəm bu yerdən, qoca
Mən gedə bilmərəm sənin dalınca.
Bu məclis qəlbimin əziz yurdudur.
Məni bu yerlərdən saxlayan, ələm
Ümidsiz ürəyim, qorxunc xatirəm
Bir də işlərimdir – qanundan kənar,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Sonrasa evimiz – bomboş otaqlar.
O dəhşət gətirən boşluqda, inan
Təhəmmül gətirib, dayanmaz insan.
Bu coşqun şadlığın yenilikləri,
Dolu qədəhlərin şirin zəhəri,
Bir də ki, bir də ki, ölsə də lakin
Yenə əziz olan bir xoş xilqətin
Nəvazişləridir məni saxlayan,
Hissimi, ruhumu bura bağlayan.
Məni qurtarmaqçın, düzünü bilsən,
Etdiyin səydən çox razıyam mən.
Lakin gecikmisən, əbəsdir, əbəs!
Məni bu məclisdən qopara bilməz
Anamın kölgəsi gəlsə də heç vaxt.
Səni təqib edən alçaqdır, alçaq!
Özün öz xoşundan buranı tərk et!
Get qoca, get qoca, yubanma, çıx get!

Bir çoxları

Hörmətli sədrimiz çox yaşa, var ol!
Qoca! Sözü burax, çıx get, kənar ol!

Keşiş

Valsinqam, Valsinqam, dinlə bir məni!
Matildanın ruhu çağırır səni!

Sədr

(*qalxır*)

Solğun əllərini uca göylərə
Qaldırıb, ey qoca, bu gün son kərə
And iç ki, məzarda əbədi yatan
Bu adı sən rahat buraxacaqsan.
Ah, onun ölümsüz nəzərlərindən
Gizləyə bilsəydim bu səhnəni mən!..



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, zənn eləyirdi məni bir zaman
Çox azad və təmiz, məğrur bir insan.
Mənimlə qaçardı kədəri, dərdi.
Mənim ağuşumu cənnət bilərdi.
İndi soruşma gəl o əziz adı!
Sən, ey bu dünyanın qüdsi övladı!
Elə bir diyara getmisən ki, sən
Bu günahkar ruhum açsa da yelkən
Sənə çata bilməz...

Qadın səsi

O dəlidir, bax!
Ölmüş qadınından söhbət açaraq,
Sayıqlayır.

Keşiş

Gedək, gedək.

Sədr

Ata, ah!
Məni tərk elə, get, durma, sən Allah.

Keşiş

Allah kömək olsun!

Bağışla, oğlum!

*Keşiş gedir. İşrət davam edir. Sədr dərin düşüncələr içində qalır.*

*1830*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

# SU PƏRİSİ

## DNEPR ÇAYININ SAHİLİ. DƏYİRMAN

Dəyirmançı və onun qızı

Dəyirmançı

A qızlar, təəssüflə desək düzünü,
Doğrudan-doğruya siz axmaqsınız.
Nəcib, aliconab, görkəmli bir şəxs
Sizin yanınıza gəldimi dərhal
Onu bənd etməyə çalışırsınız.
Nə ilə: əxlaqla, bir də şüurla;
Gah ciddi görünmək, gah da mehriban
Sonra yavaş-yavaş, eyhamla bəzən
Toy haqda danışmaq... Yaxşısı budur
Qızlıq namusunu, öz xəzinəni
Hifz edə biləsən, o da söz kimi,
Yerindən qopdumu geri qayıtmaz.
Gördün toy söhbəti ümidli deyil
Onda heç olmasa özünə, ya da
Qohum-qardaşına mənfəət axtar!
Düşünmək lazımdır: "o məni hər an
Sevib nəvazişlə saxlayan deyil",
Əlbəttə saxlamaz, siz qızlar ki var,
Əsla nəfinizi düşünməzsiniz.
Dərhal başınızdan çıxır ağlınız.
Sizə şirin gələn, şıltaqlıq edən
Əziz dostunuzun könlünü tezcə
Almaq xatirinə bütün gün onun
Boynundan sarmaşıb asılırsınız.
Lakin sizin əziz dostcuğazınız
Hanı heç izi də qalmamış indi,
Əliniz boşdadır; sizin hamınız
Tamam axmaqsınız! Vaxtında yüz yol
Qızım dəli olma, ağılsız olma,



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yazıqsan, özünü bədbəxt eləmə –
Knyaza üz vermə – demədim məgər?
Axırda nə oldu, əlindən çıxan
Geri qayıtmağı mümkün olmayan
Qızlıq şərəfinə, qızlıq adına
Bütün ömrün boyu oturub ağla.

Qız

Niyə zənn edirsən məni buraxmış?

Dəyirmançı

Niyəsi yoxdur ki, o, hər həftədə
Bizim dəyirmana bir neçə dəfə
Sürərdi atını, yox həftədə, yox,
Allahın ver günü bizə gələrdi.
Bəzən də bir gündə iki-üç dəfə
Gələr, görüşərdi; lakin sonralar
Soyudu, indi, bax doqquzuncu gün
Tamamdır, biz onu görə bilmirik.
Yenə sözün varmı?

Qız

Məşğuldur, az deyil dərdi, azarı,
Knyaz dəyirmançı deyil ki, onun
Əvəzində axar çaylar işləsin.
Həmişə deyir ki, "Mənim işlərim
Ağırdır, çətindir bütün işlərdən".

Dəyirmançı

Sən də inanırsan, bir de knyazlar
Nə vaxt zəhmət çəkir? Onların işi –
Tülkü, dovşan qırmaq, ziyafət vermək,
Qonşunu incitmək, bir də sizi –



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Ağılsız qızları yoldan çıxarmaq,
Canım çıxsın, guya knyazın özü,
Mənim əvəzimdə – su işləyirmiş…
Lakin, nə gündüzüm nə də gecəm var.
Dəyirman köhnəlib, düşüb tutardan –
Orası-burası yamanmalıdır,
Bir yeri çürükdür, bir yerindən su
Vur ha axıb gedir. Hərgah knyazdan
Dəyirmanı təmir eləmək üçün
Pul ala bilsəydin, yaxşı olardı.

Q ı z

Qulaq ver, səs gəlir, atlıdır, odur…

D ə y i r m a n ç ı

Qızım, bax, unutma məsləhətimi!

Q ı z

Knyazdır, özüdür!

*(Knyaz daxil olur, mehtərbaşı onun atını çəkir.)*

K n y a z

Əziz dost, salam!
Salam dəyirmançı!

D ə y i r m a n ç ı

Möhtərəm knyaz!
Xoş, o parlaq gözlərini biz
Çoxdandır görmürük, gedim səninçin
Yemək hazırlayım – tədarük görüm!..

*(Gedir)*



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız

Ah, sən xatırladın nəhayət məni…
Bu qədər incitmək, müntəzir etmək,
Mənə əzab vermək eyib deyilmi?
Uf, nələr gəlmədi ağlıma, nələr?
Özümü hansı boş vahimələrlə,
Qara fikirlərlə qorxutmadım mən?
Gah dedim – at səni nohura saldı;
Ya da ki, uçurdu. Gah dedim – qalın
Meşədə ayılar həlak elədi.
Ya da xəstələndin, ya da ki, məni
Nədənsə sevmədin, bir yolluq atdın.
Lakin, çox şükürlər, salamat gəldin.
Yenə qabaqki tək məni sevirsən,
De, elə deyilmi?

Knyaz

Mələyim, şəksiz!
Həmişəkindən də artıq sevirəm.

Qız

Ancaq kədərlisən, nə olub, nə var?

Knyaz

Mənmi kədərliyəm? Yox yanılırsan.
Sənə elə gəlir.

Qız

Yox, şad olanda
Uzaqdan üstümə qoşub gələrdin –
"Hanı göyərçinim, necədir kefi?"
Deyər tez öpərdin məni görəndə.



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

"Söylə, açıldımı bir az ürəyin?
De çoxmu gözlədin?" deyirdin… indi,
Məni dinləyirsən dinməz, söyləməz. Öpmədin,
boynumdan qucaqlamadın,
Nə olub deyə sən həyəcanlısan?
De, bəlkə acığın tutubdur mənə?

Knyaz

Nə üçün boş yerə aldadım səni
Haqlısan, dərdim var, ürəyimdə çox,
Böyük dərddir, onu məhəbbətlə,
Nə xoş nəvazişlə azalda bilər,
Nə də ki, sən ona şərik olarsan.

Qız

Bu sirri mənə de, çox ağır olar
Sənin bu dərdinə şərik olmasam.
Ürəkdən ağlaram icazə versən,
Mükəddər etmərəm izin verməsən.

Knyaz

Nə üçün deməyim, bu sirri, əgər
Tez desəm daha da əzabsız olar,
Mənim əziz dostum, bilirsən ki, sən.
Əbədi xoşbəxtlik yoxdur dünyada.
Nə əsl nəcabət, nə də gözəllik,
Nə qüvvət, nə dövlət bu fəlakətin
Qarşısını əsla ala bilməyir.
Mənim göyərçinim, belə imişsə
Əlimizdə nə var, nə edə billik?
Nə qədər şad idik, bəxtiyar idik…
Səninlə, sənin saf məhəbbətinlə
Özümü hər zaman xoşbəxt sanırdım.
İnan ki, mələyim, tufana düşsəm



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Yenə xatırımdan çıxmayacaqsan.
Bilirəm dünyada heç bir nemətlə
Mənim itirdiyim əvəz edilməz.

Qız

Hələ sözlərini başa düşürəm,
Fəqət, mənim üçün dəhşətli gəlir.
Bizim taleyimiz təhlükəlidir.
O bizi israrlı dərdə salacaq…
Bəlkə o hicrandır?

Knyaz

Yaxşı tapmısan!
Bizə hicran yazdı taleyin əli…

Qız

Kim ayıra bilər bizi, söylə, kim?
Məgər mən hər zaman sənin izincə,
Arxanca getməyə qadir deyiləm?
Əynimə oğlan paltarı geyər,
Səfərdə, yürüşdə, müharibədə
Sənə sədaqətlə xidmət elərəm.
Ölümdən qorxum yox, sən olan yerdə.
Yox, yox, inanmıram, bu zarafatdır;
Yəqin söz alırsan mənim dilimdən…

Knyaz

Yox, bu gün zarafat girmir başıma.
Dilindən söz almaq nəyə gərəkdir.
Başımda nə səfər, nə müharibə
Nə də ki, bir yana getmək fikri var;
Lakin, biz əbədi ayrılmalıyıq!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Qız

Dayan, aydın oldu bu sirlər mənə
Sən arvad alırsan?

(*Knyaz bir müddət dinmir*)

Knyaz

Necə edim bəs?
Əzizim, bir düşün, knyazlar ki var
Bizim qızlar kimi sərbəst deyillər,
Ala bilməyirlər, sevdiklərini –
Özgənin fikrinə, xeyrinə görə
Almalı olurlar başqalarını.
Əhvalat belədir... Dərdini Allah
Bir də zaman özü unutduracaq!
Məni unutma!.. Al, yadigar olsun
Bu boyun muncuğu, bu boyunbağı,
Qoy salım boynuna öz əllərimlə;
Bunu da atana vəd etmişdim, al!

(*İçində qızıl olan kisəni qıza verir.*)

Əlvida, mələyim!

Qız

Dayan, sözüm var;
Unutdum nə idi...

Knyaz

Düşün, xatırla!

Qız

Hazıram, hər şeydən keçəm sən üçün.
Yox, bunu demirəm, indi sən məni
Atırsan, eləmi? Bu ola bilməz!



Created with
nitro PDF professional
download the free trial online at nitropdf.com/professional

Yox, yox, bunu demək istəməyirdim.
Hə, yadıma düşdü, bu gün bətnimdə
Uşağın tərpəndi...

Knyaz

Bədbəxt, nə etmək?..
Heç olmasa onun xatiri üçün
Özünü hər dərddən gözləməlisən.
İnan ki nə səni, nə də uşağı
Tərk edən deyiləm, bəlkə sonralar
Sizi görmək üçün buraya gəldim;
Azca təsəlli tap, özünü sıxma!
İzin ver, son dəfə öpüm üzündən.

(*Gedərək*)

Uf... Deyən, ürəyim azca dincəlir,
Tufan gözləyirdim, xata sovuşdu.

(*Gedir, qız hərəkətsiz qalır.*)

Dəyirmançı

(*daxil olur*)

Əgər, dəyirmana zəhmət çəksəydin
Yaxşı olmazdımı... Bəs knyaz hanı?
Pəh, pəh... Bağlança, bax, qiymətli daşlar,
Boyun muncuqları nə pıçıldaşır...
Doğrudan layiqli hədiyyələridir.
Knyaz gör nə qədər mərhəmətlidir.
Bu kisəcik nədir? Pul deyil ki, de!
Niyə dinməyirsən, cavab versənə?
Bəlkə sən bunu gözləməyirdin,
İndi şadlığından nitqin tutulub,
Yoxsa ki, çıxmışdır huşun başından?
İndi şadlığından nitqin tutulub,
Yoxsa ki, çıxmışdır huşun başından?



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q ı z

Yox, yox, inanmıram, bu ola bilməz!
Mən onu nə qədər sevirdim... Ancaq
O, yırtıcıdır, ya daş ürəkli.

D ə y i r m a n ç ı

Sən kimi deyirsən?

Q ı z

Mehriban ata,
Ona qəzəblənim, bu necə olar?
Özün fikir elə, bircə həftədə
Mənim gözəlliyim yoxamı çıxdı?
Zəhər içirdilər bəlkə yazığa?

D ə y i r m a n ç ı

Nə olub?

Q ı z

Atacan, o sürüb gedir;
Ağılsızlıq edib, onu buraxdım.
Heyf, ətəyindən yapışmadım mən;
Asılıb atının cilovundan kaş
Əldən qoymayaydım; əgər acıqla
Kəsəydi dirsəkdən əllərimi o
Öz atını sürüb ayaqlasaydı
Yenə darılmazdım.

D ə y i r m a n ç ı

Sayıqlayırsan.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Q ı z

Ata, bilirsənmi. Bütün knyazlar
Bizim qızlar kimi sərbəst deyillər,
Ala bilməyirlər sevdiklərini.
Lakin, o knyazlar and-aman etmək,
Qızları aldadıb yoldan çıxarmaq –
Yalan danışmaqda çox sərbəstdirlər: –
Səni sarayıma, öz otağıma
Dəvət edəcəyəm, qırmızı məxmər,
Qırmızı zərxara… Hər nə istəsən
Qurbandır gey, bəzən… Bəli, knyazlar
Gecə yarısında birdən fit verib
Yataqdan biz yazıq, bədbəxt qızları
Çölə çağırmaqda, dilə tutmaqda,
Oturub yanında dəyirmanın, düz
Xoruz banına söhbət etməkdə
Tamam sərbəstdirlər, Lakin nə zaman
Onların ürəyi təskinlik tapır,
Donub buza dönür ehtirasları
Deyirlər: əlvida! Göyərçinim, get!
Haraya istəsən, hər kimi sevsən
Sərbəst gedə bilər, sevə bilərsən.

D ə y i r m a n ç ı

İşlər belə imiş…

Q ı z

Yaxşı, de, onun
İstədiyi kimdir? Sevdiyi kimdir,
Məni kimə satdı? Onu, biləcək
Tutub deyəcəyəm: – Cani qadın, tez
Knyazdan uzaqlaş! Yaxşı bilirsən
İki həris, güclü, dişi canavar
Kiçik bir çuxurda yerləşə bilməz!



Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

Dəyirmançı

Ay axmaq, birini almaq istəsə
Kim gəlib knyaza mane olacaq?
İşlər məlum oldu, sənə çox dedim…

Qız

O hələ, hörmətli bir adam kimi
Mənimlə görüşüb vidalaşdı da;
Belə hədiyyələr, pullar da verdi –
Bununla özünü satın aldı o.
Cavan arvadının qulaqlarına
Gedib yaman söz-gap çatmasın deyə
Məni dilə tutdu… Hə, unutmuşdum,
Qızını üstündə yaxşı durmadın
Knyazla sərbəstcə gəzməyə qoydun –
Yaxşı adam oldun – ona görə də
Mənim məhvim sənin mənfəətindir.

Ata

(*Göz yaşları tökərək*)

Gör mənim başıma axır nə gəldi?
Allah, nə eşidir mənim qulağım?
Mənə töhmət edib günaha batma!
Ömrümün bu düşkün, ixtiyar çağı
Dünyada gözümün ağı, qarası
Yeganə təsəllim, fərəhim sənsən,
Yaxşı, özün düşün, necə olar ki,
Mən səni sevməyim, əzizləməyim?..
Demək, mən atalıq vəzifəsini
Edə bilməmişəm, odur ki, Allah
Mənə belə ağır cəzalar verir…

Qız

Uf… Darıxıram, soyuq, buz tək bir ilan
Mənim boğazıma sarılmış, budur.



Created with nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

O, mənim boynuma mirvari deyil,
Bir ilan doladı.

(*Yaxasından mirvariləri qoparır.*)

D ə y i r m a n ç ı

Yadında saxla!..

Q ı z

Ax, məni hicrana salan ilan, ax!..
Bil ki, parça-parça edərdim səni...

D ə y i r m a n ç ı

Qızım, həqiqətən sayıqlayırsan.

Q ı z

(*Boyunbağını boğazından açır*)

Mənim də başımın çələngi budur –
Biabırçılığın çirkin çələngi!
Üstündə əsdiyin hər şey əlimdən
Gör nə üçün getdi, bu çələng üçün!
Bununla aldatdı hiyləgər düşmən
Ey mənim çələngim, parçalan! Çürü!
Biz daha ayrıldıq!

(*Boyunbağını Dnepr çayına atır*)

Hər bir şey bitdi!..

(*Çaya atılır*)

Q o c a

(*yerə yıxılaraq*)

Uf!.. Fəlakət!..



Created with
nitroPDF® professional
download the free trial online at nitropdf.com/professional